AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

Əkrəm Rəhimli (Bije)



# 21 Azərə gedən yol

*Güney Azərbaycanda milli-demokratik hərəkat*
*(1941-1946-cı illər)*

Bakı-2015

**Elmi redaktorlar:** **Şahin Mustafayev,**
*tarix elmləri doktoru, professor,*
*AMEA-nın müxbir üzvü*

**Səməd Bayramzadə,**
*tarix elmləri üzrə fəlsəfə doktoru*

**Əkrəm Rəhimli (Bije). 21 Azərə gedən yol**
*Güney Azərbaycanda milli-demokratik hərəkat*
*(1941-1946-cı illər).* Bakı, "Araz" nəşriyyatı, 2015, 240 s.

*Oxuculara təqdim olunan kitabda 1941-1946-cı illərdə Güney Azərbaycandakı milli-demokratik hərəkatdan bəhs olunur. Bakı, Tehran, Vankuver (Kanada) şəhərlərindəki çapından sonra oxuculara təqdim olunan hazırkı kitab həmin kitabın IV, yenidən işlənmiş nəşridir. Kitabda 21 Azərə gedən mübarizə yolu tədqiq və təhlil edilir. Oxucu kitabda keçən yüzilliyin 40-cı illərində Güney Azərbaycandakı sosial, siyasi, iqtisadi və mədəni durum və olayların məzmun və mahiyyəti, 21 Azərin qələbəsi nəticəsində yaradılmış Azərbaycan Milli Hökumətinin fəaliyyəti ilə tanış olacaqdır.*

*Kitabda Azərbaycan Milli Hökumətinin süqutunun səbəbləri, irticanın yenidən baş qaldırması və şah rejiminin qanlı olayları ilkin mənbələrdəki faktlar və sənədlər əsasında təqdim edilir.*

**İSBN 978-9952-8285-2-8**

©AMEA Şərqşünaslıq İnstitutu, 2015



***«Xalqın hər bir günü tarixdə öz yerini tutmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir, nə cür olur-olsun.»***

***Heydər ƏLİYEV***

# Ön söz

Güney Azərbaycandakı 1941-1946-cı illər milli-demokratik hərəkatından və bu hərəkatın zirvəsi sayılan 21 Azər inqilabından (nehzətindən) 70 ilə yaxın vaxt keçir. Bu müddət ərzində İranda, eləcə də beynəlxalq aləmdə bir sıra mühüm dəyişikliklər baş vermişdir. İranda şahlıq üsuli-idarəsi, keçmiş SSRİ-də isə «məğlubedilməz» Sovet İmperiyası ömrünü başa vurmuş, hər iki sistem dağılaraq tarixin arxivinə verilmişdir. İranda Pəhləvi sülaləsi dövründə, keçmiş SSRİ-də isə Sovetlər zamanında bir sıra məsələlərin, o cümlədən arxiv sənədlərində mövcud olan fakt və məlumatların istifadəsi və yazılmasına yasaq qoyulduğundan bu mövzu da qapalı saxlanılmışdır. Müstəqilliyimizdən sonra yaranmış şərait bizə 40-cı illərdə Güneydəki xalq hərəkatını işıqlandırmaq və həqiqətləri olduğu kimi oxuculara çatdırmaq imkanı verir.

1941-1946-cı illərdə Güney Azərbaycandakı olaylarla bağlı Firqə arxivindəki materialların, o cümlədən, S.C.Pişəvərinin əsər, məqalə və xatirələrinin, eləcə də İran, Türkiyə, Azərbaycan və onun sərhədlərindən kənarda yazılmış çoxsaylı əsərlərdə mövcud olan faktların və arxivlərdə saxlanılan sənədlərin bir qisminin işıq üzü görməsi 1941-1946-cı illərdə Güneydəki olaylara – 21 Azər mövzusuna, Azərbaycan Milli Hökuməti ilə bağlı məsələlərə yenidən qayıtmaq zərurəti yaradır. Bu baxımdan müəllifin mütaliə, tədqiqat və axtarışlarının nəticəsi olan bu kitabda heç bir ideoloji cərəyana meyil etmədən 70 il bundan əvvəl Güneydə baş vermiş hadisələrin obyektiv şəkildə oxucuya çatdırılmasına cəhd olunur.

Məlum olduğu kimi, 40-cı illərin ilk yarısında Güneydəki xalq hərəkatı, Azərbaycan Demokrat Firqəsi, 21 Azər, Milli Hökumətlə bağlı kitablar, tədqiqatlar, məqalələr, xatirələr və arxiv sənədləri həm İranda, həm də onun hüdudlarından kənarda çap olunmuşdur.[1] Bunların bir çoxu dövrün və rejimlərin ruhuna uyğun yazıldığından, onlardakı faktlar və şərhlər çox vaxt obyektiv məzmundan uzaq olmuş, bəzən də real düşünən müəlliflərə həqiqətləri olduğu kimi yazmağa imkan verilməmişdir. 1978-1979-cu il İran inqilabına qədər bu ölkədə çap olunmuş kitab və məqalələrdə şah rejiminin Güney Azərbaycandakı ayrı-seçkilik əməllərin, törətdiyi cinayətlərin, günahsız qətllərin, həbs və sürgünlərin üzərindən ya sükutla keçilmiş, ya da olaylara bilərəkdən başqa rəng verilmişdir. Hər şey rejimin senzurası altında olduğundan Azərbaycandakı hadisələrlə bağlı məsələlər birtərəfli şərh edilmiş, şahənşah qoşununun 1946-cı ilin noyabr-dekabr aylarında Azərbaycana hücumuna və törədilmiş qanlı hadisələrə bəraət qazandırmağa cəhd olunmuşdur. Bunun üçün qondarma və yalan uydurmalar («təcziyə tələblik» – separatçılıq – Allahsız bolşeviklərə satılma və s.) ortaya atılmış, həqiqətlər bilərəkdən təhrif olunmuşdur.

Şahlıq rejiminin devrilməsi və dövlət senzurasının bir qədər yumşaldılması ilə son illərdə İranda çap edilmiş əsərlərdə, məqalələrdə, müsahibə və xatirələrdə 1941-1946-cı illərdə Güney Azərbaycandakı milli-demokratik hərəkat və muxtariyyət tələbi haqqında bir sıra həqiqətlər yazılır və etiraf edilir. Bu baxımdan azərbaycanlı ziyalıların (eləcə də tələbələrin) təşəbbüsü ilə çap

[1]Kitabda onların çoxuna müraciət olunduğundan adların təkrarına ehtiyac görülmür.

olunan mətbuatın xidməti xüsusi qeyd edilməlidir. «Tribun», «Varlıq», «Səhər», «Yol», «Öyrənci», «Savalan», «Çağrı», «Səhənd», «Çiçək», «Xəzər» və s., xaricdə çap olunan «Tribun», «21 Azər», «Azərbaycan», «İldırım», «Araz», «Günəş», «Azərbaycanın səsi», «Kimlik» və s. Kimi jurnalların, eləcə də Təbrizdə, Urmiyada, Ərdəbildə, Zənganda, Həmədanda və digər Azərbaycan şəhərlərində çap olunan anadilli qəzetlərin bu sahədəki fəaliyyəti önəmlidir. Onların səhifələrində vaxtaşırı gedən məqalələr, xatirələr və müsahibələr 21 Azər hərəkatı, Azərbaycan Milli Hökuməti ilə bağlı bir sıra mübahisəli, kölgəli və qaranlıq məsələlərin işıqlandırılmasında dəyərli xidmət göstərmişdir. Bundan başqa, Məmmədrza şahın dostu olmuş və onun xəfiyyə orqanında işləmiş Hüseyn Fərdustun, atası 40-cı illərdə Təbrizdəki ABŞ konsulunun müavini vəzifəsində çalışmış amerikalı Robert Rossonun, Hüseyn Əlizadənin (Barış Mərəndli), 1945-ci ildə Təbrizdəki hərbi qornizonun baş komandanı, general Ələkbər Deraxşaninin, İran Xalq Partiyasının keçmiş sədri Nurəddin Keyannurinin, Əsəd Müstəfinin, «Dad» qəzetinin baş redaktoru Əbülhəsən Ümid Nurinin, eləcə də 21 Azər hərəkatının iştirakçıları və hadisələrin canlı şahidi olmuş Balaş Azəroğlunun, Əmrəli Lahrudinin, Nüsrətulla Cahanşahlunun, Ehsan Təbərinin, Həmid Mollazadənin, Əyyub Nəmininin, Əbülfəz Haşiminin çap olunmuş xatirələrində və yazılarında 21 Azərlə bağlı həqiqətə söykənən xeyli material vardır. Milli Hökumətdə daxili işlər naziri (vəziri), sonra isə qısa müddət ərzində Azərbaycan valisi (ostandarı) olmuş doktor Salamulla Cavidin xatirələrində və əlyazmalarında bir çox qaranlıq və mübahisəli məsələlər aydınlaşdırılır.

Güney Azərbaycanda 1941-1946-cı illərdə baş vermiş hərəkat keçmiş Sovet məkanında hamıdan çox Quzeydəki müəllif-

lərin diqqətini çəkmiş və onların bir çoxu Güneydəki olayları və faciələri qələmə alarkən oradakı kədər və dərdlərlə yaşamalı olmuşlar. Atalar yaxşı deyib: **«Qardaşın ürəyi yanana yadın heç ətəyinin ucu da yanmaz». Mirzə İbrahimov, Cəfər Xəndan, Əvəz Sadıq, Qulam Məmmədli, Həsən Həsənov, Zülfəli İbrahimov, Əlövsət Quliyev, Qılman Musayev, Nüsrət Bağırov və başqaları kitab və yazılarında, Süleyman Rüstəm, Rəsul Rza, Səməd Vurğun, Osman Sarıvəlli, Mirvarid Dilbazi, Məmməd Rahim, Fikrət Sadıq, Fikrət Qoca və digər şairlər öz şeirlərində, Ənvər Məmmədxanlı, Hüseyn Mehdi, İlyas Əfəndiyev dram əsərlərində Güneydə azadlıq istəyən xalqın başına gətirilən faciələri böyük ürək ağrısı və vətəndaşlıq qeyrəti ilə xalqa çatdırmışlar.** Güney Azərbaycandakı siyasi, iqtisadi, sosial və ədəbi-mədəni hərəkat Azərbaycan güneyşünaslığının mühüm tədqiqat obyekti olmuş və olaraq qalır.

Bu sahədə 70-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun tərkibində yaradılmış «Güney Azərbaycan tarixi» şöbəsi əməkdaşlarının, xüsusən Güneydəki xalq hərəkatının fəallarından olmuş M.Çeşmazərin əməyini xüsusi qeyd etməliyik.

Sovet rejimi dövründə Güney Azərbaycana aid yazılar, xüsusən 1941-1946-cı il xalq hərəkatı, 21 Azər və Azərbaycan Milli Hökumətinin fəaliyyəti və məğlubiyyəti ilə bağlı bir çox məsələlərin şərhi o vaxtkı siyasi mühitin çərçivəsindən kənara çıxa bilməmişdir. Buna görə həmin tədqiqatlarda və yazılarda bir sıra məsələlərə: Güney Azərbaycandakı hərəkata Sovetlərin xəyanəti və müdaxiləsi, Güneydə muxtar türk dövlətinin yaradılmasına Stalin-Mikoyan-Beriya dəstəsinin mənfi münasibəti, İran Xalq Partiyasının (Tudə) Azərbaycan Demokrat Firqəsinə və

Azərbaycandakı xalq hərəkatına qısqanc münasibəti və bir çox hallarda qarşı durması, Qəvamülsəltənənin Sovet rəhbərliyi ilə Moskvadakı sövdələşməsinin mahiyyəti, Milli Hökumətin süqutunda neft amilinin rolu və İrana qarşı Sovet ekspansiya niyyətləri, şah qoşunlarının Azərbaycana hücumundan əvvəl hazırlanmış təxribat əməliyyatı, Milli Hökumətin məğlubiyyətinin səbəbləri, taktiki səhvləri və ondan alınan ibrət dərsləri və s. – bu məsələlərə 90-cı illərin əvvəllərinə qədər Sovet ideoloji təzyiqinin nəticələrinə yetərincə cavab verilməmişdi. Son illərdə bu boşluğun doldurulmasında həm Güneydə fəaliyyət göstərən, həm də Azərbaycan Respublikası tarixçilərinin əsər və kitablarında 1941-1946-cı illərdə Güneydəki xalq hərəkatına və onun ayrı-ayrı məsələlərinə işıq salınsa da, bu sahədə tədqiqat və axtarışları davam etdirməyə ehtiyac vardır. Əlbəttə, biz də bu boşluğu tam doldurmaq iddiasında deyilik.

Qeyd etmək lazımdır ki, hər bir arxiv sənədində mövcud olan məlumat və faktlar ayrı-ayrı insanların və məmurların subyektiv fikri, siyasi mühitin təzyiq və təsiri altında ola bilər. Bu səbəbdən onları süzgəcdən keçirmədən ehkam kimi qəbul etmək olmaz. Arxivdə saxlanılan sənədlər bəzən müxtəlif düşüncə tərzinə sahib insanların təfəkkürünün məhsuludur və yuxarı orqanlara verdiyi məlumatdır. Bu yazılarda və verilən məlumatlarda subyektivlikdən irəli gələn yanlışlıqların olması istisna deyildir.

Azərbaycan Demokrat Firqəsi mühacirət dövründə 21 Azərlə, Azərbaycan Milli Hökuməti və onun fəaliyyəti ilə bağlı bir neçə kitab, broşura, bloknot və s. çap etdirmişdi. Firqənin orqanı olan «Azərbaycan» qəzeti, «Azərbaycan», «Səhər» jurnallarının səhifələrində bu problemə müəyyən yer verilmişdir. Bundan əlavə, firqə kitabları seriyasından olan S.C.Pişəvərinin seçilmiş

əsərləri, «21 Azər», «Azadlıq yolunun mübarizləri», «Sənədlər məcmuəsi (1324-1325)», «21 Azər (1324-1325) nehzəti İran milli demokrat hərəkatı tarixinin parlaq səhifəsidir» adlı kitabça, mərhum Lütfəli Ərdəbilinin hazırladığı «Fədailər Azərbaycan xalqının 21 Azər nehzətində» monoqrafiyası və bir sıra digər kitabçalar, xatirələr və broşuralarda 21 Azər hərəkatına, Azərbaycan Milli Hökumətinə və onu həyata keçirdiyi sosial, siyasi, iqtisadi və mədəni tədbirlərə aid bir sıra materiallar verilmişdi. Bu materialların bir çoxunda da dövrün təzyiq və təsiri hiss olunur.

Bu mövzuya həsr edilmiş və dolayısı ilə ondan bəhs edən yazılarda 1941-1946-cı illərdə Güney Azərbaycandakı hərəkata, xüsusən 21 Azərlə bağlı məsələlərə yanaşma birmənalı deyil. Bir sıra tədqiqatlarda, kitab, məqalə və çıxışlarda Güneydəki xalq hərəkatının, o cümlədən, 21 Azərin milli zəmində, milli-demokratik qüvvələrin istəyi və fəal iştirakı ilə baş verdiyi istisnasız olaraq vurğulanır. **Pəhləvilərin zülmünə, rejimin zorakılığına məruz qalmış, milli varlığı tapdalanmış xalq çıxış yolunu və qurtuluşu ayağa qalxıb mübarizəyə qoşulmaqda və zülmkar rejimi yıxmaqda görürdü.** Hərəkatın milli zəmininin hələ məşrutə hərəkatı və Xiyabani dövründən hazırlandığı söylənilir. Hərəkata rəhbərlik edən liderlərin çoxunun ya özü, ya da ata-babaları Səttarxan və Xiyabani hərəkatının iştirakçıları idilər. Onlar Rza şahın zindanlarından, təqib və sürgün düşərgələrindən keçib gəlmiş adamlar olmuşlar. Ağır mübarizə yolu keçmiş bu insanlar hərəkatın təşkilində, mütəşəkkilləşməsində və kütləni mübarizəyə qaldırmaq işində, eləcə də ADF-nin yaradılmasında yetərincə rol oynamışlar. Bunu həm Azərbaycan Demokrat Firqəsinin yaradılmasında, həm də 21 Azər və Milli Hökumət dövründə bir daha aydın görmək olur. Bu konsepsiyanın tərəfdarları

qeyd edirlər ki, hər hansı bir ölkədə baş verən demokratik hərəkat təkcə öz qınına qapanıb qala bilməz. Belə bir tezis mövcuddur ki, «Həqiqi vətənpərvərlərin borcu xaricdən gələn köməkliyi rədd etmək deyil, bəlkə, hansı dövlətdən və nə vaxt kömək almaqdan ibarətdir» (117, s.215). Hər hansı siyasi-ictimai hərəkat zamanı xaricin yardımından yararlanmaq yeni məsələ deyildi. Güney Azərbaycanda və İranda 21 Azərdən əvvəl olmuş hərəkatlarda da (eləcə də beynəlxalq miqyasda) xarici yardımdan istifadə olunmuşdur. Bu haqda Azərbaycan və İran beynəlxalq tarixşünaslığında çoxlu faktlar mövcuddur.

21 Azər hərəkatında xarici hərbi yardım məsələsində də fikirlər haçalanır. Bir qrup müəlliflər, hərəkata rəhbərlik edənlər və iştirakçılar belə hesab edirlər ki, 21 Azərdə fədailərinin istifadə etdikləri silahların çoxu İran ordusuna məxsus, tərk-silah zamanı onların əllərindən alınmış silahlar idi. 1941-ci ilin avqust ayında xarici qüvvələr İrana yeridilərkən məğlubiyyətə və ruh düşkünlüyünə uğramış İran ordusunun (o cümlədən, 3, 4 və 5-ci diviziya) əsgərləri külli miqdarda silahı atıb qaçmışlar. Bu vəziyyətdən istifadə edən xalq toplanmış silahın çox hissəsini sonradan İran dövlətinə təhvil verməmiş və Azərbaycanın bir çox yerlərində (o cümlədən, Ərdəbil, Qaradağ, Marağa, Sərab, Xoy, Urmiya və s.) həmin silahlardan vaxtaşırı olaraq jandarmların tərk-silah olunmasında istifadə etmişlər. 21 Azər inqilabı zamanı tərk-silah edilmiş ordu, jandarm və polis qüvvələrindən alınmış silah və hərbi sursat xalq könüllülərinin (fədailərinin) silahlandırılmasında yetərincə gərəkli olmuşdur.[1] Məsələyə obyektiv

[1]Bu haqda sonrakı səhifələrdə bəhs olunacaq.

yanaşanların bir çoxu 21 Azər hərəkatında Sovet hərbi yardımından da istifadə olunduğunu istisna etmirlər.

Yuxarıdakı yanaşmadan fərqli olaraq, bəzi müəlliflər ADF-nin Moskvanın sifarişi və Bakının əli ilə ancaq Sovet doktrinası əsasında yaradıldığını iddia edib, 21 Azər hərəkatının Sovetlərin istəyi və tələbi ilə baş verdiyini söyləyirlər. Onların fikrincə, 21 Azərin və Azərbaycan Milli Hökumətinin milli zəmini yox idi, o, xaricin – Sovetlərin «resepti» və iştirakı ilə meydana gəlmişdi. 21 Azər, guya, yad əllərin yaratdığı və milli zəminsiz «qondarma» bir hərəkat olmuşdur. Hərəkatda iştirak edənlərin bir çoxu fədai paltarı geymiş Sovet zabit və əsgərləri imiş və s. Əsası olmayan, arqumentsiz söylənilən bu fikirlərin sahibləri, çox təəssüf ki, təkcə İranda və İran hüdudlarından kənarda olanlar deyildi. Bəzən Quzey Azərbaycan müəlliflərinin əsərlərində də bu cür yanlış fikir və mülahizələrə rast gəlmək olur. Əgər silah verməklə, hərbi yardımla istənilən siyasi məqsədə nail olunsaydı, onda Sovetlərin başçılığı altında dünya sosialist sistemi yaşayardı və qəti qələbəyə qovuşmuş olardı. Az silahla böyük qüvvələrin diz çökdürülməsinə aid tarixdə çoxlu faktlar vardır. **Bu o zaman mümkün olur ki, xalqın istəyi və tələbi bir hədəf ətrafında monolitləşir və milli zəmində baş verir. Azadlıq təşnəsi olan, qəlbi, ruhu vətənin nicatı ilə döyünən, tapdalanmış hüququnu bərpa etmək uğurunda hər cür fədakarlığa hazır olan bir millət üçün onun kimdən silah almasından vacib, o silahı əldə saxlamaq və azadlıq üçün ölümə hazır olmaq istəyinin olması gərəkdir. Belə bir istək, belə bir məram 21 Azər hərəkatında Güneydəki soydaşlarımızı ADF-nin ətrafında birləşdirmiş, onlarda qələbəyə və milli qurtuluşa böyük və sarsılmaz inam yaratmışdı.**

İkinci dünya müharibəsi illərində Güneydəki xalq hərəkatına Sovetlərin yardımı və bir çox hallarda hərəkatı istiqamətləndirmək işinə müdaxiləsi danılmazdır. Bundan daha böyük və kəsərli fakt isə yuxarıda qeyd etdiyimiz kimi, hərəkatın əsasında milli azadlığını istəyən xalqın dayanması və hərəkata say-seçmə güneyli şəxsiyyətlərin başçılıq etməsidir.

Güney Azərbaycandakı hərəkata Sovetlərin müdaxiləsi məsələsində həmçinin belə bir cəhət diqqətdən qaçırılmamalıdır ki, 21 Azərə və ondan əvvəlki olaylara Sovetlər tərəfindən göstərilənköməklikdə əsas vasitəçi Quzey Azərbaycan, onun Sovet ordusu sırasında İrana gəlmiş ziyalıları (Əziz Əliyev, Mirzə İbrahimov, Əvəz Sadıq, Cəfər Xəndan, Süleyman Rüstəm, Qulam Məmmədli, Qılman İlkin (Musayev) və s.) və sıravi vətəndaşları olmuşlar. **Onlar vətənin o biri parçasının azadlığını güneylilərdən az istəmirdilər. Belə bir şəraitdə qardaşın doğma qardaşına inanmamağa mənəvi haqqı yox idi. Əslində, fakt və sənədlərin göstərdiyi kimi, 1946-cı ilin aprelinədək Quzey Azərbaycan rəhbərliyi və Güneydəki hərəkatı istiqamətləndirilməsində iştirak edən azərbaycanlıların özləri belə, Stalin-Mikoyan güruhunun gizli hazırladıqları xəyanət və dönüklükdən demək olar ki, xəbərsiz idilər. Moskvanın açıq xəyanətindən və riyakarlığından sonra ona qarşı çıxmaq, müqavimət göstərmək və ya hadisələrin sonrakı istiqamətini dəyişmək o zamankı tarixi şəraitdə mümkün deyildi. Bu o dövrün reallığıdır, onu nəzərə almadan 21 Azərlə bağlı hadisələri obyektiv qiymətləndirmək mümkün deyildir.**

1941-1946-cı illərdə Güney Azərbaycandakı milli-demokratik hərəkat haqqında müəyyən qədər yazılmasına baxmayaraq, bu hərəkat kompleks şəkildə ətraflı tədqiq olunub öyrənilmə-

mişdir. XX əsrin son onilliklərində Sovet İttifaqının çökməsi və İranda şahlıq rejiminin aradan qalxması 1941-1946-cı illərdə Güneydəki xalq hərəkatının real işıqlandırılmasına imkan yaratmışdır. Biz bu imkandan faydalanıb problem üzrə boşluğu qismən də olsa doldurmağa, həqiqətləri üzə çıxartmağa çalışmışıq. Məqsədimiz şanlı keçmişimizlə, 21 Azərə gedən yolla və 21 Azərin mahiyyəti ilə bağlı olayları bir daha gündəmə gətirmək, ictimaiyyətin diqqətini bu mövzuya cəlb etmək və ən başlıcası, gənc nəsli o dövrün olayları ilə tanış etməkdir.

# GÜNEY AZƏRBAYCAN XX ƏSRİN 40-CI İLLƏRİNDƏ:

## 1. II Dünya müharibəsinin başlanması və Güney Azərbaycan

4 sentyabr 1939-cu ildə II Dünya müharibəsi başlandı. Bəşər tarixində miqyasına, iştirakçılarının sayına, hərbi potensialı və dağıdıcı gücünə görə bu müharibə ilə müqayisə oluna biləcək ikinci bir savaş baş verməmişdir.

Müharibə ərəfəsində Rza şah rejiminin Hitler Almaniyası ilə hərtərəfli yaxınlığı, İran ərazisində və dövlət aparatında almanpərəst qüvvələrin kök salması ölkəni müharibəyə cəlb edən mühüm və başlıca amillərdən biri idi. Digər tərəfdən yaranmış şərait genişmiqyaslı döyüşlərin başlanacağı təqdirdə İran kimi hərbi-strateji mövqeyi olan bir ölkənin kənarda qalmasını imkansız edirdi. Rza xan özunu şah elan etdiyi gündən (25 dekabr 1925) Almaniya ilə yaxınlığa güclü meyil göstərirdi. Bunun əsas səbəblərindən biri də Almaniyada «ali irq» nəzəriyyəsinin tədricən əməli işə çevrilməsi ilə bağlı idi. Çünki Rza şah hakimiyyətə keçən gündən farsların «ariya» adlı ali irqə məxsus olduğunu dövlət siyasətinin tərkib hissəsinə daxil etmişdi. O, hakimiyyətinin ilk illərində İran Məclisinin rəisi Daniş Möhtəşəmini (Möhtəşəməlsəltənə) Almaniyaya rəsmi səfərə göndərmiş, Möhtəşəmi Adolf Hitlerlə görüşməyə müvəffəq olmuş, İran-Almaniya münasibətlərində müəyyən istilik yarada bilmişdi. Müharibə başlanan kimi İran dövləti ölkəsinin bitərəfliyi haqqında 13 şəhrivər 1318-ci il tarixli (4 sentyabr 1939-cu il) məlum bəyanatını elan etdi *[152, s. 41]*. Lakin İranın hakim dairələri yaxşı başa

düşürdülər ki, bu cür «bitərəflik»lə müharibəyə qoşulan müttəfiqləri, xüsusən SSRİ-ni İranın səmimiyyətinə inandırmaq mümkün olmayacaqdır. Buna görə də başlanmış müharibədən özünü kənarda saxlamağa cəhd edən İran, əslində, əl altından müharibəyə özünümüdafiə səviyyəsində hazırlaşırdı. Müharibədən sonra Hitler Almaniyasının İranla əlaqələrinə aid dərc olunmuş məxfi sənədlərdə «Uzaq başı ikicə ay İranın müttəfiqlər qarşısında, ilk növbədə ruslar qarşısında duruş gətirə bilməsi ilə hər şeyin sonra İranın xeyrinə qurtaracağı haqqında» alman komandanlığının verdiyi vəd, Rza şahı və onun yüksək rütbəli generalları və yaxın ətrafının bir hissəsini inandırmışdı. Buna görə də müharibənin ilk günlərində İranda hərbi hazırlıq işlərinə başlanıldı. Əslində, bu hərbi hazırlıq işləri başlanmış müharibənin hərbi potensialı müqabilində fillə qarışqanın müqayisəsinə bənzədilə bilərdi. Rza şah ruslar və ingilislərin İrana basqın edəcəyi təqdirdə onların hücumunun qarşısında bir neçə ay tab gətirmək məqsədi ilə müdafiə xəttində geniş hazırlıq işləri aparılmasını və bütün imkanların bu səmtə yönəldilməsini əmr etmişdi. Bu məqsədlə ölkə ərazisinin müxtəlif regionlarında hərbi hazırlığa və qoşunun hərbi manevrinin keçirilməsinə başlandı. Belə manevrlərdən biri də şahın və oğlunun müşayiəti ilə Həmədan ətrafında Fransadan dəvət edilmiş hərbi-ekspert general Jandarın rəhbərliyi altında keçirilirdi. Hərbi manevri bir neçə saat müşahidə edən Rza şah general Jandara yaxınlaşır, əlini onun çiyninə qoyaraq soruşur: «Sizcə, bu ordu nəzərdə tutulan düşmən qarşısında nə qədər tab gətirə bilər?» Sualın cavabında fransalı general bir qədər kədərlə: «Əlahəzrət, cəmi 2 saat!» - deyir. Rza şahın cavabdan pərt olduğunu görən general Jandar təkrar üzünü şaha tutaraq: «Əlahəzrət, mən Sizi məyus etməmək

üçün 2 saat dedim, əslində, heç 2 dəqiqə də tab gətirə bilməz» *[99, s.176]* – cavabını verir. Fransalı hərbi müşavirin söylədiklərindən həqiqi vəziyyəti tədricən anlamağa başlayan Rza şah diplomatik tədbirlərlə də müharibəni İran hüdudlarından uzaqlaşdırmağa və bununla da vaxt qazanmağa çalışırdı.

Rza şah hakimiyyətə gələn gündən fars şovinizmi məfkurəsinə dövlət siyasəti səviyyəsində rəvac vermişdi. Bu məfkurədə farsların ali irqə – «ariya» irqinə mənsubluğu və bu irqin alman irqi ilə qohumluğunun «sübuta» yetirilməsinə cəhd edilirdi. Almanpərəstlikdə ad çıxarmış Mahmud Cəmin bu məqsədlə baş nazir vəzifəsinə gətirilməsi təsadüfi deyildi. Beynəlxalq vəziyyətin gərginləşməsi və müharibə təhlükəsinin İran sərhədlərinə yaxınlaşması ərəfəsində Rza şah bəzi siyasi manevrlərə əl atmışdı. O, əvvəlcə almanpərəstlik səpgisində söz-söhbətə səbəb olmuş Mahmud Cəmi paniranist Əhməd Mətin Dəftərlə əvəz etdi. Bundan əvvəl isə Məclis rəisi Daniş Möhtəşəmolsəltənəni Berlinə, Hitlerlə görüşə göndərmişdi *[209, 4 xordad, 1386].*

Diplomatiya sahəsində görülmüş tədbirlər qızışmaqda olan müharibənin İrana doğru istiqamətini səngidə bilmirdi. İranda almanların müxtəlif sahədə üstün mövqeyi müttəfiqlərə bəlli idi. Müharibə ərəfəsində İranın xarici ticarət dövriyyəsinin 80 faizi almanların payına düşürdü. II Dünya müharibəsi başladığı illərdə İranda istehsal olunan pambığın, quru meyvənin demək olar ki, hamısı Almaniya və Yaponiyaya ixrac olunurdu. İran bazarında və sənaye müəssisələrindəki məhsulların yarıdan çoxu Almaniyadan gətirilirdi. Müttəfiq dövlətlərin tələb və təkidi ilə almanlar ölkədən çıxarılıb və onlara aid müəssisələr fəaliyyətlərini zahirən dayandırsalar da, əslində, almanlar öz işlərini görməkdə davam edirdilər *[99, s. 200].*

1941-ci ilin əvvəllərində Mətin Dəftər baş nazirlikdən uzaqlaşdırıldı[1], onun yerinə zahirən «mötədil» təsir bağışlayan Əli Mənsuri hakimiyyətə gətirildi. Bacarıqlı və olduqca hiyləgər olan Ə.Mənsuri zahirdə İranın bitərəfliyinə aid faktları və hadisələri qabardırdısa, əslində, almanlarla əlaqəni dərin qatlara keçirtməyə çalışırdı. Müttəfiq qohşunlarının İran ərazisinə keçməsi ərəfəsində İran dövləti Moskvadakı səfiri Məhəmməd Saidə, Londondakı səfiri Məhəmmədəli Müqəddəmə və Vaşinqtondakı səfiri Məhəmməd Şayəstəyə xüsusi göstəriş verərək adları çəkilən ölkələrin dövlətlərini İranın bitərəfliyinə inandırmağı tapşırmışdı *[78]*. Rza şah hakimiyyətdən salınmaq ərəfəsində «Ettelaat» qəzetinə verdiyi müsahibədə *[207, VI 1320]* ölkədə vur-tut 690 nəfər almanın olduğunu və bu adamların mütəxəssis və iş adamı olduğunu və yaxın günlərdə onların da İranı tərk edəcəklərini bildirdiyi bir vaxtda, Sovet kəşfiyyatına İranda almanların 5000 nəfərdən çox hərbi ekspertinin və casusunun olduğu bildirilir və onların tezliklə ifşa edilməsi və tutulub SSRİ-yə təhvil verilməsi tələb olunurdu *[99, s.175]*.

Qeyd etmək lazımdır ki, SSRİ Almaniyaya qarşı müharibəyə cəlb edilməzdən əvvəl, 30-cu illərin sonundan İrana, xüsusən Güney Azərbaycana aid külli miqdarda məlumat, hərbi-strateji xarakterli materiallar əldə etmişdi. 1941-ci ilin yanvarında Moskvada 216 səhifədən ibarət «Güney Azərbaycan texniki-iqtisadi icmalı» hazırlanmışdı. Güney Azərbaycana aid sosial-siyasi, iqtisadi, texniki, coğrafi və s. məlumatlar bu icmala daxil edilmişdi *[18],[99]*. Beləliklə, Sovet ordusu İran ərazisinə daxil

[1]Mətin Dəftəri 5 tir 1319-cu ildən 4 şəhrivər 1320-ci Ilədək baş nazir olmuşdur.

olmamışdan xeyli əvvəl bu ölkənin (o cümlədən Güney Azərbaycanın) hərbi-strateji mövqeyi, hərbi potensialı, iqtisadi, siyasi və s. durumu haqqında Sovet kəşfiyyat orqanlarında ətraflı və müfəssəl məlumat var idi. İran ərazisinə Sovet qoşunlarının daxil olacağı təqdirdə, Güney Azərbaycan Bakının təşəbbüsü ilə Moskvadakı sovet rəhbərliyinin diqqət mərkəzinə çəkilir.

Elmi dövriyyəyə gətirilmiş arxiv sənədlərindən və son illərdə İranda çap olunan əsərlərdən məlum olur ki, Sovet Azərbaycanındakı rəhbərlik, şəxsən M.C.Bağırov Azərbaycana hərbi-strateji əhəmiyyətli ərazidən daha çox üzü «Türkmənçay»dan bəri parçalanmış vətənin qovuşması kimi baxmış, Moskvanın göstərişlərinin icrasında, Azərbaycanın hansı yollasa bütövləşməsi (SSRİ tərkibində) ideyası önəmli yer tutmuşdu. Qərbi Ukrayna və Qərbi Belorusiyanın ələ keçirilməsindən sonra M.C.Bağırov Güney Azərbaycan haqqında da belə məqamın yaxınlaşdığını zənn edirdi. Bu məqsədlə İrana yeridilən Sovet qoşunları daxilində Qüzey Azərbaycandan hərbçi adı ilə göndəriləcək 3.816 mülki şəxs səfərbər edilmişdi *[18], [99]*. Tarixi sənədlərə «Əziz Əliyev qrupu» adı ilə daxil olan bu dəstəyə Qüzey Azərbaycanın görkəmli ziyalıları, elm, təhsil və mədəniyyət xadimləri, partiya və dövlət orqanlarının fəalları (Mirzə İbrahimov, Süleyman Rəhimov, Cəfər Xəndan, Süleyman Rüstəm, Mehbalı Əmiraslanov, Əvəz Sadıq, Qılman Musayev (İlkin) və s.) daxil edilmişlər.

Güney Azərbaycanla bağlı çox maraqlı bir məqamı burada qeyd etməmək olmaz ki, bu da Güney Azərbaycana Ermənistan Respublikası rəhbərliyinin iştahası idi. Sovet qoşunlarının Güney Azərbaycana daxil olması ərəfəsində Ermənistan dövləti adından erməni çekist qrupuna rəhbərlik edən Gözəlyan Ermənistan

rəhbərliyinin fikrini açıqlayaraq bildirmişdi ki, Sovet qoşunlarının işğal edəcəyi Güney Azərbaycan Ermənistanla Azərbaycan arasında təsir dairəsinə bölünməlidir və bu bölgüdə Təbriz Ermənistana çatmalıdır, beləliklə, guya burada ermənilərin nüfuzu və təsiri Azərbaycandan üstündür. Qüzey Azərbaycan rəhbərliyi tərəfindən Moskvaya təqdim olunmuş arayış, məruzə və məlumatlarda Güney Azərbaycanda, o cümlədən Təbrizdə erməni nüfuzunun şişirdildiyi və həqiqətdən çox uzaq olması bəlli olduğu üçün İran ərazisinin şimal hissəsi Sovet qoşunları tərəfindən tutulacağı təqdirdə, Güney Azərbaycanda fəaliyyət üstünlüyü Azərbaycan Sovet Respublikası rəhbərliyinə həvalə olunmuşdur. Bu işdə Azərbaycan rəhbərliyinin Moskvada ali dövlət orqanında yuva salmış «mikoyançılar» müqabilində çevik fəaliyyəti qeyd olunmalıdır.

1941-ci ilin baharında Güney Azərbaycan sərhədlərində dayanmış Sovet qoşunları avqustun 25-də, gecə saat 2-də İran ərazisinə daxil oldular. Saat yarımlıq əməliyyat nəticəsində İran ordusunun ön cəbhədə duruş gətirmək qabiliyyəti sındırıldı. Rza şahın baş komandanlığa müqavimət göstərmək əmri də təsirsiz qaldı *[99, s.177]*. Avqustun 25-dən 28-dək hərbi nazir Naxçıvaninin, Baş Qərargah rəisi Zərqamın ev dustağı olmasına əmr versə də, iş işdən keçmişdi. 1941-ci ilin sentyabrın 13-də (Şəhrivərin 4-də) baş nazir Əli Mənsur və xarici işlər naziri Müzəffər Ələm istefa ərizəsini şaha təqdim etdilər. 14 sentyabr 1941-ci ildə (5 şəhrivər 1320) Məhəmmədəli Firuği baş nazir, Əli Söhili xarici işlər naziri təyin edildi. Elə həmin gün Rza şah təcili olaraq M.Firuğinin evinə gələrək, oğlunun (Məhəmmədrzanın) xeyrinə şahlıqdan əl çəkmək niyyətini ona bildirir. M.Firuği

Rza şah üçün daha inanılmış adam idi. O, 30-cu illərin əvvəllərində də 2 ildən çox Rza şahın baş naziri olmuşdu *[99]*.

M.Firuği Rza şahdan tac-taxtdan oğlunun xeyrinə əl çəkmək ərizəsini aldıqdan sonra ona Tehranı tezliklə tərk etməyi məsləhət gördü. Rza şah əvvəlcə iki arvadını (Tacəlmülk və İsmət Dövlət Şahi xanım), 10 övladını, gəlinini, nəvəsini və iki kürəkənini saray naziri Mahmud Cəm vasitəsilə İsfahana yola salır. Bir neçə gün sonra Rza şah özü də bir neçə nəfər mühafizəçisinin müşayiəti ilə İsfahana yollanır. İngiltərənin İsfahandakı konsulluğunun «məsləhəti» ilə şah 1941-ci il sentyabrın 27-də onun üçün təhlükəsiz olan Afrikanın Moris adasına göndərilir və 1944-cü ilin payızına qədər burada yaşayır və 1944-cü ilin sentyabrında orada da ölür *[99]*. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Rza şah ölkəni böyük sərvət sahibi kimi tərk etmişdir. Rza şah hakimiyyətdən düşən kimi onun 20 il müddətində (1921-1940) qarət və zorakılıqla əldə etdiyi külli miqdarda sərvət, cavahirat, pul haqqında bəhs açıldı. Məclis deputatı Möid Əhmədinin İran məclisindəki çıxışından aydın olur ki, Rza şah müntəzəm olaraq xarici banklara o vaxtkı pul vahidi ilə hər il 60 milyon tümən (25 milyon dollar) pul köçürürmüş. Üst-üstə o, 2167 kəndə sahib çıxmışdır *[108, s.123]*.

Vaxtilə yoxsul bir kazak zabiti olmuş Rza şah hakimiyyətdən salınarkən İranın ən varlı adamı kimi külli miqdar sərvəti övladlarına miras qoyub getmişdir.

Sentyabrın 28-də təşkil olunmuş XII Məclisdə Rza şahın oğlunun xeyrinə hakimiyyətdən əl çəkməsi haqqında 16 sentyabrda yazdığı ərizə oxundu, 22 yaşlı Məhəmmədrza ölkənin yeni şahı elan edildi *[99, s.197-202]*. Bununla birlikdə Məclis müttəfiq qoşunlarının Tehrana buraxılması, İrandakı bütün alman

təbəələrinin ölkədən çıxarılması, İranın quru, su və hava yollarının müttəfiqlərin sərəncamında qoyulması haqqında razılıq verdi.

1320-ci ilin Şəhrivər ayı (1941-ci il 23 avqust – 23 sentyabr) bu dövr üçün çox təlatümlü, əlamətdar və gərgin ay olmuşdur: İran ərazisi müttəfiqlər tərəfindən işğal olunmuş, şah qaçmış, yeni baş nazir və yeni şah hakimiyyətə gəlmiş, zindan qapıları açıldığından mütərəqqi şəxsiyyətlər yenidən mübarizə meydanına qayıtmış, müxtəlif əqidəli və müxtəlif yönlü yeni siyasi cəmiyyət və təşkilatlar, mətbuat fəaliyyətə başlamış və s. - bütün bunların fonunda Rza şahın qanlı diktaturası yıxılsa da, onun yerində oğlu Məhəmmədrzanın şəxsində zülmkar səltənəti tədricən bərpa olunmağa başlamışdı.

Beləliklə, İkinci dünya müharibəsi ərəfəsində və müharibənin ilk illərində siyasi, sosial-iqtisadi ziddiyyətlərin çoxluğu və mürəkkəbliyi cəhətdən Güney Azərbaycan İran məkanında ən qaynar nöqtələrdən idi. Rza şah rejiminin amansızlığına əlavə olunmuş milli zülm böyük tarixə və zəngin keçmişə malik olan bir xalqın – Azərbaycan türklərinin bir millət kimi «əridilməsi» cəhdi bu ərazidə yaşayanların mövcud rejim əleyhinə və onun yerlərdəki dövlət strukturlarına qarşı nifrət və barışmaz əhvali-ruhiyyə yaratmışdı. Buna görə də mütəffiq qoşunların İran ərazisinə keçməsi ilə bağlı siyasi ab-havada qismən yumuşaqlığın əmələ gəlməsindən istifadə edən milli qüvvələr dirçəlməyə və açıq mübarizə meydanına atılmağa imkan tapdılar. Bu özünu hər şeydən əvvəl müxtəlif siyasi cəmiyyətlərin, birliklərin və partiyaların yaranmasında və kütləni ümümxalq mübarizəsinə qoşmaq cəhdində bir daha aydın göstərdi.

## 2. 40-cı illərin əvvəllərində Güney Azərbaycanda siyasi durum

Rza şahın hakimiyyətdə olduğu illərdə (1925-1941) ölkədə hökm sürən amansız diktatura üsuli–idarəsi əleyhinə olan bütün siyasi qüvvələr müxtəlif yollarla və bəhanələrlə məhv edilib sıradan çıxarılırdı. 30-cu illərdə əhalisi 15 milyon nəfər olan İranda qeyri-fars xalqlara qarşı daha artıq zülm olunurdu. Onların milli varlığı, dili, mədəniyyəti Rza şahın himayəsində olan şovinizmin təzyiq və zorakılığı qarşısında alçaldılır və təhqirlərə məruz qalırdı. Şeyx Məhəmməd Xiyabani hərəkatından (1920) sonrakı illərdə Güney Azərbaycanda milli-demokratik məramlı heç bir siyasi təşkilatın fəaliyyətinə imkan verilməmişdi. Millətin azadlığını istəyən vətənpərvərlər təqib olunub pərən-pərən salınmışdı *[177]*.

Rza şah kimi qəddar tiranın hakimiyyətdən salınması, rejimin müvəqqəti də olsa yumşalması ölkədəki siyasi ab-havanı müəyyən qədər dəyişdi. Belə bir vəziyyətdə ümümiran miqyasında müxtəlif məramlı cəmiyyətlərin və təşkilatların yaranmasına və fəaliyyətinə şərait yarandı. Rza şah hakimiyyətinin devrilməsi ilə əlaqədar zindanlara atılmış, sürgünlərə göndərilmiş və ya təqiblərə məruz qalmış çoxlu vətənpərvərlərin, savadlı ziyalıların, təcrübəli peşəkər siyasi xadimlərin azadlığa çıxması və onların yenidən siyasi mübarizə meydanına gəlməsi ölkədə ümümxalq hərəkatının canlanmasına və dirçəlişinə kömək etmiş oldu.

40-cı illərin əvvəllərində Güney Azərbaycanda yaranan ilk təşkilatlardan biri **Azərbaycan Zəhmətkeşlər Təşkilatı** idi. 1942-ci ilin yanvarında yaradılmış bu təşkilatın üzvləri, əsasən, xalqın yoxsul və imkansız zümrələrindən, keçmiş rejimin zora-

kılığından əzab çəkmiş insanlardan ibarət idi. Təşkilatın rəhbərliyi xalqın azadlıq mübarizəsinə sədaqəti ilə seçilən əqidəli və imanlı şəxslər olmuşdu. AZT özünün mübarizə proqramında xalqın güzaranını yaxşılaşdırmaq, zorakalığa və istismara son qoymaq tələbi ilə yanaşı, əyalət əncümənlərinin bərpa edilməsini, mədəni muxtariyyət verilməsini, faşistpərəst qüvvələrin cilovlanmasını da tələb edir və bunun uğrunda mübarizə aparırdı *[227, №9-10]*.

Təşkilat üzvlərinin əksəriyyəti iri sahibkarların, feodal və varlı mülkədarların, vəzifə və mənsəb sahiblərinin zülmünə, haqsızlığına, özbaşınalığına məruz qalmış adamlar idi. Təşkilat milli zəmində yarandığından və sıraları Azərbaycanda yaşayan insanlardan ibarət olduğundan o, az müddət içərisində məşhurlaşdı və özünə xeyli tərəfdar topladı. Təşkilatın təkcə Təbriz şəhərində üzvlərinin sayı 10 min nəfərdən çox idi *[227, 2000, № 9, s. 4]*. Təşkilata rəhbərlik edən İsrafil Qadiri, Hüseyn Rizvan, Əhməd İslami, M.M.Çavuşi, S.Hacızadə və başqaları xalq içərisindən çıxmış zəhmətkeş nümayəndələri idi. Onlar 21 Azər hərəkatında da öz mübarizlikləri ilə seçilmişdilər. Azərbaycan Zəhmətkeşlər Partiyasının Təbrizin və Azərbaycanın digər iri şəhərlərində fəaliyyət göstərən çoxsaylı klublarının kütlələrin siyasi oyanışında və mübarizəyə qoşulmasında önəmli fəaliyyəti olsa da, o, geniş kütləni, xüsusən Azərbaycan əhalisinin böyük çoxluğunu təşkil edən kəndliləri ayağa qaldırmaq və mübarizəyə səfərbər etmək səviyyəsinə qalxa bilməmişdi. Bu işdə Cəmiyyətin rəhbərliyinə soxulmuş dönüklər az rol oynamamışdılar. Başqa bir səbəb də təşkilatın təmsil etdiyi kütlələrdə siyasi oyanma və tərpənişin zəif olması, siyasi mühitdəki mürəkkəblik idi. «Təşkilat rəhbərləri arasında xalqa rəhbərlik edə bilən

təcrübəli adamlar nəzərə çarpmırdı» *[39, s. 4]*. Buna baxmayaraq, Azərbaycan Zəhmətkeşlər Təşkilatının fəaliyyəti və onun yoxsul kütlələr içərisində getdikcə daha çox nüfuz qazanmağa başlaması irticaçı qüvvələri və onların yerli məmurlarını narahat etməyə başladı. Onlar təşkilatın fəaliyyətinə mane olmaq üçün müxtəlif hiylə və zorakılığa əl atdılar. Öz pozucu qüvvələrini hiyləgərcəsinə təşkilatın içərisinə yeritdilər və hətta bəzi yerlərdə onlar təşkilatın rəhbərliyinə soxula bildilər. Təşkilatın başqa bir qolunda isə solçu şüarlar irəli sürülür və təşkilatın adından ara-sıra varlı adamlara qarşı zorakılıq tətbiq edilir, talançılığa və soyğunçuluğa da əl atılırdı. Təşkilatın sıralarına soxulmuş xain ünsürlərin əli ilə törədilən bu işlərin hamısı Zəhmətkeşlər Təşkilatının adına çıxılır və təşkilat kütlə içərisində bədnam edilirdi. Bu vəziyyətdən məharətlə istifadə edən Təbriz jandarm idarəsinin rəisi Canpolad bəhanələrlə Azərbaycan Zəhmətkeşlər Təşkilatı fəallarını, o cümlədən İsrafil Qadirini, Səlim Hacızadəni və onların yoldaşlarını həbs etdirir. Başsız qalan təşkilat irtica qüvvələrinin təzyiq və təqiblərinə tab gətirə bilməyib 1942-ci ilin payızında özünün müstəqil fəaliyyətini dayandırmalı oldu. Təşkilatın fəalları və bir çox üzvləri antifaşist və demokratik qüvvələrin daxil olduğu «Azadlıq Cəbhəsi»ndə öz faliyyətini davam etdirdilər.

Həmin ərəfədə Güney Azərbaycanda yaranan təşkilatlardan biri də **«Azərbaycan Cəmiyyəti»** idi.[1] Bu cəmiyyət Zəhmətkeşlər Təşkilatı ilə demək olar ki, eyni vaxtda (1941-ci ilin sonu

[1]Azərbaycan Demokratik Firqəsinin təşkilinədək təşkilat və cəmiyyətlər haqqında məlumat üçün bax: Rza Məhəmmədi, Azərbaycan Rza şahın səltənətindən Pişəvəri dövrünədək 1304-1324, Təbriz «Şayüstə» nəşriyyatı 1392 (2013), s.143-161

1942-ci ilin əvvəli yaranmışdı.[x]. Əgər Azərbaycan Zəhmətkeşlər Təşkilatı sıralarında əsas etibari ilə yoxsullar, savadsız və imkansızlar toplanmışdılarsa, «Azərbaycan Cəmiyyəti»ndə və onun rəhbərliyində ilk əvvəl ziyalılar, ortabab adamlar cəmlənmişdi ki, bu işdə Təbrizdəki milli ruhlu ziyalıların (M.Ə.Şəbüstəri, İsmayıl Şəms, Əli Maşınçı, Cəfər Əxkəri, M.M.Çavuşi, Hilal Nasiri, H.Rizvan, A.Rəhimi və başqaları) əməyi böyük olmuşdur. Azərbaycan Zəhmətkeşlər Təşkilatı kimi «Azərbaycan Cəmiyyəti» də zəhmətkeşlərin vəziyyətini yaxşılaşdırmaq və hüquqlarını bərpa etməklə yanaşı, azərbaycançılığı, milliliyi əsas hədəf götürmüşdülər. Bu işdə cəmiyyətin orqanı olan «Azərbaycan» qəzeti (qəzet Azərbaycan və farsca çıxırdı) mühüm rol oynamış, qəzetdə çap olunan müxtəlif xarakterli və janrlı yazılarda azərbaycançılıq ideyası yetərincə qabardılmışdı *[178, s. 121].* cəmi 40 nömrəsi çap olunmuş «Azərbayca»[1] millətin oyanmasında və mübarizəyə səfərbərliyində mühüm rol oynamışdı.

«Azərbaycan Cəmiyyəti» 40-cı illərin əvvəllərində Güney Azərbaycandakı milli zülm və zorakılığa qarşı səsini qaldıran ilk təşkilatlardan idi. «Azərbaycan Cəmiyyəti»ndən əvvəl yaradılmış «Partizan» klubları həddindən çox radikal və vaxtı yetişməmiş şüarlarla fəaliyyətə başladığından, kütləni arxasınca apara bilmədi və çox yaşamadı (cəmi 2-3 ay). «Partizan» klublarına yol tapmış mürtəce Sərtipzadə dəstəsinin ifşa olunacağından qorxan dövlət məmurları və yerli irtica «Partizan» klublarının tez ləğvinə kömək etdi. Partizan klublarından fərqli olaraq «Azərbaycan Cəmiyyəti» az müddətdə daha geniş kütləni, xüsusən

[1]Naşiri Ə.Şəbüstəri, redaktoru İ.Şəms olmuş və cəmi 40 nömrəsi çap edilmişdi.

ziyalıları və bazar əhlini öz ətrafına toplaya bildi. Cəmiyyətin təşkilatı Təbrizdə daha güclü idi. Dövlətin razılığını almadan təşkilatın təşəbbüsü ilə Təbrizdə bir sıra yerlərin tarixi adları bərpa edilmiş, xiyaban və küçələrin adları Azərbaycan milli qəhrəmanlarının və tarixi şəxsiyyətlərin adına verilmişdi. İstər «Azərbaycan Cəmiyyəti» rəhbərlərinin və istərsə də cəmiyyətin orqanı «Azərbaycan»da milli məsələnin qoyuluşu, Azərbaycana qarşı Pəhləvi hakimiyyətinin etdiyi zülm və ayrı-seçkilik siyasəti ifşa edilir, kütlə bu ruhda mübarizəyə köklənirdi. Azərbaycan Zəhmətkeşlər Təşkilatından və «Partizan» klublarından fərqli olaraq «Azərbaycan Cəmiyyəti» mübarizə taktikasında mötədilliyə, maarifçiliyə üstünlük verirdi. Cəmiyyətin yerlərdəki təşkilatları Təbrizdəkinə nisbət zəif idi. Bunun da səbəbi mərkəzə nisbətən bölgələrdə işin zəif təşkil olunması idi. Cəmiyyət bölgələrə nisbətən Təbrizdə daha çox milli ruhlu ziyalıları və kütləni öz sıralarına cəlb etməyə səy göstərmişdi.

«Azərbaycan Cəmiyyəti»nin yaradıcılarından biri olan İsmayıl Şəms Kanadada çıxan «İldırım» jurnalının müxbirinin sualına cavabda bildirir ki: «Azərbaycan Cəmiyyəti» Azərbaycan ruslar tərəfindən işğal olunandan bir neçə gün sonra yaradıldı. O nə İrandan ayrılmaq və nə də İran Məşrutəsinin qanune-əsasına (əsas qanununa) zidd olmaq fikrində idi. Bu cəmiyyətin istəyi məşrutə qanunda əyalət və vilayət əncümənləri haqda verilmiş hüquqların yerinə yetirilməsi tələbi idi» *[243, s. 29]*.

Alman faşizminin 1941-1942-ci illərdə cəbhə boyu müvəffəqiyyətlə irəliləməsi və getdikcə alman hərbi qüvvələrinin Güney Azərbaycan və İran sərhədlərinə yaxınlaşması ümumiran miqyasında rejimin yardımı ilə faşistpərəstlərin əl-qol açmasına rəvac verdi. Ölkənin hər yerində, milli və demokratik qüvvələrə

qarşı irticanın hücumu gücləndi. «Azərbaycan Zəhmətkeşlər təşkilatı», «Azərbaycan Cəmiyyəti» kimi milli ruhlu və azadlıq uğrunda mübarizə aparan təşkilatların fəaliyyəti 1942-ci ilin yazında dayandırıldı.

«Azərbaycan Cəmiyyəti» fəalları və rəhbərliyi rejim məmurları və yerli irtica tərəfindən təqib olunduğundan, bir müddət gizlənmək, hətta xaricə mühacirət etmək məcburiyyətində qaldılar.

40-cı illərin əvvəllərində İranda fəaliyyət göstərən mütərəqqi siyasi təşkilatlardan biri də **«Azadlıq Cəbhəsi»** olmuşdur. «Azadlıq Cəbhəsi» bütün anti-faşist və azadlıqsevər qüvvələri öz sırasında birləşdirən təşkilat idi. İranın başqa əyalətlərinə nisbətən bu təşkilatın Azərbaycandakı şöbəsi daha güclü idi. Faşizmə qarşı mübarizəni öz proqramında əsas tutduğundan təşkilatı İran dövlət orqanları rəsmən qeydiyyatdan keçirməyə məcbur olmuşdular.

«Azadlıq Cəbhəsi» məram, əqidə və dünyagörüşündən asılı olmayaraq, bütün anti-faşist qüvvələri bir cəbhədə birləşdirməyə və ölkəni demokratikləşdirmə istiqamətinə yönəltməyə çalışırdı[1] (41a). Azərbaycandakı digər təşkilatlar kimi «Azadlıq Cəbhəsi» də qlaflı dövlət casuslarından, xəyanətkar və pozuculardan azad deyildi. Onları ifşa etməkdə «Ajir», «Rəhbər», «Mərdom», «Zəfər», «Nidaye-İran», «Dəmavənd» adlı mütərəqqi qəzetlərin mühüm rolu olmuşdur. «Ajir» qəzetinin baş redaktoru S.C.Pişəvəri «Azadlıq Cəbhəsi»nin yaradıcılarından və fəallarından biri olmuşdur. Onun bu dövrdə «Ajir»də çıxan məqalə və felyeton-

[1]Bu haqda İ.Şəmsin «Ədəbiyyat və incəsənət» qəzetində çap olunmuş məqaləsinə (11 yanvar, 1991) bax.

larının «Azadlıq Cəbhəsi»nin hədəfə doğru düzgün istiqamət götürməsində və cəbhə sıralarına soxulmuş xainlərin ifşasında müstəsna rolu olmuşdur. ADF yaranan vaxt Azərbaycandakı «Cəbhəçilər»in fəalları ADF-nin yaradılmasında və fədai dəstələrinin təşkilində diqqətəlayiq rol oynamışlar.

40-cı illərin əvvəllərində Azərbaycanda milli və demokratik yönlü mətbuatın və ictimai fikrin formalaşmasıda milli-demokratik yönlü mətbuatın rolu xüsusi qeyd edilməlidir. 1941-ci ilin oktyabrından 1945-ci ilin sentyabrına qədər Azərbaycanda 4 il müddətində 21 adda qəzet nəşr edilmişdi *[52]*. Sovet ordusu üçün Azərbaycan dilində çıxan «Vətən yolu» (Təbriz), «Qızıl əsgər» (Urmiya), «Azərbaycan», «Sitare-ye Azərbaycan», «Xavəre-no», «Yumruq» və s. qəzetlərin səhifələrində yerli müəlliflərlə yanaşı, M.İbrahimov, C.Xəndan, Q.Musayev, Ə.Sadıq, S.Rüstəm və başqa Quzey azərbaycanlı yazıçı və publisistlərin məqalələri Güney Azərbaycanın o zamankı siyasi, elmi və mədəni durumunda mühüm, oyadıcı rol oynamışdır. 40-cı illərin əvvəllərində Güney Azərbaycanda yaradılmış cəmiyyətlərin, təşkilatların üzvlərinin çoxu və geniş ictimaiyyət Güneyin dərdlərinə şərik olan Quzey azərbaycanlı müəlliflərin yazılarını böyük həvəslə oxuyub istiqamətlənirdi.

1943-cü ildə Stalinqrad ətrafında alman qoşunlarının ağır məğlubiyyətə uğraması İrandakı almanpərəst qüvvələri və irticanı, eləcə də yerlərdəki rejim məmurlarını çox məyus etdi. Ümumölkə üzrə milli və demokratik qüvvələrin dirçəlişində və fəaliyyətində bir canlanma hiss olunmağa başladı. Belə bir şəraitdə XIV çağırış İran Məclisinə seçki kampaniyasının başlanması ölkədəki siyasi vəziyyəti daha artıq kəskinləşdirdi.

1943-cü ilin başlanğıcında Azərbaycanda **«Demokratiya Ocağı»** adlı təşkilat fəaliyyətə başladı. Bu təşkilatın baniləri Xəlil Azərbadqan, C.Əxkəri, M.Hilal Nasiri, H.Rizvan, H.Ruhi və başqaları olmuşdur *[39,137, 171]*. «Demokratiya Ocağı»nın mübarizəsində əsas hədəf İran Konstitusiyasında yazılmış demokratik azadlıqların əməli olaraq həyata keçirilməsi, Azərbaycanda əyalət əncümənlərinin bərpası və eləcə də Azərbaycanın iqtisadi və mədəni inkişafına dövlətin daha artıq diqqət ayırmaq tələbi idi. Həmin dövrdə hadisələrin canlı şahidi olmuş və sonra onları qələmə almış H.Həsənov yazır ki, «Demokratiya Ocağı»nın fəaliyyəti Təbrizin yaxınlığında yerləşən Üskü şəhərində daha güclü idi» *[18, s.17]*. 1944-cü ilin sonunda «Demokratiya Ocağı» İXP Azərbaycan əyalət təşkilatına birləşdi və fəaliyyətini onun sıralarında davam etdirdi.

«Azərbaycan Cəmiyyəti», «Azərbaycan Zəhmətkeşlər Təşkilatı», «Demokratiya Ocağı» və s. bu kimi milli ruhiyyəli və rejimə qarşı mübarizədə bir qədər də radikal təşkilatların fəaliyyətinə imkan verilmədiyi bir vaxtda Azərbaycanda toxunulmaz qalan yeganə bir təşkilat «Azərbaycan Zidde-faşist» (Azərbaycan anti-faşist) təşkilatı idi. Faşizmə qarşı mütərəqqi qüvvələrin birliyindən yaranmış bu təşkilatın Azərbaycandakı qolu öz fəaliyyətində milli tələbləri faşizmə qarşı mübarizə tələbləri içərisində meydana gətirərək, kütlələri faşizmə və onu İrandakı dayaqlarına qarşı mübarizəyə cəlb edirdi. Sıralarında Məhəmməd Biriya, Mirrəhim Vilai, Balaş Azəroğlu, Mirmehdi Etimad, Abbasəli İnuzi, Hüseyn Ciddi, Əli Fitrət, Qulam Babai, İsmayıl Şəms kimi tanınmış mübariz ziyalıları birləşdirən bu təşkilat, Azərbaycanda daha güclü bir özək yarada bilmişdi. Təşkilatın orqanı olan «Yumruq» öz səhifələrində alman faşizminin

mahiyyətini və onu İranda müdafiə edənlərin iç üzünü açıb göstərməkdə əvəzsiz rol oynamışdı. «Yumruq» qəzetinin elə bir nömrəsi olmurdu ki, onda faşizm əleyhinə şeir, karikatura və kəskin yazı olmasın. «Azərbaycan Cəmiyyəti»nin və «Azərbaycan Zəhmətkeşlər təşkilatının», İran Xalq Partiyasının Azərbaycandakı təşkilatları və onların yerlərdəki özəkləri təqib olunub bağlanıldığı bir şəraitdə Azərbaycandakı anti-faşist təşkilatına irtica və rejimin məmurları toxunmağa cəsarət etmədilər. Hətta onun rəsmi dövlət qeydiyyatından keçməyən «Yumruq» qəzeti öz fəaliyyətini davam etdirə bilmişdi.

40-cı illərin əvvəllərində şahlıq rejiminin xidmətində qulluq göstərənlər milli və demokratik qüvvələrə qarşı mübarizədə böhtançı ideoloji vasitələrdən də geniş istifadə etmişlər. Azərbaycandakı xalq hərəkatı «Sovetlərin işidir» böhtanı ilə damğalanırdısa, xalqın milli tələbləri, azadlıq və insan haqlarına hörmət istəyini «təcziyyə tələb» – separatçı, yəni Güney Azərbaycanı İrandan ayırıb Sovet Azərbaycanına birləşdirmək kimi uydurma ilə əlaqələndirilirdi. Bu işdə Tehrandakı irticaçı dairələrinin təşəbbüsü ilə 1942-ci ildə yaradılmış «İrane bidar» (Ayılmış İran) və Təbrizdə yaradılmış «Hizb Tude Azərbaycan» təşkilatlarının pozuculuq fəaliyyəti daha çox olmuşdur. Öz sıralarında şahpərəstləri, demokratiya və azadlıq istəyən qüvvələr əleyhinə, xüsusən milli tələblər irəli sürən regionlara qarşı daha amansız olan ünsürləri birləşdirən «İrane-bidar» partiyası və «Hizb Tude Azərbaycan» təşkilatları Mərkəzlə birlikdə Azərbaycandakı siyasi təşkilat və cəmiyyətlərin içərisinə öz çasuslarını göndərməkdə və onları daxildən parçalayıb laxlatmaqda az iş görməmişdi. Maliyyə cəhətdən varlı mürtəcelərə və dövlətə söykənən «İrane-bidar» özünün «Fəryad» adlı qəzeti ilə yalan şayiələr yaymaq,

demokratik qüvvələri qarşı-qarşıya qoymaq, «vahid», «parçalanmaz» İran adı altında milli azadlıq meyillərini boğmaq və irtica ilə şovinistlərin vahid birliyini yaratmaq üçün əlindən gələni etmişdi.

21 Azər hərəkatının baş verməsi zemininin hazırlanmasında mühüm rol oynayan ictimai təşkilatlardan biri də zəhmətkeşləri istismara, irticaya və faşizmə qarşı mübarizədə birləşdirən **Azərbaycan Həmkarlar İttifaqı** olmuşdu.

Azərbaycan Həmkarlar İttifaqı (İttihadiyyə) Sovet qoşunlarının Cənubi Azərbaycana keçməsindən az sonra yaradılan təşkilat idi. Bu təşkilatın Azərbaycanda ilk müəssisləri Qulam Adəmpur, Qüdrət Kəlkətəçi və «Fulade İran» karxanasının qabaqcıl fəhlələri olmuşlar. Azərbaycanda, xüsusən Təbrizdə həmkarlar hərəkatı az müddətdə çox sürətlə irəlilədi, onun sıralarına fəhlə və zəhmətkeşlərin böyük axını başladı *[90]*. Bu dirçəliş bir tərəfdən dövlətə söykənən iri istehsal müəssisələri sahiblərinin özbaşınalıq və zorakılığı, fəhlə və zəhmətkeşləri təngə gətirməsi ilə bağlı idisə, digər tərəfdən həmkarlar təşkilatının irəli sürdüyü təklif və tələblərdə milli məsələnin, milli zülm və bu sahədəki dövlət zorakılığına qarşı mübarizənin qabardılması ilə bağlı idi.

Azərbaycan Həmkarlar İttifaqı üzvlərinin mübarizəyə fəal qoşulması və radikal şüarları ortaya atması şahı və mərkəzi dövləti lap ilk gündən çox narahat etdiyindən, onları təcili tədbirlərə əl atmağa məcbur etdi. Bu sahədə Təbrizdə hökuməti təmsil edən hiyləgər və təcrübəli vali Fəhimi başda olmaqla, dövlət Azərbaycan həmkarlar hərəkatını daxildən parçalamaq və onun istiqamətini öz xeyrinə yönəltmək üçün Xəlil İnqilab adlı vaxtı ilə Rza şah zindanında yatmış, 40-cı illərdə artıq, dövlətə satılmış

pulgir və azadlıq hərəkatına pozqunluq salmaqda mahir olan bir şəxsi «fəhlə rəhbəri» adı ilə Azərbaycana göndərdi. Baş nazir Fəhimidən kifayət qədər maliyyə yardımı almış Xəlil Təbrizə çatar-çatmaz kütlənin diqqətini cəlb edən radikal şüarlar və şirin vədlərlə çıxış etməyə başladı. O, hər yerdə özünün azərbaycançılığını gözə soxur və yeri gəldikdə qabaqcıl adamları pulla ələ almağa çalışırdı. Azərbaycanda, xüsusən Təbrizdə xalq kütləsinin mübarizə əhvali-ruhiyyəsi elə bir səviyyədə idi ki, Xəlil İnqilab Tehran rejiminə verdiyi vədləri yerinə yetirməkdə aciz qaldı və Təbrizdən qaçmalı oldu. Xəlil İnqilabdan sonra Azərbaycanda həmkarlar təşkilatı rəhbərliyini Yusif İftixar ələ keçirtdi. Bu işdə dövlət məqamları Yusif İftixara lazımiköməklik göstərdilər. O, həmkarlar təşkilatı daxilində nifaq salmaqda və təşkilatı dövlət yönlü etməkdə Xəlildən geri qalmırdı. Təbrizdə mərkəzi dövləti təmsil edən Vali Fəhimini 1943-cü ilin dekabrında ondan daha təcrübəli hərbçi Müqəddəm əvəz etdi. Yusif İftixar onunla ilk gündən dil tapdı və onunla əlaqə yaradıb «fəaliyyətə» başladı. Yusif İftixar savad cəhətdən Xəlildən geri qalsa da, təbliğat və şüarçılıqda çox dilmanc bir adam olmuşdur. O, Azərbaycanda 10 min nəfərdən çox üzvü olan həmkarlar təşkilatında geniş təbliğat və cəlbedici şüarlarla təkcə fəhlələri deyil, ziyalıları da birliyə cəlb etməyə başladı. Vali Müqəddəm və mürtəcelikdə ad çıxarmış Sərtibzadə ilə gizlində sıx əlaqə saxlayan və onlardan məsləhətlər alan İftixar özünü zahirdə müstəqil adam kimi tanıtdırmağa çalışırdı. O, İran Xalq Partiyasından və Azərbaycandakı digər təşkilatlardan uzaqda dayanır və yeri gəldikdə onlara qarşı şantajlar edib, avantürist fikirlər yaymaqdan çəkinmirdi. Belə bir dövrdə İran Məclisinə (14-cü məclisə) seçki kampaniyası başlandı. Ordu başçısı olmuş Müqəddəm və Sərtibzadə deputatları

qeydə alan komissiyaya başçılıq etdiklərindən deputatlığa namizədlərin çoxundan külli miqdarda rüşvət almaları həmin dövrün mətbuatı səhifələrində qeyd olunur. Yusif İftixar da Məclisə deputat seçilməyə can atırdı. Müqəddəm və Sərtibzadəyə yetərincə rüşvət vermədiyindən onun namizədliyinin qeydə alınmasına imkan verilmədi. Bu hadisə Yusif İftixarla Müqəddəm – Sərtibzadə arasında ciddi narazılıq yaratdı. Belə olan təqdirdə Yusif İftixar fəhlələri maddi vəziyyətlərini yaxşılaşdırmaq və hüquqlarını qorumaq uğrunda nümayişə çıxarda bildi. Yusif İftixara inanıb nümayişə çıxan fəhlələrə atəş açıldı, nümayişçilərdən ölən və yaralananlar oldu. Təbrizdəki hadisələr mərkəzi dövləti təşvişə saldığından, Yusif İftixar da Xəlil İnqilab kimi həmkarlar təşkilatı rəhbərliyindən uzaqlaşdırılıb Tehrana aparıldı *[39, s.19]*.

Tudə partiyasının Təbrizdəki rəhbərləri (Əmirxizi və Ardaşes Avonesyan) fəaliyyətdə olan Həmkarlar İttifaqına yol tapıb onu təmsil etdikləri partiyanın təsir dairəsinə sala bilmədikləri məqamda, tudəçi Israfil Qadiri, Kazım Haşımniya, Abasəli Znuzi və bu kimi milli qüvvələrə arxalanan həmkarlar ittifaqı fəalları vasitəsi ilə Azərbaycanda müstəqil həmkarlar Ittifaqı yaratmağa cəhd etmişdilər. Xəlil İnqilab, Yusif İftixar və onların istinad etdiyi qüvvələr bu cəhdi tam pozmağa nail ola bilmədilər.

1944-ci ilin may ayınadək İranda, o cümlədən Güney Azərbaycanda həmkarlar hərəkatı demək olar ki, parçalanmış halda idi. Dövlətin, Seyid Ziya və Sərtibzadə kimi mürtəce qüvvələrin başçılıq etdiyi dəstə həmkarlar hərəkatına parçalanma salmaqda və onu radikal addımlardan uzaqlaşdırmaqda «ştrixbeyeir»çilərilərdən: Y.İftixardan, Xəlil İnqilabdan və başqalarından istifadə etmişlər. Mürtəce qüvvələrin əli ilə yaradılmış «həmkarlar təşkilatı» başçılarının və muzdlu fəalların hər cəhətdən ifşa

olunması (bu işdə mütərəqqi mətbuatın müstəsna rolu olmuşdur) zəhmətkeşlərin mənafeyinin həqiqi müdafiəçisi olan vahid və monolit təşkilatın yaranmasını sürətləndirirdi. Nəticədə sahə həmkarlar təşkilatının bir mərkəzdə birləşməsi nəticəsində 1944-cü ilin iyun ayında «İran Həmkarlar Təşkilatı Birləşmiş Mərkəzi Şurası» yaradıldı. Bundan az sonra 1944-cü ilin avqust ayında Təbrizdə bütün sahə həmkarlar təşkilatları bir təşkilatda – «Azərbaycan fəhlə və Zəhmətkeşləri Həmkarlar Ittifaqı Şurası»nda birləşdilər *[14,s.23]*. Kazım Haşımniya, İsrafil Qadiri, Abbasəli Znuzi, Hüseyn Ciddi, Qulam Adəmpəra, M.Çavuşi, Qulam Babai və başqaları Azərbaycan həmkarlar təşkilatının yaranmasında və müsbət yöndə istiqamətləndirilməsində önəmli rol oynamışdılar *[90]*. «…Etiraf etmək lazımdır ki, Azərbaycan fəhlə və zəhmətkeşlər ittihadiyyəsi (birliyi – müəllif) istər milli nehzət (21 Azər nəzərdə tutulur) zamanı, istərsə də Nehzətdən qabaq, həmişə azadxah dəstələrin qabağında gedən cəmiyyyət olub və xüsusən milli nehzət zamanı Azərbaycan Demokrat Firqəsinin möhkəm arxası olmuşlar»*[39, s.21]*.

Azərbaycan Demokrat Firqəsi yarananadək Azərbaycanda fəaliyyət göstərmiş mütərəqqi siyasi partiya və cəmiyyətlər haqqında danışarkən S.C.Pişəvəri onları 40-cı illərdəki «Azərbaycandakı milli hərəkatın pionerləri» adlandırmış və qeyd etmişdir ki, bu təşkilatlar çox tez aradan getsələr də, kütlələrin oyanmasında, ictimai, siyasi məsələlərə cəlb olunması işində önəmli rol oynamışlar.

Müttəfiq qoşunlarının İrana daxil olmasından sonra «ölkədə Şərq və Qərb tərəfdarları olan partiyalar yarandı. İngiltərəyə arxalanan qüvvələr barikadanın bir tərəfində, Sovet İttifaqına arxalananlar isə barikadanın digər tərəfində mövqe tutmuşlar» *[99,*

*s.199].* Sovet qütbünə söykənən siyasi təşkilatlardan əvvəlincisi 1941-ci il sentyabrın 19-da yaradılan İran Xalq Partiyası (Hizbe Tudeye İran) idi. Partiyanın yaradılmasında məşhur «53-lər» və «Qəsre-Qacar» zindanından azad olmuş siyasi xadimlərin bir çoxu önəmli rol oynamışlar. Partiyanın ilk yaradıcı heyətinə Süleyman Mirzə İsgəndəri, doktor Firidun Kəşavərz, İyrəlc İsgəndəri, Rza Rusta, Əbülhüseyn Nuşin, Məhəmməd Yəzdi, Əli Əmirxizi, sonralar isə Nürəddin Keyannuri, Əhməd Qasimi, Tağı Fədakar və b. daxil idilər.[1] S.C.Pişəvəri, Tağı Şahin, Məmi Nünəkərani (Dehqani), Salamülla Cavid, Sadıq Padiqan, C.Kavian, M.Çeşmazər, Mirzəli Şəbüstəri, Firidun İbrahimi, Mirrəhim Vilai, Qüdrət Şəms və digər azərbaycanlı siyasi xadimlər İXP-nin yaradılmasında və onun fəaliyyətinin ilk dövründə fədakarlıqla iştirak etmişlər. İXP müvəqqəti proqramında (1941) və I qurultay tərəfindən (1944) qəbul edilmiş məramnaməsində İranda yaşayan qeyri-fars xalqların muxtariyyəti, milli hüquqları və insan haqlarının «proletar beynəlmiləlçiliyi» şüarı kölgəsində qoyulması digər regionlardakı azlıqların nümayəndələri kimi, azərbaycanlı siyasi fəalların bir çoxunu, o cümlədən sonra Azərbaycan Milli Hökumətinə rəhbərlik etmiş adamları da incik saldı və onların İXP-nin rəhbərliyindən uzaqlaşmasına gətirib çıxartdı. Tudə partiyasının Azərbaycandakı təşkilatına Azərbaycan muxtariyyəti əleyhinə olan adamların rəhbər göndərilməsi mövcud narazılığı daha da artırmış oldu. İXP Azərbaycanda öz təşkilatlarını yaradanadək, yuxarıda qeyd olunduğu kimi, Azərbaycanda milli yönlü mütərəqqi siyasi təşkilatlar və cəmiyyətlər fəaliyyət göstərirdi.

[1]İ.İsgəndəri, M.Yəzdi və F.Kəşavərz Qəvam hökumətində (1946) nazir postunda olmuşlar.

Güney Azərbaycanda İXP-nin ilk təşkilatları 1941-ci ilin payızında Təbriz komitəsinin yaradılması ilə başlanmışdı. 1942-ci il ərzində Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Ərbədil, Urmiya, Xoy, Mərənd, Salmas, Sərab, Marağa, Zəngan, Astara, Miyana, Əhər və s. bölgələrdə İXP təşkilatları yaradılmışdı. 1943-cü ilin əvvəlindən Azərbaycanın bütün ərazisində İXP-nin özəkləri xalq kütləsini mübarizəyə qoşa bilmişdi *[5, s.21]*.

İXP-nin Azərbaycandakı əyalət təşkilatı fəaliyyətə başlayan gündən Tehran və yerli irticanın hədəfinə tuş gəldi. Azərbaycanda mərkəzi dövlətin valisi Fəhmi bu hücumların təşkilatçısı və başçısı olmuşdur. Onun fitvası ilə İXP-nin Azərbaycanın bir neçə şəhər və rayonunda olan təşkilatlarına hücumlar təşkil edilərək şovinist məfkurəli şahpərəst təşkilat və cəmiyyətlər yaradılmışdı.[1] Cəmşid İsfəndiyari, Nəsrulla Yurdçu kimi qatı irticaçılar Ərdəbildə, Əmir Cəfəri və Mənsur Aslanı qardaşları Meşgində, polis zabiti Nadiri Culfa və Ələmdarda İXP-yə üzv olduqlarına görə kəndlərdə qətl və qarətlər yaratmaqdan çəkinmədilər. Ərdəbildə Seyid Əhməd Mirxas mərkəzi dövlət tərəfindən ona görə pul ilə mükafatlandırıldı ki, o, İXP-yə üzv olmuş fəalların evinə od vurdurmuş və hər cür zorakılıqdan və cəza verməkdən çəkinməmişdi. Şah ordusunun başçılarından olan general Ərfə Təbrizdəki 3-cü Ordunun başçısı Ələkbər Derəxşaniyə xüsusi məktubla müraciət edib Seyid Əhmədə lazımi köməklik göstərmək haqda ona göstəriş vermişdi *[199.25.2-1325]*.

İrticanın hücumlarına, təqib və zorakılıqlarına baxmayaraq 1942-ci ilin sonunda İXP Təbriz təşkilatının I Konfransı 12

[1]Bax: Rza Məhəmmədinin əsərinə, s.161-167

nəfərdən ibarət Təbriz şəhər Komitəsini seçdi. Komitəyə Azərbaycan əyalət konfransına qədər partiya işinə rəhbərlik etmək tapşırıldı. Az müddət içərisində İXP-nin Azərbaycan təşkilatı partiyanın nüfuzlu mərkəzlərindən birinə çevrildi. İXP-nin ilk rəhbər nümayəndəsi Təbrizə gələnə qədər artıq burada «Tudeye-Azərbaycan» adlı təşkilat yaranmışdı. İXP Təbriz təşkilatı yaranan zaman «Tudeye-Azərbaycan»ın üzvləri avtomatik olaraq İXP sıralarına daxil oldular.

Partiyanın Azərbaycandakı digər özəklərindən fərqli olaraq Təbriz təşkilatına pozuculuq məqsədilə Sərtibzadənin adamları da üzv olmuş, hətta onlar vilayət komitəsindəki rəhbərliyə də soxula bilmişdilər. Sərtibzadə Azərbaycandakı milli azadlıq hərəkatını ləkələmək və onun xaricdən istiqamətləndirildiyini göstərmək məqsədi ilə 1942-ci ilin əvvəllərində «Partizan təşkilatı» adı altında Güney Azərbaycanın bir neçə bölgəsində (Qaradağ, Mərənd, Culfa və s.) dövlət əleyhinə silahlı qiyam törətmək niyyətində olmuşdu. O, Azərbaycandakı qiyamı ilə burada Sovet üsuli-idarəsi yaratmağa, qırmızı bayraq qaldırmağa və bununla da Azərbaycandakı xalq hərəkatı əleyhinə böyük bir fitnəkarlıq törətməyə cəhd etmiş, lakin onun bu cəhdi demokratik qüvvələrin sayıqlığı nəticəsində baş tutmamışdı. 1942-ci ilin sonu və 1943-cüilin əvvəllərində Təbriz təşkilatında aparılan yoxlama və təmizləmə nəticəsində «Sərtibzadələr» partiya sıralarından kənar edildi.

1943-cü ilin payızından başlayaraq İran məclisinə 14-cü çağırış seçki kampaniyası başlandı. Mərkəzin və yerlərdəki irtica qüvvələrinin yaratdıqları çoxsaylı maneələrə baxmayaraq, Azərbaycandan 3 nəfər mütərəqqi şəxs (əslində, 9 nəfər seçilməliydi), o cümlədən S.C.Pişəvəri də Təbrizdən deputatlığa namizəd

göstərildi. Seçki kampaniyası dövründə dövlətin və irticanın fitnəkarlığına və törətdiyi çoxsaylı maneələrə baxmayaraq, bu kampaniya siyasi qüvvələrin xalq içindəki nüfuzuna baxış oldu.

XIV çağırış Məclis seçkilərinə kampaniya Təbrizdə milli və demokratik qüvvələrin üstünlüyü ələ keçdiyini və milli oyanışın vüsət aldığını açıq-aydın göstərdi. Böyük maneələrə, şantaj və saxtakarlıqlara baxmayaraq, S.C.Pişəvəri Təbrizdə 16 min səs topladığı halda, iqtisadi və maliyyə cəhətdən çox güclü olan və dövlətdən dəstək alan Corabçı cəmi 6000 səs toplaya bilmişdi.

1944-cü ilin fevralında işə başlayan XIV çağırış Məclisinə öz mürtəceliyi ilə İran tarixində iz qoymuş Seyid Ziya başçılıq edirdi. Böyük əksəriyyəti şahpərəstlərdən və irtica qüvvələrindən ibarət olan XIV Məclisi doktor Məhəmməd Müsəddiq haqlı olaraq «Oğrular yuvası» adlandırmışdı.

Təbriz əhalisi tərəfindən seçilmiş S.C.Pişəvərinin deputatlıq mandatı əvvəlcədən düzəldilmiş müxtəlif hiylə və bəhanələrlə rədd edildi. İran Məclisinə Azərbaycandan milli ruhlu, sözünü deməyi bacaran cəsarətli insanların yol tapması həmişə problem olmuş və bu gün də hələlik problem olaraq qalır. Deputatlıq mandatı XIV Məclis tərəfindən qəbul olunmamasına baxmayaraq, S.C.Pişəvəri Məclisin tribunasından ustalıqla istifadə edib böyük məntiqə və həqiqətlərə söykənən sözlərini demişdi. O sonralar özü bu haqda yazırdı: «Bilirdim ki, Məclis kürsülərini qəsb edən xainlər ilə mənim suyum bir arxda getməyəcək və hiss edirdim ki, bu yolkəsənlər dəstəsi mənim aralarına girməyimə asanlıqla razı olmayacaqlar. Ona görə fürsətdən istifadə edib sözlərimi dedim. Məni 16 min rəy ilə intixab edib (seçilib), Məclisə göndərən Azərbaycan xalqının ehtiyaclarını sayıb söylədim, sözlərimi böyük bir diqqət və dərin bir sükut ilə eşidib təsdiq

etdilər. Lakin bu təsdiqlər xəyanətlərini gizlətmək üçün qara bir pərdədən başqa bir şey deyildir. Fürsət əllərinə düşən kimi də «bu azərbaycanlı rahat oturan adama bənzəmir, bunu buradan uzaqlaşdırmaq lazımdır» deyib, etibarnaməyə tülkülərə yaraşan alçaqlıq ilə müxalifət etdilər» (137 s. 31).

1944-cü ilin fevralında XIV Məclisdən 16 min təbrizlinin səsini qazanmaqla Azərbaycandan seçilmiş S.C.Pişəvəri kimi bir şəxsiyyətin hiyləgərcəsinə məclisə yol tapmadan uzaqlaşdırılması Azərbaycandakı milli oyanmanı və xalqın öz azadlığı uğrunda daha fəal hərəkata qoşulmasını sürətləndirmiş oldu. Bunu 1944-cü ilin fevralından 1945-ci ilin ortalarına qədər Güney Azərbaycanın demək olar ki, hər yerində keçirilən fasiləsiz nümayişlər, mitinqlər və hətta ara-sıra dövlət məmurlarına, polis və jandarmalara göstərilən müqavimət (Sərab, Qaradağ, Mərənd, Marağa, Meşkin və s. şəhərlərdə) açıq-aydın göstərirdi *[137, s.31]*.

Mərkəzin Azərbaycana ögey münasibəti və fəallaşan şovinist siyasəti Azərbaycandakı hərəkatın istiqamətini daha artıq milli azadlığa doğru yönəltdi və radikallaşdırılmış oldu. Real vəziyyət və eləcə də İXP rəhbərliyinin bəzi üzvlərinin paniranizm və şovinist əhval-ruhiyyədən əl çəkməmələri Azərbaycan xalqına öz dərdlərinə özü əlac etməsi ehtiyacını daha artıq gündəmə gətirmiş oldu. «Qeyd etmək lazımdır ki, Hizbe-Tudeye-İran heç vaxt Azərbaycanda rəhbərlik etmək məqamına nail ola bilməmişdi. Hətta onun ən qüdrətli günlərində belə Azərbaycan xalqı Hizbe-Tudeye-İranın başçılarına etinasız olub, göstərdikləri işlərə də tənqidi yanaşmışlar. Qeyd etdiyimiz kimi, bunun əsas səbəbi hizbin Tehrana bağlı olması idi» *[227, №11, s.5]*. İXP-nin Azərbaycandakı təşkilatları burada fəaliyyət göstərdikləri 3 il yarım müddətində (1942-ci ildən 1945-ci ilin ortalarınadək)

Azərbaycandakı bütün milli qüvvələri lazımi səviyyədə öz sıralarına cəlb edə bilməmişdi. Bunun başlıca səbəbi partiyanın 1941-ci ildə qəbul etdiyi müvəqqəti məramnamədə və sonrakı qurultay sənədlərində İranda yaşayan qeyri-fars xalqların öz müqəddəratını həll etmək hüququndan bəhs edilməməsi, milli zülmün kökünü kəsmək yollarının konkret göstərilməməsi ilə bağlı idi.

Azərbaycan o dövrdə də aqrar-kəndli ölkəsi idi. Əhalinin böyük əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olurdu. (Bu haqda əvvəlki bölmədə də bəhs olunub). Torpaqsız və az torpaqlı kəndlilərə mülkədarlar, dövlət məmurları tərəfindən edilən zülm və özbaşınalıq, çox saylı natural vergilər Azərbaycan kəndlisini taqətdən salıb, dilənçiləşdirmişdi. Aqrar-kəndli problemi İXP-ın proqram sənədlərində çox ötəri qeyd oldunduğundan, geniş kəndli kütləsinin əksəriyyəti mübarizədən kənarda qalırdı.

1941-1945-ci illərdə İranda qeyri-fars xalqların, o cümlədən Azərbaycan türklərinin rejim əleyhinə mübarizəsində milli kimlik və dil məsələsi önəmli yer tutmuşdu. Bu ərazidə yaşayan xalqlar rejimin assimilyasiya siyasətinə qarşı olmaqla yanaşı, ana dillərində məktəb, mətbuat və s. olmaması, milli dillərin hakim təbəqə tərəfindən qəsdən və planlı şəkildə sıxışdırılıb aradan aparılması ilə də barışa bilmirdilər. Bu məsələ sinfi mənsubiyyətindən, dünyagörüşündən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq Azərbaycandakı bütün milli qüvvələri bir cəbhədə birləşdirirdi. İXP-nin proqramında bu mühüm hədəfin nəzərə alınmaması və üstəlik Hizbin rəhbərliyi sırasında qeyri-fars xalqların milli istəkləri əleyhinə çıxmaq cəhdləri kütləni təkcə İXP-dən yox, rejim əleyhinə vahid mübarizə cəbhəsində birləşdirməkdən də uzaqlaşdırırdı. «…Bizim milli hərəkat yaxınlaşan günlərdə Xəlil Məliki, doktor Cövdət, Əli Əmirxizi, Ardaşest

Ovanesyan, Əhməd İsfahani və qeyrilərinin ciddi olaraq Mərkəzpərəst olmaları Hizbe-Tudeye-İranı Azərbaycanda tamamilə gözdən salmışdı» *[227, №11, s.5]*.

Tudə partiyası Güney Azərbaycanda, onun mərkəz şəhəri Təbrizdə yaradılarkən yerli əhalinin tanımadığı Tehrandan göndərilmiş adamlar, o cümlədən milliyyətcə erməni Ardaşest Ovanesyan partiyanın Təbriz Komitəsində rəhbər vəzifəyə təyin edilmişdi. Dindar və müsəlmançılıqda bir qədər radikal olan bir şəhərdə xalqı azadlığa aparmaq niyyətində olan bir partiyanın başında xristiyan erməninin dayanması «Tudə»nin Azərbaycandakı gələcək fəaliyyəti üçün meydanı daraltdı. Həm də əhalisinin 80%-dən çoxu o zaman kəndlilərdən ibarət olan Güney Azərbaycanda kütləni arxasınca aparmaq istəyən Tudə partiyasının məramnaməsində və rəhbər sənədlərində aqrar-kəndli məsələsi, xüsusən Azərbaycan kəndlisi üçün maraq doğuran torpaq islahatının olmaması Tudənin kütlə içərisində populyarlaşmasına imkan verməmişdi. Azərbaycanda Azərbaycan xalqının istək və arzularını, onun siyasi, milli, iqtisadi və mədəni tələblərini nəzərə alan, xalqın mübarizəsində əsas istiqaməti bu hədəflərə çevirməyi bacaran öndər mərkəzə – partiyaya ehtiyac aydın duyulurdu. İran zəhmətkeşlərinin iradəsini təmsil edən İXP-nin proqramında (1941-ci il müvəqqəti proqramında) və rəhbər sənədlərdə milli məsələ yetərincə öz əksini tapmamışdı. Çoxmillətli ölkə olan İran üçün millətlərin hüquq bərabərliyi və öz müqəddəratını təyin etməkdə sərbəstlik ixtiyaratının üzərindən sükutla keçmək bağışlanılmaz səhv idi. Bu məsələ İXP sıralarına daxil olmuş 50 mindən çox azərbaycanlını və onların avanqard dəstəsini narahat etməyə bilməzdi. Milli məsələni «beynəlmiləlçilik» və «Bütün ölkələrin proletarları birləşin!»

kimi bolşevik şüarının kölgəsində həzm edən İXP və onun rəhbərliyində hakim millətçiliyə rəvac verən adamların xət-hərəkəti Azərbaycandakı milli qüvvələri ümumxalq mübarizəsindən uzaqlaşdırırdı. «1941-ci ildən 1945-ci llədək davam edən keşməkeşli, mürəkkəb və nəticəsiz mübarizə Azərbaycan azadxahlarını yorduğu halda, onlara vahid bir təşkilatın zəruriyyətini hiss etdirmişdi»*[39, s.26]*.

ABŞ və İngiltərənin İrandakı hərbi qüvvələrinin süngüsünə söykənən Məmmədrza şah və onun rejimi 1943-cü ilin sonundan başlayaraq ölkədəki xalq hərəkatına qarşı daha amansız mühit yaratdı. Polis və jandarm qüvvələrinin zorakılığı və özbaşınalığı Azərbaycanda geniş vüsət aldı.

Azərbaycandakı milli-azadlıq hərəkatını Sovetlərlə bağlayan ABŞ və İngiltərə bu hərəkatdakı demokratik, milli tələblərə göz yumurdu. 1942-ci il Atlanta xartiyasını imzalayan, xalqların hüquq və azadlıqlarına tərəfdar çıxan, dünyanın sivilizasiyalı dövlətlərini bu xartiyadakı prinsiplərə qoşulmağa çağıran ABŞ və İngiltərənin İrandakı hərbi-kəşfiyyat qüvvələri vasitəsi ilə zülmkar şah rejimini müdafiə etməsi və 1946-cı il 21 Azər olaylarında şah qüvvələrini dəstəkləməsi ABŞ-ın həmin dövlətlərdəki siyasətinin silinməz qara ləkələridir.[1]

1943-1944-cü illərdə bütün İranda şah rejiminin və irticanın fəallaşmasında, demokratik və milli qüvvələrə qarşı zor işlətməsində Güney Azərbaycan da kənarda qalmamışdı. Bu dövrdə Azərbaycanda, xüsusən Azərbaycan kəndində dövlət nümayəndələri, yerli xanlar və mülkədarlarla yoxsul və ortabab kütlə arasında münasibətlər kəskin həddə çatmışdı. Jandarma qüvvələ-

[1]Bu haqda sonrakı səhifələrdə bəhs olunacaqdır.

rinin zorakılıq və özbaşınalığı Azərbaycan kəndlisi ilə yanaşı, geniş kütləni cana gətirmiş və onların rejim əleyhinə qəzəb və nifrətini artırmışdı. Həmin dövrdə Azərbaycandakı vəziyyətin canlı şahidlərindən biri yazır ki: «İran irticasının bütün İranda, xüsusən Cənubi Azərbaycanda azadlıqsevər qüvvələrə qarşı genişmiqyaslı hücumu oldu. Mütərəqqi təşkilat və klublara basqın edildi, ölənlərin və yaralananların sayı artdı. Bu faktları həmin dövrə aid İranda çıxan «Rəhbər», «Xavəre-no», «Zəfər», «Mərdom» qəzetləri etiraf edirlər. 1945-ci il martın 15-də Təbriz və bütün Azərbaycanda irticanın azqınlığına qarşı etiraz günü elan olundu» [15, s.55].

Azərbaycanda ziddiyyətlərin çulğalaşdığı və xalqda dözüm səbirinin tükəndiyi belə bir ağır şəraitdə İXP Azərbaycandakı milli və vətənpərvər qüvvələrin əksər hissəsini öz arxasınca apara bilmədi və onları vahid cəbhədə birləşdirməyə nail olmadı. Bunun mühüm səbəblərindən biri və bəlkə də, başlıcası İXP rəhbərliyinin Azərbaycan mühitində geniş xalq kütləsinin ümdə arzu və tələbləri ilə yaxından tanış olmaması, Azərbaycan təşkilatlarına Tehrandan göndərilmiş «komissarların» başçılıq etməsi idi. İXP yarandığı gündən onun rəhbərliyində və aparıcı işlərində elə adamlar var idi ki, onlar «proletar beynəlmiləlçiliyi» şüarı arxasında azərbaycanlıların və qeyri-fars xalqların milli hüquq və haqlarına biganəlik göstərir, yeri gəldikdə onları millətçilikdə ittiham edirdilər. Bu haqda çox saylı faktlar İXP-nin mətbuatında, ayrı-ayrı rəhbər xadimlərin çıxışlarında və yazılarında səsləndirilirdi. Millilik beynəlmiləlçiliyə düşmən ideya kimi qiymətləndirilirdi. 1945-1946-cı illərdə həlledici dövrdə İXP rəhbərliyi başlıca hədəfə yönələn istiqaməti müəyyənləşdirməkdə, ölkədəki situasiyanı düzgün qiymətlən-

dirməkdə yekdil deyildi. 1946-cı ildə Qəvamülsəltənə kimi mürtəce bir hökumətdə nazir postlarını tutmaq İXP rəhbərliyinin bağışlanmaz günahlarından idi. Qəvam hökumətinin mahiyyətini bilə-bilə onun hökumət kabinəsinə daxil olmağa razılıq vermək xəyanət həddinə yüksələn bir əməl idi. Tudənin sıralarında toplanmış sağlam əqidəli və savadlı adamların fikir və mülahizələrinə çox vaxt laqeyd yanaşılırdı. Milli düşüncəyə söykənmək əvəzinə «yoldaşların» ambisiyalı məsləhət və göstərişlərinə sözsüz əməl etmək İXP rəhbərliyinin faciəsi idi. Bu vəziyyət Tudəni təkcə milli ucqarlarda yox, elə mərkəzdə də problem və sarsıntılarla üzləşdirirdi və onu Azərbaycanda iflasa aparırdı.

Təəssüflə qeyd olunmalıdır ki, xarici «məsləhətə» qulaq asmaq meyli 1945-1946-cı illərdə Güney Azərbaycandakı hərəkatın rəhbərliyində də olmuşdur. Sonrakı bölməyə başlamamışdan əvvəl aşağıdakı qismən mübahisəli məsələlərin üzərində ötəri də olsa, dayanmağa ehtiyac vardır.

İXP-nin yaradılmasında, onun ilk dövr fəaliyyətində böyük təşkilatçılıq zəhməti olmuş S.C.Pişəvəri və onun silahdaşları partiyanın xətt-hərəkətindəki əyinti və qüsurları görüb onun Azərbaycan xalqının dərdlərinə əlac edə bilməyəcəyini yəqinləşdirdikdən sonra Azərbaycanda yeni tipli milli və demokratik məfkurəli siyasi bir təşkilata ehtiyac olduğunu anladılar. Bu düşüncə ADF yaranana qədər Azərbaycanda fəaliyyət göstərən «Azərbaycan cəmiyyəti», «Demokratiya ocağı», «Azadlıq cəbhəsi», «Anti-faşist cəmiyyət», «Fəhlə və zəhmətkeşlərin həmkarlar İttifaqı» və s. milli-demokratik ruhlu təşkilat və cəmiyyətlərdə fəaliyyət göstərən milli qüvvələrin qabaqcıl dəstələrinə mənsub olan adamları da, o cümlədən 1943-1944-cü illərdə Tehranda çıxan «Ajirçiləri» də düşündürürdü.

Azərbaycan Demokrat Firqəsinin yaradılması ideyasını büsbütün xaricə (Bakı və Moskvaya) bağlamaq istəyənlərin yanlışlığı onların həmin dövrdə Azərbaycandakı vəziyyətin real mahiyyətini və məzmununu bilməməsindən, buradakı insanların arzu və istəklərini, çəkilən əzab, əziyyət və zəhmətləri kölgədə qoyub, təsiredici amilləri həlledici səbəb kimi göstərmələrindədir.

Son illərdə həqiqətə söykənən bir sıra arxiv sənədləri əsasında yazılmış əsər və məqalələr, eləcə də Azərbaycanda, İranda, ABŞ və Avropa ölkələrində çap olunmuş bəzi kitablar, sənədlər, memuar və xatirələr 1941-1946-cı illərdə Güney Azərbaycandakı xalq hərəkatının bəzi kölgəli məsələlərini aydınlaşdırmaqda, bu mövzunun öyrənilməsində və tədqiqatçılara, o cümlədən bizə də kömək etmişdir.

## ADF-NİN YARANMASI ƏRƏFƏSİNDƏ AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ DURUM

40-cı illərin ortalarında Güney Azərbaycanda milli ruhlu, aydın məramlı, müxtəlif təbəqələri, fərqli baxışları öz sıralarına toplamağı bacaran kütləni vahid hədəfə yönəltmək qabiliyyətində olan bir təşkilata böyük ehtiyac duyulurdu. Nə İXP, nə də yuxarıda adlarını çəkdiyimiz cəmiyyətlər, təşkilat və birliklər bu ehtiyacı yetərincə təmin edə bilmədilər. Ölkə faktiki olaraq iki yol ayrıcında qalmışdı: «Ya mövcud vəziyyətlə razılaşıb şərtsiz olaraq irticaya təslim olmaq, ya da xalqın narazılığını və mübarizə ruhiyyəsini nəzərə alıb, onları təşkilatlandırıb, irtica qüvvələrinə qarşı səfərbər etmək lazım idi. 3-cü yol yox idi! 1941-ci ildən 1945-ci ilin payızınadək keşməkeşli, mürəkkəb və nəticəsiz mübarizə Azərbaycan azadxahlarını yorduğu halda, onlara vahid bir təşkilatın zəruriyyətini hiss etdirmişdi» *[39, s.26]*. ADF-nin yaranması ərəfəsində Azərbaycanda təkcə siyasi durum deyil, iqtisadi vəziyyət də bir çox cəhətdən ağır və dözülməz idi.

1945-ci ilin əkin mövsümündə təbii bəla çəyirtkələrin görünməmiş şəkildə əkin sahələrinə hücumu və nəticədə hasil olacaq taxılın və digər dənli bitkilərin zavala məruz qalması taxıl cəhətdən onsuz da korluq çəkən Azərbaycan əhalisini daha ağır imtahana çəkdi. Azərbaycana üz vermiş gözlənilməz təbii fəlakət Tehranı nəinki narahat etmirdi, əksinə, o bu aclıq və qıtlıqdan Azərbaycana qarşı bir təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdı. Aclıq və qıtlıqdan əziyyət çəkən əhalinin dövlətin adına ünvanladığı çoxlu sayda şikayət və ərizələr Mərkəzi hökümət tərəfindən Təbrizə gəlmiş general Cahanbaninin başçılıq etdiyi nümayəndə heyətinə təqdim olunsa da, nəticəsiz qalmışdı *[265,*

*s.63]*. Xammalın və texniki avadanlığın gətirilməsinə göstərilən süni maneələr Təbriz, Urmiya, Miyandab (Qoşaçay), Xoy, Ərdəbil və s. şəhərlərdəki sənaye müəssisələrinin və manufakturaların çox vaxt bağlanmasına səbəb olur və ya tam gücü ilə işləyə bilməsinə imkan vermirdi *[265]*. «Pəşminə», «Büstan», «Şayan» kimi toxuculuq fabrikləri, «İran gön-dəri zavodu» istehsalı dayandırmaq məcburiyyətində qaldılar. Həmin dövrdə Azərbaycanın valisi olmuş Dadvər 1945-ci ilin mayında Tehranda keçirilən mətbuat konfransında etiraf etməyə məcbur olmuşdu ki, «İqtisadi böhran və işsizliyin baş verməsi ilə əlaqədar olaraq Azərbaycan fabrik-zavodlarında yaranmış çətinliklərlə dövlət maraqlanmır. Əməli layihələr hazırlanıb Tehrana göndərilsə də, təəssüflər olsun ki, heç bir cavab verilmir» *[198, 14 ordebehişt, 1324]*.

1945-ci ilin baharında Məhəmmədrza şahın dəstəyi ilə baş nazir vəzifəsinə gəlmiş Möhsün Sədr (Sədrəl-əşrəf) öz kabinə üzvləri ilə birlikdə şahın sarayında təşkil olunmuş görüşdə iştirak etmiş və orada Azərbaycandakı vəziyyət xüsusi müzakirə olunmuşdur *[99, s.145-148]*. Bu görüşdən sonra Azərbaycandakı ağır sosial-iqtisadi vəziyyətə toxunulmamış, ancaq bu bölgədəki siyasi durumla bağlı tədbirlər paketi hazırlanmışdı. Bu tədbirlərdən biri Azərbaycan xalqına qarşı qəddarlığı və şovinist əhval-ruhiyyəsi ilə fərqlənən Möhtəşəmi Təbrizə vali təyin edildi. Möhtəşəminin Təbrizə gəlişi ilə əlaqədar Təbrizdə və Azərbaycanın digər yerlərində siyasi vəziyyət daha da kəskinləşdi. Dövlət məmurlarının, jandarma və polis qüvvələrinin azadlıq istəyən millətə qarşı zorakılıq və özbaşınalığı həddini aşdı.

Qacarlar hakimiyyəti dövründə İranın say-seçmə əyalətləri sayılan Təbriz, Urmiya, Ərdəbil və s. bölgələr Pəhləvi xanədanlığı dövründə məmləkətin hər cəhətdən geri qalmış ucqarlarına

çevrilmişdi. Bu haqda həmin dövrdə çap edilmiş qəzet, jurnal səhifələrində deyim, yazı və etiraflar yetərincə çoxdur. İranın mərkəz şəhərlərində dəmir və şose yolları, tünellər, limanlar, imarət və sarayların çoxu azərbaycandan iş dalınca cənuba üz tutan azərbaycanlıların ağır zəhmət və əməyi ilə salınmış, təkmilləşmiş və istifadəyə hazır vəziyyətə gətirilmişdi. Mərhum Mirzə Kuçikxan demiş «Tehran abad olmaq üçün bütün İran bərbad edilmişdi» *[137, s.34]*. Həmin dövrü də Güney Azərbaycandakı vəziyyəti ürək ağrısı ilə təsvir edən S.C.Pişəvəri «Bizi öz halımıza qoysunlar» adlı məqaləsində deyirdi: «Azərbaycan Tehrandan bir şey istəyir: onu öz halına qoysalar kifayətdir. Ona imkan versələr, öz əli ilə öz işlərini idarə etsin, bəsdir. Tehran bizi fələc və mətəl etmişdir. Göz acmağa yol vermir. Xırda iş görmək istəsək, nəfəsimizi kəsir, əl-qolumuzu bağlayır. Hər gün bir oğrunu ostandar, fərmandar ünvanı altında böyük bir çamadan verib üstümüzə göndərir. Təzə və iti bir ülgüc ilə min dəfələrlə qırxılmış başımızı qırxmaqdan utanmırlar» *[137, s.77]*.

1945-ci ilin yazında və yayında Güney Azərbaycanda sosial-siyasi və iqtisadi vəziyyətin ağırlaşması ilə bağlı yeni sosial-iqtisadi çətinliklər günbəgün artırdı. Belə mürəkkəb bir zamanda ADF-nin yaradılmasına qarşı İXP rəhbərliyinin bəzi üzvlərində yaranan qısqanclıq Azərbaycandakı milli qüvvələr üçün mövcud çətinlik və müşkülləri artırdı. «Güney Azərbaycan Demokrat firqəsinin yaradılması istiqamətində aparılan işlərdən Tehran tudəçiləri xəbər tutmuşdular. Onlar bütün vasitələrlə bu işi pozmağa çalışırdılar. Avqustun ilk günlərində Xalq partiyası rəhbərlərindən Ə.Avanesyan, Əmirxizi və Hüseyin Nuri (Fələstin mənşəli yəhudi – C.H.). Təbrizə gəldilər. Baş konsulla görüşdə Avanesyan bildirdi ki, Xalq partiyası MK-nın fikrincə, kənd yerlərində

mülkədarlara qarşı fəal çıxış etməyin vaxtı artıq çatmışdır. Bir neçə gündən sonra Tehrandan gəlmiş tudəçilər Xalq partiyası kəndli komitələri nümayəndələrinin müşavirəsini keçirdilər və zəngin təbəqəyə qarşı çıxış etmək barədə göstəriş verdilər» *[18, s.110]*. İXP-nin Təbrizə gəlmiş rəhbərləri tərəfindən verilmiş bu göstərişin yerlərdəki real vəziyyətlə (kəndlərdəki siyasi və psixoloji durumla) heç cür uzlaşmaması bir tərəfə qalsın, Firqənin yaradılması ərəfəsində əmələ gələ bilən qatma-qarışıqlıq, sabitliyin pozulması dövlətə və irtica qüvvələrinə firqəni qundağındaca boğmağa əlverişli imkan yaradırdı. ADF-nin yaradılması ərəfəsində firqə rəhbərliyinin bütün bəyanat, çıxış və yazılarında sabitliyin yaradılması, qanunlara riayət olunması, provokasiyalara yol verilməməsi, milli qüvvələrə təmkinli və səbirli hərəkət etmək dönə-dönə tövsiyə olunurdu *[137, s.36-37]*. Belə bir şəraitdə Azərbaycana gəlmiş İXP nümayəndələrinin xalqı yersiz üsyana qaldırmaq və İran Məclisinin (14-cü çağrış) tribunasından İXP rəhbərinin «qana qan!» çağırışı Azərbaycandakı siyasi durum üçün heç cür münasib deyildi.

ADF müəssisləri və firqənin yaradılmasını vacib sayanlar var qüvvə ilə Təbrizdə və Azərbaycanda sabitliyi qoruyub saxlamağa çalışdıqları bir vaxtda Təbrizə gəlmiş Tudədə «komissarları» - (Ardaşest Ovonesyan və Əmirxizi) bir dəstə solçu tudəçini yerli mülkədarlar əleyhinə qaldırdılar. Liqvan (Təbrizin yaxınlığında) kəndinə gəlmiş «solçu» tudəçilər kəndlilər tərəfindən dəstəklənmədi (döyülüb, geri qayıtdılar). Buna cavab olaraq tudəçi «komissar»lar 2 gün sonra, 1945-ci il avqustun 9-da 100 nəfərlik bir dəstə ilə yenidən Liqvana gəlib qanlı toqquşma törədirlər. Nəticədə 3 nəfər tudəçi və 3 nəfər Liqvanlı, o cümlədən 90 yaşlı varlı ağsaqqal Hacı Ehtişami, onun böyük oğlu və nökəri qətlə

yetirilir... Liqvandakı yersiz qanlı hadisəni törətməklə kifayətlənməyən tudəçi «komissarlar» Liqvanda həlak olanların dəfni ilə bağlı etiraz əlaməti olaraq Təbrizdə bazar-dükanın bağladılmasına və əhalinin küçələrə tökülməsinə cəhd etmişlər *[39],[18, s.110-111]*.

Liqvandakı hadisəni şişirdib az qala beynəlxalq bir terrora çevirməyə çalışan Tehran hakim dairələri hadisəni təhqiq etmək üçün general Cahanbaninin başçılığı altında xüsusi bir istintaq komissiyasını Təbrizə göndərdi. ($38^A$, s. 54; 171, s. 34-35) ADF-nin yaranması ərəfəsində Liqvan kəndində törədilmiş hadisə İXP-yə, onun Təbriz təşkilatına şərəf gətirmədi, əksinə onun Azərbaycandakı fəaliyyətinə kölgə salmış oldu. S.C.Pişəvəri Liqvandakı hadisəni qiymətləndirərkən bildirmişdi: «Xalqı kütləvi işlərə hazırlayan bir təşkilatın yürüş edib, orada yaranmış problemi güc ilə həll etməsi düzgün bir siyasət deyildi. Bu mövcud problemi həll etmək əvəzinə tudə partiyası üçün yeni problemlər ortaya çıxartmışdı» (39, s.46).

Beləliklə, Azərbaycanda milli-demokratik məramlı bir təşkilatın – ADF-nin yaradılmasına həm «sağdan» (Tehran), həm «soldan» (Tudə) yaradılmış maneələr onlar üçün gözlənilən nəticəni verməmişdi.

# AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN YARADILMASI

***«Azərbaycan Demokrat Firqəsinin təşkili ilə Azərbaycan xalqının inqilabi mübarizə tarixində yeni bir dövr açıldı».***

*3 sentyabr 1945-ci il ADF-nin xalqa müraciətindən*

ADF-nin yaradılması ərəfəsində Azərbaycandakı əhalinin sosial-iqtisadi vəziyyətinin ağırlığı, işsizlik, bahalıq, dövlət məmurlarının, xüsusən jandarm qüvvələrinin zorakılığı, özbaşnalığı və yersiz təqibləri haqqında şaha, baş nazirə, Məclisə saysız-hesabsız ərizə, şikayət və müraciətləri cavabsız qalırdı. «Xalq baş nazir Bayata müraciət etmişdi. Baş nazir Bayat isə bunun müqabilində demişdi: «Mən radio vasitəsi ilə xalqa müraciət etmişəm. Onlar ərizə və teleqraf vasitəsi ilə özünə zəhmət verməsinlər». Bayatdan sonrakı baş nazir Sədr isə bildirmişdi ki: «Bir teleqraf olmasın, min teleqraf olsun, mən bu kimi boş sözlərə cavab verməyəcəyəm» *[137, s.32]*.

Beləliklə, 40-cı illərin ortalarında Güney Azərbaycandakı iqtisadi və sosial durum, bundan əvvəlki bölmədə qeyd olunduğu kimi, həddən artıq ağır və dözülməz idi. Belə bir şəraitdə yuxarıda haqqında bəhs etdiyimiz təşkilat və cəmiyyətlərdə vətənin azadlıq və qurtuluşu uğrunda mübarizə aparanların qabaqcıl dəstəsi, xüsusən açıq fikirli ziyalılar rejimə qarşı vahid və milli məramlı bir təşkilatın yaradılmasına ehtiyac duydular. Bu məqsədlə şah rejiminə qarşı ağır mübarizə yolu keçmiş bir neçə nəfər ömrünün 10 ilini şah zindanında keçirmiş və həmin illərdə Tehranda yaşayan S.C.Pişəvəri ilə məsləhətləşməyə getdilər. Bu

məsləhətləşmədə Azərbaycandan gəlmiş adamlarla birlikdə Tehranda «Ajir» ətrafında toplaşmış azərbaycançılar da iştirak etmişlər (163, s. 25). S.C.Pişəvəri özü bu haqda sonralar yazmışdı: «…Xalqın əli ilə işə başlamaq, xalqın yumruğunun gücü ilə azadlığı təmin etmək – bu şüarla mən Təbriz azadxahlarının təklifi üzrə Tehrandan Azərbaycana hərəkət etdim» *[137, s.32]*.

S.C.Pişəvəri Tehrandakı fəaliyyəti dövründə burada yaşayan azərbaycançı qüvvələri «Ajir» qəzeti və yaradıcılarından biri olduğu «Azadlıq Cəbhəsi» ətrafına toplaya bilmişdi.[1] Təbrizlə yanaşı, Tehrandakı azərbaycançı dəstə də mövcud şəraitdə çıxış yolunu xalqı vahid hədəfə yönəldə bilən milli məramlı yeni bir təşkilatın yaranmasında görürdü *[92]*. Hələ 1943-cü ilin sonunda İran Məclisinin 14-cü çağırışına Təbrizdən vəkil namizəd verilərkən Pişəvəri bir neçə dəfə Azərbaycana gəlmiş və demək olar ki, Azərbaycanı başdan-ayağa gəzmiş, ölkənin və xalqın ehtiyacları ilə yaxından tanış olmuşdu. O, «Qəsri-Qacar» zindanında yatanda da, Kaşanda sürgündə olanda da, Tehranda yaşayanda da heç vaxt Azərbaycanla əlaqəsini kəsmədiyini öz yazı və xatirələrində dönə-dönə qeyd edir.

ADF-nin yaradılması ərəfəsində Təbrizlə yanaşı, Urmiya, Ərdəbil, Sərab, Xalxal, Zəngan, Mərənd, Xoy, Marağa, Əhər və digər bölgələrdə olan S.C.Pişəvəri yerlərdəki siyasi vəziyyətlə, xalqın güzəranı, istək və arzusu ilə bir daha yaxından tanış olduqdan sonra təşkilatlanmanın mübarizənin gündəmində durduğuna şübhə etmədi. O, tarixin verdiyi fürsətdən düzgün və bacarıqla istifadə etməyin önəmini qeyd edərək «Ayrı bir yol yoxdur» adlı məqaləsində yazırdı ki, «fürsətdən istifadə edə bilmək

[1]Bu haqda doktor Salamulla Cavidin xatirələrində ətraflı bəhs olunur.

özü böyük istedad və ləyaqət istəyir. Biz fürsəti əldən verməyə razı ola bilmərik» *[92, s.219]*. Zaman, məkan və tarixi şəraitin verdiyi imkandan istifadə edən Güney Azərbaycandakı milli qüvvələr 1945-ci il sentyabrın 3-də (12 şəhrivər 1324-cü il) Azərbaycan Demokrat Firqəsinin yarandığını «Azərbaycan Demokrat Firqəsinin müraciətnaməsi» adlı tarixi sənədlə bəyan etdilər*[137, s.1-12]*.

ADF-nin yaranması və Milli Hökümətin qurulmasını şərh etməzdən əvvəl, 1941-1946-cı illərdə Güney Azərbaycandakı xalq hərəkatı ilə bağlı mübahisəli və çox zaman təhrif olunmuş məsələ – Sovet faktoru üzərində dayanmaq zəruri və qaçılmazdır.

İkinci Cahan Savaşı başlandığı zamandan (sentyabr, 1939) etibarən Baltikyanı ölkələr, eləcə də «bölünmüş xalqlar»ın taleyi bəhanə edilərək Qərbi Belarus, Qərbi Ukrayna və Bessarabiya zəbt edildikdən sonra (sonuncu müvafiq Sovet respublikalarına birləşdirildi) Stalinin işğalçı planlarında növbəti obyekt kimi Güney Azərbaycan xüsusi yerlərdən birini tuturdu. İrandakı Sovet kəşfiyyatı buradakı vəziyyət haqqında lazımi məlumatı vaxtaşırı Moskvaya çatdırırdı. Stalin Güneydə öz milli və adi insani hüquqları uğrunda mübarizəyə qalxmaq üçün hazır olan sosial-siyasi qüvvələrin mövcudluğundan xəbərdar idi. Onu məlumatlandırmaqda Quzey Azərbaycanın o vaxtkı rəhbəri M.C.Bağırovun xüsusi rolu və xidməti olmuşdur.

Sovet ordusunun İranın şimalına daxil olması, Rza şahın hakimiyyətdən getməsi, Cənubi Azərbaycandakı vətənpərvər ziyalıların milli dirçəliş yolunda fəaliyyətə başlaması, eyni zamanda Sovet ordusu sırasında gəlmiş doğma qardaşlarla yaxınlıq meyli Stalinin Güney haqqında planlarına tam cavab verirdi. Qırmızı Ordunun İrana yeridilməsi ilə M.C.Bağırov başda ol-

maqla, onun rəhbər partiya və dövlət işçiləri, ziyalıları, hərbi qulluqçular və s. üzərinə fövqəladə və səlahiyyətli bir missiya – Cənubi Azərbaycanda milli-mədəni və siyasi dirçəlişə yardım vəzifəsi qoyulmuş oldu. 1941-ci il oktyabrın 11-dən Təbrizdə azəri türkcəsində «Vətən yolunda», Urmiyada isə «Qızı əsgər» qəzetləri nəşrə başladı. Təqribən eyni vaxtda (oktyabrın ortalarından) Azərbaycan Opera və Balet Teatrının və müxtəlif musiqi kollektivi dəstələrinin qastrolları və bu kimi onlarla digər tədbirlər 1941-1945-ci illərdə Cənubi Azərbaycanda milli oynayışda önəmli rol oynamışdır. Yuxarıda adı çəkilən «Azərbaycan cəmiyyəti» və onun mətbu orqanı olan «Azərbaycan» qəzetinə göstərilən yardım, milli ruhlu ziyalıların təşviq olunması, gənc yazarların istiqamətləndirilməsi və s. Azərbaycanın cənubu üçün o zaman son dərəcə əhəmiyyətli mənəvi yardım və təşəbbüslər idi.

1945-ci ilin yayında Güney Azərbaycanda milli partiyanın yaradılması zərurəti meydana gəldikdə bu iş bir «… neçə namizəd içərisindən S.C.Pişəvəriyə həvalə edildi. Məsələ ilə bağlı o, avqust ayında Bakıda olmuş, burada təşkilatın adı və məramnaməsi layihəsinin müzakirəsi keçirilmiş və bəyənilmişdi» *[18, s.104]*. Arxiv sənədlərindəki bəzi məlumat və yazılara inansaq belə, burada qardaşlıq məsləhətləşməsi cəhətdən qeyri-təbii bir şey yoxdur. Lakin 21 Azər hərəkatını bütövlükdə Sovetlərə bağlamaq ən azı haqsızlıqdır. Hərəkata qoşulmuş qüvvələrə və bu yolda tökülən qanlara qarşı hörmətsizlik və qara ləkədir.

Azərbaycan SSR vasitəçi olmaqla Güney Azərbaycanda fövqəladə mühüm hadisələrə hazırlıq işləri gedirdi. O zamankı şəraitdə Güneydə milli azadlıq hərəkatının zirvəsinə doğru yolda Sovetlər İttifaqının yardımından və Quzeydəki azərbaycanlı Sovet rəhbərliyinin məsləhətlərindən – zamanın və taleyin verdi-

yi nadir şansdan istifadə olunması, şəksiz, məqbul hərəkət idi. Bir də ona görə məqbul idi ki, bütün məsləhətləşmələr və yardımlar güneylilərə dost-doğma olan qüzeyli soydaşlarının əli ilə edilirdi. Bu qardaş yardımlarından imtina özü böyük və bağışlanmaz yanlışlıq olardı. Bununla yanaşı, xüsusi vurğulanmalıdır ki, Sovetlərin hərəkatı öz istədikləri məcraya yönəltmək cəhdlərinə baxmayaraq, 1941-1946-cı illər hərəkatı Güney Azərbaycanın öz sosial-siyasi zəminində yaranıb inkişaf etmiş və hərəkatın rəhbəri Seyid Cəfər Pişəvəri əvvəldən axıradək öz müstəqilliyini çox çətinliklə də olsa, qoruyub saxlamağa çalışmışdı. S.C.Pişəvəri çox vaxt «məsləhət və göstərişləri» qəbul edib, lakin öz düşüncəsi ilə hərəkət etməyi daha üstün tutub. Bu hal Sovet rəhbərliyinə bəlli olduğundan S.C.Pişəvəri təzyiqlərə məruz qalır və çox vaxt izlənilirdi. Xosrov Mötəzed özünün «Şah ordusunun ürəyi» kitabında 1945-1946-cı illərdə S.C.Pişəvəri ilə işləyənlərin etiraflarına əsaslanıb yazır ki, «…Təbrizdəki Sovet konsulu Krasnik cənablarının göstərişi ilə Sovet xəfiyyəsinin Təbrizdəki nümayəndəsi vasitəsi ilə Pişəvərinin iş otağına və evinə məxfi səs yazan aparat qoyulmuşdur. Pişəvəri özü bunu hiss etdiyindən bəzi ciddi və həsas söhbətləri öz həmkarları ilə ya kağız üzərində yazmaqla və ya otaqdan kənarda aparırdı» *[129, s.444-445]*. Bunu N.Cahanşahluda öz xatirələrində qeyd edir. (167, s. 241).

ADF-nin yaradılması, fəaliyyəti və 21 Azər nehzəti ilə bağlı sovet faktoru üzərində dayanmağa ona görə ehtiyac vardır ki, son 70 il ərzində Güney Azərbaycandakı 1941-1946-cı illər milli azadlıq hərəkatı haqqındakı həqiqətlər həm İranda, həm keçmiş Sovet İttifaqında (hətta bəzən müstəqil Azərbaycan respublikasında), həm də Qərbdəki tarixşünaslığında real həqiqətlər bir çox vaxt şübhə altına salınır və ona müxtəlif çalarlarda rənglər

verilir. Bəzən Güneydəki hərəkatın bilavasitə Sovet rəhbərliyinin göstərişi və İrandakı Sovet ordusunun gücü ilə yarandığı, hərəkatın rəhbərləri, o cümlədən S.C.Pişəvərinin ancaq Sovetlərin diktəsi ilə hərəkət etdiyi söylənilir. Həqiqətdən uzaq olan bu tezislər hər şeydən əvvəl 1941-1946-cı illərdə Güneydəki xalq hərəkatının real məzmunundan, hərəkata aid sənədlər və olaylardan xəbərsiz və ya real durumla yetərincə və obyektiv qiymətləndirməməkdən irəli gəlir. Xoşbəxtlikdən son illərdə keçmiş Sovet məkanında aşkarlığa yol verilməsi, məxfi arxivlərin açılması və İranda 1979-cu ildə şahlıq rejiminin yıxılması ilə bağlı Güney Azərbaycandakı Sovet faktorunun həlledici yox, təsiredici məqamlarına aid bir sıra faktlar, sənədlər, məqalə və kitablar işıq üzü görə bildi.

1941-1946-cı illərdə Güney Azərbaycandakı xalq hərəkatında, xüsusən 21 Azər nehzətində və Milli Hökümətin fəaliyyətində Sovet faktoru ilə əlaqəli bəzi olayları və həqiqətləri inkar etmək də mümkün deyil. Lakin ayrı-ayrı faktları və olayları Sovetlərin hərəkata müdaxiləsi timsalında ümumiləşdirmək, xalqın mübarizəsini başdan-ayağa Moskavaya bağlamaq insafsızlıq, ədalətsizlik və qeyri - obyektivlikdən başqa-bir şey deyildir.

**Bütün ictimai hərəkatlarda olduğu kimi 1941-1946-cı illərdə Güney Azərbaycanda baş vermiş xalq hərəkatı da tam ideal, qüsursuz və əyintilərdən xali deyildi[1]. Bunların bir çoxunun həmin dövrün tarixi şəraiti, zaman, məkan və digər amillərlə bağlı olmasına şəkk yoxdur. Lakin bunlar eyni zamanda milli zəmin əsasında yaranmış hərəkatın xəlqiliyinə, milli azadlığın mahiyyətinə kölgə salmamalıdır.**

---

[1]Bu haqda sonrakı səhifələrdə bəhs olunacaqdır.

1945-1946-cı illərdə Güneydəki milli azadlıq mübarizəsi tarixinə «12 Şəhrivər müraciətnaməsi» (3 sentyabr) kimi daxil olan sənəd, əslində, yeni yaranan ADF-nin fəaliyyət proqramını, görüləcək işlərin məzmununu əks etdirən tezislər idi. Müraciətnaməni imzalayanların (77 nəfər) çoxu Səttarxan (1905-1911) və Xiyabani hərəkatının (1918-1920) iştirakçıları və ya onların övlad və qohumları idi *[136]*. Müraciətnamə 3 bölmədən ibarət idi: firqənin yaradılmasını zəruri edən amillər; firqənin icra edəcəyi işlərin şüarları; müraciəti edənlərin adları.

Müraciətdə dünyanın beynəlxalq durumu şərh edildikdən sonra, əyalət və vilayət əncümənlərinə fəaliyyət üçün icazə verilməsi irəli sürülür. Müraciətdə əncümənlərin təzə bir fikir olmadığı və onun «Məhəlli ixtiyarat və federasion üsulunun səthi və sadə» forması olduğu qeyd edilir və dövlətdən əncümənlərin fəaliyyətə başlamasına icazə verilməsi tələb olunur. «Biz istəyirik ki, İranın istiqlaliyyətini və tamamiyyətini hifz etməklə bərabər, öz daxili işlərimizi idarə etməkdə muxtar və azad olaq» *[137, s. 5]*. Firqənin yaradılması ilə milli azadlıq mübarizəsi tarixində yeni bir dövrün başladığı elan olunur. Müraciətdə bildirilirdi ki, alman faşizminin məğlubiyyəti ilə bağlı bir millətin başqa bir millət üzərində ağalığına son qoymaq vaxtının çatdığı bir zamanda, Azərbaycan xalqının azadlıq mübarizəsinə rəhbərlik etmək üçün möhkəm və intizamlı bir təşkilata ehtiyac olduğundan Azərbaycan Demokrat Firqəsi bu ehtiyacdan doğulmuş bir təşkilatdır *[137, s. 6]*. Müraciətdə Azərbaycan Demokrat Firqəsi sinfi mübarizəni qəbul etmədən, bütün vətənpərvər milli qüvvələri firqə ətrafında Azərbaycanın azadlığı və hüquqları uğrunda birləşməyə çağırır.

Bu çağırışla əlaqədar ADF aşağıdakı tələbləri (12 şüarı) irəli sürmüşdür. Həmin tələblərin qısa məzmunu belədir:

– **İranın istiqlaliyyət və bütövlüyü saxlanılmaqla Azərbaycana daxili azadlıq və muxtariyyətin verilməsini;**

– **Əyalət və vilayət əncümənlərinə demokratik seçkilərin başlanmasını;**

– **Azərbaycan məktəblərində üç sinfə qədər dərslərin ancaq Azərbaycan dilində aparılması, sonrakı siniflərdə tədris ana dili ilə bərabər fars dilində aparılması və milli darülfünun açılışına səy edilsin;**

– **Sənayeni inkişaf etdirmək, əl və maşın sənayesini genişləndirmək, yeni sənaye müəssisələri yaratmaq, işsizliyin aradan götürülməsinə çalışmaq;**

– **Daxili və xarici ticarətin inkişafı və bu sahəyə mərkəzi dövlət tərəfindən törədilən süni maneələrin aradan qaldırılması;**

– **Azərbaycan şəhərlərinin abadlaşdırılması** və bunun üçün şəhər əncümənlərinin müstəqil fəaliyyətinə meydan vermək, Təbrizin abadlaşdırılmasına və su təchizatının yaxşılaşdırılmasına çalışmaq;

– **Kəndlərin ehtiyaclarını təmin etmək** üçün əsaslı addımlar götürülsün, ərbab-kəndli münasibətləri nizama salınsın, yersiz vergilər ləğv edilsin, xalisələrin və Azərbaycandan qaçan mülkədarların torpaqları əvəzsiz olaraq kəndlilər arasında bölüşdürülsün, kəndlilər torpaq və əkin vasitələri ilə təmin edilsin;

– **Azərbaycan üçün fəlakət olan işsizliyin** qabağını almaq üçün təsirli tədbirlər paketi hazırlamaq və icra etmək, fabrik,

zavod, ticarət, əkinçilik, yolların çəkilişi o dərəcədə sürətləndirilməlidir ki, işsizlərin işlə təmin olunmasına kömək göstərsin;

– **Məclisə seçkilər azad və demokratik qaydada keçirilsin,** Azərbaycan əhalisinin sayına görə deputatların heç olmasa, üçdə biri Azərbaycandan olmalıdır, halbuki Azərbaycana cəmi 20 yerdən artıq verilmir;

– **Azərbaycandan toplanan vergilərin yarıdan çoxu** Azərbaycanın ehtiyaclarına sərf olunsun və qeyri-müstəqil vergilər əhəmiyyətli dərəcədə azadılsın;

– **Azərbaycan Demokrat Firqəsi bütün demokratik dövlətlərlə** yaxşı münasibətin yaradılmasını istəyir, bu işə mane olan şəxslər dövlət işlərindən kənarlaşdırılsın və onların ictimai və siyasi fəaliyyətlərinə meydan verilməsin.

Müraciətin axırında onu imzalayanlar əmin olduqlarını bildirirlər ki, istər daxildəki və istərsə də xaricdəki vətənsevər azərbaycanlılar bu müqəddəs məqsədə çatmaqda onlarla həmrəy olacaqlar. Biz əvvəl öz evimiz olan Azərbaycandan başlayırıq və inanırıq ki, Azərbaycanın islah və tərəqqisi təbii olaraq İranın tərəqqisinə səbəb olacaqdır və vətənimiz bu vasitə ilə quldurların və mürtəcelərin cəngəlindən nicat tapacaqdır *[137, s.10]*.

Müraciətdən aydın görünür ki, ADF yarandığı gündən İranın ərazi bütövlüyü daxilində əncümənlərin fəaliyyətinə imkan vermək çərçivəsində Azərbaycana muxtariyyət istəmişdi. Bunun üçün məşrutə dövründə qəbul edilmiş Qanun Əsasinin Əyalət və Vilayət Əncümənlərinin səlahiyyətlərinə aid 87, 89, 91, 98-ci maddələrindəki hüquqların genişləndirilməsi, Əyalət və Vilayət Əncümənlərinə müstəqilliyin verilməsi istənilirdi. **Müraciətdə muxtariyyətin federativ dövlət səviyyəsinə qaldırılması arzu-**

**lanır, bir sıra çoxmillətli demokratik ölkələrdə millətlərin federativ dövlət sistemində yaşadıqları qeyd olunur.** «…Milli ixtiyarat və federasion üsulunu gözləməklə millətlərin tam fərdləri məmləkətin müqəddəratını həll etmək və dövlət işlərinə müdaxilə etməyə müvəffəq olmuş» *[137, s.1]*. Millətlərin öz daxili işlərini özlərinin həll etməyi mərkəzi dövlətə zərbə olacağını iddia edənlərə cavab olaraq müraciətdə deyilir ki, «…Məşrutəxahlıq cərəyanını vücuda gətirənlər və İran qanun əsasını yazanlar əyalət və vilayət əncümənlərini irəli çəkib, çalışmışlar ki, bu vasitə ilə ümumiran xalqını məmləkətin müqəddəratını təyin etməkdə şərik etsinlər. …Əyalət və vilayət əncümənlərindən sükut ilə keçilməsi İran millətlərinin ictimai hüquqdan məhrum edilməsi deməkdir» *[137, s. 1-2]*. Daha sonra müraciətdə göstərilir ki, İrandakı rejim bu məmləkətdə yaşayan millətlərin hüququna hörmət etməyib, onlara muxtariyyət verməsə, onlar «zülm və fişardan, yoxsulluqdan və biçarəlikdən yaxa qurtara bilməyəcəklər» *[137, s.1-2]*.

Beləliklə, ADF-nin yaradılması ilə bağlı müraciət müxtəlif sosial-siyasi, iqtisadi və mədəni tələblərlə yanaşı, ölkədə Əyalət və Vilayət Əncümənlərinin azad və müstəqil fəaliyyətinə icazə verilməsi tələbi, qeyri-fars xalqlara muxtariyyət verilməsi və ya federativ dövlət yaradılması təklifi ilə tamamlanır.

Güneydəki hadisələrin (1941-1945) canlı şahidi olmuş görkəmli alim və ədəbiyyatşünas C.Xəndan özünün «Uğurlu yol» kitabında yazır ki, 12 şəhrivər hadisəsi «…nəinki İran mürtəcelərini, hətta onların xarici havadarlarını da böyük təşvişə salır… Yaşadığımız əsrdə baş verən inqilabların hamısına Şərq ölkələri içərisində birinci dəfə cavab verən Azərbaycan olmuşdur… O, bu dəfə daha mütəşəkkil bir şəkildə öz istiqlaliyyəti uğrunda

mübarizəyə girişmişdi» *[19, s.127]*. Daha sonra müəllif yazır: «Təbriz, Xoy, Rzaiyyə və başqa şəhərlərdə divarlara vurulan **bu müraciətnaməni oxumaq və dinləmək üçün toplanan adamların sayını müəyyənləşdirmək çox çətin idi. Demokratik mətbuat dərhal bu müraciətnamə haqqında məlumat verir, qəzetlərin çoxu onun əsas yerlərini dərc edirdilər**»*[19]*.

ADF-nin yaradılması ilə bağlı milli tələblərlə mərkəzi hökümətə ünvanlanan müraciətnamə ümumiranda, o cümlədən Azərbaycanda irtica qüvvələrini qəzəbləndirməklə yanaşı, həm də çaşdırmışdı. Azərbaycandakı hadisələrə rəğbət göstərən və **«12 Şəhrivər» müraciətnaməsi haqqında Tehranda və digər iri şəhərlərdə məlumat verən qəzetlər dövlət tərəfindən bağlanıldı, naşirlər təqib olunmağa başlandı.** Hətta iş o yerə çatdı ki, Tehranda yerləşən «Birləşmiş mətbuat şurası» 1945-ci il sentyabrın 15-də İran rejiminin özbaşnalıq və zorakılığı haqqında Londona müttəfiq dövlətlərin Xarici İşlər Nazirləri Şurasına şikayət teleqramı ilə müraciət etmək məcburiyyətində qaldı *[203, 20.09.1945]*.

Tehran rejiminin və irtica qüvvələrinin Azərbaycandakı hadisələrin qabağını almaq üçün bütün vasitələrə (terror, həbs, təqib, aldatma və s.) əl atmasına baxmayaraq, milli, demokratik və azadlıq şüarları ətrafında geniş kütlənin birləşməsi və mübarizəyə qoşulmasının qarşısı alına bilmədi.

1945-ci il sentyabrın 3-də (1324-cü il şəhrivərin 12-də) ADF-nin əsasını qoyan 77 nəfər görkəmli azərbaycanlı şəxsin imzası ilə Azərbaycan Demokrat Firqəsinin yaradılması haqqında müraciətnamə ilə yeni bir siyasi təşkilatın - Azərbaycan Demok-

rat Firqəsinin yaradıldığı elan olundu[1]. **ADF-nin yaradılmasında Məşrutə inqilabının və Şeyx Məhəmməd Xiyabani hərəkatının fəalları, eləcə də məşhur «53-lər»in nümayəndələri yaxından və fəal iştirak etmişlər. Bunlardan Hacı Əzim xan, Nizam əl-dövlə Rəfii, Müstəşardövlə, S.C.Pişəvəri, Nurulla Yekani, Nemət Ağavəli Səmsam, Şeyx Borhani, Əli Fitrət, Əli Qəhrəmani, Tağı Şahin, Təsuclu Camal, Mirkazım Ələm, Cəfər Ədəbi, Mirəbdülhüseyn Faiqi və s. bu şəxsiyyətlər Məşrutə hərəkatında və Xiyabani qiyamında yaxından iştirak etmiş və bir çoxu isə Rza şah diktaturası əleyhinə ağır və məşəqqətli mübarizə yolu keçmiş məşhur insanlar idilər** *[262, 1380, №11,s.9]*. Firqənin yaradılması və onun müraciətnaməsində irəli sürülən müdəalar ilk gündən azadlıq təşnəsi olan bir millətin bütün sinif və zümrələri tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Bunu firqənin rəhbərliyi adına Azərbaycanın müxtəlif bölgələrindən, müxtəlif peşə sahiblərindən: fəhlə, kəndli, tacir, mülkədar, ziyalı, ruhani və s. gələn çoxsaylı teleqram və məktublardan bir daha aydın görmək olur *[188, 191, şəhrivər 1324]*. Firqənin yaradılmasından 2 gün sonra (14 şəhrivər) nəşrə başlayan «Azərbaycan» qəzeti 50 ildən çox bu firqənin mərkəzi orqanı kimi çap olunmuş və kütləleri firqə ətrafında toplamaqda, məram və məqsədi doğma dildə onlara çatdırmaqda əvəzsiz rol oynamışdı *[52]*. «12 Şəhrivər» müraciətnaməsindən bir həftə sonra Təbrizin «Şire-Xurşid» teatrosunun salonununda S.C.Pişəvəri ADF-nin təsisi və onun şüarları ilə bağlı geniş məzmunlu və əhatəli bəyanat vermişdi. 90 dəqiqəlik bu bəyanat, əslində, yeni

[1]Müraciətnaməni siyasi xadimlərlə yanaşı elm və mədəniyyət xadimi, incəsənt nümayəndələri, ədliyyə vəkilləri, müəllimlər, fəhlələr, kəndlilər, sənətkarlar, istehsal müəssisə sahibləri, iş adamları və s. imzalamışlar.

yaranan partiyanın fəaliyyət proqramının müfəssəl şərhi idi *[137, s. 30-45]*. Təbrizin «Şire-Xurşid» teatrosunun salonununda Azərbaycan və Azərbaycan xalqının demək olar ki, bütün ehtiyac və problemlərinə toxunan və onlara məntiqlə açıqlama verən bu çıxışın sonunda S.C.Pişəvəri deyirdi: «Təkrar edirəm: biz İranın istiqlalına kamilən əlaqəməndik. Onun bir qarış torpağını ayrı bir ölkəyə vermək fikri əbədən meydanda yoxdur. Bizim istəyimiz Qanuni-əsasinin bizə verdiyi daxili haqq və muxtariyyətdən ibarətdir. Dil məsələsi də bunun cüzvüdür» *[137, s.45]*. «Azadlığı verməzlər, alarlar» şüarına şərik çıxan S.C.Pişəvəri «… haqqı almaq şayəd asan bir işdir, onu saxlamaq şərtdir», - deməklə xalqı alınacaq azadlığı əldə saxlamağı bacarmağa çağırırdı.

**«12 Şəhrivər» bəyannaməsi ilə yarandığını elan edən ADF-nin sıralarına ilk gündən axın başlandı *[4, s.53-56]*. Bunun başlıca səbəbi illərdən bəri milli zülm və əsarət altında yaşayan, hüquqları əllərindən alınmış insanların firqənin müraciətindəki müddəalarda öz istək və arzularının həyata keçirilməsi işığını görməsi idi.**

1945-ci il sentyabrın 7-də İXP-nin Azərbaycan Əyalət təşkilatı geniş konfrans çağırdı. Konfransın gündəliyində bir məsələ dururdu: Yeni yaranmış ADF-yə və «12 Şəhrivər» müraciətnaməsindəki müddəalara münasibət. Konfrans iştirakçılarının çox böyük əksəriyyəti ADF-nin Azərbaycan xalqının ehtiyaclarına və milli istək və tələblərinə düzgün yanaşdığını qeyd etdikdən sonra İXP Azərbaycan təşkilatı rəhbərlik və təşkilati cəhətdən İXP ilə əlaqəni kəsib, Azərbaycan Demokrat Firqəsinə birləşdiyi (ilhaq olunduğunu) haqda qərar qəbul edirlər. Bu qərardan 5 gün sonra, 1945-ci il sentyabrın 12-də İXP-nin Azərbaycandakı bütün təşkilatları ADF-nin sıralarına daxil oldular *[188, 23 şəhrivər, 1324]*.

1945-ci il sentyabrın 13-də (1324-cü il şəhrivərin 22-də) Təbrizdə ADF-nin ilk konfransı çağırıldı. Konfransa bütün bölgələrdən firqə fəalları, ağır mübarizə yolu keçmiş şəxslər dəvət olunmuşdular. Konfransda Azərbaycanda və İranda siyasi vəziyyət müzakirə edildikdən sonra 11 nəfərdən ibarət müəssislər komitəsi yarandı və firqənin 1-ci qurultayını (konqresini) çağırmaq ona həvalə edildi. İXP-nin Azərbaycan əyalət təşkilatının başçısı S.Padiqan, İran Həmkarlar Şurasının Azərbaycan üzrə sədri M.Biriya təmsil etdikləri təşkilatların adından bəyanat verərək ADF-nin sıralarına daxil olmaq arzularını bildirdilər. Milli qüvvələrin vahid hədəfə doğru birliyini yaratmaq işində bu hadisə çox önəmli idi. Konfransda vətən və xalqın milli arzuları ilə bağlı M.Etimadın, Ə.Fitrətin, B.Azəroğlunun, Mədinə Ələkbərzadənin, Müzəffər Derəfşinin, aşıq Hüseyn Cavanın oxuduğu şeirlər konfransın milli ruhunu daha da yüksəltmiş oldu. Konfrans yekdilliklə S.C.Pişəvərini müəssislər komitəsinə sədr, Şəbüstərini isə müavin seçdi, qurultaya hazırlıq və qurultayın çağırılması işini onların başçılıq etdiyi komitəyə tapşırdı *[136, s.22]*.

ADF-nin 1-ci qurultayı çox intensiv hazırlıqdan sonra 1945-ci ilin oktyabrın 2-də (1324-cü il mehrin 10-da) Təbrizdə Firdovsi salonunda keçirildi və iki gün davam etdi. Qurultayda Azərbaycanın bütün bölgələrindən firqə üzvləri tərəfindən seçilmiş 277 nəfər nümayəndə iştirak etmişdi. Nümayəndələr sosial-iqtisadi vəziyyətlərinə görə bütün sinif, təbəqə və zümrələri təmsil edirdilər *[136, s. 22], [4, s. 60-61]*. Qurultay partiyanın məramnamə və nizamnaməsini qəbul etdi *[140]*. I Konfransdan keçən qısa müddətdə müəssislər komitəsinin fəaliyyətinə yüksək qiymət verib, ölkədəki sosial-siyasi və iqtisadi vəziyyəti ətraflı götür-qoy etdi. Firqəyə xalqın kütləvi axını ilə əlaqədar rejim

məmurlarının, irtica qüvvələrinin fəallaşdığı da qeyd olundu. Hətta Qəvamül-Səltənə kimi mürtəce və hiyləgər bir adamın əli ilə Tehranda «Hizbe-demokrat» (demokrat partiyası) adlı alternativ qondarma təşkilat yaradıldı. Mürtəce qüvvələrin Qəvampərəst qanadı bu təşkilat ətrafında toplandı.

Azərbaycandakı hərəkatda aqrar-kəndli məsələsinin ön planda durduğunu başa düşən Məhəmmədrza şah 1945-ci il oktyabrın 15-də «Royter» müxbiri ilə müsahibəsində ölkədə «ədalətli» torpaq islahatı aparmaq söhbətini ortaya gətirməklə Azərbaycandakı hərəkatı bir qədər sakitləşdirmək istəyirdi *[188, 10 mehr, 1324]*. Hələ Rza şah vaxtı Urmiyada vali (Ostandar) olarkən öz qəddarlığı ilə ad qazanmış Mehdi Fərruxini Məhəmmədrza şah Azərbaycana vali göndərmək haqqında əmr verir. Təbrizdə «sabitlik» yaratmaq məqsədi ilə gəlmiş M.Fərruxi burada vulkan kimi püskürməyə hazır olan vəziyyəti görüb geri qayıtmaq məcburiyyətində qalır *[188, 11 mehr, 1324]*. Murtazaqulu Bayat kimi anti-azərbaycançı və mürtəce bir şəxsin Azərbaycana vali göndərilməsi də bir fayda vermədi. S.C.Pişəvərini söhbət üçün kənar bir evə *[178, s. 78-79; 177, s. 308]* dəvət edən vali Bayat söhbətin tam nəticəsiz qurtardığını etiraf etmişdi. Bütün bunlar Azərbaycandakı xalq hərəkatının yüksəlişi qarşısında şahın və Tehran rejiminin çaxnaşmaya düşməsindən xəbər verirdi.

ADF-nin I qurultayı (2-3 oktyabr 1945) özünün son 6-cı iclasında ADF-nin MK (42 nəfər) və Mərkəzi Təftiş Komissiyasını (12 nəfər) seçdi. Qurultay eyni zamanda firqənin taktika və strategiyasına aid bir sıra dəyərli təkliflərin əməli fəaliyyətdə nəzərə alınmasını məsləhət gördü. Bununla birlikdə I qurultay ADF-ni Azərbaycandakı xalq hərəkatına rəhbərlik edəcək yeganə və səlahiyyətli təşkilat kimi rəsmiləşdirmiş oldu. *[14, s. 62]*

I qurultayın ADF tarixində önəmli yer tutmasının mühüm səbəblərindən biri siyasi bir təşkilat kimi ADF-ni təsdiq edib, onun məramnamə və nizamnaməsini qəbul etməkdən əlavə, mübarizəyə qalxmış kütləni təşkilatlandırmaq idi. **Qurultay nümayəndələrinin son sözü bu olmuşdur ki, «Biz İran və Azərbaycanın nicatını bu firqənin bayrağı altında görürük. Onun müqəddəs şüarlarını həyata keçirmək üçün canımız, malımız və namusumuz ilə mübarizə edəcəyik»**[1] *[137, s.89]*.

**ADF I qurultayının materiallarında və qəbul edilmiş məramnamədə heç bir «izmdən» söhbət açılmır. Proletar diktaturasından, «bütün ölkələrin proletarları birləşin!» ənənəvi kommunist şüarından və nə də sosializm, kommunizmdən, sinfi mübarizədən ad belə çəkilmir.** Qurultay Azərbaycan cəmiyyətini milli azadlıq və demokratik tələblər ətrafında başlıca hədəfə doğru vahid cəbhədə birləşdirməyi özü üçün əsas strategiya olaraq qəbul etmişdi. Azərbaycan demokratik firqəsi liderlərindən olan doktor S.Cavid Tehranda kütləvi mitinqlərdən birində demişdir: «Azərbaycan xalqı nəzəri bəhslərdənsə əməli işə keçmişdi. Xoşbəxtlikdən Azərbaycan xalqının rəhbərləri başa düşmüşlər ki, bütün təbəqələrin vəhdətini yaratmaq lazımdır. İstər fəhlə olsun, istər mülkədar, istər tüccar olsun, istər kəndli olsun fərqi yoxdur, onların düşməni birdir» *[199]*.

Azərbaycanda və İranda siyasi vəziyyətin kəskinləşməsi, ADF-nin I qurultayı ərəfəsində və qurultaydan sonra milli qüvvələrin daha artıq oyanışında diqqəti cəlb edəcək dərəcədə əmələ gələn dirçəliş mərkəzi dövləti daha artıq narahat etməyə başladı.

---

[1]Bu dövrün siyasi olayları haqqında bir sıra dəyərli məlumatlar Mirqasım Çeşmazərin 90-cı illərin əvvəllərində mətbuatda çap etdirdiyi məqalələrdə verilmişdir.

Dövlət XV çağırış məclisə seçkiləri belə təxirə salmaq məcburiyyətində qaldı. O yaxşı bilirdi ki, əgər bu şəraitdə XV məclisə seçkilər keçirilsəydi, məclisdə demokratik qüvvələrin mütləq üstünlüyü şəksiz olacaqdı.

1945-ci ilin sonunda Güney Azərbaycanda siyasi hadisələrin istiqamətləndirilməsində, Xalq Konqresinin çağırılmasına hazırlıqda və nəhayət silahlı xalq könüllüləri - fədai dəstələrinin **yaradılmasında 18 noyabr 1945-ci ildə (17 Aban 1324) çağrılmış ADF-nin II geniş plenumunun xüsusi rolunu qeyd etmək lazımdır** *[137, s.290-296]*. Plenumun gedişində əncümənlərin bərpa edilməsi, daxili muxtariyyətin əldə olunması, mövcud şəraitdə qüvvələr nisbətinə «zora zorluqla» cavab verilməsi üçün situasiyanın yetişdiyi xüsusi olaraq qeyd edilmişdi. Milli azadlıq hərəkatında münasib fürsətin ələ düşməsini qeyd edərək S.C.Pişəvəri yazırdı ki: **Biz bu fürsəti əldən verməyə razı ola bilməzdik *[92, s.219]*. İki gün davam edən geniş plenum, əslində, qarşıdan gələn günlərdə həyata keçiriləcək tədbirlərin proqramını vermişdi.** Geniş kütlənin siyasi fəallığı və xalq tərəfindən seçilmiş nümayəndələrin iştirakı ilə Xalq Konqresinin çağrılmasına hazırlıq II plenumun qərarlarında xüsusi qeyd olunmuşdu.

# ÜMUMAZƏRBAYCAN XALQ KONQRESİ

***«Biz əvvəl işə başladıqda çox sadə bir sürətdə azadlığımızı təmin etmək istəyi ilə əyalət və vilayət əncümənləri şüarını meydana atdıq. Tehran və onun başçısı dedi: bir teleqraf olmasın, min teleqraf olsun, biz bu haqqı verə bilmərik. Məsxərəli bu cavab xalqımızı bir addım daha irəli gedib əməli olaraq öz haqqını almağa, yəni Milli Məclisi və Milli dövləti yaratmağa vadar etdi»***

**«Qızıl səhifələr», Təbriz, 1946**

Ölkədəki siyasi vəziyyətə qiymət vermək, rejim məmurlarının, xüsusən jandarmların zorakılıq *[188, Aban-Azər nömrələri, 137, s.301-312]* və özbaşnalığının qarşısını almaqdan ötrü gərəkli tədbirlərin görülməsi üçün geniş xalq toplantısına ehtiyac duyuldu. **Azərbaycan faktiki olaraq iki yol ayrıcında idi: ya mövcud ağır vəziyyətlə razılaşmaq və ya xalqın xeyrinə vəziyyətdən çıxış yolu tapmaq. 3-cü yol qalmamışdı.** Əslində, ADF-nin II geniş plenumu çıxış yolunun «yumruğa yumruq» vaxtının artıq yetişdiyini qeyd etmişdi. Bu haqda II plenumun qəbul etdiyi qərarın 5-ci maddəsində qeyd olunur ki, «…kəndlərdə qanunsuz olaraq kəndlilərin üzərinə hücum edən jandarmaların ümumi camaatın qüvvəsi ilə qarşısı alınsın» *[188, 8 aban, 1324]*. Əslində, bu çağırış zora zorla cavab verməkdən başqa digər çıxış yolunun qalmadığına işarə idi. II plenumun direktiv göstərişinə əsaslanan bölgələrdəki firqə təşkilatları fasiləsiz olaraq 10 gün (10-20 noyabr) ümumazərbaycan üzrə mitinqlər və yığıncaqlar təşkil etdilər. Mövcud vəziyyəti hərtərəfli nəzərə alan firqə rəhbərliyi ümumxalq toplantısının –

Xalq Konqresinin çağırılmasını qərarlaşdırırdı. Xalq Konqresinə nümayəndə seçkiləri başlıca olaraq üç şüar altında keçirildi:

**1. Rejim məmurlarının zorakılıq və özbaşnalığının qarşısını almaq;**

**2. Əyalət və vilayət əncümənlərinin demokratik əsaslar üzrə fəaliyyətinə imkan vermək;**

**3. İran daxilində Azərbaycana muxtariyyətin verilməsi.**

Yuxarıdakı tələbləri müzakirə edib reallaşdırmaq üçün Azərbaycanın bütün bölgələrindən 724 nəfər Xalq Konqresinə nümayəndə seçilmişdi *[221, 1364, №2, s.12-13]* 1945-ci il noyabrın 20-də (1324-cü il 29 aban) Təbrizdə Azərbaycan Xalq Konqresi (AXK) təşkil olundu *[136, s.41-43]*. Konqres 2 gün davam etmiş və orada bölgələrdən gələn nümayəndələrin çıxış əsasında 14 maddədən ibarət qətnamə qəbul edilmişdi *[136, s.41-43]*. Konqres Azərbaycan xalqının tələbləri ilə bağlı İran şahına, İran Şura Məclisi rəisinə müraciət etmişdir *[138, s.36-38]*. AXK-nin qəbul etdiyi qətnamədəki müddəaların qısa məzmunu belədir:

- AXK özünü Müəssislər Məclisi elan edir;

- Əyalət əncüməninin səlahiyyəti bir qədər artırılıb, ona Azərbaycan Milli Məclisi (AMM) statusu verilir və bu İranın ərazi bütövlüyünə toxunmadan İran ərazisi daxilində əmələ gətirilir;

- Vaxt itirmədən Azərbaycan Milli Məclisi çağırılır;

- Azərbaycan muxtariyyətini elan edir, Məclisə seçkilər üçün fərmanı Tehran yox, xalq özü verir;

- Məclisə seçkilərdə qadınlar kişilərlə bərabər hüquqa malikdir, 20 yaşına çatmış hər kəs (Xalq düşmənlərindən başqa) seçmək və 27 yaşdan yuxarı seçilmək hüququna malikdir. Məclisə seçkilər müstəqil, gizli, bərabər və azad aparılır;

- AXK nümayəndələrindən ibarət 39 nəfər seçilmiş milli heyət[1] Milli Məclis çağrılıb və milli hökümət qurulanadək AXK-nin qərarlarının icrası və MM çağırılması işi ilə məşğul olmalıdır;

- Milli heyət Azərbaycandakı vəziyyətlə əlaqədar AXK qərarı haqqında məlumatı İran xalqına, İran şahına, baş nazirə, İran Milli Məclisinin rəisinə və eləcə də böyük dövlətlərə çatdırmalıdır.

39 nəfərlik milli heyət M.Şəbüstərini sədr seçdi. Milli heyət AXK qərar və göstərişlərini icra etməyə başladı. İlk tədbir olaraq AXK şaha, İran ali hakimiyyət orqanlarına və böyük dövlətlərə: (ABŞ, SSRİ, İngiltərə, Fransa və Çin dövlətinə) teleqramla müraciət etdi *[138, s. 42-48], [188]*. Bu müraciətlərdə bildirilirdi ki, **«Qoy bütün dünya bilsin, mütəməddün (sivil) dövlətlər gözlərini açıb görsünlər ki, Tehran dövləti Azərbaycan xalqından intiqam alır, ona azadlıq əvəzinə cəlladlardan, qatillərdən himayət edən, onların cinayətlərinin üstünü örtən xain ədliyyə məmurları, cani jandarm rəisləri, vəhşi və qan içən bəxşdar[2] və dehdarlar[3] verməkdədir»** ***[188, 11 azər, 1324].*** Müraciətdə böyük dövlətlərdən haqqı tapdalanmış Azərbaycan xalqına öz hüquqlarına və adi insani haqlara sahib olmaqda kömək etmək xahiş olunurdu. Böyük dövlətlərlə yanaşı, İran şahı Məhəmmədrzaya və İran Şura Məclisinin sədri Seyid Məhəmmədsadıq Təbatəbaiyə və baş nazir (vəzir) İbrahim Həkimiyə də konqres iştirakçıları adından xüsusi müraciət qəbul edildi *[129, s. 385-*

[1] Nümayəndələrin adları ilə tanış olmaq üçün bax: Çeşmazərin göstərilən əsəri, səh.87

[2]Bölgə rəisləri

[3]Kəndxudalar

*388].* Bu müraciətdə şah və mərkəzi dövlətdən Azərbaycandakı özbaşınalığa son qoyulması, Azərbaycan xalqının tələb və ehtiyaclarına əməli işlə cavab verilməsi, bu bölgənin haqqı tapdalanmış xalqının adi insani hüquqlarının bərpa edilməsi və s. tələb olunurdu.

«Cin bismillahdan qorxan kimi» Tehran hakim dairələri, mürtəce qüvvələr, hətta «sol» məsləkli bəzi rəhbər xadimlər Azərbaycanın muxtariyyət istəmək tələbindən qorxaraq təşvişə düşürdülər[1]. Muxtariyyət tələbini «təcziyyə tələb»lə (İrandan ayrılmaqla) eyniləşdirənlər, əslində, Azərbaycandakı hərəkatın milli azadlıq mahiyyətini gizlətməklə bu hərəkatı ləkələmək istəyirdilər. Təəssüflə qeyd etmək lazımdır ki, İXP rəhbərliyində və sıravi üzvləri arasında da İran irticası tərəfindən uydurulmuş bu böhtana inananlar olmuşdur.[2] «İran Şura məclisinin əksər nümayəndələri, o cümlədən tudəçi vəkillər Azərbaycandakı hərəkatı «təcziyyə tələblik»də ittiham etdilər. S.C.Pişəvəri ADF-ni «təcziyyə tələb»likdə ittiham edənlərə dəfələrlə cavab vermiş və göstərmişdi ki, bizim Tehrana ən sərt və konkret cavabımız bu olmuşdur ki, «Tehran hökuməti gərək bilsin ki, o iki yol ayrıcında dayanmışdır: Azərbaycan öz yolunu intixab etmiş (seçmiş), o azadlıq və demokrasi üsula doğru gedəcəkdir. Əgər

---

[1]«53-lər» sırasında şah zindanına salınmış İXP-nın görkəmli azərbaycanlı xadimlərindən biri, həmin partiyanın Azərbaycandakı təşkilatının rəhbərlərindən olan Əli Əmirxizi də Azərbaycanın muxtariyyət tələbi əleyhinə olanlar sırasında idi. (bu haqda bax: Məsud Behnud, əz Seyidziya ta Bəxtiyar. Tehran, 1377, səh. 247

[2]«İran Xalq Partiyası» bir müddət Firqənin yaradılması əleyhinə öz etirazını İyrəc İsgəndəri vasitəsilə yazılı şəkildə Moskvaya bildirmirdisə, sonradan Tudə Firqəni rəsmən tanımaq zorunda qalmışdı (117, s.29); «İki sahil» 8 yanvar, 1992; (99, s.247)

Tehran irtica yolunu intixab edirsə, xudahafiz, buyurub Azərbaycansız yoluna davam etsin» *[137, s.17]*.

AXK-dən sonra və Azərbaycan Milli Məclisinin çağırıldığı günlərdə əli hər yerdən üzülən Mərkəzi dövlət Azərbaycanın əcnəbilərin əli ilə İrandan ayrılıb Sovet İttifaqına birləşəcəyi haqda uydurmaya daha artıq rəvac verdi. Baş nazir İ.Həkimi bu məsələni XIV məclisin tribunasından səsləndirməkdən belə çəkinmədi. AMM-nin çağırılması, Milli Hökümətin muxtariyyət şüarı altında təşkili və onun sonrakı fəaliyyəti bu uydurmanın əsassız olduğunu bir daha göstərdi. AXK tərəfindən seçilmiş milli heyətin hazırladığı seçki təlimatı əsasında 1945-ci il noyabrın 27-də Təbrizdə və Azərbaycanın bütün bölgələrində AMM-ə seçkilər başlandı. Seçkilər 5 gün ərzində (dekabrın 1-dək) müvəffəqiyyətlə başa çatdı, 32 seçki dairəsindən AMM-ə 100 nümayəndə (deputat) seçildi. Qeyd etmək lazımdır ki, 1945-ci ilin noyabrından dekabrın 10-dək (təqribən 35-40 gün ərzində) Azərbaycanın bütün bölgələri (Təbriz və Urmiyadan başqa) Tehran rejimindən demək olar ki, azad edilmişdi *[97]*. AMM-nin açılışı ərəfəsində Təbriz yerli və qonşu bölgələrin fədailəri tərəfindən tam mühasirəyə alınmış, polis və jandarm idarələri tutulmuşdu. İş o yerə çatdı ki, şahın göstərişi və İran məclisinin razılığı ilə Azərbaycanda «sabitlik» yaratmaq məqsədi ilə Tehrandan gəlmiş Ə.Bayat 1945-ci dekabrın 11-də (Azərin 20-də) Təbrizdən qaçmalı oldu.

# AZƏRBAYCAN MİLLİ MƏCLİSİ

1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Məclisi açıldı. Məclis öz işini Milli heyət tərəfindən hazırlanmış və Məclisin ilk iclasında yekdilliklə bəyənilmiş «Daxili nizamnamə» əsasında apardı. Bu nizamnamədə İranın ərazi bütövlüyü daxilində Azərbaycan muxtariyyəti – milli hökümətin yaradılması nəzərdə tutulurdu. Milli Hökümətin strukturunda xarici işlər, hərbi və xarici ticarət nazirliyi yox idi. Bu o demək idi ki, Azərbaycan Milli Höküməti İranın dövlət sistemində muxtar qurum kimi qalır. Belə bir muxtariyyət isə demokratik və sivil ölkələrdə o zaman da, indi də mövcuddur.

Azərbaycanda siyasi vəziyyətin nəzarətdən çıxdığını görən Şahənşah dövləti dekabrın 8-də (Azərin 17-də) baş nazir Həkiminin göstərişi ilə Qulu Bayatın (keçmiş baş nazir) başçılığı altında Azərbaycandakı milli qüvvə rəhbərliyi ilə danışıqlar aparmaq üçün Təbrizə nümayəndə göndərdi.

Təbrizli şahpərəst Sərac Mirin (Zəkaəlmülk) evində təşkil olunmuş qeyri-rəsmi görüşdə S.C.Pişəvəri, M.Biriya, F.İbrahimi mərkəzi dövlət tərəfindən Bayat və Azərbaycan valisini (Ostandarını) əvəz edən Dövlətşahı iştirak etmişlər. Bu görüşdə S.C.Pişəvəri Milli Konqirə tərəfindən Azərbaycanın istək və tələbləri kimi qəbul edilmiş 14 maddədən ibarət qərarı qarşı tərəfə təqdim etdi. Həmin görüşdə Bayat S.C.Pişəvəridən Azərbaycanın istədiyi muxtariyyətin «hüdudunu» soruşduqda S.C.Pişəvəri cavabında: «Biz heç vəchlə İrandan ayrılmaq fikrində deyilik. Biz İran sərhədləri daxilində, İran bayrağı altında, ədalətli qanunlar çərçivəsində, daxili işlərimizdə muxtariyyəti-

miz olmasını istəyirik» (117, s. 308). S.C.Pişəvərinin dediklərini mərkəzə çatdıracağına söz verən Q.Bayat Tehrana döndü...

AMM özünün ilk iclasında Milli Məclis adından fəaliyyət göstərəcək və Məclisin çıxartdığı qanun və qərarların icrası ilə məşğul olacaq 9 nəfərlik Rəyasət heyəti seçdi. Hacı Mirzəli Şəbüstəri Azərbaycan Milli Məclisi Rəyasət heyətinin sədri seçildi. Rəyasət heyətinin seçilməsi 1945-ci il noyabrın 21-də AXK tərəfindən seçilmiş, öhdəsinə düşən işləri görmüş Milli heyətin fəaliyyətinə xitam verdi. **AMM 1945-ci il dekabrın 12-də (21 Azər) Azərbaycan Milli Hökümətinin təşkili haqqında qərar qəbul etdi və höküməti təşkil etmək ADF-nin sədri S.C.Pişəvəriyə tapşırıldı *[138, s.55-56]*.**

AMM-də Azərbaycan Milli Höküməti seçildikdən sonra məclis Təbrizdəki dövlət hərbi qarnizonunun imkan daxilində qan tökmədən sülh yolu ilə təslim edilməsini S.C.Pişəvəriyə həvalə etdi. Artıq bu vaxt (11 və 12 dekabr səhər) Təbriz polis və jandarm idarələri fədailər tərəfindən tutulmuş, polis və jandarmalar tərk-silah edilib buraxılmışdılar. Mərkəzi hökümət həm Təbrizdə, həm də Urmiyada qardaş qanı axıtmaq üçün bütün vasitələri işə salsa da, yeni seçilmiş Azərbaycan Milli Hökümət rəhbərliyinin düşünülmüş və təmkinli hərəkəti Tehranın fitnəkar niyyətinin icrasına yol vermədi. Təbriz qarnizonunun başçısı **general Ə.Derəxşani vəziyyətin çıxılmaz olduğunu Tehrana bildirib, nə etməli olacağını soruşduqda, Tehran: «Əsgər və zabitlərlə birlikdə son damla qanınız qalana qədər vuruşmalısınız» cavabını vermişdi [129, s.407].** Tehranın əsgərlərə qan tökmək müraciətinə cavab olaraq S.C.Pişəvəri yazırdı: «Sərbaz (əsgər) cəllad deyildir. O fəqət ölkənin sərhədlərini müdafiə etməyə borcludur. Onu qardaş qanı tökməyə vadar etmək olmaz.

Belə bir əmr verilərsə, əsgər öz milli vəzifəsinə əməl edib, xalqla birləşə bilər. Bu hadisəyə dünyanın böyük milli hərəkatlarında çox təsadüf edilmişdir *[188, 30 Azər, 1324].*

Azərbaycandakı vəziyyət Tehranı təşvişə saldığından[1] həmin tarixi günlərdə fasiləsiz olaraq öz işini davam etdirən İran Məclisi Azərbaycandakı vəziyyəti müzakirə edən zaman inamsızlıq üzündən azərbaycanlı (baxmayaraq onların çoxu şahpərəst idi) deputatları məclis iclasına buraxmamışdılar *[188, 30 Azər, 1324].* Şahın Azərbaycana qarşı qəzəblənmiş məmurları Azərbaycan şairi Xaqaninin adını daşıyan xiyabana onun adından silib, ingilis alimi Eduard Braunun adını vermişdilər. Bu münasibətlə «Azərbaycan» qəzeti yazmışdı: «Ağaye Tehraniyan!» Elme şüma, məlum şod. «Biz bunu elə əvvəldən bilirdik ki, siz həmişə imkan olduqca azərbaycanlının var-yoxunu alıb biganələrə verməyə hazırsız!» *[188, 30 Azər, 1324].*

Təbrizdəki qarnizonu qardaş qanı tökülməyə təhrik edən qərargah rəisi polkovnik (sərhəng) Vərəhram Ələkbər Derəxşanini silahlı toqquşma törətməyə qızışdırırdı[2] *[129, s.407].*

General Ə.Derəxşani əvvəlcə kazarmadakı zabit və əsgərlərin tərk-silah edilib təslim olmalarını istəmirdi. Bunu o, xatirələrində

---

[1]Azərbaycandakı hadisələr İrandakı bütün vətənpərvər qüvvələri, xüsusən azərbaycanlılar kimi haqqı tapdalanmış xalqları rejim əleyhinə ayağa qaldırmışdı.

[2]General Ə.Derexşanini qan tökməyə, terrora əl atmağa firqə rəhbərini həbs etdirib Tehrana gətirmək haqda Şahın əmri, baş nazir Mehdi Fərruxinin göstərişi hələ bu olaylardan əvvəl rədd edilmişdi. Qan tökülməyin və yersiz sərt tədbirlərin əleyhinə olan Ə.Derəxşani göstərişi yerinə yetirmir. Səbəbini belə əsaslandırmışdı: «... Şahənşahın fərmanını icra etmək bizim hərbi və müqəddəs vəzifəmizdir. Lakin diqqətli olmaq lazımdır. Bura Azərbaycandır!..» Burada İranın digər əyalətləri kimi rəftar etmək olmaz. Təsəvvür edin, Azərbaycan İranın dövlət nişanında (gerbində) tacı və qılıncı saxlayan şirdir. İndi bu şir həyəcanlanmış və təlatümdədir. O, qəzəblənsə, hərəkət etsə, qarşısını almaq çətin olar. Tac yerindən oynayar, qılınc əldən düşər" cavabını Tehrana çatdırmışdı. (37, «Novruz» qəzeti, 9.VII.1991)

də etiraf edir. Belə bir şəraitdə hərbi kazarmanı mühasirədə saxlayan fədai dəstələrinin əsgərlərə müraciəti mühüm rol oynamışdı. S.C.Pişəvərinin qələmi ilə yazılmış müraciətdə deyilirdi: **«Damarlarında azərbaycanlı qanı olan hər bir əsgər və zabit (sərbaz və əfsər) gərək Azərbaycanın və onun xalqının azadlığına kömək etsin. Bəsdir indiyə qədər Tehran mürtəce hökümətinin bizə etdiyi tənə və təhqirlər. Sizin analarınızın südü o vaxt sizə halal ola bilər ki, siz onların namusunu hifz edəsiz… Yaşasın Azərbaycanın rəşid məmləkətinə, xalqına və öz doğma ata və analarına sadiq qalan əsgər və zabitlər!»** *[137, s. 330]*. Müraciətnamənin kazarmaya ötürülməsi və səs qüvvətləndiricilərlə yayılması kazarmadakılar arasındakı parçalanmanı gücləndirdi. Əsgər və zabitlərin xalqa artan rəğbəti və baş qərargahın göstəriş və əmrlərini icra etməkdən yayınması meylinin getdikcə artması və digər səbəblər son hesabda Ə.Derəxşanini geri oturmağa məcbur etdi. S.C.Pişəvəri başda olmaqla danışıq aparmaq üçün bir neçə mömin ağsaqqal və millət vəkilləri 1945-ci il dekabrın 13-də (22 Azər saat 20 radələrində) Təbrizdəki 3-cü ordunun kazarmasına gəldilər. Nəticədə 3-cü ordunun Təbriz hərbi qarnizionunun baş komandanı general Ə.Derəxşani ilə S.C.Pişəvəri arasında 7 maddədən ibarət olan qərardad imzalandı *[138, s.61-62]*. Həmin qərardad əsasında kazarmadakı ordu silahı yerə qoyub təslim oldu. Kazarmadakı əsgərlərin, xüsusən yüksək rütbəli zabitlərin təhlükəsizliyini təmin etmək və onların şəxsiyyətinə toxunmadan, ehtiramla yola salmağı S.C.Pişəvəri daxili işlər naziri S.Cavidə həvalə etmişdi *[129,s. 408-409],[137,s.447]*. General Ə.Derəxşani, polkovnik Vərəhram 7 nəfər yüksək rütbəli zabitlə birlikdə təyyarə ilə Tehrana yola salındıqdan sonra Tehran hökuməti onları dövlətə

xəyanətdə ittiham edib[1] həbsə saldırmışdı. S.C.Pişəvəri Tehranın bu əməlinə cavab olaraq demişdi: «General Derəxşani və zabitlər qrupunun həbs olunması ağılsız hərəkətdir. Derəxşani öz iradəsi ilə təslim olmadı. Sadəcə olaraq, onun əsgər və zabitləri xalqa güllə atmaq istəmədilər» *[178, s.110]*. Beləliklə, Tehranın Təbrizdə qardaş qanı axıtmaq üçün göstərdiyi bütün cəhdlər boşa çıxdı.

Azərbaycanda xalq hərəkatının silahlı üsyan səviyyəsinə yüksəlməsi hər şeydən əvvəl xalq üçün başqa çıxış yolunun qalmaması ilə bağlı idi. Bu həqiqəti XIV Məclisin 1945-ci il 9 dekabr (1324-cü il 18 Azər) **iclasında böyük ictimai xadim doktor M.Müsəddiq etiraf edərək demişdi: «Azərbaycanda olayların başlıca səbəbi xalqın haqlı şikayətlərinə baxılmaması, jandarm və mürtəce xanlar tərəfindən yüzlərlə günahsız kəndlinin vəhşicəsinə öldürülməsidir… Azərbaycan xalqı hiss etmişdir ki, bu məclis, bu dövlət heç bir zaman onun dərdlərinə çarə etməyəcəkdir. Ona görə Azərbaycan özü özünə çarə yolu axtarmaq üçün ayağa qalxmışdı»** *[207, 15 mehr, 1325]*. Bu fikri XX əsr İran tarixində öz mürtəceliyi ilə ad qoymuş Qəvamülsəltənə də «Royter» müxbirinin suallarına cavab verərkən təkrar etmişdi.

[1]Milliyyətcə azərbaycanlı olan general Ələkbər Derəxşani qan tökmək haqqında Şahın göstərişinə əməl etmədiyi üçün 15 il həbsə məhkum edilmişdi. O, 1977-ci ildə Tehranda vəfat etmişdi.

# AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİ VƏ ONUN FƏALİYYƏTİ

1905-1911-ci illər Səttarxan hərəkatı (Məşrutə inqlabı) və 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında yaradılmış Milli Əncüməndən sonra 1945-ci il dekabrın 12-də (21 Azər) S.C.Pişəvərinin rəhbərliyi altında Azərbaycan Milli hökumətinin yaradılması XX əsr Güney Azərbaycan milli azadlıq hərəkatının zirvəsi hesab olunur. Bir il ərzində bu hökumətin həyata keçirdiyi tədbirlər və gördüyü işləri mübaliğəsiz demək olar ki, Pəhləvi rejimi on illərlə həyata keçirə bilməmişdi və bilməzdi. Bu həqiqəti müxtəlif əqidəyə mənsub olan müəlliflər öz yazılarında dəfələrlə təkrar etmişlər.

Azərbaycan Milli Məclisi 1945-ci il dekabrın 12-də (21 Azər) keçirdiyi iclasında S.C.Pişəvəriyə Azərbaycan Milli Hökumətini (AMH) təşkil etməyi tapşırdı. S.C.Pişəvəri Məclisin sonrakı iclasında Milli hökumətin tərkibini aşağadakı kimi Məclisin müzakirəsinə təqdim etdi:

Baş nazir (vəzir) – Seyid Cəfər Pişəvəri
Daxili İşlər naziri – Salamulla Cavid
Xalq qoşunları naziri – Cəfər Kaviyan
Kənd təsərrüfat naziri – doktor Mehtaş
Maarif naziri – Məhəmməd Biriya
Səhiyyə naziri – doktor Urəngi
Maliyyə naziri – Qulamrza Ilhami
Ədliyyə naziri – Yusif Əzima
Poçt-teleqraf naziri – Mirzə Rəbi Kəbiri
Ticarət və İqtisad naziri – Rza Rəsuli

Yuxarıdakı tərkib Məclis tərəfindən təsdiqlənəndən sonra Zeynalabdin Qiyami Ali Məhkəmənin rəisi, Firudun İbrahimi isə Baş prokuror vəzifələrinə təyin olunmuşlar [188, 22 azər, 1945].

Azərbaycan Milli hökumətinin fəaliyyətinin başlanğıcında ciddi çətinlik törədən məsələlərdən biri Azərbaycanın ikinci böyük şəhəri Urmiyanın (Rzaiyyə) Tehrana tabe, düşmən əlində qalması idi. Azərbaycan Milli hökuməti öz fəaliyyətinin ilk günündən düşmənlə məsələni danışıqlar yolu ilə, sülhə getməklə həll etmək niyyətində olduğundan, imkan daxilində hərbi toqquşmadan çəkinməyə çalışırdı. «Bilirdik ki, iş davasız, döyüşsüz ötüşməyəcək… Çalışırdıq silah işlətməkdə əvvəlinci olmayaq. Bizi silahlı dəstə yaratmağa məcbur edən Tehran hökumətinin irticaçı ruhiyyəsini bilməyimiz idi» (S.C.Pişəvəri).

Azərbaycan Milli hökumətinin təşkilindən keçən bir həftə ərzində əhalinin yaxındanköməkliyi və iştirakı ilə fədai dəstələri tərəfindən Qaradağ mahalı, Ərdəbil, Xalxal, Kəleybər və Miandab rayon və şəhərləri ətraf kəndləri ilə birlikdə şahpərəstlərdən azad edildi. **«Aparılan əməliyyatlar zamanı İran ordusunun 5983 nəfər əsgər və zabiti tərk-silah edilmiş, onlardan 4 top, 1000 mərmi, 205 pulemyot, 3577 tüfəng, 22 tapanca, 6 tank, 2 minomyot, 300 mina, 470 min patron alınmışdı. Təkcə Rizaiyyə və Ərdəbil jandarm polklarında 2800 nəfərə yaxın jandarm tərk-silah edilmiş, onlara məxsus 565 tüfəng, 31 min patron fədailər tərəfindən müsadirə edilmişdi»** [211, 28 aban, 1381]. Əli hər yerdən üzülən Tehran hökuməti öz ümidini Urmiyadakı (o vaxtkı Rzaiyyə) ağır silahlarla və bir neçə tankla təchiz olunmuş 4-cü ostan Qarnizonuna bağladı. Təbrizdə qardaş qırğını salmağa müvəffəq olmayan Tehranın irticaçı qüvvələri qanlı səhnəni Urmiyada yaratmaq istədilər. Bunun üçün 4-

cü əyalət (ostan) **sayılan Qərbi Azərbaycanın qubernatorunu əvəz edən və Urmiyyə hərbi qarnizonunun başçısı polkovnik Zənginəyə** hər cür kömək və şirnikləndirici vədlər verildi.

Urmiya fədailərinin köməyinə gəlmiş ətraf rayonların fədailəri Urmiyadakı kazarmanı mühasirəyə alanadək, polkovnik Zənginənin əmrilə Urmiyada və ətraf kəndlərdə onlarca vətənpərvərə divan tutulmuşdu. Onlarla adam edam edilmiş, evlərinə od vurulmuşdu, ona görə ki, onlar ADF-nin üzvü olmuşlar. «Sədaye-Urmiya» («Urmiyanın səsi») qəzeti həmin dövrün hadisələrini xatırlayaraq yazırdı: «Rzaiyyədəki hərbi qarnizonun komandanı və qubernator əvəzi polkovnik Zənginə bu şəhərdə terror dəstgahı düzəltmişdi. Elə gün olmurdu ki, adamlar onun əmri ilə qətlə yetirilməmiş olsun. Məlum olur ki, hər kəs «mən demokratam» desəydi, dərhal qətlə yetirilirdi» [211, 28 aban, 1381]. Qarnizonun yerləşdiyi ərazinin hər tərəfdən mühasirəyə alındığını görən Zənginə tankları fədailərin üstünə sürdürdü. Ailəsini hadisələrdən xeyli əvvəl şəhərdən çıxarıb xarici ölkənin konsulluğunda yerləşdirən Zənginə özünə də son ayaqda orada yer etmişdi. Bu xəbər qarnizon zabit və əsgərlərinə çatdırıldıqda, onların çoxu kazarmadan qaçmağa can atmış, bir hissə isə fədailərin üzərinə hücuma keçmək əmrini yerinə yetirməkdən boyun qaçırmışdı.

Zənginənin komandanlığı altında olan qarnizon 17-18 dekabrda tam mühasirəyə alındı. **Çıxış yolunu ancaq təslim olmaqda görən qarnizon 19 dekabr 1945-ci ildə təslim olmaq məcburiyyətində qaldı** [211, 28 aban, 1381]. Bununla da İran adlanan ölkənin daxilində yerləşən qədim **Azərbaycan torpaqlarının tam olmasa da, Zəngandan Culfaya qədər, Astaradan Maku və Salmasa qədər kənd və şəhərləri Tehranın əsarətindən azad oldu.** Bu 1828-ci ildən İran şahlarının, XX əsrin 20-ci illərindən isə Pəhləvi

sülaləsinin caynağına keçirilmiş bir məmləkətin – Güney Azərbaycanın milli azadlıq mübarizəsində qazandığı tarixi qələbə idi[1].

Azərbaycan Milli hökumətinin fəaliyyəti AMM-nin təqdim etdirdiyi proqram layihəsində əks olunmuşdu. Milli hökumətin bir illik fəaliyyəti bu proqramının icrasına yönəlmişdi. Sinfi mübarizədən imtina edib xüsusi mülkiyyətə dövlət mülkiyyəti qədər hüquq verən AMH əslində 1918-1920-ci illərdə Quzey Azərbaycandakı cümhuriyyətdən sonra Azərbaycanda yaradılmış yeni bir demokratik üsuli-idarə idi. ADF rəhbərliyi altında fəaliyyət göstərən AMH-nin bütün qərarları və icra etdiyi iş proqramı xalqın mənafeyinə, ölkənin tərəqqi və abadlığına, maarif və mədəniyyətin sivil istiqamətə yönəltmək məramına xidmət etmişdi. Nəzərə almaq lazımdır ki, AMH fəaliyyəti Tehran rejimi və onun arxasında duran imperialist qüvvələrin fitnəkarlığı və pozuculuğu, digər tərəfdən başı «neft sevdası» ilə qızışmış Sovet rəhbərliyinin ardıcıl təzyiqləri şəraitində icra edilmişdi [137, s.435-438], [188, 22 azər 1324]. Bu baxımdan AMH-ə və ADF rəhbərliyinə düşündüklərinin çoxunu sərbəst həyata keçirməyə imkan verilməmişdi.

[1] Hadisələrin iştirakçısı və canlı şahidi olmuş mərhum M.Çeşmazərin yazılarında Azərbaycanın azad olmuş qəsəbə, rayon və şəhərlərinin xronoloji ardıcıllığı belə verilir: 18 noyabr Nəmin, 25 noyabr Zəngan, 26 noyabr Germi, 27 noyabr Astara və Biləsuvar, 1 dekabr Xoy və Maku, 3 dekabr Salmas, 5 dekabr Marağa, 9 dekabr Mərənd və Meşgin, 12 dekabr Təbriz, 13 dekabr Kəleybər və Miyandab, 19 dekabr (28 Azər) Urmiya şəhəri Fədailər tərəfindən azad olmuşdur. (4. s.82) Azad edilmiş bölgələrdə Fədai dəstələrinə başçılıq etmişlər: Təbrizdə Cəfər Kaviyan, Marağada Mirzə Kəbi Kəbiri, Sərabda Qulamrza Cavidan, Miyanada Qulam Danişyan, Ərdəbildə Əbdülməcid Məhəmmədvənd, Mərənddə Mir Kazım Ələm, Xoyda Nurullaxan Yekani, Urmiyada Məhəmməd Əmin Azadvətən, Zənganda Qulam Hüseynxan Osanlı, Miyandabda Qulu Sübhi, Üsgidə Yadulla Kələntəri, Fərzi Dehqan və s. (Yenə orada, s.82-83)

Azərbaycan Milli Məclisinin 1945-ci il 13 dekabr tarixli iclasında təsdiq olunmuş Azərbaycan Milli hökumətinin 20 maddədən ibarət olan iş proqramı öz dövrünə görə o qədər geniş və əhatəlidir ki, burada ondan geniş bəhs açmaq mümkünsüzdür[1] Odur ki, görülmüş işlərin müxtəsər şərhi ilə kifayətlənməliyik.

Azərbaycan muxtariyyətinin dünyaya tanıtdırılması, demokratik əsaslarla əncümən seçkilərinə başlamaq və əncümənləri təşkil etmək, şəhər və kəndlərin abadlaşdırılması, yerlərdə dövlət vəzifələrinə vətənpərvər və vicdanlı adamları irəli çəkmək, ədalətli vergi qanunu tətbiq etmək, fədai dəstələrinin və xalq qoşunlarının təchizatına və təliminə fikir vermək, tədrisin və bütün ölkədə yazışmaların ana dilində aparılmasına, savadsızlığın ləğv edilməsinə nail olmaq və milli darülfünunun açılmasını tezləşdirmək, iqtisadi tədbirlər sırasında ədalətli torpaq islahatının keçirilməsi, ərbab-rəiyyət münasibətlərinin nizama salınması, dayanmış istehsal müəssisələrinin işə salınması və yeni sənaye obyektlərinin inşası, milli sahibkarlığın dəstəklənməsi və təşviq edilməsi, infrastrukturun nizama salınması və onun ahəngdar işinin təmin edilməsi, işsizliyi aradan qaldırmaq üçün təsirli tədbirlərin həyata keçirilməsi, mütərəqqi iş qanunu və sığortanın tətbiqi, səhiyyə xidmətinin yaxşılaşdırılması, Azərbaycanda yaşayan milli azlıqlara azərbaycanlılarla bərabər hüquq verilməsi və onların milli dil, mədəniyyət, adət-ənənələrinin inkişafına dövlət səviyyəsində qayğı göstərilməsi, İran hökumətinin Azərbaycanın milli mənafeyinə zidd olmayan qərar və qanunlarının tanınması və s. və i.a.–bütün bunlar hamısı Azərbaycan Milli hökumətinin fəaliyyət proqramının əsasını təşkil etmişdir. Bunların hər biri ayrıca bəhsin mövzusudur. Bununla belə deməmək mümkün deyil ki,

[1] İş proqramının tam mətni üçün bax: «Qızıl səhifələr», səh. 435-438; «Azərbaycan» qəzeti, 22 Azər

iqtisadiyyat və quruculuq, milli mədəniyyətin inkişafına göstərilən qayğı, ilk növbədə Azərbaycan türkcəsinin rəsmi dövlət dili elan edilməsi və bütün Azərbaycanda bu qanunun həyata keçirilməsi, Təbrizdə dövlət universiteti, dram teatrı və filarmoniyanın açılması, şair və yazıçılar birliyinin, bəstəkar və memarlar cəmiyyətlərinin yaradılması, çap işinin yüksək səviyyədə təşkili və i.a. işlər Güneydə əsl mənada iqtisadi dirçəliş və mədəni inqilabdan xəbər verirdi.[1]

İstər «12 Şəhrivər» müraciətində və ADF-nin digər sənədlərində, istərsə də Azərbaycan Milli hökumətinin fəaliyyət proqramında ümdə məsələ Azərbaycana İran daxilində muxtariyyətin verilməsi məsələsi idi. Azərbaycan öz muxtariyyətini başlıca dövlətlərin zəmanəti altında Tehrandan istəyirdi. Bu haqda **21 Azər nehzətindən 17 gün sonra, 1945-ci ilin dekabrın 29-da S.C.Pişəvəri ilə ABŞ-ın Təbrizə təzə gəlmiş konsulu Robert Rossou arasındakı söhbətdə də bəhs olunmuşdur [258]. R.Rossounun «əgər şah sizin muxtariyyətinizi tanısa, Azərbaycan demokratları buna necə baxarlar?» sualına S.C.Pişəvəri: «Təkcə şahın tanıması Azərbaycan Milli Muxtariyyətinin mövcudluğu üçün təminat ola bilməz. Şah öz qərarını sabah ləğv edə bilər. Azərbaycan xalqı öz qanuni tələblərinə həqiqi təminat istəyir ki, bu da bütün demokratik dövlətlərin, o cümlədən Amerika hökumətinin yardımından və müdafiəsindən ibarət ola bilər».**

Ötəri də olsa, Azərbaycan Milli hökumətinin bir illik ömrü dövründə həyata keçirdiyi tədbirlərin və quruculuq fəaliyyətinin bəzilərini nəzərdən keçirək[1].

---

[1] Ş.Tağıyeva, Ə.Rəhimli (Bije), S.Bayramzadə. Güney Azərbaycan. Bakı, 2000, səh. 223

[1] AMH islahatları geniş formatda kitabın əlavələrində verilir.

# İSLAHATLAR:

## 1. Demokratik islahatlar

Azərbaycan Milli Hökuməti özünün bir illik fəaliyyətində demokratiya sahəsində bir sıra mühüm islahatları və tədbirləri həyata keçirmişdir. Şəxsiyyətin azadlığı, söz, mətbuat və vicdan azadlığı qanunla qorunurdu. Bu sahədə görülmüş mühüm işlərdən biri İran tarixində ilk dəfə olaraq demokratik seçki qanununun qəbul edilməsi olmuşdur. 46 maddədən ibarət olan bu qanun Milli Hökumətin fəaliyyətə başladığı ilk günlərdə qəbul edilib, qüvvəyə minmişdi. Qanunda Milli Məclisə seçkilərin müstəqim, gizli və azad şəraitdə aparılması nəzərdə tutulurdu və kənardan hər hansı müdaxilə qanunla qadağan edilirdi. İran seçki tarixində ilk dəfə olaraq seçkilərdə qadınlara kişilərlə bərabər hüquq verilmişdi. Onların da seçib, seçilmək səlahiyyəti var idi. Qanun 20 yaşına çatmış bütün Azərbaycan vətəndaşlarına seçkidə iştirak etmək hüququ verirdi. 27-80 yaş arasında Azərbaycanda yaşayan bütün vətəndaşlar Milli Məclisə deputat (vəkil) seçilə bilərdi, bu şərtlə ki, İran təbəəsi və Azərbaycan sakini olmuş olsun. Vətəndaşlığı olmayanlar, hər hansı cinayəti etdiyinə görə məhkum olunmuşlar, Milli hökumət əleyhinə çıxanlar seçki hüququndan məhrum edilmişlər. Məclisə seçilən hər bir şəxsdən Azərbaycan dilini bilmək tələb olunurdu. Seçki qanununda seçkilərin qanun çərçivəsində keçirilməsi üçün bütün imkanlar işə salınmış və demokratik əsaslar müəyyənləşdirilmişdi. Azərbaycan Milli Məclisinin fəaliyyəti haqda Məclisin daxili nizamnaməsi haqda, əyalət və vilayət əncümənlərinin hüququ və səlahiyyəti və bələdiyyələr haqda və digər sahələrə aid qəbul edilmiş

qanunlar demokratik prinsiplərə sökənməklə yanaşı, dünyadakı sivil qanunları nümunə kimi qəbul etmişdi.

Azərbaycan daxilində milli münasibətlərdə tarazlıq yaratmaq və vicdan azadlığına riayət etmək AMH-nin fəaliyyət proqramında diqqət mərkəzində saxlanılan məsələlərdən olmuşdur. Azərbaycanda yaşayan digər millətlər və etnik qruplara öz milli mədəniyyətini inkişaf etdirmək, ana dilində məktəblər açmaq və nəşriyyat işi ilə məşğul olmağa heç bir qadağa və məhdudiyyət yox idi. Mərasimlər keçirmək, ibadətlər etmək, ziyarətgahlara getmək və s. tam azad və maneəsiz idi və onlara dövlətin himayəsi var idi.

AMH-in məramına zidd olmayan və Azərbaycanın müstəqilliyi əleyhinə yönəlməyən siyasi və ədəbi qüvvələrə siyasi, elmi birliklərə cəmiyyət və təşkilatlara fəaliyyət azadlığı vermiş, onların hüququ qanunla qorunurdu. Azərbaycan cəmiyyətinə yenicə daxil olan demokratiya az müddətdə mühüm irəliləyişə nail olmuş və ümumiran üçün örnək olan addımlar atılmışdır.

## 2. İqtisadiyyat və quruculuq sahəsində islahatlar

Cəmi bir il ömür sürmüş Azərbaycan Milli hökumətinin iqtisadiyyat və quruculuq sahəsində gördüyü işləri bir çox müəlliflərin (o cümlədən amerikanlı Con Furan) yazdığı kimi Rza şah rejimi heç 20 ilə də yerinə yetirə bilməzdi [100, s.411]. Azərbaycan milli hökumətinin icra etdiyi iqtisadi tədbirlər sırasında Azərbaycan kəndlisi üçün çox vacib olan torpaq islahatı, heç şübhəsiz ki, başlıca yer tutmuşdur.

Məlum olduğu kimi 21 Azər inqilabı qalib gəldiyi vaxta qədər Güney Azərbaycan iqtisadi inkişaf cəhətdən İranın geridə

qalmış əyalətlərindən biri idi. Azərbaycanın iqtisadiyyatında, milli məhsulun həcmində və milli gəlirdə kənd təsərrüfatı aparıcı mövqeyə malik idi. Həmin dövrə (1945-1946) aid olan statistikadan məlum olur ki, Azərbaycanda yaşayan 5 milyonluq əhalinin 85 faizinin dolanması aqrar sektorla bağlı olmuşdur [159, s.41]. Şəhər və rayonlarda yaşayan 1,4 milyon əhalinin əksər hissəsinin dolanması demək olar ki, kənd təsərrüfatı ilə əlaqədar idi. **Aqrar münasibətlərdə hakim olan ərbab-rəiyət qaydası, istehsalın orta əsrlərdən qalma üsula əsaslanması, məhsuldar torpaqların və başlıca su mənbələrinin varlı mülkədar və mənsəb sahiblərinin əlində cəmlənməsi və başqa səbəblər Azərbaycan kəndlisinin yarıac-yarıtox yaşamasının başlıca səbəbi idi.** 21 Azər hərəkatında kəndlilərin hərəkatın aparıcı qüvvələrdən biri kimi (o cümlədən fədai dəstələrində) təzahür etməsi kəndlərdəki haqsızlıq, zorakılıq və ədalətsizliklə bağlı idi. Bu mənada AMH-nın fəaliyyət proqramında aqrar məsələnin ön plana çəkilməsi təsadüfi deyildir.

«12 Şəhrivər» bəyannaməsində verilmiş vədlər əsasında AMH aqrar sahədə üç mühüm qanun qəbul etmişdi: «Müsadirə torpaqlar haqqında qanun», «İstifadəsiz qalmış torpaqların bölünməsi haqqında qanun» və «Artıq və məsrəfsiz torpaqların bölünməsi haqqında qanun» [188, 24 esfənd, 1324], [99, s.10-12].

Müsadirə edilib torpaqsız və az torpaqlı kəndlilər arasında bölüşdürülən torpaqlar xalq hərəkatına və AMH-ə xəyanət edib Azərbaycandan qaçmış şahpərəstlərin torpaqları idi. Bu haqda Azərbaycan Milli Məclisi rəyasət heyətinin qəbul etdiyi 27 Bəhmən 1324-cü il tarixli (fevral 1945) qanununda deyilir ki, «Azərbaycanı tərk edib Tehrana və sair nöqtələrə gedib, Azərbaycanın azadlığı və Milli hökumət əleyhinə təbliğat aparanlar–

istər azərbaycanlı və istərsə də qeyri-azərbaycanlı olsun–onların daşınan və daşınmayan mülk, əmlak və sərvəti xalqın və dövlətin xeyrinə müsadirə edilsin» [188, 4 esfənd, 1324]. Milli Məclis rəyasət heyətinin «Xalisələrin[1] bölünməsi haqqında» qəbul etdiyi başqa bir qanunda isə deyilirdi: «Rza şah Pəhləvinin səltənət tarixindən 21 Azər 1324-cü ilə qədər Azərbaycanda olan… xalisələr və su mənbələri kəndlilər arasında əvəzsiz olaraq bölunməlidir» [188, 4 esfənd, 1324]. Bunlardan başqa mülkədarların ixtiyarında olan, lakin istifadəsiz qalan torpaqların mülkədarlardan alınıb torpaqsız kəndlilərə verilməsi haqda da qanun qəbul edilmişdi. Müsadirə olunmuş və xalisə torpaqların uçota alınması və kəndlilərin ixtiyarına verilməsi tədbiri daxili işlər, ədliyyə, maliyyə və kənd təsərrüfatı nazirliyi nümayəndələrinin iştirakı ilə icra olunurdu. İstifadəsiz qalmış torpaqların torpaqsız və az torpaqlı kəndlilərə verilməsi kənd əncümənlərinə həvalə edilmişdi.

Yuxarıda adları çəkilən qanunlar əsasında aparılan torpaq islahatı ilə **1946-cı ilin əvvəllərində 437 parça mülk, 372 kənddəki xalisə torpaqları yoxsul kəndlilərin ixtiyarına verilmişdi** [221, 1384, №2, s.25]. **Mülkədarların artıq torpaqları hesabına 380 min hektar əkin sahəsi əvəzsiz olaraq kəndlilər arasında bölüşdürülmüşdü** [221, 1384, №2, s.25].

Azərbaycandakı 1945-1946-cı illər xalq hərəkatına heç də yaxşı münasibət bəsləməyən amerikalı müəllif Con Furan AMH-nın bir ildə xalqın xeyrinə icra etdiyi tədbirlərin böyük miqyasda olduğunu etiraf edərək yazır: «247066 hektar əkin sahəsi 209096 kəndli ailəsi arasında əvəzsiz bölüşdürülmüş və üstəlik **kəndlilərin sərf etdikləri əmək müqabilində mülkədarlardan aldıq-**

[1] İstifadəyə qismən yararlı, əkilməmiş torpaqlar

**ları 30 faiz natural məhsul 85 faizə qaldırılmışdı». Müəllif Təbrizdəki ingilis konsulunun Londona göndərdiyi raportdan belə bir parçanı misal gətirərək yazır: «...Torpaq islahatı, işsizliyin aradan qaldırılmasına yönəldilən tədbirlər və bu istiqamətdə digər işlər Azərbaycanda xalq kütləsinin Milli hökumətlə həmrəyliyini yaratmışdı»** [100, s.411].

Kəndli ilə mülkədar arasında münasibətləri nizamlayan və məhsul bölgüsündə kəndlilərə olan ədalətsizliyi aradan qaldırılmaqda 21 maddədən ibarət qanunun əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Bu qanuna qədər mülkədar torpağını əkib-becərən kəndli təkcə konkret əməyinə görə pay alırdısa, yeni qanun kəndlilərdən alınan bütün vergi və rüsumları ləğv etdi və həm də iş, toxum və şumlama payını kəndliyə, torpaq və su payının mülkədara çatmasını qanuniləşdirdi. **Bu bölgüdə iş 3 pay, torpaq 1 pay, şumlamaq 2, toxum 1 pay olaraq qəbul edilmişdi [189, 27 fərvərdin, 1325]. «Torpaq qanununda kəndlilərdən alınan nəqd natural vergi və mükələfiyyətlər ləğv edildi. Mülkədarların kəndliyə icarəyə verdiyi torpağı istədiyi vaxt geri alması, kəndlinin kənddən köçürülməsi və s. bu kimi ədalətsiz hüquqlar feodalların və xanların əlindən alındı»** [26, s.25].

**Aqrar kəndli məsələsinə aid AMM-in qəbul etdiyi və AMH-in icra etdiyi qanunlar demokratik və humanist məzmununa görə Yaxın və Orta Şərqdə bu tarixə qədər bənzəri olmayan tədbirlər idi.**

1945-1946-cı illərdə demokratik və ədalətli əsaslar üzrə keçirilmiş torpaq islahatı təkcə Azərbaycanda yox, bütün İranda çox ciddi təsir buraxmışdı. AMH-nin süqutu ərəfəsində və ondan sonrakı illərdə İranın müxtəlif bölgələrində ortalığa gətirilən

torpaq islahatları və bu sahədə götürülmüş addımlarda AMH-in aqrar sahədə gördüyü tədbirlərin təsiri danılmazdır.

Azərbaycanda hər cür şəraitin və imkanların (yeraltı, yerüstü sərvətlər, xammal, təbii və fiziki imkanlar və s.) olmasına baxmayaraq, hakim dairələrin baxımsızlığı, ayrı-seçkilik və şövinist siyasəti nəticəsində Azərbaycan sənaye cəhətdən İranın geridə qalmış ucqarlarından birinə çevrilmişdi. Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi, **30-cu illərin sonu, 40-cı illərin əvvəllərində Azərbaycanda müasir səviyyəli bir sənaye müəssisəsi belə tapmaq mümkün deyildi. «Həmin dövrə aid olan statistik rəqəmlərdən bəlli olur ki, ölkədəki 69 toxuculuq fabrikindən cəmi üçü, 8 meyvə-tərəvəz konserv zavodundan, 90 bitki yağı çəkən zavoddan, 26 pambıq təmizləmə zavodundan heç biri də Azərbaycanda mövcud deyildi… Ölkənin ümumi milli məhsulunda Azərbaycanın payı başqa əyalətlərdən geri qalmadığı bir təqdirdə, bu gəlirdən Azərbaycana çatan pay o qədər az idi ki, bu payla Təbriz əhalisini belə dolandırmaq mümkün deyildi»** [227, 1379, №9, s.25].

Milli sənayenin dirçəlişinə nail olmaq, ən əvvəl xalq üçün istehlakı zəruri sahələri işə salmaq, xalqın tələbatının heç olmasa bir hissəsini milli sənaye hesabına təmin etmək, bununla yanaşı işsizliyi və yoxsulluğu qismən də olsa aradan qaldırmaq üçün Azərbaycan Milli Hökumətinin qarşısında çox ciddi və ağır vəzifələr dururdu. Bununla bağlı 1325-ci il 19 fərvərdin (1946-cı il aprel) tarixli qanun səciyyəvidir [221, 1364, №2, s.23]. 6 maddədən ibarət olan bu qanunda mədənlərin, yeraltı sərvətlərin, meşələrin milliləşdirildiyi elan olunur, dövlətin dəstəyi ilə sənaye və istehlak məhsulların kooperativlərinin yaradılmasına, fəaliyyəti dayanmış və yarımçıq işləyən dövlət sənaye obyekt-

lərinin ayrı-ayrı şəxslərə icarəyə verilməsinə, milli sənaye sahiblərinə xammalın alınmasında, vergi və rüsumların ödənilməsində güzəştlər nəzərdə tutulmuşdur. Orta və xırda səviyyəli şəxsi istehsal müəssisələrinin inkişaf etdirilməsi məqsədi ilə AMH özünün 1945-1946-cı il dövlət büdcəsindən bu cür müəssisələrə maliyyə və texniki yardım göstərməklə yanaşı, onların gəlirindən tutulan vergiləri əhəmiyətli dərəcədə azaltmışdı. Bununla birlikdə xırda və orta səviyyəli sərmayəsi məhdud olan sənaye müəssisələrinə xammalı əldə etmək, müəssisəni genişləndirmək və ya yenisini tikmək üçün güzəştli torpaq sahəsi vermək, daxili bazarda və Azərbaycan hüdudlarından kənarda öz məhsullarını satmağa şərait yaratmaq – bütün bunlar hamısı qanunda nəzərdə tutulmuşdu. Görülmüş tədbirlər az müddətdə özünün ilk müsbət nəticələrini verməyə başladı. «Pəşminə», «Kəlkətəçi», «Xosrovi», «Busitan», «Şayan», «İran» və s. bu kimi sənaye müəssisələri öz iş ahəngini bərpa edib, tam gücü ilə işə düşdü. Milli hökumətin təşəbbüsü və vəsaiti hesabına tikilmiş «Zəfər» toxuculuq fabriki öz məhsulları ilə Azərbaycanın daxili bazarındakı tələbatı təmin etməyə köməklik göstərməklə bərabər öz mallarını qismən də olsa İranın başqa əyalətlərinə də ixrac edirdi [221, 1364, №2, s.23]. Azərbaycan Milli hökumətinin milli sənayeni dirçəltmək və inkişaf etdirmək proqramında sənayeni idarə edən intellekt və texniki kadrların hazırlanmasına, bu məqsədlə sənət məktəblərinin və ustalıq kurslarının təşkilinə, Təbrizlə yanaşı bölgələrdə, əsasən, əl əməyi ilə işləyən emalatxanaların, dəzgahların işə salınmasına və onlara yerli əncümənlər tərəfindən lazımı köməkliyin göstərilməsinə xüsusi diqqət verilmişdi. On minlərlə ailənin dolanışığı üçün başlıca maddi gəlir mənbəyi olan xalçaçılıq, toxuçuluq və digər kütləvi sənət sahələri dövlət hima-

yəsinə alındı. Mütərəqqi əmək və sığorta qanunu, möhtəkirliklə mübarizə, daxili bazarda ədalətli qiymət siyasəti Azərbaycan milli sənayesinin əhəmiyyətli dərəcədə dirçəlişinə kömək etmiş oldu və s.

Milli sənayenin dirçəlişinə yönəldilmiş tədbirlərin icrasında maliyyə vəsaiti əldə etmək önəmli bir məsələ idi. Bu baxımdan 1945-1946-cı maliyyə ilində icrası nəzərdə tutulmuş tədbirlər AMH-nin maliyyə siyasətinin özəyini təşkil etmişdi. AMH-nin 20 bənddən ibarət fəaliyyət proqramındakı maddələrın yarıdan çoxu iqtisadi problemlərin həllinə yönəldilmişdi. Tehranın himayədarlığı ilə düşmən qüvvələr tərəfindən iflic hala salınmış maliyyənin durumunu təcili şəkildə yaxşılaşdırmaq, büdcənin mədaxil mənbələrini sağlamlaşdırmaq və artırmaq, boşalmış xəzinədə yığım yaratmaq və dövriyyədə pul böhranını (çatışmamazlığı) aradan qaldırmaq üçün təsirli iqtisadi-maliyyə tədbirlərinə əl atmaq AMH-nin maliyyə siyasətində önəmli yer tutmuşdu. Azərbaycandakı banklar o vaxtkı pul vahidi ilə əhaliyə olan 18 min tümən borcu ödəməli olduğu halda, xəzinədə vur-tut cəmi 2 min tümən pul qalmışdı. Bu vəziyyət bankdakı pulların (həm də qızıl, qaş-daş və s.) 21 Azər ərəfəsində Tehrana aparılmasının nəticəsində yaranmışdı [227, 1379, №9, s.25]. İqtisadi və maliyyə cəhətdən son dərəcə ağır bir dövrdə fəaliyyətə başlayan AMH çox böyük çevikliklə bu ağır vəziyyəti yüngülləşdirməyə qismən də olsa müvəffəq oldu. Banklardakı bütün əmanətlərin verilməsi müvəqqəti dayandırıldı, mərkəzi xəzinəyə daxil olan vergi, rüsum və digər gəlirlərin Tehrana köçürülməsi tam donduruldu. Tehrana qaçmış şəxslərin hər növ əmlakı (onlara xəbərdarlıq edilməklə) 15 gün ərzində müsadirə olnub, hərraca (satışa) qoyulmaq yolu ilə satılıb pulu banka köçürüldü.

Vergilərə dair təlimatın qüvvəyə minməsi və pul vahidini əvəz edən xüsusi pul-qəbzlərin dövriyyəyə buraxılması, dövlət kooperativ satış məntəqələrinin fəaliyyətə başlaması AMH-i maliyyə çətinliklərindən qismən də olsa xilas etdi. AMH-nin maliyyə siyasətində dövlət xəzinəsinə başlıca vergi mənbələri aşağıdakılardan ibarət olmuşdur:

1. Müstəqim gəlirə görə vergi;
2. İstehsal müəssisələrindən toplanan vergi;
3. Tehrana əvvəllər aparılan vergi gəlirlərinin dayandırılması;
4. Dövlətə məxsus anbarlardakı məhsulun satışından gələn vəsait;
5. Daxili bazardan toplanan vergi və rüsumlar;
6. Azərbaycandan çıxarılan əmtəələr üçün gömrük;
7. Azərbaycan bank xəzinədarlığında pul-qəbzlərin buraxılması;
8. Dövlət aparatı xərclərinə qənaət hesabına yığım;
9. Azərbaycandan qaçmış şəxslərin sərvətinin müsadirəsi;
10. Dövlət büdcəsindən ayrılmalara qənaət.

Sadalanan bu mənbələr hesabına əldə olan vəsait 1946-cı il dövlət büdcəsində mədaxilin məxaricdən bir neçə faiz üstünlüyünü təmin etdi. (Məxaric 63 856 972, mədaxil isə 64 060 000 tümənə bərabər olmuşdur) [227, 1379, №9, s.26] Büdcə həm mədaxil və həm də məxaric mənbələrinə görə əvvəlki illərdəki büdcədən tam fərqli idi. **Büdcənin təsdiqi zamanı maarif və mədəniyyətə ayrılmış 6 020 120 tümən məxaricə baş nazir Pişəvərinin təklifi əsasında ilk rübün sonunda daha 4 milyon tümən əlavə edilmişdi. Əlavə olunmuş vəsaitin yeni məktəb tikintisinə, dərsliklərin çapına və savadsızlığı ləğv etmə kurs-**

**larının açılışına sərf olunması nəzərdə tutulmuşdur. Büdcə layihəsinin 6-cı bəndi ölkədə kənd təsərrüfatının inkişafını, yoxsul kəndlilərin maliyyə cəhətdən dəstəklənməsini nəzərdə tuturdu. Bu məqsədlə büdcənin ilk variantında 1946-cı təsərrüfat ili üçün ayrılmış 2005000 tümən vəsaitə 3 milyon tümən də əlavə edilmişdi [227, 1379, №9, s.26]. Dövlət büdcəsinə aid layihənin 7-ci bəndi bütövlükdə ictimai sığortaya həsr edilmişdi. Bu bölmədə qocalığa, əlilliyə, xəstəliyə görə təqaüdlərin artırılması, kimsəsiz uşaqların və qocaların saxlanılması, şəhər, bölgə, qəsəbə və kəndlərin, yolların, küçələrin və ictimai istifadə yerlərinin abadlaşdırılması, infrastrukturun yaxşılaşdırılması və s. bu kimi sosial və xidmət sahələrində işlərin yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Büdcə layihəsini nəzərdən keçirərkən burada mədəni maarif işlərinə, kino, teatr, klub, kitabxana işlərinə ayrılmalar və onlara sonrakı rüblərdə edilmiş əlavələr AMH-nin bu sahələrə nə qədər böyük qayğı və əhəmiyyət verdiyini göstərir.** «Azərbaycan Milli hökumətinin həyata keçirmək istədiyi işlərin miqyasını nəzərdən keçirərkən təbii olaraq düşünürsən: Əgər o hökumət indiyə qədər yaşasaydı, Azərbaycan ümumi inkişafda dünya üzrə ən yüksək göstəriciləri fəth etmiş məmləkətlərdən biri olardı» [227, 1379, №9, s.28].

**MAARİF VƏ MƏDƏNİYYƏT** sahəsində AMH-nin gördüyü işlər ata və oğul Pəhləvilərin hakimiyyətdə olduğu 20 ildə bu sahədə xəsisliklə gördüyü işlərin məcmuyu ilə belə müqayisə olunmazdır. Bir ildən də az müddət ərzində maarif və mədəniyyət sahəsində AMH-nin icra etdiyi tədbirlər və gördüyü işlər öz miqyasına görə Azərbaycanda mədəni inqilabın və intibahın başlanğıcı idi. Yasaq olunmuş türk dilinin rəsmi dövlət dili elan olunması, milli filarmoniyanın, teatrın, milli muzeyin, milli

orkestr heyətinin təsisi, yazıçılar, rəssam və incəsənət işçiləri cəmiyyətlərinin yaradılması, ilk milli ali məktəb – dövlət universitetinin açılması, milli radio stansiyasının işə düşməsi, maarifə maddi və mənəvi qayğının artırılması, yeni məktəb binalarının, uşaq evlərinin tikilməsi və bərpası, ilk növbədə I-IV siniflər üçün türk dilində dərsliklərin nəşri, kitab və mətbuatın çapına və yayılmasına geniş meydan verilməsi, milli kitabxananın təkmilləşdirilməsi haqda qərar, xiyaban, küçə və yer adlarının (toponimlərin) öz tarixiliyinə qaytarılması, siyasi şəxsiyyətlər, elm və mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi və s. AMH-nin maarif və mədəniyyət sahəsində gördüyü böyük işlərin qısa icmalıdır [145, s.37-62].

Yuxarıda sadaladığımız tədbirlər sırasında ilk və önəmli addım türk dilinin – ana dilinin ümumazərbaycan üzrə rəsmi dövlət dili elan olması idi [136, s.48-49], [138, s.65-66]. 10 maddədən ibarət olan bu qərarın böyük önəmi ondan ibarət idi ki, qədim tarixə malik olan türk dili XX əsrdə Güney Azərbaycanda ilk dəfə danışıq və tədris yasağından qurtarıb rəsmi dövlət statusu alaraq xalqa qaytarılmışdı. Bu tarixi qərarın qısa məzmunu bundan ibarətdir ki, qərar qəbul olunan gündən türk dili ümumazərbaycanda rəsmi dövlət dili elan olunur. Bütün dövlət orqanları və idarələrdə yazışmalar, məktəblərdə tədris, nəşriyyat işləri türk dilində aparılır. Türk olmayanlara türk dilini öyrənib və əməli fəaliyyətdə ondan istifadə etmək üçün şərait yaradılır və dövlət dilini öyrənmək üçün möhlət qoyulur. Qeyri-türk azlıqlara öz dillərində tədris və digər sahələrdə sərbəst istifadə etmək hüququ verilir. Bununla birlikdə dövlət dilinin öyrənilməsi vətəndaşlıq borcu kimi onlara həvalə edilir.

Dil haqqında yuxarıda qeyd olunan qərarla bağlı Azərbaycan Maarif Nazirliyinin 1 №-li əmrində [138, s.63] məktəblərdə tədrisin türk dilində aparılması, dərsliklərin və tədris proqamlarının hazırlanması, ilk növbədə I–IV sinif üçün dərsliklərin ana dilində və milli ruhda hazırlanması tələb olunur. Tədrislə bağlı kitab və proqramların hazırlanması və nəşri, tədrisin metodikasını hazırlımaqdan ötrü savadlı və təcrübəli maarif işçilərindən ibarət xüsusi komissiya yaradılmışdı. Belə bir cəhəti xüsusi qeyd etmək lazımdır ki, uzun illər tədrisi ana dilində aparmaq imkanından məhrum edilmiş azərbaycanlı müəllimlərin çoxu milli dildə kitabların nəşrini gözləmədən Maarif Nazirliyinin razılığı ilə mövcud fars dilindəki dərsliklər əsasında dərsləri türkcə tədris etməyə böyük həvəs göstərmişlər. Bunu həmin dövrdə tədris sahəsində çalışanların qeydlərindən və xatirələrindən də aydın görmək olur [188, 14 Ordobehişt, 1325]. Məktəblərin sayını artırmaq, yararsız hala düşmüş məktəbləri təmir etdirmək, məktəblərin tədris bazasını yaxşılaşdırmaq, savadsızlığı ləğv etmək kurslarını təşkil etmək və bu sahəyə xüsusi diqqət ayırmaq AMH-nin maarifləşdirmə proqramlarında mühüm yer tutmuşdur.

«1325-ci ilin (1946) son üç ayı üçün Azərbaycan maarifinə ayrılmış vəsait İran dövlətinin bütün ölkə maarifi üçün ayırdığı illik büdcədən iki dəfə çox idi» [221, 1364, №2, s.34]. Məktəblərin təmirində və yeni məktəb binalarının inşasında, kənd yerlərində məktəbə gedən yolların abadlaşdırılmasında xalqın könüllü maddi və fiziki yardımı xalq kütləsində maariflənməyə olan böyük meyl və həvəsdən xəbər verirdi. Həmin dövrə aid hesablamalarda Azərbaycanda bir il ərzində 400-ə yaxın məktəbin inşa olunduğu və ya əsaslı təmir edildiyi göstərilir.

Yetim və kimsəsiz uşaqların qayğısına qalmaq, onları gələcəkdə cəmiyyətin yararlı, savadlı və bacarıqlı üzvlərnə çevirmək AMH-nin humanitar sahəyə kifayət qədər diqqət ayırdığı məsələ idi. Bu haqda Milli Hökumət xüsusi qərar qəbul etmişdi. Həmin qərar əsasında yetim və kimsəsiz uşaqları himayə məqsədi ilə 1325-ci il (1946) dövlət büdcəsindən, o zamankı pul vahidi ilə 500 min tümən vəsait ayrılmışdı. Həmin vəsait hesabına Azərbaycanın 7 iri bölgəsində, Milli Hökumət dövründə türk dilində çıxan mətbuatdan nümunələr, o cümlədən Təbriz, Urmiya, Ərdəbil, Marağa, Zəngan, Xoy və Əhər şəhərlərində uşaq tərbiyə evləri təşkil olunmuş, yetim və kimsəsiz uşaqlar ora cəlb edilmişdir [221, 1364, №2, s.35].

**Azərbaycan Dövlət Universiteti:** AMH-nin elm və təhsil sahəsində gördüyü mühüm işlərdən biri Təbrizdə milli dövlət universitetinin açılması olmuşdur. Pəhləvilər dövründə İranın geridə qalmış ucqarlarından birinə çevrilən Azərbaycanda nəinki nümunə üçün bir ali məktəb, hətta orta–ali təhsil verən bir təhsil ocağı belə yox idi. Mərhum Pişəvəri pəhləvilər dövründə Azərbaycandakı maarifə mərkəzi dövlətin laqeyd münasibətindən danışarkən deyirdi: «Azərbaycan səhiyyə işləri üçün ayrılmış vəsait adam başına bölünərsə, bir nəfərə bir aspirin belə çatmaz. Maarif üçün ayrılmış pul bölünərsə, onu göstərən bir vahid rəqəm tapmaq olmaz. Mən onu kibritə təbdil etdim. Nəticə bu çıxdı ki, hər nəfərə bir kibrit çöpündən də az pay düşdü» [145, s.68].

Milli universitet açmaq və az müddətdə onun maddi-texniki bazasını yaratmaq, ixtisas fakültələrini artırmaq və ilk ali məktəbi savadlı, bilikli müəllim heyəti ilə təmin etmək AMH-nin maarif-təhsil və mədəniyyətə aid fəaliyyət proqramında mühüm yer tutmuşdur. Dövlət üniversitetinin təşkili haqda qərarda

göstərilirdi ki, «Millətimizin arzularını və Azərbaycan Milli Konqresinin qərarlarını nəzərə alıb milli və mədəni tərəqqimizi təmin etmək üçün Azərbaycan Milli Hökuməti üzümüzə gələn dərs ilindən vətənimizin mərkəzi Təbriz şəhərində Azərbaycan Dövlət darülfünunun təşkilini zəruri saydığı üçün aşağıdakı qərarı qəbul edir…» [138, s.65] 4 maddədən ibarət olan bu qərarda açılacaq universitet üçün büdcənin ayrılması, fakültələrin təşkili, bina yerinin seçilməsi və müəllim heyətinin müəyyənləşdirilməsi və s. qeyd olunmuşdur.

Müəyyən hazırlıqdan sonra (büdcədən ayrılmalar, bina, tədris avadanlığı, müəllim heyətinin komplektləşdirilməsi və s.) 1946-cı il iyun ayında (1325-ci il 22 Xordad) Təbrizdə ilk milli universitet açıldı və həmin il müsabiqə yolu ilə ilk müdavimlər universitetə qəbul olundu. Təbrizdə ilk milli universitetin açılması münasibəti ilə «Azərbaycan» qəzeti yazmışdı ki, «Çaharşənbə günü, Xordad ayının 22-si Azərbaycan milləti üçün tarixi bir gün idi, ikinci 21 Azər idi» [188, 24 xordad, 1325]. Təbriz universitetinin rektoru olmuş Nüsrəttulla Cahanşahlu Əfşar öz xatirələrində yazır ki, Şəhrivər ayında (sentyabr) bir qrup abituriyenti müsabiqə yolu ilə imtahan edib, universitetə qəbul etdik. Universitetdə müdavimlərə yemək və kənardan gəlmişlərə yataqxana verildi. Yataqxanada yerlə təmin olunmayanlara kirayədə qalmaq üçün pul ödənilirdi. Universitetin yeni təşkil olunmuş kitabxanasına alınmış və çoxlu hədiyyə edilmiş kitablar tələbələrin ixtiyarına verildi [166, s.134-135]. 1945/1947 tədris ilində müxtəlif ixtisaslar üzrə universitetə 200 tələbə qəbul edilmişdi [188, 24 şəhrivər, 1325]. Təbriz universiteti başlanğıcda 3 fakültədən ibarət olmuşdur: tibb, kənd təsərrüfatı və pedaqoji fakültələr. Pedaqoji fakültədə tarix, dil, ədəbiyyat, fəlsəfə,

hüquq, fizika, riyaziyyat, Türk dilində məktəb dərsliklərindən nümunələr və biologiya ixtisasları tədris olunurdu. Gələcəkdə fakültələrin ixtisaslar üzrə yaradılması və tələbə qəbulunun bir neçə qat artırılması planlaşdırılmışdı.

Təbriz universitetinin açılması Azərbaycanın elm və mədəniyyət tarixində önəmli hadisə idi və bu, Azərbaycan Milli Hökumətindən gələcək nəsillərə qalmış böyük mədəni irs oldu.

**Ədəbiyyat və incəsənət:** Pəhləvi hakimiyyəti illərində Güney Azərbaycanda ana dilinin yasaq edilməsi maarif və mədəniyyətin başqa sahələri ilə birlikdə ana dilli ədəbiyyatı da buxovda saxlamışdı. 20-30-cu illərdə Azərbaycan dilində sanballı bir bədii əsərin çap olunduğunu söyləmək çətindir. Buna görə də 40-cı illərin əvvəllərində, xüsusən 21 Azər hərəkatından sonra ana dilli ədəbiyyatın yeni nümunələri və nümayəndələri böyük axın şəklində meydana çıxmağa başladı. M.Etimad, M.Biriya, Ə.Fitrət, M.Hilal Nasiri, M.Məhzun, M.Abbasi ilə yanaşı B.Azəroğlu, Ə.Tudə, F.Xoşkinabi, M.Gülgün, H.Billuri, M.Çavuşi və onlarca gənc şair və yazıçı öz qələmləri ilə mübarizə meydanına atılmışdılar. 1941-1946-cı illərdə Güney Azərbaycandakı ədəbi prosesin canlanmasında və istiqamətləndirilməsində Sovet ordusu sıralarında Güneyə getmiş ədəbi simalar (M.Ibrahimov, C.Xəndan, S.Rüstəm, H.Şahgəldiyev, Ə.Sadıq, Q.Musayev (İlkin), O.Sarıvəlli, M.Rahim və başqaları) və ana dilli mətbuat («Azərbaycan», «Vətən yolunda», Ərdəbil və Urmiyada çıxan qəzetlər) mühüm rol oynamışdı.

Azərbaycan dilində çap olunan qəzetlər az müddət içərisində milli ruhlu şair, yazıçı və publisistləri öz ətrafına toplaya bilmişdi. 1946-cı ilin yanvarında «Azərbaycan şairlər Məclisi» adlı yazarlar birliyinin yaradılması Güneydəki milli ədəbi

prosesdə çox mühüm hadisəyə çevrildi. «Şairlər Məclisi» adlı topluda Güney Azərbaycan yazıçılarının ana dilində çap olunmuş şeir və hekayələri Rza şahın yaratdığı siyasi sükutdan sonra milli ədəbiyyatın ilk pöhrələri idi. AMH-i tərəfindən himayə edilən və maliyyələşdirilən Azərbaycan Yazıçılar Birliyi Ərdəbil, Urmiya, Zəngan, Sərab, Mərənd, Salmas, Marağa və s. şəhərlərdə öz filiallarını yaratmağa və ədəbi prosesi xalqın əldə etdiyi milli azadlığı tərənnüm və təbliğ etməyə yönəltdi.

Milli teatr, musiqi, rəssamlıq, xalq yaradıcılığının başqa sahələri Milli hökumət dövründə xüsusi dirçəlişə və intibaha malik olmuşdur.

**Teatr** XX əsrin əvvəllərindən başlayaraq Güney Azərbaycanın mədəni həyatına daxil olsa da, Rza şah dövründə ana dilli teatr tamaşalarının nümayişi rəsmi şəkildə qadağan edilmişdi. 1941-ci ildən sonra İranın siyasi mühitində əmələ gəlmiş vəziyyət Azərbaycanda milli teatrın dirçəlişinə səbəb oldu. Əvvəllər ayrı-ayrı bölgələrdə, toylarda və şənliklərdə artistlik istedadı olan adamların məhdud oyun və səhnəcikləri 40-cı illərin ortalarında mütəşəkkilləşib yeni milli teatrın bünövrəsini qoymuş oldu. Bu işdə Azərbaycanın quzeyindən vaxtaşırı qastrola gələn teatr xadimlərinin köməkliyi və təsiri danılmazdır. Hələ 21 Azərə qədər Təbrizdə ibtidai şəkildə də olsa formalaşmış «Azərbaycan», «Firdovsi», «İran», «Təbriz», «Həqiqət» aktyor dəstələrindən ibarət teatr truppası Milli hökumət dövründə fəaliyyətə başlayan milli teatr heyətinin əsasını təşkil etmişdi [51, s.91]. Azərbaycan Milli hökuməti tərəfindən maddi və mənəvi cəhətdən dəstəklənən milli teatr az zaman içərisində formalaşdı, püxtələşdi və qol - qanad atdı. 1946-cı ildə Azərbaycanın demək olar ki, bütün şəhərlərində yerli teatr trup-

paları fəaliyyət göstərməyə başladılar. Teatr tamaşalarının repertuarlarında milli vətənpərvərlik, maariflənmə, cəhalət və xürafatdan uzaqlaşmaq, əxlaq və mədəniyyət, qadın problemi əsas yer tuturdu. Milli hökumət dövründə Azərbaycan teatrının nəzəri cəlb edən yüksəlişi bir tərəfdən vaxtı ilə Azərbaycanın quzeyində H.Ərəblinski, M.Əliyev, S.Ruhulla məktəbi keçmiş, aktyor sənətinə yiyələnmiş A.Fərivər, M.Rəsuli, Ə.Nikcu, Ə.Məhəmmədi, İ.Zülfizadə, Z.Müvəzzezadə, S.Səbahi və başqalarının milli səhnəyə gəlişi ilə bağlı idisə, digər tərəfdən milli teatrın dirçəliş və inkişafının dövlətin nəzər diqqətində dayanması ilə əlaqədar idi. Azərbaycanın güneyində 1945-1946-cı illərdə milli teatrın çox sürətlə dirçəlişi və populyarlaşmasının mühüm səbəblərindən biri də tamaşalar üçün ana dilində və Azərbaycan mövzusunda hazır dram əsərlərinin mövcud olması idi. Ü.Hacıbəyovun «O olmasın, bu olsun», «Arşın mal alan», C.Cabbarlının «Aydın», «Od gəlini», «Almaz», «Oqtay Eloğlu» C.Məmmədquluzadənin və digər quzeyli dramaturqların qələmindən çıxan əsərlərini sınaq tamaşaları mövzu etibarı ilə yerli adət ənənələri və məişətdəki olayları və cəmiyyətdəki antipodları ustalıqla bədii formada tamaşaçıya təqdim etdiyindən, onlar xalq tərəfindən hərarətlə qarşılanırdı.

AMH-in qərarı ilə 1946-cı il martın 28-də (1325-ci il fərvərdinin 7-də) Təbrizdə Azərbaycan Dövlət dram teatrının açılışı Azərbaycan mədəniyyəti tarixində əlamətdar hadisə oldu[1]. Əvvəllər ayrı-ayrı fəaliyyət göstərən maddi və repertuar cəhətdən korluq çəkən truppaların bir mərkəzdə toplanması milli teatrın

[1] Bu haqda məlumat üçün bax: professor İlham Rəhimli «Təbriz Azərbaycan teatrı», Bakı, 2005 («Çaşıoğlu» mətbəəsi)

inkişafında önəmli rol oynadı. Az müddətdə teatr təkcə öz repertuarını gücləndirmədi, həm də istedadlı aktyor dəstəsini ətrafına toplaya bildi, milli hökumətin mədəni-maarif proqramının icrasında fəal iştirak etdi. S.Sabahi, Ə.Əsədi, C.Şəfizadə, Ə.Rizvan, H.Əşari, S.Əhmədzadə, M.Vəlizadə, İ.Muzduri, A.Təmcidi, B.Məmmədzadə və onlarca aktyorun az müddətdə səhnədə peşəkar sənətkar kimi ortalığa çıxması Azərbaycan mədəniyyətinin bu sahədə də böyük potensiala malik olduğuna dəlalət etdi. Azərbaycan Dövlət dram teatrının açılışında S.C.Pişəvərinin söylədiyi nitq mədəniyyətin başqa sahələri ilə birlikdə teatrın da Milli hökumətin diqqət mərkəzində qalacağından və onun inkişafına dövlət qayğısını əsirgəməyəcəyindən xəbər verirdi *[188, 1325, 8 fərvərdin]*. Həqiqətdə də 1946-cı il dövlət büdcəsində maarif və mədəniyyətlə bağlı xərclər sırasında teatrın inkişafına, orada çalışanların maddi rifahının yaxşılaşdırılmasına və Təbrizdə Dövlət teatrı üçün yeni binanın tikilməsinə, mövcud teatr binalarının təmirinə və bölgələrdə teatr truppalarının həvəsləndirləməsinə xeyli məbləğ vəsait ayrılmışdı *[188, 4 fərvərdin, 1325]*. Bunu 1946-cı il büdcə layihəsindəki rəqəmlərdən də görmək olar.

1946-cı ilin yayında teatr tamaşaları Təbriz və iri şəhərlərlə yanaşı, Azərbaycan kəndlərinə də yol tapmışdı. Bu işdə Azərbaycan Cavanlar təşkilatının xüsusi fəaliyyəti olmuşdur.

Azərbaycan Dövlət filarmoniyasının 40-cı illər və sonrakı dövrdə Azərbaycan musiqisinin, mahnı və xalq rəqslərinin dirçəlişində və inkişafında böyük təşkilatçılıq və istiqamətləndirici rolu olmuşdur. 1945-1946-cı illərdə Güney Azərbaycanda mədəniyyət və incəsənətin inkişafında S.C.Pişəvərinin əvəzsiz xidmətlərindən bəhs edərkən görkəmli musiqişünas alim,

professor Rafiq İmrani yazır: «S.C.Pişəvərinin dahiliyi bir də onda idi ki, o, milli dirçəliş proqramının tərkib hissəsi olan ana dilli mədəniyyətin yaradılmasına və inkişafına daima diqqət yetirmişdir» *[227, 1380, №11, s.34]*. Azərbaycan musiqisinin və xalq rəqslərinin qədim tarixə malik olması tarixi abidə və mənbələrdən, qayaüstü şəkillərdən, xalq folklorundan və s. yaxşı məlumdur. Ölkədə dövlət siyasəti səviyyəsində hakim olan şovinizm kursu, qeyri-fars xalqların milli mədəniyyətinə ögey və düşmən münasibət bəsləmiş və nəticə etibarı ilə Azərbaycan incəsənətini, o cümlədən musiqisini də buxovlamış, əvəzində millətin qafasına şovinist məfkurə sırınmışdır. «İran hakimləri Azərbaycanın sərvət və varidatını çəkib aparmaqla qalmayıb, onun mənəvi və ruhi sərvətini də dağıtmağa çalışmışlar»[1].

Buxovdan azad olmuş Azərbaycan incəsənəti az zaman kəsiyində önəmli uğurlara qovuşa bildi. Bu cəhətdən 1946-cı il sentyabrın 2-də (1325-ci il şəhrivərin 11-də) Təbrizdə Milli filarmoniyanın açılışı Azərbaycan incəsənətinin təntənəsi idi. Dövlət filarmoniyasının təşkilində və az müddətdə məhsuldar işləməsində orada çalışan kollektivlə yanaşı, filarmoniyanın ilk direktoru mərhum şairimiz Əli Tudənin, məşhur bəstəkarımız Hacı Xanmmədovun böyük zəhmətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan Milli hökumətinin rəhbəri, baş nazir S.C.Pişəvəri filarmoniyanın açılışında şəxsən iştirak etmiş və dərin məzmunlu nitq söyləmişdir. Əli Tudə bu münasibətlə öz xatirəsində yazır: «O, dünya xalqları arasında layiqli yer tutan Azərbaycan xalqının qədim mədəniyyətindən böyük qürur hissi ilə danışırdı. Azərbaycan torpağının dünya incəsənətinə bəxş

[1] «İnqilab və mədəniyyət», Bakı, 1947, № 4, s. 77

etdiyi dahi sənətkarların adlarını iftixarla çəkirdi. O, xalqlar arasındakı mədəni əlaqələrin qonşuluğa, dostluğa, qardaşlığa nə dərəcə gərəkli olduğunu parlaq misallarla göstərirdi və dedi: «Biz çalışmalıyıq ki, təzəcə açdığımız bu sənət ocağı mədəniyyətimizin qədim salnaməsində yeni bir səhifə açsın» *[227, 1380, №11, s.34]*.

Təbriz filarmoniyası az müddət içərisində böyük uğurlar qazanmağa nail oldu. Bu işdə dövlətin göstərdiyi ardıcıl himayədarlıqla bərabər, filarmoniyadakı xalq çalğı alətləri, xalq mahnıları və rəqsləri qrupuna cəlb olunmuş insanların fitri istedadı və sənətə ürəkdən bağlılığı da az rol oynamamışdı. Müsəlman ənənələrinin fanatik səviyyədə kök saldığı bir ölkədə çadranı Sevil sayağı atıb filarmoniyaya ayaq açmış, öz mahnı və rəqsləri ilə tamaşaçıların dərin rəğmətini qazanmış qızlar qrupunun çıxışları xüsusi qeyd olunmalıdır. Milli hökumət dövrünün (1945-1946) incəsənət tarixinin tanınmış tədqiqatçısı R.İmrani yazır ki, «Təbriz filarmoniyasında yaşlı nəsil aşıqlar dəstəsinin, saz çalan qızlardan ibarət qrupun, milli xalq çalğı alətləri orkestrinin, rəqs qruplarının, xanəndələrinin və xor kollektivlərinin olması Milli hökumət vaxtı Təbrizdə böyük musiqi mədəniyyətinin olmasına dəlalət edir»*[227, 1380, №11, s.35]*. Professor R.İmrani «21 Azər» dərgisində AMH-i dövründə incəsənətin inkişafına aid dərc etdirdiyi məqaləni bu sözlərlə tamamlayır: «… Milli hökuməti olmayan xalq anasız-atasız böyüyən yetim uşağa bənzəyir. Allah heç bir xalqı, xüsusən də, sayı 30 milyonu keçmiş Cənubi Azərbaycan xalqını anasız-atasız qoymasın!» *[227, 1380, №11, s.35]*.

Azərbaycan Milli hökumət dövründə incəsənətin başqa sahələrində də gözəgəlimli irəliləyiş olmuşdur. Rəssamlıq,

heykəltəraşlıq, qrafika və xəritəçilikdə və s. sahələrdə də uğurlar olmuşdur. Bir il ərzində iqtisadiyyatın və mədəniyyətin bütün sahələrində qazanılmış müvəffəqiyyətlər onu göstərir ki, xalq öz qüdrəti ilə qısa müddətdə belə ağlasığmaz xarüqələr yaratmaq imkanına malikdir.

ABŞ-ın Kaliforniya ştatında ictimai hərəkatlar tarixini tədris edən amerikalı müəllif Con Furan 1945-1946-cı illərdə Azərbaycan Milli hökumətinin həyata keçirdiyi tədbirləri sadalayaraq yazır: «… İran tarixində ilk dəfə qadınlara kişilərlə bərabər hüquq verildi… İş haqqında qanun qəbul edildi. Anbarlarda saxlanılan taxıl və ərzaq sabit qiymətlərlə bazara çıxarıldı. Çox işlənən məhsullar və mallar üzərindən vergi götürüldü… Təbrizin başlıca küçələri abadlaşdırıldı, xiyabanların asfalt örtüyü təzələndi. Savadsızlığı ləğv etmək kursları təşkil olundu. Radio stansiyası və çapxanalar işə düşdü. Xiyabanlara inqilab rəhbərləri Səttarxanın və Bağırxanın adları verildi. Təbrizin görkəmi dəyişildi. Banklar milliləşdirildi. Körpələr evi, tərbiyə ocaqları, xəstəxana, musiqi mərkəzi açıldı. Ana dilində kitablar nəşr edildi, «Şairlər Məclisi» təşkil olundu. iqtisadiyyat sahəsində çoxsaylı tədbirlər tənzim edildi, bir qismi həyata keçdi və s.». Müəllif əsərində öz sözünə amerikalı diplomat Riçard Kanmdın belə bir cümləsi ilə yekun vurur: «Firqənin bir il ərzində həyata keçirdiyi işləri Rza şah 20 ildə ancaq yerinə yetirə bilərdi» *[100, s.410-411]*.

**1941-1946-cı ilin mayınadək Sovet qoşunları tərkibində İrana getmiş Azərbaycanın quzeyindən olan ziyalıları, yazıçı, maarif-mədəniyyət, səhiyyə işçiləri, mühəndis, sənətkar və s. Azərbaycanın güneyindəki sosial-iqtisadi, siyasi, elmi və mədəni mühitin bütün sahələrində, ən başlıcası milli oyanışda öz**

**qan qardaşları üçün imkan daxilində, verilmiş hüdudların çərçivəsində əllərindən gələn köməkliyi etmişlər.** Bəhs olunan bu dövrdə Quzeydəki Azərbaycanın Arazın o tayındakı Azərbaycana göstərdiyi qardaşlıq münasibətini və onun azadlığa çıxmasına ürəkdən yanmasını Kremlin məkrli siyasətindən və pərdə dalında hazırladığı xəyanətkar oyundan mütləq ayırmaq lazımdır. Əgər birincini qan bir, can bir qardaşının acı taleyi, onun azadlığı və əbədi qurtuluşu əndişələndirirdisə və çox vaxt bu düşüncəni mənsub olduğu dövlətin ona həvalə etdiyi vəzifədən də yüksək tuturdusa, sonuncunun meyarı və məqsədi hər şeyi imperiyanın mənafeyinə tabe etdirmək idi. Sovetlərin Azərbaycanın güneyinə, ümumiyyətlə İrana münasibəti həmişə bu ambisiyalı təfəkkürlə bağlı olmuşdur.

# GÜNEY AZƏRBAYCAN ÜZRƏ TEHRAN-MOSKVA SÖVDƏLƏŞMƏSİ

İkinci Dünya müharibəsi dövründə, xüsusən müharibənin ilk illərində Azərbaycanın güneyi haqda Sovetlərin siyasətində iki başlıca amil diqqəti daha çox özünə çəkir. Bunlardan birincisi müharibənin gedişində Qərbi Ukrayna, Qərbi Belorusiya, Moldoviya və Pribaltika ölkələri kimi, Güney Azərbaycanı da Sovet imperiyasına birləşdirmək, ikincisi, İranın şimalında neft-qaz yataqlarını və dağ-mədən sənaye kompleksini, eləcə də İran hava yolları nəqliyyatının ixtiyarını ələ keçirmək, bununla da gələcəkdə millitarist planları həyata keçirməkdə (İranın qonşularına qarşı) bu ölkənin coğrafi-strateji mövqeyindən faydalanmaq İrana münasibətdə əsas hədəflər idi.

Birinci amil–Azərbaycanın Güneyini SSRİ-yə ilhaq etmək məsələsi ikinci amildən – Şimaldakı yataqları ələ keçirməkdən xeyli dərəcədə çətin idi. Əvvəla, SSRİ-nin bu iştahası üzərində SSRİ-nin o zamankı müharibədə müttəfiqləri olan ABŞ və İngiltərə böyük maneə idi, həm də nəzərə alsaq ki, müharibənin ilk üç ilində Sovet İttifaqı məğlubiyyətə yaxın vəziyyətdə idi. Belə bir şəraitdə özünü müharibə müttəfiqləri ilə üz-üzə qoymaq Kreml üçün heç cür məqbul deyildi. Digər tərəfdən istər Stalin, istərsə Mikoyan və rəyasətdə olan digər gürcü və ermənilərin siyasi rəhbərlikdəki mafiyası Azərbaycanın güneyini quzeyinə qatmaqla, öz əlləri ilə Qafqazlarda ərazicə daha böyük və əhalicə çox milyonlu türklərdən ibarət bir dövlətin meydana gətirilməsinə heç cür razı ola bilməzdilər. Obyektivlik naminə demək lazımdır ki, o zamankı Sovet Azərbaycanı rəhbərliyinin və geniş ictimaiyyətin, xüsusən ziyalıların böyük bir hissəsində

Türkmənçayla (1828) başlanan ayrılığa son qoymaq, vahidləşmək arzusu ön planda olsa da, bu arzu reallaşa bilmədi. Kremlin pərdə dalındakı oyunlarının məğzini aydın dərk etməyən Güney Azərbaycandakı Quzeydən gəlmiş Azərbaycan elçiləri etiraf edirdilər ki, «… bir sıra tədbirləri həyata keçirən zaman onlar (Quzeydən gəlmiş azərbaycanlılar - Ə.R.) Sovet rəhbərliyinin məkirli məqsədini anlamadıqları və ona görə də işləri arzuolunan səviyyədə tam həcmdə genişləndirə bilmirlər». Quzey Azərbaycan rəhbərliyi isə bildirirdi ki, «… bizim İrandakı rəhbər işçilərə dəqiq və aydın deyilməlidir ki, Azərbaycan əhalisinə farsların əsirlik zülmündən qurtarmaq işinə kömək etməliyik. Ona görə də bütün işləri bu istiqamətdə qurun» *[18, s.86]*. Təəssüf ki, işlərin bu istiqamətdə qurulmasına Sovetləri İranda təmsil edən rus-erməni komissarları imkan vermədilər və yeri gəldikdə Quzeydən gəlmişləri müxtəlif bəhanələrlə fəaliyyət meydanından uzaqlaşdırır, bir çox hallarda onları ləkələməyə çalışırdılar.

1941-1946-cı illərdə SSRİ-nin İrana aid planına bu ölkənin şimalında olan neft-qaz ehtiyatlarını ələ keçirmək niyyəti həmişə Sovetlərin siyasətində əvvəlcə gizli, 1943-cü ildən sonra açıq şəkildə gündəmdə olmuşdur. 1944-cü ilin əvvəllərində müharibənin gedişində artıq qəddini düzəltmiş və irəliləyişə nail olmuş Sovetlər 1944-cü ilin yayında İranın şimalındakı nefti çıxarmağa müştaq olduqlarını rəsmən İran hökumətinə bildirdilər *[133, s.49]*. Bu sahədə əməli işə başlamaq üçün 1944-cü ilin sentyabrın 10-da SSRİ Xarici İşlər nazirinin müavini S.Kavtaradze başda olmaqla Sovet nümayəndə heyəti danışıqlar aparmaq üçün Tehrana gəldi *[260, 20 şəhrivər, 1323]*. Kavtaradze Tehrandakı Sovet səfiri M.Maksimovun müşaiyəti ilə əvvəl baş nazir

Məhəmməd Said Marağayi ilə, sonra Məmmədrza şahla görüşmüşdü *[260, 20 şəhrivər, 1323]*. Əldə edilmiş ilkin razılığa əsasən Tehrana gəlmiş Sovet nümayəndəliyi (nümayəndəliyə geoloji-kəşfiyyat mütəxəssisləri də daxil idi) Azərbaycanla bərabər Mazandaran, Gilan, Qorqan və Türkmənsəhrada olmuşlar. Xəzər dənizindən 40 km. cənubda Sari-Şahi istiqamətində neft yataqlarının daha zənginliyi məlum olsa da, İran tərəfi hələlik geoloji işlərin ancaq Azərbaycan və Gilan əyalətlərində aparılmasına razılıq verdi. SSRİ nümayəndəliyi tərəfindən hazırlanmış 22 maddədən ibarət müqavilənin layihəsi İran tərəfinə təqdim edildi. Bu layihədə Şimaldakı neft yataqlarının 60 il müddətinə Sovetlərə konsesiyaya verilməsi, neft yataqlarının axtarışı, çıxarılması və nəqli, onun dünya bazarına ixracatı və s. yaradılması nəzərdə tutulan «Sovet-İran Birgə Konsesiyası»na həvalə olunmalıydı. Bu layihə o zaman müqavilə şəklinə salınıb, qüvvəyə minə bilərdi ki, onu İran Məclisi qəbul edib, Məmmədrza şah imzalayaydı. Bunların heç biri baş tutmadığından (9 oktyabr 1944-cü ildə Məclis bu məzmunda qərardadi rədd etdiyindən) bir aya qədər Tehranda vaxt keçirən Kavtaradze nümayəndəliyi əli boş Moskvaya qayıtdı. Bu vəziyyət Sovetlərin İrana qarşı əlaqələrində təzyiq və hədə-qorxu siyasətini gücləndirdi. Sovet mətbuatında anti-İran kompaniyası yeni vüsət aldı. Belə bir vəziyyətdə İran hökuməti növbəti manevrə əl atmaq məcburiyyətində qaldı. 1945-ci il noyabr ayında M.Said hökuməti istefaya göndərildi. Onu milliyyətcə yenə azərbaycanlı olan Murtuzaqulu xan Bayat əvəz etsə də, onun hökuməti cəmi 4 ay hakimiyyətdə qala bildi. 1945-ilin aprelində Bayatı 76 yaşlı Həkim-əlmülkalə əvəz etsə da Sovet-İran münasibətlərindəki soyuqluq və gərinlik artmaqda davam

etdi. Belə bir vəziyyətdə sovetlər Güney Azərbaycandakı muxtariyyət uğrunda mücadilədən faydalanmağa başladılar. Neft amili Sovetlərin İrana münasibətindəki strategiyanın mərkəzinə keçdi. Onlar İran hökumətinə təzyiqi artırmaq məqsədi ilə AMH başçısı S.C.Pişəvərinin Azərbaycan xalqının muxtariyyət tələbi haqda BMT-ə məlum müraciətinə (28 yanvar 1946) mane olmadılar. Sovetlər Azərbaycanla birlikdə, bütün İrandakı anti-rejim qüvvələrin radikal çıxışlarına rəvac verməkdə davam etdilər.

Beləliklə, necə deyərlər, «keçi can hayındadır, qəssab piy axtarır». Azərbaycan öz ağır taleyinə çıxış yolu axtardığı bir zamanda Sovetlər onun hesabına şimal neftinin qoxusu ilə öz ambisiyalarına çatmağa çalışırdılar. Bu ambisiya Azərbaycandakı milli azadlıq və demokratik hərəkatın üzərində Sovetlərin kölgəsini qüvvətləndirirdi.

1945-ci ilin sonunda Azərbaycanın Güneyində qələbə çalmış 21 Azər inqilabı öz məzmunu və miqyasına görə XX əsrdə Güneydə baş vermiş xalq hərəkatının zirvəsi kimi qiymətləndirilməlidir. 21 Azərin qələbəsi, Azərbaycan Milli hökumətinin yaradılması və onun yuxarıda xülasə şəklində qeyd etdiyimiz iqtisadi, sosial və mədəni tədbirlərin həyata keçirilməsi, xalqla Milli hökumət arasında yaranmış vəhdət – bütün bunlar, üstəlik qeyri-fars regionlarında muxtariyyət uğrunda hərəkatın genişlənməsi və bir sıra digər faktorlar ölkədəki şahlıq rejimini əhəmiyyətli dərəcədə laxlatdı. Əslində 1945-ci ilin sonu, 1946-ci ilin əvvəllərində Tehranın özündə rejimə qarşı ümumxalq mübarizəsi onun çökməyi üçün real təhlükə yaradırdı. Həmin dövrə aid çoxsaylı faktlar və həqiqətlər, eləcə də 1979-cu il İran inqilabından sonra bu ölkədə və onun hüdudlarından kənarda bu

haqda çap olmuş bir sıra kitablar və məqalələrdə o dövrün real vəziyyəti açıqlanır.

**1945-1946-cı illərdə Azərbaycanın güneyində muxtariyyət hərəkatının genişlənib dərinləşməməsi, onun təsirinin İranın başqa əyalətlərinə yayılmaması üçün şahənşah dövləti yeganə çıxış yolunu Sovetlərlə dil tapmaq, onları ələ almaq və beləliklə də Azərbaycandakı hərəkatı beynəlxalq miqyasda təkləməkdə görürdü.** Bu strategiyanın formalaşdırılmasında, ortaya atılmasında ABŞ və ingilis diplomatiyasının İrandakı elçilərinin və eləcə də Əhməd Qəvamül-səltənənin rolu az olmamışdı. ABŞ və İngiltərənin Azərbaycandakı hərəkata düşmənçilik münasibətindəki sabitliyə arxayın olan Məhəmmədrza şah Sovetləri Azərbaycan Milli hökumətini müdafiə etməkdən uzaqlaşdırmaq tezisinin əməli olaraq həyata keçirilməsi üçün yollar aradı və onu tapdı.

Azərbaycanda demokratik xarakterli tədbirlərin həyata keçirilməsi, muxtariyyət uğrunda tələblərin radikallaşması Azərbaycan hüdudlarından kənardakı rejim əleyhdarlarını da hərəkətə gətirmişdi. 1946-cı ilin yayında ölkənin Cənubunda Qaşqay türklərinin, daha sonra Xorasan ətrafındakı türkmənlərin, bəlucların, lorların, ərəblərin İran daxilində muxtariyyət tələbi ilə baş verən çıxışları şah rejimini çaş-baş saldı. 1946-cı il sentyabrın 23-də (1325-ci il mehrin 3-də) Bəxtiyari, Qaşqay, Xəmsə və Boyr-Əhmədəki köçəri el və tayfalar muxtariyyət uğrunda dövlətə qarşı öz qüvvələrini birləşdirməyə başladılar. Buşəhr, Kaman və bir neçə yaşayış məntəqəsi rejimə müxalif olanların əlinə keçdi. Azərbaycandakı hərəkatdan nümunə götürən Cənubdakı tayfaların çıxışları mahiyyət etibarilə rejim əleyhinə xalqın milli azadlıq hərəkatı idi. Rejimin əlaltıları olan bəzi tayfa baş-

çıları ingilislərlə əlaqəyə girib İranın Cənubundakı hərəkatın içərisinə şahpərəst qüvvələri yeridə bildilər. Nəticədə hərəkat öz məcrasından çıxıb, ingilislərin və bəzi yerlərdə şahpərəstin satqın tayfa başçılarının təsirinə düşdü.

Pəhləvi rejimi dövründə İran məkanında azadlıq və ya muxtariyyət tələbi ilə çıxış edənlər bir qayda olaraq Sovetlərə bağlanılır, «təcziyyə tələb» (İrandan ayrılma), islamdan üz döndərən dinsiz və kafir kimi ictimaiyyətə təqdim olunurdu. Şahan vəfalı generallarından olan Rəzmara «Kafirləşmiş Azərbaycanı və Kürdüstanı məğlub etməyənə qədər başqa yerə qoşun çəkməyəcəyini rəsmən dövlətə bildirmişdi» *[100, s.419]*.

1945-ci ilin sonu 1946-cı ilin əvvəllərində İranın siyasi mənzərəsi çox mürəkkəbləşmişdi. **Əslində 1946-cı ildə şah rejimi iki yol ayrıcında qalmışdı: ya Azərbaycan və Kürdistanın timsalında qeyri-fars xalqlarının muxtariyyət hərəkatını tanımaq (bu «böyük İran»ın parçalanması demək idi) və ya muxtariyyət hərəkatını xaricdən hər hansı dəstəkdən məhrum etmək. İkinci yol İran dövləti üçün məqbul olduğundan o, 1945-ci ilin sonundan başlayaraq öz siyasətini bu istiqamətə yönəltdi.** İlk tədbir İranın şimalındakı neftə və yeraltı sərvətlərə göz tikən və bununla da İran ərazisinə nəzarəti ələ keçirməyə çalışan Sovet dövlətinə «dirsək» göstərən İbrahim Həkimi hökuməti istefaya göndərildi. Onun yerinə XX əsr İran diplomatiya tarixində hiyləgərliyi və siyasi tələ qurmaqda bəlkə də İran diplomatiya tarixində tayı olmayan Əhməd Qəvaməl-səltənə hakimiyyətə gətirildi *[99, s.257-283]*. Qəvam hakimiyyətə gələnə qədər baş nazir olmuş İbrahim Həkimi Sovet qoşunlarının İran ərazisindən çıxarılması və Azərbaycanın daxili işlərinə onların müdaxilə etməsi ilə bağlı yenicə təşkil olunmuş BMT Baş Məclisinin 1946-cı ilin

yanvarında Londonda keçirilən ilk sessiyasına şikayət məktubu ilə müraciət etmişdi. Qəvam sovetlərlə münasibətlərin soyuq müstəvi üzərinə gətirilməsinin xeyirsiz olacağını anladığı üçün hakimiyyətə gələn kimi Londondakı İran səfiri Seyid Həsən Tağızadəyə (milliyyətcə azərbaycanlı) şikayət məktubunu ortalığa gətirməmək haqda təcili teleqram vursa da, Tağızadə bilərəkdən tələm-tələsik şikayət məktubunu sessiyada artıq səsləndirmişdi *[99, s.257-283]*. Əhməd Qəvamın baş nazir kürsüsünə gətirilməsinədək İ.Həkimi hökuməti tərəfindən Sovetlərdən şikayətin BMT Səviyyəsinə çıxarılması belə Sovetlərin İrana olan siyasətinə dəyişiklik gətirmədi, əksinə münasibətlərdəki gərginlik daha da artmış oldu.

Tədqiq olunan dövrə aid diplomatik sənədlərdən və yazışmalardan məlum olur ki, Qəvamül-səltənə İ.Həkimidən fərqli olaraq İran-Sovet münasibətlərinə aid məsələnin beynəlxalq miqyasa çıxarılmasındansa, münasibətlərin danışıqlar, görüşlər, sövdələşmələr yolu ilə həll edilməsinə üstünlük vermişdi *[99, s.257-283]*. Sovetlərin İranın şimalındakı nefti və yeraltı mədənləri ələ keçirmək üçün çoxdankı niyyəti İran hakim dairələrinə, şah və Qəvamül-səltənə üçün qaranlıq deyildi. Sovetlərin Şimaldakı yataqlar zonasını ələ keçirmək niyyəti iqtisadi baxımdan əlavə, hərbi-strateji və siyasi əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl bu ərazi vasitəsi ilə Yaxın və Orta Şərq ölkələrinə, o cümlədən Türkiyəyə, İraq, Əfqanıstan, Pakistan, Fars körfəzi dövlətlərinə qarşı plasdarm yaratmaq və yeri gəldikdə öz ideologiyasını ora yeritmək imkanı əldə edirdi.

Əhməd Qəvvaməl-səltənə 1945-ci ilin sonunda İran Məclisində baş nazir vəzifəsinə təsdiq olunarkən[1] söylədiyi nitqində

[1] Onun baş nazirliyi Məclisdə çox da asan olmamışdı. O, 52 səsə qarşı, 53 səslə baş nazirliyə gəlmişdi.

İranın mürəkkəb şəraitlə üzləşdiyini qeyd etdikdən sonra mövcud çətinlikləri və maneələri aradan qaldırmaq üçün çalışacağını bildirdi. O, demişdi: «… Biz SSRİ kimi böyük dövlətlə qonşuyuq. Qonşuluqda əlaqələrimizə diqqət ayırmalıyıq. SSRİ-nin iqtisadi yardımı hesabına ölkəmizin şimalındakı nefti üzə çıxarıb ondan fayda götürməliyik».[2] Bu nitqin sonrakı şərhlərində qeyd olunur ki, Qəvam öz fəaliyyətinə sovet rəhbərliyinin diqqətini cəlb etmək üçün sovetlərlə əməkdaşlığı bilərəkdən ön plana çəkib qabartmışdı.

İranın Moskvadakı o zamankı səfiri topladığı məlumat əsasında 1946-cı ilin yanvarında Tehrana göndərdiyi məlumatda Qəvaməl-səltənənin məclisdəki ilk nitqinin Moskva rəhbərliyinin diqqət mərkəzində olmasını bildirirdi. İranın şimalındakı neftə şəriklik ixtiyarını Sovetlərə verməklə Sovet qoşunlarının İrandan çıxarılmasına və «Azərbaycan məsələsini» İranın xeyrinə həll etmək ehtimalını səfir öz məlumatında xüsusi vurğulayır. Səfir məlumatda yazır: «Azərbaycan məsələsinin həllini gecikdirmək ölkədəki sabitliyin pozulmasını gücləndirər, başqa əyalətlərdə də dövlətə baş ağrısı yaradar. Fikrimizcə, Moskva ilə dil tapmaq xeyrimizə götürülmüş addım olar. Bu addımı daha tez atmağımız vacibdir» *[219, 9 bəhmən, 1324]* İran səfiri öz məktubunda yeni baş nazir Əhməd Qəvamın Moskvaya gəlmək niyyətini təqdirə layiq hadisə kimi qiymətləndirmişdi.

Əhməd Qəvam təşkil etdiyi hökumətin tərkibini təsdiqləmək üçün 1946-cı il fevralın 17-də məclisə təqdim etdi. İXP MK Məclisdəki deputat fraksiyasına Qəvam hökumətinə qarşı çıxmamağı tapşırdı. Bunun müqabilində sonralar Qəvamül-səltənə İXP

[2] Ə.Qəvamın hökumətinə 13 nazir, bir müavin və bir müşavir daxil idi.

və digər demokratik qruplara bəzi dekorativ xarakterli güzəştlər etdi. Əvvəlki hökumət vaxtı bağlanmış demokratik klublara fəaliyyətə başlamaq, nəşri dayandırılmış bəzi «sol» məsləkli qəzetlərin çıxmasına icazə vermək, İXP və həmkarlar təşkilatı fəallarının həbsə alınmış üzvlərinin azad edilməsi və s. bu kimi güzəşt və loyallıqlarla Qəvam hökumətinə «demokratik» görkəm vermək istəyirdi. Bu zahiri loyallıqlar və öz fəaliyyətinə demokrtaik don geydirmək Qəvamül-səltənə üçün ona görə lazım idi ki, o, Moskvaya edəcəyi rəsmi səfər zamanı Kreml rəhbərliyində özünə rəğbət qazandıra bilsin, Moskva onu demokrat baş nazir kimi tanısın. Əslində Qəvam müəyyən qədər öz istəyinə nail ola bilmişdi. Moskva «demokrat» baş nazir Qəvamül-səltənənin sovet rəhbərliyi ilə görüşmək meylini nəzərə alıb onu Moskvaya rəsmi görüşə dəvət etdi.

Əvvəlcədən əldə olunmuş razılığa əsasən 1946-cı il fevralın 19-da Qəvamül-səltənə Sovet rəhbərliyi ilə rəsmi görüş üçün Tehrandan Moskvaya yola düşdü[1]. Fevralın 20-dən martın 7-ə qədər Əhməd Qəvam Moskvada olduğu müddətdə iki dəfə İ.V.Stalinlə, bir neçə dəfə SSRİ Xarici İşlər naziri V.M.Molotov ilə, iqtisadi və mədəni məsələlər üzrə bir neçə səlahiyyətli Sovet rəhbərliyi ilə görüşlər keçirmişdi *[133, s.201-203]*. Bu görüşlərdə ən prinsipial məsələ aşağıdakılardan ibarət olmuşdur:

1. Sovet qoşunlarının martın birinci 10 günlüyünədək İran ərazisindən çıxarılması;

2. Güney Azərbaycana milli muxtariyyət verilməsi məsələsi;

[1] Ə.Qəvamül-Səltənənin nümayəndə heyəti ibarət idi: D.Əmiri, Q.Səyyah, R.Şəfəq, X.Dorri, X.Pirnəzər, C.Əsədi, A.Nikpur və b.
[2] Bu haqda geniş məlumat üçün bax: Tarixe diplomasiye İran, Tehran, 1328

3. Güney Azərbaycandakı Milli azadlıq hərəkatı ilə bağlı məsələlər;

4. İranın şimalındakı neftin Sovetlərə uzun müddətli konsesiyaya verilməsi və s.

Sənədlərdə göründüyü kimi danışıqlar zamanı iki ölkə arasında bir sıra iqtisadi, mədəni və diplomatik məsələlərə də toxunulmuşdur.

Həmin dövrdə istər Sovet və istərsə İran mətbuatında və informasiya vasitələrində Qəvamülsəltənənin Moskvada Sovet rəhbərliyi ilə apardığı danışıqların müvəffəqqiyyətsizliyi haqda xeyli yazılar və məlumatlar getmişdi. Bunlar zahirdə çaşdırıcı görkəm yaratmaq cəhdi idi. Sonrakı hadisələr və həqiqətlər pərdə dalındakı gizli oyunlardan xəbər verirdi. Belə ki, Sovet qoşunlarının İran ərazisini tərk etməsi həmin il mayın ilk həftəsində demək olar ki, tam başa çatdı. Azərbaycana Milli Muxtariyyət verilməsi məsələsinin isə İran konstitusiyasına zidd olduğu haqda fikir Qəvam tərəfindən ortaya atıldığından bunun mümkünsüzlüyü qeyd olunmuşdu. O ki, qaldı Azərbaycandakı hərəkata və Azərbaycan Milli hökumətinin taleyinə, bu məsələ İranın «daxili işi» kimi qiymətləndirilmişdi. Sovetlərin neft qoxusu müqabilində Qəvamül-səltənəyə etdikləri güzəştlər, əslində özünü məzlum və əzilən xalqların xilaskarı adlandıran bir dövlətin xəyanəti, arxadan vurduğu zərbə idi. Bu xidmətin müqabilində SSRİ-nin İrandan qopardığı «güzəşt» İranın şimalındakı neft yataqlarını istismar etmək üçün «Birgə İran-Sovet şirkəti»nin yaradılmasına Qəvamin verdiyi razılıq idi. Bu razılıq əsasında bağlanılması nəzərdə tutulan müqavilə 1946-cı ilin sonunda gecikdirilərək seçkilərdən sonra toplanacaq XV məclisin təsdiqindən və Məhəmmədrza şahın imzasından sonra qüvvəyə minməliydi.

1946-cı ilin fevral-mart aylarında Moskvada Qəvamülsəltənənin apardığı danışıqların məzmununun gizli saxlanılması Güneydəki həmvətənlərimizi narahat etməyə bilməzdi. Onlar qorxurdular ki, Qəvam öz hiyləgərliyi ilə Sovet İttifaqının etimadını qazansın. «Hələ 1908-ci ildə Azərbaycanda milli hərəkat boğulanda və Səttarxan öldürüləndə Qəvam daxili işlər naziri idi. Eyni zamanda, 1920-ci ildə Gilanda milli azadlıq hərəkatı yatırılanda və Kiçik xan öldürüləndə Qəvam hakimiyyətdə idi» [18, s.304].

Qəvam, əslində Moskva səfərində istədiyinə nail ola bilmişdi. O, bunu sonrakı illərdə söhbətlərində və verdiyi müsahibələrdə dəfələrlə təkrar etmişdi. Qəvamın şərəfinə Sovet rəhbərliyi tərəfindən 1946-cı il martın 5-də Kremldə düzəldilmiş ziyafətdə «danışıqların nəticəsiz qurtardığından» İ.V.Stalinə gileylənən Qəvama cavab olaraq İ.V.Stalin: «İndi Sən mənim vəziyyətimi yaxşı anlayırsan. Mən çox sərt adam kimi tanınıram. Lakin Molotov bizim dəstədə ən sərt adamdır. Bu vəziyyətdə, əlbəttə, mən çalışaram ki, Sizin aranızda vasitəçi olum. Ümidvaram ki, mənim səfirim Tehrana yetişəndə Sizin üçün bir neçə yaxşı xəbər gətirəcək»[1]. Qəvamül-səltənənin Tehrana qayıtmasından bir neçə gün sonra Sovet səfiri İ.Sadçikov onunla görüşmüş və şimal neftinə Sovetlərin şərik olmasına razılıq verdiyi üçün Qəvamın müzakirəyə çıxartdığı əsas məsələlərə Kremlin verdiyi «Xeyirduanı» ona çatdırmışdı. Həqiqətdə Qəvam hökuməti üçün bu xəbər, Stalinin dediyi «yaxşı xəbərlər» idi… Bu xəbərlər eyni

[1] «Azərbaycan» qəzetində 2 Bəhmən 1325-ci il tarixdə «Azərbaycan xalqının ümidləri» sərlövhəli baş məqaləsində Moskvadakı danışıqlarda sovet rəhbərliyinin Azərbaycanın mənafeini müdafiə edəcəyinə ümid bəslənildiyi bildirilirdi.

zamanda böyük xəyanət və fəlakətin qara buludlarının Azərbaycan səmasına gəlməsinə işarə idi.

Qəvamın şirnikləndirici vədlərlə Sovet rəhbərliyini «yola gətirəcəyinə», Azərbaycandakı hərəkata son qoyacağına İran hakim dairələri və mürtəce qüvvələr böyük ümid bəsləyirdilər. Bu əhval-ruhiyyəni dövlət və şah sarayına yaxın adamların o zamankı İran mətbuatındakı çıxış və müsahibələrindən də görmək olur.

XX əsr İran diplomatiyasında fəal mövqeyi olmuş Əli Söheyli (o, bir neçə dəfə baş nazir, xarici işlər naziri olmuşdur) «Ettealat» qəzetinə verdiyi müsahibədə Qəvamın səfərinin müsbət nəticələrinə şübhə etmədiyini bildirərək demişdi: «…Azərbaycana muxtariyyatdan söz gedə bilməz, çünki qanuni-əsasidə belə bir şey yoxdur… Azərbaycan İranın bir parçasıdır, elə İrandır. Bunu ağaye Qəvam Moskvadakı bəyanatında yaxşı şərh etmişdir».[2]

Moskvada aparılan danışıqlar və bu danışıqların sonrakı nəticələri Güney Azərbaycandakı demokratik qüvvələrin ümidlərini nəinki doğrultmadı, onların qan bahasına əldə etdiyi azadlığı böyük təhlükə qarşısında qoydu. Hərəkatın əvvəlində bu hərəkatı dəstəkləyən bir dövlət dönüklük etdi, öz əhd-peymanını pozdu, himayə etdiyi qüvvələri mürtəce Tehran rejiminə çox ucuz satmış oldu. Bu, Azərbaycan üçün, bugünkü və gələcək nəsil üçün həmişə yadda qalan bir dərs olmalıdır.

---

[2] Qəvam Moskvada olarkən demişdir: «2500 il bundan əvvəl başlayaraq Azərbaycan əyaləti İranın ayrılmaz hissəsi olub. Bu əyalət hər cəhətdən həmişə İran sayılıb. Heç bir dövrdə rast gəlinməyib ki, azərbaycanlıların İrandan ayrı bir xalq olması barədə məsələ qaldırılsın. Burada ədəbi dil, yazılı dil fars dili olmuşdur. Bu diyarın əhalisi heç vaxt türk dilində ciddi bir kitab, elmi və tarixi ədəbiyyat nəşr etsin, türk dilinin tədrisi üçün təhsil müəssisəsinə malik olsun…»

Qəvaməl-səltənə Moskvadakı danışıqlarda, Tehrandakı Sovet səfiri ilə görüşlərində əsas məqsədə nail olduqdan sonra özünü Moskvanın və İran xalqlarının nəzərində «islahatçı demokrat» kimi göstərməyə çalışdı. O, 1946-cı ilin ilk günlərindən başlayaraq Sədr hökuməti zamanı qadağan edilmiş siyasi partiya və cəmiyyətlərin fəaliyyətinə icazə verdi və yığıncaq azadlıqlarını bərpa etdi. Bir sıra demokratik yönlü qəzetlərin üzərinə qoyulmuş qadağanı ləğv etdi. Zəhmətkeşlərin və demokratik qüvvələrin bəzi tələblərinin yerinə yetirilməsinə razı oldu. 1946-cı il fevralın 15-də (Moskva səfərindən az sonra) İXP-nın və Həmkarlar İttifaqı klublarının fəaliyyəti üçün qoyulmuş yasağı götürdü. 2 gün sonra mürtəce general Ərfə İran ordusu baş qərargahı rəisi vəzifəsindən kənarlaşdırıldı və sonra həbs edildi. Martın 20-də mürtəce siyasi xadimlərdən Seyid Ziyaəddin, Dəşti, Tahiri və İmaminin həbsi haqda order verildi. Səlahiyyət müddəti başa çatdığından 14-cü çağırış məclisi buraxıldı (halbuki deputatların çoxu onun səlahiyyətini qeyri-müəyyən vaxtadək uzatmağı tələb edirdilər). Bununla yanaşı Qəvam siyasi və iqtisadi sahələrdə də bəzi «islahat»lar keçirməyə meyilli görünməyə çalışdı. O, «sol» qüvvələrə münasibətdə zahirən loyallıq nümayiş etdirdi. 1946-cı il mayın 18-də İran Həmkarlar İttifaqlarının təklif etdiyi layihə əsasında Əmək qanunu qəbul edildi. Torpaq islahatı və məhsul bölgüsündə kəndlilərin payını 15 faiz artırmaq haqda qərar qəbul edildi. Adları sadalanan bu tədbirlərin çoxu 15-ci məclisin təsdiqindən sonra qüvvəyə minə bilərdi, məclisin çağırılması isə qeyri-müəyyən vaxta qədər təxirə salınmışdı. Qəvaməl-səltənə «Azərbaycan məsələsinin» də qarşılıqlı razılıq əsasında həll olunmasına «səmimiyyətlə» çalışdığını gözə soxmaq istəyirdi. O, Moskva səfərindən sonra Azərbaycan və Azər-

baycan xalqı haqda xoş sözlər işlətməkdən, Azərbaycandakı dirçəlməyə və quruculuq işlərinə xeyrxah münasibət bəslədiyini bildirməkdən də çəkinmirdi. Bunu onun o dövrdəki çıxış və müsahibələrindən, eləcə də Azərbaycan nümayəndələri ilə görüşlərdəki söhbətlərindən bir daha görmək olur. O, Azərbaycanın özünü idarə etmək hüququnu genişləndirmək, İran məclisində Azərbaycandan olan deputatların sayını artırmaq, Azərbaycanın sosial-iqtisadi və mədəni dirçəlişinə kömək etmək kimi vədlər verirdi. 1946-cı il aprelin 22-də İran hökuməti adından Qəvamın imzaladığı qətnamədə bunlar öz əksini tapmışdır. Bütün bunlar hamısı Qəvama Sovet qoşunlarının Azərbaycandan çıxarılması və Azərbaycandakı hərəkata müsbət münasibət görkəmi yaratmaq üçün lazım idi *[145, s.147-148]*.

Əhməd Qavaməl–səltənənin Moskva Səfərindən sonra Sovetlərin Güneydəki hadisələrə münasibətində əmələ gələn dəyişikliklərlə (əslində satqınlarla) Azərbaycan Milli hökuməti rəhbərliyini tanış etmək məqsədi ilə **1946-cı il aprelin 5-də Təbrizdə Sovet «elçiləri» ilə Milli Hökumət rəhbərlərinin görüşü keçirilmişdi. Bu görüşdə S.C.Pişəvəri, S.Cavid, M.Şəbüstəri, S.Padiqan, N.Cahanşahlu iştirak etmişlər.** Qarşı tərəfin milli hökumət rəhbərliyini Tehran qarşısında təslimçiliyə çağırması, Şah-Qəvam rejimi ilə «dil tapmağı» məsləhət görməsi də və bu göstərişin Moskva rəhbərliyi tərəfindən olduğunu bildirməsi xəbəri Milli hökumət rəhbərliyini məyus etmiş və onlar bu olayları həyəcan və qəzəblə qarşılamışlar. Həmin görüşün arxivdə saxlanılan stenoqramması professor C.Həsənlinin əsərində verilmişdir. Həmin stenoqramdakı çıxışın əhəmiyyətini və kəskinliyini nəzərə alıb çıxışından bir parçanı olduğu kimi iqtibas edirik: «Sovet elçisi» sözünü tamamlamamış **Azərbaycan**

**Milli Məclisinin sədri Şəbüstəri onun sözünü kəsərək demişdi: «Cənablar, İranda cərəyan edən hadisələr bizə də məlumdur, Tehrandakı mövcud hökuməti və onun rəhbərlərini də yaxşı tanıyırıq. Bizim qan qardaşımız kimi sizi xəbərdar edirik ki, Qəvam əl-Səltənənin Sovet İttifaqına neft konsessiyası vermək vədləri yalandır, dəlil olaraq deyə bilirəm ki, bu məsələnin Məclisdə təsdiqini o, yeddi ay sonraya saxlayır. Məlum olduğu kimi, bu yeddi ayda yeni hadisələr baş verə bilər və yeni hökumət qurula bilər ki, Sovetlərə neft verməkdən imtina etsin. Ona görə Qəvamın vədlərinə inanmayın və biz də ona güzəştə getməyəcəyik, xahiş edirik, Azərbaycan xalqının mənafeyinin müdafiəsi işində bizi axıra qədər müdafiə edin. Biz yalnız sizə arxalanırıq. Əlimizdə olan silahı heç vaxt və heç bir halda yerə qoymayacağıq. Eyni zamanda axıra qədər çalışıcağıq ki, Azərbaycan xalqının qanı axmasın, lakin bizim üstümüzə yerisələr, son damla qanımıza qədər vuruşacağıq». Şəbüstəridən sonra çıxış edən S.Padeqan onu müdafiə etdi. Sonra daxili işlər naziri doktor Cavid söz aldı. O qeyd etdi ki, əgər söhbət qan tökmədən dinc danışıqlar yolu ilə məsələni həll etməkdən gedirsə, sizi inandırıram ki, son nəticədə bizim fikirləşdiyimizdən on dəfə artıq qan töküləcək. Bu gün Qəvam bütün məsələləri bizimlə dinc yolla həll etməyə hazırdır, sabah Qızıl Ordu çıxdıqdan sonra o, bütün vasitələrlə çalışacaq ki, bizim milli hərəkatımızı məhv etsin. Mən ən böhranlı vaxtda qəhrəman fədailərə qoşulub partizanlıq etməyə hazıram, lakin heç vaxt mürtəce hökumətə tabe olmayacağam. Siz bilirsiniz ki, İngiltərə Qəvam Hökumətinə kömək etməsə, biz yetərincə gücə malikik ki, Tehrana hücum edib onu devirək və demokratik rejim quraq.**

**Beləliklə, Azərbaycan xalqı bütün təhlükələrdən birdəfəlik xilas olsun. Biz bunu başa çatdıra bilərik».** (bax:18)

Azərbaycan SSRİ təhlükəsizlik nazirinin müavini, general A.Atakişiyev Milli Hökumət rəhbərliyini «inandırmağa çalışırdı ki, indiki vəziyyət Milli Hökumətdən İran hökumətinə münasibətdə öz siyasətində bəzi dəyişikliklər etməyi tələb edir. Buna tədricən hazır olmaq lazımdır, qalan rəhbərləri də buna hazırlamaq lazımdır ki, qəflətən gözlənilməz hadisələrlə üzləşməsinlər. Bu yerdə Pişəvəri onun sözünü kəsərək dedi: «Mən şəxsən Qəvam əs-Səltənə hökuməti ilə danışıqlardan imtina etmirəm, lakin sizə bildirməliyəm ki, indi Tehran hökuməti, ayrı-ayrı mülkədarlar və xanlar Azərbaycan Milli Hökumətinə hücum etmək üçün ciddi hazırlaşırlar. Ona görə də biz heç vaxt öz silahlı qüvvələrimizi buraxmamalıyıq, yaxud onu İran hökumətinin əlinə verməməliyik ki, sonra onların başına oyun açsınlar. Bizə hökmən öz silahlı qüvvələrimizi saxlamaq və onu qorumaq lazımdır. Mürtəce dairələrlə mübarizəyə onu daha yaxşı hazırlamaq lazımdır. Əgər biz Qəvamla danışıqlara indi başlasaq və ona tez küzəştə getsək, böyük səhvə yol vermiş olacağıq, xalqın nəzərində nüfuzdan düşəcəyik». S.C.Pişəvəri Sovet nümayəndələrindən soruşdu ki, siz konkret olaraq bizim tərəfimizdən Qəvam əs-Səltənəyə ediləcək hansı güzəştləri təklif edirsiniz? A.Atakişiyev və M.İbrahimov indi konkret hansı güzəştlərin edilə biləcəyini demədilər, lakin tövsiyə etdilər ki, əgər zərurət olarsa, gərək Milli hökumət Tehran hökumətinə maksimum güzəştə getməyə hazır olsun. S.C.Pişəvəri əlavə etdi ki, bizim Qəvama güzəştlərdən sonra o, iri məbləğdə rüşvət və müxtəlif kombinasiyalar ilə Mehabadın bütün silahlı kürdlərini bizə qarşı qoyacaq. Onda bu vəziyyətdən çıxmaq bizim üçün çətin olacaq.

Sizin və Tehran hökumətinin konkret təkliflərindən asılı olmayaraq Azərbaycanın ərazisində öz silahlı qüvvələri, fədailəri, nəzmiyyəsi, öz sərhədləri, öz silahlı qüvvələri ilə qorunan, bərqərar edilən daxili qaydaları olmasını mən indi təkid edirəm və danışıqlar vaxtı da təkid edəcəyəm, mənim həmkarlarım da mənimlə razılaşırlar» *[18, s.383-384]*.

Beləliklə, Azərbaycan Milli Hökuməti rəhbərləri ilə Sovet emisarları arasında Qəvamül-Səltənə hökumətinə münasibət bir mənalı və hamar olmamışdır. Milli hökumət rəhbərliyini mərkəzi dövlətlə dil tapmağa və ona miqyası çox böyük güzəştlər etməyə itələyən Sovetləri Azərbaycanın acınacaqlı aqibəti yox, şimalda neft yataqlarına sahib olmaq, nəqliyyat və sərnişin təyyarə uçuşlarını konsesiyaya götürmək və İran ərazini özünün nüfuz dairəsində saxlamaq maraqlandırdı. Milli Hökumət rəhbərliyinin Qəvamül-Səltənə hökumətinin hiylə və qəddarlıq niyyətlərinə verdikləri proqnozu sonrakı olaylar tamamilə təsdiq etmişdi.

# TEHRAN-TƏBRİZ DANIŞIQLARI, MİLLİ HÖKUMƏTİN SÜQUTUNUN ƏLAMƏTLƏRİ

Güney Azərbycanda milli oyanışın güclənməsi, xalqın Azərbaycan Milli hökumətinə, ADF-nin rəhbərliyinə rəğbətinin getdikcə artması Tehranı çox narahat edirdi. Tehrana dinclik verməyən başqa bir mühüm cəhət rejim əleyhinə ümumiran miqyasında mübarizənin yeni vüsət götürməsi idi. Bu səbəblər Qəvamı Moskvaya səfər etməyə tələsdirirdi. Qəvamül-Səltənəni Moskva ilə dil tapmağa tələsdirən azadlığa qovuşmuş Azərbaycanın özünün milli dövlətçiliyini möhkəmlətmək, muxtariyyətin hüdudlarını genişləndirmək üçün yeni tədbirlərə əl atması və onun nüfuzunun ümumiran məkanında getdikcə çoxalması idi. 1324-cü il Dey ayının 26-da (Yanvar 1946) Azərbaycan Milli Məclisinin başçısı Hacı Mirzəəli Şəbüstəri Azərbaycan dövlətinin qanuni-əsasisinin (konstitusiya) hazırlanması haqda Milli Məclisin Rəyasət Heyətinə məktubla müraciət etdi *[189, 26 dey, 1324]*. M.Şəbüstəri müraciətində yazırdı: «…Məclisi milli və milli hökumətimizin özünü Məclisi müəssisan elan edən Milli Konqrənin qərarı üzrə təşkil olub, işə başlamışdır. Bu isə kafi deyildir. Lazım gəlir çox tez bir zamanda ölkənin isüli-idarəsini və dövlət təşkilatını demokratik əsaslar üzrə qurmaq üçün Məclisi müəssisan dəvət edilib qanuni-əsasi yazılsın. Ona görə məclis nümayəndələrindən aşağıda adları qeyd olunan 15 nəfərin imzası ilə bir layihə hazırlanıb məclisə təqdim olur və fövrən onun müzakirə və təsvib olunması təqaza edilir» *[137,s.463-464]*. Konstitusiya layhəsini hazırlamaq üçün konstitusiya komissiyasına bir ay vaxt verilir və hazırlanmış layihənin xalqın müzakirəsindən sonra milli məclisə təqdim olunması irəli sürü-

lür. Hazırlanacaq konstitusiya layihəsində hər şeydən əvvəl Azərbaycanın milli, mədəni, siyasi, iqtisadi və ictimai vəziyyətinin hər tərəfli nəzərə alınması mühüm şərt kimi irəli sürülürdü.

Azərbaycanda hakimiyyəti ələ almış milli qüvvələrin hər bir addımı mərkəzi dövlətin yaşamaq qüdrətini azaldaraq, ümumiran miqyasında siyasi böhranı dərinləşdirirdi. **Məhəmmədrza şahın səltənəti üçün ağır olan o tarixi günlərdə Misir jurnalist və yazıçısı Hüseyn Heykəllə müsahibəsində şah demişdir: «Bizi çətin imtahana çəkmişlər… bunların hamısından əvvəl bizə əngəl yaratmış Pişəvərinin əmələ gətirdiyi böhrandır»** *[205, 14 tir, 1325]*.

1942-ci ildə Atlantik okeanda hərbi gəmidə ABŞ prezidenti Ruzvelt və Böyük Britaniya baş naziri Çörçelin imzaladığı məlum «Atlanta Xartiyası»ndakı maddələr, xüsusən millətlərin öz müqəddəratını təyin etmək və insan hüquqları haqda müddəalar AMH rəhbərliyinə əsas verirdi ki, Azərbaycanın muxtariyyət problemini beynəlxalq miqyasa çıxartsın. Bu məqsədlə 1946-cı ilin yanvarın 28-də AMH rəhbəri S.C.Pişəvəri xüsusi məktubla BMT Baş Assambleyasına müraciət etdi.[1] Məktubda deyilirdi ki, Azərbaycan xalqının tarixən qədim, zəngin mədəniyyətə və şərəfli keçmişə malik olmasına baxmayaraq, «İran dövlətinin şovinist siyasəti nəticəsində onun kənd və şəhərləri dağılmaq həddinə gəlib çatmışdı». Məktubda Azərbaycan xalqının bundan sonra heç vaxt heç kəsin zülmü altında yaşamayacağı bəyan edilir və göstərilir ki, «Bu xalq bir nəfər kimi öz həyatını milli azadlığına və dövlətinə qurban verməyə hazırdır». Məktubda Atlanta Xartiyası prinsiplərinə uyğun yaradılmış Azərbaycan

[1] Həmin məktubun tam mətni əlavələrdə verilir.

Milli hökuməti öz müqəddəratını təyin etmək hüququnun millətə verilməsini BMT-dən xahiş edir. «BMT Baş Assambleyasına müraciəti ilə Azərbaycan xalqı xahiş edir ki, Azərbaycan Milli hökumətinin mövcudluğu faktı tanınsın və kənardan müdaxilə olmadan, ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin».

Bu gün özlərini demokratiya və azadlığın qarantı sayan dövlətlərin müdaxiləsi nəticəsində Azərbaycan xalqı adından BMT-yə olan müraciət bu beynəlxalq təşkilatın heç gündəliyinə belə daxil edilmədi.

Beləliklə, əvvəlcə beynəlxalq miqyasda BMT-dəki aparıcı böyük dövlətlər, ABŞ və İngiltərə tərəfindən tutarlı dəstək alan Məmmədrza şah rejimi Qəvam vasitəsi ilə Moskvanın «qılığına» girdi və son nəticədə uğur qazandı.

Sovet qoşunları 1946-cı il mayın ilk on günlüyündə Güney Azərbaycan ərazisini demək olar ki, tam tərk etdi. 1946-cı ilin yazında Azərbaycan Milli hökuməti Tehran rejimi ilə yanaşı faktiki olaraq ABŞ və İngiltərə ilə də üz-bəüz dayanmalı oldu. Belə bir şəraitdə Moskva rəhbərliyi ancaq öz mənafeyindən çıxış edərək Azərbaycan Milli hökuməti rəhbərliyini Qəvamül-səltənə ilə dil tapmağa itələdi. Bu sahədə Güney Azərbaycan rəhbərliyinə göstərilən təzyiqləri təsdiq edən çox saylı sənədlər mövcuddur.[1]

Moskva Azərbaycan milli hökumətinə təsir və təzyiqini təkcə İranda olan Səfirliyi, konsulluq və xüsusi Komissarları ilə məhdudlaşdırmayıb Bakını da bu oyuna qatmışdı. 1946-cı ilin martında S.C.Pişəvəriyə göndərdiyi ismarıçda Tehran qarşısında

[1] Bu sənədlər son 15-20 ildə Azərbaycan Respublikasında, İranda, ABŞ və Avropa ölkələrində nəşr olunmuş kitab və məqalələrdə kifayət qədərdi.

möhkəm dayanmağı, əllərindən gələn köməkliyi əsirgəməyəcəyini vəd edən M.C.Bağırov aprelin əvvəlində verilmiş vədlərdən qaçaraq Pişəvəriyə Qəvamın nümayəndəsi ilə bir stol ətrafında oturub, onunla «dil tapmağı» məsləhət görürdü.[1] Moskvanın xəyanəti, öz mənafeyi üçün dostu düşmənin ayağına çox asanlıqla vermək kimi xəbis xisləti S.C.Pişəvəriyə əvvəlcədən məlum idi. O, hələ ADF yaranan zaman rəhbərliyini üzərinə götürməkdən ona görə çəkinirdi ki, Moskva rəhbərliyinin xəyanətindən hələ 20-ci illərin əvvəllərində Gilan hadisələrində, 1920-ci ildə Qüzey Azərbaycana «xilaskar» kimi gəlib düşmən kimi törətdiyi cinayətlərdən xəbərsiz deyildi. 40-cı illərdə Güneydəki olayları qələmə almış Həmid Mollazadə özünün 1994-cü ildə Təbrizdə çap olunmuş «Sər be mehr» adlı əsərində Culfada M.C.Bağırovla S.C.Pişəvərinin görüşü zamanı Pişəvərinin aşağıdakı sözlərini xatırladır: «Onlar (ruslar-Ə.R.) meymun xislətdirlər, lazım gəldikdə öz balasını da ayağı altına salır. Onlar bizi meydanda tək qoyub gedə də bilərlər» [178, s.48].

Əhməd Qəvamın Moskvadan qayıtdıqdan sonra Moskva rəhbərliyinin Güneydəki olaylara açıq xəyanəti S.C.Pişəvərinin haqlı olduğunu göstərsə də, onun bilə-bilə məkrli sovet «ipinin üstünə odun yığması» hər birimizdə təəssüf və təəccüb doğurur. («Dahilər də səhvsiz olmur» O.Balzak)

«Dostun» xəyanəti nəticəsində Qəvamla oyunda artıq uduzduğunu başa düşən S.C.Pişəvəri Tehranla danışıqlara getməkdən başqa yolun qalmadığına inandıqdan sonra onun üçün çox ağır olsa da, bu danışıqlara getməli oldu.

[1] Bu haqda müfəssəl məlumat üçün bax: C.Həsənlinin göstərilən əsəri, səh 407-454

## Tehran–Təbriz danışıqlarının birinci mərhələsi

Azərbaycan məsələsini nizamlamaq üçün Qəvamül-səltənə hökuməti AMH-nin başçısı S.C.Pişəvəriyə 1946-cı ilin aprelində müraciət etdi. Bu müraciətdə Azərbaycan xalqının ünvanına çoxlu xoş sözlər deyilsə də, (Tehran həmişə xoş təriflər deməklə Azərbaycanı öz əsarətində saxlamışdı) məsələ aydın idi: Molla Nəsrəddin demiş «dava yorğan davası idi». Qəvamül-səltənənin bütün cidd-cəhdləri Azərbaycandakı hərəkatı yatırtmaq və onu yenidən Tehranın əsarətinə salmaq idi. Tehranla danışıqlar stolu arxasında oturmağa razılıq almaq üçün 1946-cı il aprelin 22-də Tehrandan gəlmiş ilk elçini Pişəvəri qəbul etdi. Tehrandan gəlmiş nümayəndəliyə Fətəli İpəkçian başçılıq edirdi. O, azərbaycanlı idi və Məclisə Azərbaycandan deputat seçilmişdir, S.C.Pişəvərini yaxşı tanıyırdı və ona hörmət bəsləyirdi. F.İpəkçian danışıqlar aparmaq üçün Qəvamın siyasi məsələlər üzrə müavini Müzəffər Firuzun başçı təyin olunduğunu bildirdi. F.İpəkçian da həmin nümayəndəliyə daxil olan 7 nəfərdən biri idi. İpəkçian danışıqlara razılıq verməyi S.C.Pişəvəridən xahiş etməklə yanaşı ona hörmət bəslədiyini bəyan etmiş və hətta bəzi məsələlərdə xeyirxahlığını təzahür etdirmişdi.[1] İpəkçianla görüşdən sonra S.C.Pişəvəri mərkəzi dövlətlə danışıqlara razılıq vermişdir.

İpəkçian Təbrizdə olarkən gizli bir məsələnin üstünü açmışdı. Onun dediyinə görə Təbrizə gələnədək o, Tehrandakı Sovet

[1] Sənədlərdən bəlli olur ki, F.İpəkçian milli ruhiyyəli adam olmuşdur. O, XV Məclis açılana qədər milli qoşunun və fədai dəstlərinin saxlanılmasını məsləhət görmüş, danışıqlar üçün Təbrizə gələcək nümayəndələrin Azərbaycana münasibətini açıqlamış, Tehranda Azərbaycançı qüvvələrin getdikcə artdığını və bəzi yarı məxfi fikirləri şəxsi söhbətində Pişəvəriyə bildirmişdi.

Səfiri İvan Sadçikovun görüşündə iştirak etmişdir. Bu görüş zamanı məlum olmuşdur ki, Qəvamül-səltənə ilə səfir arasında Azərbaycan məsələsinə aid gizli razılıq əldə olunmuşdur. İran hökumətinin azərbaycanlılarla danışıqlar aparmaqdan ötrü ayırdığı komissiya əslində əldə olunmuş bu razılığı formal olaraq təsdiqləmək üçün lazım imiş» [18, s.409]. **Beləliklə, Azərbaycan Milli hökumətinin və Azərbaycan xalqının taleyi onlardan gizli Sadçikovlarla Qəvamlar arasındakı sövdələşmədə artıq həll olunmuşdur. Şimali İrandakı qara qızılın parıltısı altında dönüklük edən Kreml rəhbərliyi Azərbaycandakı hərəkatı söndürməkdə İranın Şahənşah dövlətinə dolayısı ilə yardım göstərmişdi.**

Azərbaycandakı hərəkatın müqəddəratını həll etmək üçün Tehranla danışıqlar aparmaq məqsədilə 1946-cı il aprelin 28-də S.C.Pişəvəri başda olmaqla Azərbaycan nümayəndəliyi Tehrana gəldi [188, 8 ordibehişt, 1325]. Qeyd etmək lazımdır ki, S.C.Pişəvəri nümayəndəliyə başçılıq etməyə və Tehrana getməyə meyilli deyildi. O, qan təzyiqinin yüksək olduğunu əsas gətirib Tehrana getməkdən qəti boyun qaçırdısa da, son anda razılıq verməyə məcbur olmuşdur. Tehrana gedəcək nümayəndə heyətinin tərkibi aprelin 22-də baş nazir S.C.Pişəvərinin sədarəti altında keçən iclasda müəyyənləşmişdi. Nümayəndə heyətinə əvvəlcə doktor S.Cavid də daxil olsa da, S.C.Pişəvərinin təklifi ilə o Təbrizdə qalmalı oldu və daxili işlər naziri vəzifəsi ilə yanaşı baş nazirin səlahiyyətləri də müvəqqəti olaraq ona etibar edildi.

Qəvam dövləti danışıqların əhəmiyyətini azaltmaq üçün Tehranda yox, onun Kərəcdə aparılmasını təklif etmişdi. S.C.Pişəvəri bu haqda qəti etirazını F.İpəkçian vasitəsi ilə mərkəzə

çatdırdıqdan sonra Qəvam danışıqların Tehranda aparılmasına razı olmuşdur.

Danışıqlar aparmaq üçün Tehrana gedən Azərbaycan nümayəndəliyi Təbrizdəki təyyarə meydanından böyük izdihamla yola salınmışdır. Təyyarə meydanında xalqa müraciətlə nitq söyləyən S.C.Pişəvəri milləti mübarizə əzmini saxlamağa, ruhdan düşməməyə çağırmış və azadlığa qovuşmuş Azərbaycanın əldə etdiyi azadlığı qanı bahasına olsa belə qoruyub saxlayacağını söyləmişdi. Təyyarə meydanında S.C.Pişəvəriyə müraciətlə məktəblilərin oxudğu mahnı onu çox kövrəltmişdi:

*«Pişəvəri, sərkərdəmiz, get qardaşım, yaxşı yol,*
*Azad etdin sən vətəni düşmənlərdən, get qardaşım, yaxşı yol,*
*Düşmənlərə vermə aman, get qardaşım, yaxşı yol».*

1946-cı il aprelin 29-da Tehranda Azərbaycandan gəlmiş nümayəndə heyəti ilə rejim nümayəndələri arasında danışıqlar başlandı. Danışıqlarda mərkəzi dövlət tərəfindən baş nazirin siyasi məsələlər üzrə müavini Müzəffər Firuz, hərbi nazirin müavini, şahın çox yaxın adamı, general Hidayət, general Məhəmmədəli Müqəddəm, Musəvizadə (baş nazir dəftərxanasının məsulu) və mühəndis Xosrov Hidayət iştirak edirdilər. İki həftəyə qədər davam edən danışıqlarda Tehran hələ aprelin 21-də elan etdiyi və Azərbaycan rəhbərliyinə təqdim olunan 7 maddədən ibarət təkliflərindən əl götürmədiyi kimi, Azərbaycan nümayəndəliyi də 33 maddədən ibarət irəli sürdüklərindən geri çəkilmədi [136,s.106-110], [138, s.80-83].

Azərbaycan nümayəndəliyinin tələblərini Əhməd Qəvam 1946-cı il mayın 13-də radio ilə çıxışında şərh etmişdir [207, 15

III 1325]. Həmin çıxışdan məlum olur ki, Azərbaycan nümayəndəliyi Azərbaycana baş valinin (Ostandarın) təyin olunmasında Əyalət Əncüməni Şurası ilə məsləhətləşməni, ordu, polis və jandarm rəislərinin təyinatında isə Azərbaycan Əyalət Şurasının təqdimatının hökumət tərəfindən təsdiqini irəli sürmüşdür. Azərbaycanda keçirilmiş torpaq islahatı nəticələrinin dövlət tərəfindən qəbul olunması təklif edilmişdir. Əslində Azərbaycan nümayəndələrinin irəli sürdüyü təkliflərin və tələblərin miqyası daha geniş idi. Azərbaycan nümayəndəliyi təklif edirdi ki, əvvələn Azərbaycanın muxtariyyəti və ADF dövlət tərəfindən rəsmən tanınsın, hərəkat iştirakçılarının təqib olunmaması haqda dövlət zəmanət versin, Azərbaycanın ərazi bütövlüyü saxlanılsın, fədai dəstələrindən, qoşun və zabitlərdən Azərbaycanda əmniyyətin və təhlükəsizliyin qorunub saxlanılmasında dövlət tərəfindən istifadə olunsun, 5-ci sinfə qədər təhsil ana dilində aparılsın və yuxarı siniflərdə fars dili ilə yanaşı Azərbaycan dilindən də istifadə olunsun, xalisə torpaqların kəndlilərin ixtiyarında qalması, kəndlilərə verilmiş mülkədar torpaqlarının bir qisminin pulunun hissə-hissə ödənilməsi, seçkilərin azad və demokratik keçirilməsi və qadınlara verilmiş seçki hüququnun saxlanılması, Azərbaycandan götürülmüş gəlirin 75%-nin Azərbaycanda qalması və onun Azərbaycanın iqtisadi dirçəlişinə, şəhər, rayon və kəndlərin abadlaşdırılmasına, yolların, körpülərin, artezian quyuların və su mənbələrinin təmizlənməsinə sərf olunması və s. i.a. Azərbaycan nümayəndəliyinin təkliflərində səsləndirilən və qeyd olunan əsas maddələr idi.

Qəvamülsəltənə hökuməti nümayəndəsinin danışıqların ikinci görüşündə irəli sürdüyü təkliflərə gəldikdə, bu təkliflərin qısa məzmunu belə idi: Bir sıra sahələrin başçıları (kənd

təsərrüfatı, ticarət, sənət, daxili nəqliyyat, maarif, səhiyyə, milis, ədliyyə, prokurorluq və maliyyə işləri üzrə) Azərbaycan əyalət və vilayət əncümənləri tərəfindən seçiləcək, lakin onlar Tehran dövlətinin təsdiqindən sonra legitim ola bilər; Azərbaycan valisi dövlət tərəfindən təyin olunur və bu təyinat əyalət əncüməninin nəzərinə çatdırılır. Hərbi və jandarm qüvvələri başçılarının təyinatı dövlətin səlahiyyətində qalır. Dövlət dili fars dilidir, məhəlli idarə və dəftərxanalarda fars dili ilə yanaşı türk dili də işlədilə bilər və ibtidai siniflərdə dərslər Azərbaycan dilində aparılacaq; Xəzinəyə daxil olan gəlirin bir hissəsi Azərbaycan şəhərlərinin abadlığına, maarif, səhiyyə işlərinə sərf olunacaq; demokratik təşkilatların, həmkarlar ittifaqının fəaliyyəti azaddır; milli hərəkatda iştirak edənlər hər cür cəza və təqibdən azaddırlar; Məclisdə azərbaycanlı deputatların sayca artırılması məsələsinə 15-ci məclisdə baxılacaq və s. [137, s.105-108].

Qəvamül-səltənə hökuməti tərəfindən bağlanılması təklif olunan sazişin mətnindəki maddələrin çoxunun hiyləgərcəsinə yazıldığını və Azərbaycan «fəth» olunandan sonra bunlara əməl olunmayacağını Azərbaycan nümayəndəliyi dərk edirdi. Bunu S.C.Pişəvəri Tehrandakı danışıqlardan qayıtdıqdan sonra Təbriz radiosu ilə çıxışında bir daha bildirmişdi.

Danışıqlar zamanı mərkəzi dövlətin nümayəndəliyi müxtəlif bəhanələrlə Azərbaycan nümayəndəliyinin irəli sürdüyü təkliflərin demək olar ki, çoxunu və əsaslarını qəbul etmədi. Buna görə də danışıqlar nəticəsiz qurtardı. Tərəflər arasında prinsipal məsələlərdə ciddi fərqlərin mövcudluğu məlum oldu. Bu vəziyyət nə mərkəzi dövləti və nə də Tehrandakı Sovet Səfiri İ.Sadçikovu təmin etdi. Azərbaycan nümayəndələrini qəbul edən İ.Sadçikov İ.V.Stalindən S.C.Pişəvəriyə ünvanlanmış teleqrafı

Pişəvəriyə göstərməsi də danışıqlarda nəticələrin dəyişilməsinə kömək etmədi.

Tehranda aparılan danışıqlarda iştirak etmiş N.Cahanşahlu öz xatirələrində yazır ki, Tehrana gəlməmişdən əvvəl, M.C.Bağırov S.C.Pişəvəriyə telefonla zəng vurub bildirmişdi ki, danışıqlarda istədiklərinizə təkid edin, geri çəkilməyə çalışmayın, Azərbaycanın müxtariyyətini və Demokrat Firqəsinin mərkəzi dövlət tərəfindən rəsmən tanınmasına çalışın. Bağırovdan fərqli olaraq «…Molotov (bəlkə də Stalin) Tehrandakı səfir Sadçikova göstəriş vermişdir ki, o, bizi (Azərbaycan nümayəndəliyini Ə.R.) İran hökuməti ilə qərardad bağlamağa təşviq etsin») [166, s.239-240].

15 günə qədər vaxt aparan Təbriz-Tehran danışıqlarında iki dəfə baş nazir Əhməd Qəvamla, bir neçə dəfə onun müavini Tehran nümayəndəliyinin başçısı Müzəffər Firuzla, həmçinin Tehrandakı Sovet səfiri ilə aparılan danışıq və söhbətlər gözlənilən nəticədən uzaq olduğundan, Azərbaycan nümayəndəliyi 1946-cı il mayın 13-də (Sovet qoşunları Güney Azərbaycanı tam tərk etdikdən 4 gün sonra) Təbrizə döndü. Tehranda ikən İ.V.Stalindən məktub alan S.C.Pişəvəri «Məzlumların atası»nın xəyanətini açıq-aydın bir daha başa düşsə də, artıq gec idi, iş işdən keçmişdi, Azərbaycandakı hərəkata V.Stalinin xəyanət möhürü vurulmuşdu. **İ.V.Stalin S.C.Pişəvəriyə məktubunda[1] Pişəvərini həm İran daxilində, həm də beynəlxalq aləmdə vəziyyəti düzgün qiymətləndirməməkdə ittiham edir, «Azərbaycanın bütün inqilabı tələblərinə nail olmaq» istəyini ona günah sayır, onu İranda dərin inqilabi böhranın olmamasına, fəhlələrin sayca azlığına, kəndlilərin qeyri-fəal olduğuna**

[1] Məktubun mətni kitabın sonundakı əlavələrdə verilir.

**və beynəlxalq vəziyyətin İranın xeyrinə olmamasına inandırmağa çalışır. Bütün ölkələrin inqilabi çevriliş vaxtı Rusiyanı təqlid etməyini mütləqləşdirən Stalin məktubunda yazır ki, «…deməli, İranda belə bir şərait yoxdur ki, Leninin 1905 və 1917-ci illərdəki taktikasını yürütməyə imkan versin».** Stalin Sovet qoşunlarının İrandan mümkün qədər bir az gec çıxarılmasını Avropa və Asiyada sovetlərin «xilaskarlıq siyasətinin (əslində işğalçılıq və müdaxilə siyasətinin – Ə.R.) əsaslarını» sarsıda biləcəyini və buna görə də qoşunların İrandan çıxarılması zərurətini məktubda xatırladır. **Stalinə görə İranda inqilabi şəraitin olması üçün, İran hansı ölkə ilə isə uğursuz müharibə vəziyyətində olmalıdır.** Elə bir vəziyyət olmadığı üçün Azərbaycandakı hərəkatı davam etdirməyin və dərinləşdirməyin məqsədəuyğunluğu yoxdur və buna əsasən Sovet qoşunları oradan çıxarılmalıdır. Stalin öz məktubunda bir vaxtlar irticaçı adam kimi tanıdığı baş nazir Qəvamı demokratik islahatlara tərəfdar adam kimi səciyyələndirir və onun «İranın demokrat elementləri arasında dayaq axtardığı» qeyd olunur. Daha sonra Stalin məktubunda İranda Sovet rəhbərliyinin taktikasının nədən ibarət olduğunu açıqlayaraq yazır: **«Mən fikirləşirəm ki, Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, ona kömək göstərməliyik».** Bu taktikanın əleyhinə hər hansı addımı Stalin axmaqlıq hesab edir. Qəvama yardım etməyin əleyhinə olmağı Stalin «Mahiyyətcə Azərbaycan xalqının işinə və İran demokratiyasına xəyanət» kimi qiymətləndirir. Stalin həmin məktubda Pişəvəridən elə onun özünə gileylənərək yazır: «Bizə məlum olduğuna görə, Siz demisiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmışıq, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik». Stalin davam edərək yazır

ki: «Sizin üçün hər hansı rüsvayçılıqdan söz ola bilməz… Əgər Siz özünüzü ağıllı aparsanız… bizim mənəvi köməkliyimiz sayəsində… Sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi, azərbaycanlılar da, İran da xeyir dua verər».

Riyakarlıq pərdəsi ilə örtülən (çünki Stalin tərəfindən Güney Azərbaycanın mənafeyi artıq aprelin 4-də imzalanmış neft sazişinə qurban verilmişdir) həmin məktub Pişəvərinin başçılıq etdiyi hökumətin meydanda tək qaldığını, xəyanət müqabilində onu Tehrana güzəştə gedib, təslimçi xarakterli bağlaşmanı imzalamağa itələyirdi.

S.C.Pişəvərinin Tehran danışıqlarında özünü sərt aparması, Sovet səfirinin «məsləhətlərinə» belə kifayət qədər əməl etməməsi Sovetlərin Pişəvərinin səmimiyyətinə qarşı inamını xeyli azaltdı. «S.C.Pişəvərinin bir sıra mətləbləri açıq söyləməsi, Gilan hadisələrini xatırlatması, Sovet siyasətinə artıq inanmadığını (artıq çox gec idi! – Ə.R.), sovet rəhbərliyinin onları aldatdığını açıq mətnlə deməsi İ.Stalini bir qədər narahat etmişdi» *[18, s.424]*. Sovetlərin S.C.Pişəvəriyə inamının tədricən itməsi və onun sovet kəşfiyyatının nəzarətində saxlanılması, hətta evdə, iş yerində danışıqlarının gizli qeydə alınması faktları mövcuddur. S.C.Pişəvərinin müavini olmuş Nüsrətulla Cahanşahlu Əfşar 2001-ci ildə çap etdirdiyi xatirələrində yazır ki, mən Pişəvərinin iş otağında Tehrandakı danışıqlar zamanı Sovet səfirinin mövqeyindən narazılığımı bildirərkən Pişəvəri barmağı ilə dodaqlarını qapamaqla mənə susmağa, mövzunu dəyişməyə işarə etdi. Sonra biz həyətdə gəzişərkən o, iş otağına, hətta evinə səs yazma aparatının qoyulmasını güman etdiyini bildirdi *[167, s.241]*. Xatirələrindən bəlli olur ki, S.C.Pişəvəri 1946-cı ilin mart-aprel ayından artıq Sovet casus və kəşfiyyatının bilavasitə nəzarətində idi.

## Təbriz-Tehran danışıqları 13 iyun qərardadı (sazişi)

Şimal neftinin sovetlərə verilməsi və bu haqda qərardad layihəsinin hazırlanması ilə bağlı Moskvadan kifayət qədər dəstək alan Qəvamül-səltənə 1946-cı ilin iyun ayında (1325-ci il Xardadın 21-də) öz «elçilərini» yenidən Təbrizə göndərdi. Tehran «elçiləri» danışıqlar aparmaq üçün Təbrizə gəlmək ərəfəsində Azərbaycan sovetlər tərəfindən demək olar ki, «tərksilah» edilmişdi. Sovetlər istifadə qabiliyyətini itirmiş silah və hərbi sursat qalıqlarını belə Azərbaycandan çəkib apardıqdan sonra bütün vasitələrlə Milli hökumət rəhbərliyinə Tehranla danışıqlarda təslimçilik mövqeyinə enməyi «məsləhət» görürdü.

Təbriz danışıqları zamanı Azərbaycan Milli Hökuməti nümayəndəliyi ağır və çıxılmaz vəziyyətlə üzləşmişdi. Onun üçün danışıqlarda yumşalmaqdan, güzəştə getməkdən başqa yol qalmamışdı.

Danışıqları davam etdirmək üçün 1325-ci il Xordadın 21-də (1946-ci il iyun 11-də) Təbrizə gəlmiş Tehran nümayəndə heyətinə yenə Müzəffər Firuz başçılıq edirdi. Məmmədrza şahın sadiq xəbərçisi ləqəbini qazanmış general Hidayət[1] M.Firuzu müşayiət edən nümayəndəliyin tərkibində idi. Təbrizdəki danışıqlarda S.C.Pişəvəri ilə yanaşı Azərbaycan Milli Hökumətinin daxili işlər naziri Salamulla Cavid, Pişəvərinin müavini, Dövlət Universitetinin rektoru doktor Nüsrətulla Cahanşahlu və Kürdüstanı danışıqlarda təmsil edən Qazi Məhəmməd iştirak etmişlər. Təbrizdəki danışıqlarda Pişəvərinin Tehran danışıqlarındakı qürur və sərtliyindən əsər-əlamət qalmadığını N.Cahan-

[1] Şah sonra onu Baş Qərargah rəisliyinə irəli çəkmişdi.

şahlu öz xatirələrində dönə-dönə qeyd edir. Tehrandakı danışıqlarla Təbrizdəki danışıqlar arasında ötən günlər ərzində elə bir gün olmamışdı ki, S.C.Pişəvəriyə Sovetlər tərəfindən təzyiq, hətta hədə-qorxu göstərilməmiş olsun. Təbriz danışıqları ərəfəsində S.C.Pişəvəriyə firqə arxivindəki gizli sənədlərin təcili olaraq Naxçıvana təhvil verilməsi haqda göstəriş Azərbaycanın qara günlərinin yaxınlaşdığından, onun yenidən Tehranın əsarəti altına düşəcəyindən, ən başlıcası sovetlərin Qəvamla hazırladığı «oyunun» başa çatmaq üzrə olmasından xəbər verirdi.

Təbrizdəki danışıqlarda ilk iki gün ərzində heç bir razılığa gəlinmədiyini söyləyən danışıqların iştirakçısı N.Cahanşahlu yazır ki, «… danışıqların üçüncü günü qərardadın mətni maddə-bamaddə oxundu və layihə qəbul olundu. Qərardadın təkmilləşdirilməsi və bəzi maddələrin üzərində olan mübahisəni sona çatdırmaq üçün danışıqların növbəti raundunun yenidən Tehranda davam etdirilməsi qərara alındı» *[167, s.242]*.

M.Xətibi (Peynar) Tehrandakı azərbaycanlı tələbələrin nəşr etdiyi «Çiçək» adlı jurnalda «Azərbaycan Demokrat firqəsi» adlı məqalədə yazır: «Azərbaycan nehzəti macəra istəyənlərin inqilabi deyildi, bəlkə daha böyük bir milli nehzətin müqəddiməsi idi ki, onu xalq təsdiq və hinayət etmişdir». Azərbaycan Milli Hərəkatının mərkəzi dövlətdən tələblərinin aşağıdakılardan ibarət olduğunu müəllif qeyd edir:

1. Azərbaycana azadlıq və mədəni muxtariyyət;
2. Əyalət və vilayət əncümənlərinin (şuralarının) təşkili;
3. Tədrisin fars dili ilə yanaşı Azərbaycan dilində aparılması;
4. Fabrik-zavodların işə salınması və yenilərinin inşası;
5. Ticarətin inkişafı;
6. Azərbaycan kənd və şəhərlərinin ehtiyacına yetişmək;

7. Torpaqlardan (əkin sahələrindən) ədalətlə istifadə etmək;
8. İşsizliyin aradan qaldırılması;
9. Seçki qanununda islahat;
10. Korrupsiya və rüşvətlə mübarizə;
11. Azərbaycandan gələn gəlirin Azərbaycana sərf olunması;
12. Bütün demokratik dövlətlərlə dostluq əlaqələrinin inkişafı *[255, 1379, №9, s.12-13]*.

Tehranla danışıqlarda Azərbaycan nümayəndəliyinin yuxarıda qeyd olunanlarla yanaşı başqa tələbləri də var idi ki, Tehrandakı danışıqlarda onlar ortaya gətirilmişdi.

1325-ci il Xordadın 23-də (1946-cı il iyunun 13-də) bağlanmış qərardadı Azərbaycan Milli Hökuməti adından baş nazir S.C.Pişəvəri, İran hökuməti adından baş nazirin müavini Müzəffər Firuz imzalamışlar *[136, s.124-127], [138, s.80-83]*. Bu qərardad əslində Qəvamül-Səltənənin irəli sürdüyü, Tehranda Azərbaycan nümayəndəliyi tərəfindən rədd edilən, Təbrizdə isə qəbul olunan layihədəki maddələr idi[1].

Qərardadda mübahisəli məsələlər Azərbaycana valinin təyin olunması prosedurası, Zənganın hansı şərtlərlə Mərkəzi dövlətin tabeliyinə keçirilməsi, fədai və zabitlərin vəzifədə qalıb-qalmaması və s. məsələlərdən ibarət idi.

Danışıqlarda ciddi mübahisə doğuran məsələlərdən biri də Zənganın Azərbaycandan qoparılıb Tehran rejimi altında olan əraziyə yapışdırılması idi. Danışıqlarda Azərbaycan nümayəndəliyi Zənganın tarixən Azərbaycan ərazisi olmasına aid tutarlı faktları ortaya gətirsə də, Müzəffər Firuz Zəngan haqda İran hökumətinin öz mövqeyində israrlı olduğunu bildirdi. Hər

[1] Bağlaşmanın (qərardadın) tam mətni kitabın sonunda verilir.

tərəfdən məngənə arasında qalmış Azərbaycan nümayəndəliyi aşağıdakı şərtlərlə Zənganın Mərkəzi dövlət tabeliyinə verilməsinə razı oldu:

1. Zənganda və onun ətraf rayonlarındakı mürtəce Zülfiqari dəstələrinin fəaliyyətinə imkan verilməsin;

2. Zülfiqari dəstə başçılarının bu mahala gəlməsinə yol verilməsin;

3. Zülfiqari adamlarının milli demokratik qüvvələr əleyhinə təhrikat və təxribatlarına şərait yaradılmasın;

4. Zənganın hansı inzibati bölgüyə daxil olması məsələsinə qarşıda çağrılan XV İran Şura Məclisində baxılsın *[255, 1379, s.10]*.

Tehranla aparılan danışıqlarda S.C.Pişəvərinin prinsipial mövqeyi və Mərkəzi dövləti güzəştlərə məcbur etmək səyi təkcə Məmmədrza-Qəvam rejimini və onlara havadar duranları deyil, eləcə də Kreml rəhbərliyini rahat buraxmırdı. M.C.Bağırov vasitəsi ilə Pişəvəriyə təzyiq və təsir gücləndirildi. M.C.Bağırov Pişəvəriyə xahişlə bildirdi ki, «Qəvama dəyib-toxunma… Qəvama kömək etmək lazımdır… Mən qardaş kimi səndən xahiş edirəm ki, gərək bunu edəsən… Bir şeyi bilməlisən ki, bizim böyük və dahi rəhbərimiz bütün bu məsələlərlə hər gün şəxsən özü məşğuldur… O, özü mənimlə danışdı və dedi ki, sənə tapşırım, bu məsələni (Mərkəzi hökumətlə razılaşmanı) başa çatdırasan» *[18, s.443]*.

Təbrizdə Mərkəzi hökumət ilə Azərbaycan nümayəndəliyi arasında danışıqların başa çatması və qərardadın imzalanması haqda S.C.Pişəvəri və M.Firuz 1946-cı il iyunun 13-də Təbriz radiosu ilə çıxış etmişlər *[92, s.355-356]*. S.C.Pişəvəri öz çıxışında Azərbaycan üçün ağır sınaq günlərinin başladığını

xəbər vermiş və xalqı fədakarlığa və müşküllərdən qorxmamağa çağırmışdır. «Ola bilsin ki, bu mübarizə daha çətin və daha ağır şərait altında idamə tapsın. Lakin azadlıq yolunda hər bir fədakarlığa amadə və hazır olan bir xalq heç bir vaxt müşkülat və çətinlikdən qorxmaz» *[92, s.355]*. Bu çıxış S.C.Pişəvərinin Milli hökumətin başçısı kimi son çıxışı idi. M.Firuz isə öz çıxışında hər şeyin yaxşı olacağını və Azərbaycanla mərkəzi dövlətin səmərəli və birgə fəaliyyət göstərəcəyini söyləmişdi.

Tehranla-Təbriz arasında qərardadın imzalandığı günün səhəri, 24 xordad 1325-ci il (14 iyun 1946) Azərbaycan Milli Məclisi öz fəaliyyətinə xitam verdi. Onu Azərbaycan əncuməni əvəz etdi. Bundan iki gün sonra (26 Xordad 1325 – 16 iyun 1946) S.C.Pişəvəri baş nazirlikdən azad edilməsi haqda Azərbaycan Əncuməninə ərizə ilə müraciət etdi və onun bu haqda xahişi qəbul edildi.

Azərbaycan Milli Məclisinin son iclasında (bu iclasdan sonra AMM Azərbaycan əyalət Əncuməni səlahiyyətində olmuşdur) S.C.Pişəvəri geniş məzmunlu çıxışıyla nümayəndələrə müraciət etmişdir. O, bu çıxışında Azərbaycan Milli hökumətinin fəaliyyəti müddətində gördüyü işlərin və həyata keçirdiyi tədbirlərin məzmunu və miqyasından ətraflı danışmışdı. S.C.Pişəvəri tarixi şəraitin yaratdığı məhdudiyyətlər nəticəsində Azərbaycanın Tehranla danışıqlara getdiyini və Tehran rejimi üçün arzu olunan qərardadın bağlanılmasını şərtləndirən səbəblərdən danışmışdı. O, qarşıdan gələn ağır günlərdə, xüsusən XV məclisə qarşıdakı seçkilərlə bağlı demokratik qüvvələrin vəzifəsindən və s. ətraflı bəhs etmişdi *[137, s.133-148]*.

S.C.Pişəvərinin baş nazir vəzifəsindən getməsi ilə bağlı AMM son iclasında (1325-ci il Tir ayının 4-də) qəbul edilmiş

qərarda göstərilir ki, «Milli Hökumətin davam etdiyi altı ay 2 günlük fəaliyyəti haqqında, bu hökumətin baş vəziri ağaye Pişəvərinin müfəssəl güzarişini (hesabatını) eşidib aşağıdakı qərarı qəbul etdi: …ağaye Pişəvərinin Milli Hökumətin vəzirliyində Azərbaycan xalqına tarixdə əbədi olaraq qeyd edilən xidəmatı və Azərbaycan xalqının diri və istedadlı bir millət kimi dünyaya tanıtmasında səbəb olduğu üçün Azərbaycan milləti adından qədirdanlıq edilsin… fədailər atası adlandırılan ağaye Pişəvəri milli vəzifəsini şərafətlə əncam verib, azadlıq yolunda böyük mübarizə apardığına görə Məclise milli tərəfdən «Məclise Milli medalı» ilə təltif olunsun» *[188, 5 tir, 1325]*. S.C.Pişəvərinin təklifi əsasında Daxili İşlər naziri S.Cavid Azərbaycan Ostandarı (vali) vəzifəsinə namizəd göstərildi[1]. S.Cavidin Azərbaycan valisi vəzifəsinə təyin olunmasını şah və Qəvam təsdiq etməliydi. Buna görə S.Cavid də M.Firuzla birlikdə iyunun 14-də təyyarə ilə Tehrana yola düşdü.

Doktor Cavid Tehrana olan bu səfəri haqda öz xatirələrində geniş söhbət açır. Onun yazdıqlarından məlum olur ki, Tehranda qaldığı 17 gün ərzində Məmmədrza şah və bir neçə dəfə Qəvamül-Səltənə tərəfindən qəbul olunur. O, Tehrandakı görüşlərdə Təbrizdə imzalanmış qərardadın mübahisəli və açıq qalmış məsələləri, eləcədə Azərbaycanın zəruri iqtisadi və maliyyə ehtiyacları, abadlıq və s. məsələlər haqda danışıqlar aparır *[163, s.28-32]*. «Qəvam məndən bağlanmış müvafiqnaməyə münasibətimi soruşduqda – mən dedim ki, əgər İran dövləti bu müvafiqnaməni

[1] Ostandar vəzifəsinə S.Cavidlə yanaşı S.Padiqan, M.Vilannində namizədliyi verilsədə S.C.Pişəvərinin təklifi ilə bu vəzifəyə doktor Salamulla Cavid namizəd göstərilmişdi.

səmimanə icra etsə, nəticə həm mərkəzi dövlətin və həm də Azərbaycanın xeyrinə olar – dedim» *[163, s.29]*.

Azərbaycanın yeni təsdiq olunmuş valisi Tehranda olduğu müddətdə (14 iyun – 1 iyul) müxtəlif dövlət məqamları ilə apardığı danışıqlarda əməli olaraq heç bir irəliləyiş və nəticə əldə edə bilməmişdi. Tehran Təbrizə quru vədlər verməklə vaxtı uzatmağa meyilli olduğunu göstərmişdi. Tehrana səfəri zamanı dövlət məqamları ilə danışıqlarda uğurlu bir şeyə nail olmadığından və qoşunun Azərbaycana yeridiləcəyinə qəti əmin olduğundan o, Azərbaycana loyal məmurların göndərilməsinə çalışdı. Doktor Cavid öz xatirələrində bu haqda yazır: «Mənim məqsədim o idi ki, yaxşı adamları dövlət bizim işlərə məmur etsin» *[163, s.73]*.

## TƏBRİZ-TEHRAN DANIŞIQLARININ SON MƏRHƏLƏSİ

1946-cı il iyunun 13-də Təbrizdə Mərkəzi dövlətlə Azərbaycan nümayəndəliyi arasında imzalanmış məlum müqavilədə (qərardad) bir sıra mübahisəli məsələlərin müzakirəsi və dəqiqləşdirmələr danışıqların sonrakı–3-cü mərhələsinə saxlanılmışdı. Azərbaycan tərəfi müqaviləni imzalasa da, bir sıra prinsipial və Azərbaycan üçün həyatı əhəmiyyəti olan tələblərin Tehran tərəfindən qəbul olunmasına israrlı idi. Buna görə danışıqları nəticələndirmək və mübahisəli məsələləri həll etmək niyyəti ilə 1946-cı ilin avqustun 1-də ADF-nin təklifi ilə aşağıdakı heyət Tehrana göndərilir: Doktor Salamulla Cavid (Azərbaycan valisi, nümayəndə heyətinin başçısı), Hacı Mirzəli Şəbustəri (Əyalət əncuməninin rəisi), Sadıq Padiqan (ADF sədrinin müavini), general Pənahiyan (baş qərargah rəisi), polkovnik Murtəzəvi, mayor Toğrai.

Nümayəndə heyəti yola düşənə qədər S.Cavid bölgələrin tələb və ehtiyacları ilə yerlərdəcə tanış olmaq məqsədi ilə Sərab, Ərdəbil, Astara, Xalxal, Əhər və Mişkinə səfər edir *[163, s.48]*. Nümayəndəlik Tehrana yola düşməzdən əvvəl S.Cavid S.C.Pişəvəri ilə görüşüb, danışıqlardakı məsələləri götür-qoy edirlər. Azərbaycan ictimaiyyəti, həmkarlar ittifaqı fəalları, bütün təbəqə və zümrələrin nümayəndələrinin iştirakı ilə toplantı keçirilir. Bu toplantıda mövcud vəziyyət, Tehran-Təbriz razılaşması və həllini gözləyən problemlər ətrafında geniş fikir mübadiləsi aparılır və təkliflər müzakirə olunur *[163, s.48-53]*. Həmin toplantıda çıxış edən doktor Cavid deyir: «…Mən Azərbaycan nehzəti nəticəsində bu gün Ostandar olmuşam. Çalışacağam ki, təsvib olunmuş

müvafiqnamə mocibincə (əsasında) Azərbaycan xalqının mənafeyi qorunsun, Mərkəzi Tehran dövləti ilə də yaxşılıq və dostluq rabitəsi saxlanılsın» *[163, s.53]*.

1946-cı ilin avqustun 1-də Azərbaycan nümayəndələri Tehrana gəlirlər. Avqustun 14-dək Azərbaycan nümayəndələri ilə Mərkəzi dövlətin müxtəlif məqamları arasında 12 görüş keçirilir. İlk görüş baş nazir Əhməd Qəvamla onun iqamətgahında keçirilir. Bu görüşdə Müzəffər Firuz, Silahlı qüvvələr naziri Əmir Əhmədi, ordu generalları Hidayət və Rəzmara iştirak edirlər. Bu görüşdə müqavilədə açıq qalmış hərbi məsələlər müzakirə edilir:

1. Zabitlik məktəbində oxuyan müdavimlər məsələsi;
2. Hərbi rütbələr;
3. Azərbaycanlı əsgərlərin Azərbaycanda xidmət məsələsi;
4. Ordu, fədai rəhbərlərinin məsələsi və s.

Növbəti görüş nigəhbanlığa (jandarmaya) aid olmuşdur. Bu görüşdə Kürdistan nümayəndəsi Qazi Məhəmməd də Azərbaycan nümayəndəliyinə qatılmışdı. Danışıqlarda Qəvam və M.Firuzdan başqa general Gülepira və polkovnik Mübəşiri də iştirak etmişlər. Razılığa gəlinmişdi ki, Azərbaycanda jandarma idarəsinə rəis Mərkəzi dövlət, müavinliyə isə Azərbaycan Əncüməni tərəfindən namizəd göstəriləcəkdir. Sonrakı görüşlər maliyə məsələsinə, Azərbaycan bankı məsələsinə, ərzaq probleminə, yolların çəkilməsi və təmiri məsələsinə aid olmuşdur. Məsələlər müzakirə olunsa da, əməli nəticələrdən əlamət belə görünmürdü. Buna görə nümayəndə heyəti (Caviddən başqa) avqustun 12-də geri–Təbrizə döndü. Doktor Cavid mərkəzi dövlətdən nə isə almağa müvəffəq olacağına inamı itirməyib bir neçə gün də müxtəlif dövlət məqamları ilə görüş və müzakirələr

üçün vaxt itirdi. «Mən Tehranda qaldığım müddətdə 6-7 dəfə Qəvamla görüşdüm. Zəncana fərmandar və qoşun başçısı, Azərbaycana ordu və jandarm rəisi məsələlərini müzakirə etdik… Qəvamın «sola» (?) meyilliyindən istifadə edib Azərbaycana münasib adamların göndərilməsinə nail olmağa çalışırdım… Qazi Məhəmməd qoşunun Kürdüstandakı zorakılığından və özbaşınalığından danışarkən Qəvam hətta gözlərini yaşla islatdı» *[163, s.37]*. Firidun İbrahimi «Azərbaycan» qəzetində nəşr etdirdiyi «Timsahın göz yaşları» məqaləsində yazırdı ki, «timsah ovladığını yeməmişdən əvvəl sanki onun zavallı halına acıyırmış kimi yalandan göz yaşları axıdır» *[188, 17 şəhrivər, 1325]*.

ADF-ın yaradılmasının 1 illiyinin Təbrizdə, Azərbaycanın şəhər və rayonlarında ictimaiyyət tərəfindən təntənə ilə qeyd edilməsi Mərkəzi hökuməti, o cümlədən şahı və Qəvamül-səltənəni bərk qıcıqlandırıb narahat etmişdi. Azərbaycanı hərbi yürüş yolu ilə susdurmaq üçün ABŞ və İngiltərədən lazımi kömək alacağına əmin olan Qəvamül-səltənə Tehrandakı Azərbaycan nümayəndəliyi ilə danışıqlarda sərtliyi artıraraq müxtəlif əsassız bəhanələri ortaya gətirirdi.

Azərbaycanda İran qanunlarından kənar əməllər olduğunu, Tehran tacirlərinin guya Azərbaycanda incidildiyini, Zəngana göndərilmiş dövlət məmurlarının fəaliyyətinə maneəçilik törədildiyini, Təbriz radiosunun və qəzetlərin İran hökuməti əleyhinə material verməsini, Azərbaycan əsgəri paltarında Sovet hərbçilərinin guya Azərbaycan qoşununda qalması və s. və i.a. bu kimi çoxsaylı bəhanələri ortaya gətirib 13 iyun 1946-cı il müqaviləsində (qərardad) irəli sürülmüş maddələrin bir çoxunu həyata keçirməkdən açıqça boyun qaçırdığı bəlli oldu.

Danışıqlar aparmaq üçün Tehrana gəlmiş və Tehranın bəzi güzəştlərinə hələ də ümid bəsləyən doktor Cavidə Qəvam sərt tərzdə Azərbaycanda «… baş verən hadisələr sizin əməllərinizin nəticəsidir» - deməklə münasibətləri qəsdən gərginləşdirməyə və Azərbaycana basqın üçün əsas yaratmaq istəyirdi. Azərbaycan nümayəndəliyinə qarşı Qəvamül-səltənə əsassız bəhanələri onun Tehrandakı Sovet səfiri İvan Sadçikovla avqust-sentyabrda bir neçə dəfə görüşündən sonra daha da rəvac tapdı. 1946-cı ilin avqustunda «ABŞ-ın İrana kifayət qədər silah göndərəcəyi xəbəri şahı və Qəvamı Azərbaycana qarşı hərbi yürüşü tezləşdirməyi reallaşdırdı. Mərkəzi dövlətin xeyrinə əmələ gəlmiş əlverişli vəziyyət Qəvama Azərbaycan nümayəndəsi ilə danışıqları yersiz uzatmağa və nəticəsiz qurtarmağa imkan verirdi. Tehranda olan Azərbaycan valisi Cavid sentyabrın 22-də baş nazir Qəvamla görüşüb yaranmış vəziyyətdən söz açmış və danışıqların sürətləndirilməsini xahiş etmişdi. Qəvam onu çox soyuq qarşılamış və vəziyyətlə bağlı ona heç bir aydın cavab verməmişdi» *[188, 17 şəhrivər, 1325]*.

**İki aya qədər çəkən Təbriz-Tehran danışıqlarının 3-cü mərhələsində də bağlanmış qərardadın həyata keçirilməsi yolunda heç bir irəliləyiş əmələ gətirmədi. Tehran yaranmış fürsətdən istifadə edib öz əlaltılarını müxtəlif adlar altında Azərbaycana yeritdi. Zəngan Mərkəzi dövlətin tabeliyinə keçdikdən sonra Azərbaycan xalqına qarşı hərbi cinayət etdiklərinə görə həbsə alınmış şahpərəstlər Tehrana göndərildi.** Azərbaycan valisi doktor S.Cavid 1946-cı il sentyabrın 10-da demək olar ki, «əliboş» Tehrandan Təbrizə qayıtmalı oldu. Bundan sonra **Tehranın bağlanmış müqaviləni kobud şəkildə bir tərəfli qaydada pozacağı bəlli oldu.**

## AZƏRBAYCANA HƏRBİ YÜRÜŞÜN BAŞLANMASI VƏ MİLLİ HÖKUMƏTİN SÜQUTU

***«…Tarix Əhd-peyman sındıranların adını nifrətlə yad edəcəkdir. Adam öldürən canilər bu müamilədən xeyir apara bilməyəcəklər… azadlıq ağacı şəhidlərin qanı ilə suvarıldıqca, daha çox bar verəcəkdir».***

**Şəhid Şahsevən qızı Səriyyə**

ABŞ və İngiltərənin yardımı və Sovetlərin kənara çəkilməsi ilə bağlı edilmiş xəyanət Məhəmmədrza-Qəvam rejiminə Azərbaycana qarşı münasibətləri sərtləşdirmək imkanı verdi. Azərbaycanla bağlaşmanın şərtlərini icra etməkdən boyun qaçırmaq üçün çoxsaylı bəhanələr ortaya atıldı. Azərbaycandakı milli demokratik hərəkata və onun rəhbərlərinə qarşı Tehran radiosunda və şahpərəst yönlü mətbuatda, eləcə də şah və Qəvamın çıxışlarında yalan və böhtan kompaniyası geniş vüsət aldı. Azərbaycandakı hərəkat guya Azərbaycanı ayırıb SSRİ-yə qatmağı (təcziyyə tələb), allahsızlığı təbliğ edən kommunistliyi burada yaymağı, ucdan tutma bütün varlıların əmlakını və sərvətini müsadirə etməyi və s. bu kimi böhtanlarla dolu təbliğatı genişləndirməyə başladılar. Onlar 21 Azər hərəkatına, Azərbaycan Milli Hökumətinə və Azrbaycan demokrat firqəsinə xalqın guya nifrət etdiyini və bu hərəkata xalqın zorla cəlb olunduğunu və s. söyləməklə Azərbaycandakı hərəkatın məzmununu təhrif edib, onu gözdən salmağa çalışırdılar.

İran müəlliflərindən biri, əsər və məqalələrində 1945-1946-cı illərdə Güney Azərbaycandakı xalq hərəkatına çox vaxt yaxşı münasibəti olmayan Pərviz Hümayinpur 1967-ci ildə Lozannada

çap etdirdiyi «Azərbaycan məsələsi» adlı kitabında yazır: «Azərbaycandakı nehzətə xalq xalq nifrət edirdi. Bu fikir əsassızdır, çünki mənim soruşduğum şahidlərin heç biri Azərbaycan xalqının bu mövqedə olduğunu söyləmir» [221, №2, 1354, s.17].

Şah qoşunlarının muxtariyyat istəyən Azərbaycan üzərinə basqın planı əslində Tehran-Moskva sövdələşməsindən sonra (1946-ci il aprel) hazırlanmışdır. **ABŞ-dan alınmış maliyyə və hərbi yardım hesabına şah ordusunun hərbi təchizatı kifayət qədər yaxşılaşdırmış və o yeni silahlarla təchiz edilmişdir [116, 3243-244]. Amerikalı general Corc Qreyl İrana ona görə dəvət olunmuşdur ki, o, İran ordusunun hərbi hazırlığını təkmilləşdirsin. İran polisini və jandarm qüvvələrini təlimatlandırmaq məqsədi ilə ABŞ-dan xüsusi müşavir və məsləhətçilər dəvət edildi. Amerikalı polkovnik Norman Şvarskof, Klareas Raydil, Stefan Timerman kimi yüksək rütbəli hərbiçilər Şahənşah ordusunu Azərbaycana qarşı hərbi hücumda təlimatlandırmışlar** [129, s.460-474], [104, s.355-380]. İran ordusunun hücuma hazırlıq vəziyyətini yoxlamaq və öz təkliflərini şahənşah dövlətinə təqdim etmək üçün 1946-cı ildə amerakalı polkovnik təlimatçı Şvarskof bir neçə dəfə İrana dəvət edilmişdi. Şvarskof orduda və jandarm qüvvələri sırasında qulluq edənlərə çox etibar olunmadığını və imkan düşən təqdirdə onların qarşı tərəfə keçmək ehtimalını nəzərə alıb onların xidmət yerinin tez-tez dəyişməsini məsləhət görmüşdü [266, s.49], [104, s.355-380].

**Hər tərəfli hazırlıqdan sonra 1946-ci ilin sentyabr ayından başlayaraq Azərbaycan üzərinə hücuma başlandı.** 15-ci məclisə seçki keçirtmək və ölkədə əmniyyət yaratmaq adı altında bütün əyalətlərə jandarm və ordu hissələri göndərildi. Tehran və

bir çox əyalətlərdə hərbi vəziyyət elan edildi. Kütləvi yığıncaqlar, mitinq və nümayişlər qadağan olundu. «Hökumətin fəaliyyətinə dair tənqidi yazılarla çıxış edən bütün qəzetlər demək olar ki, bağlandı. Demokratik hərəkatın fəal xadimlərini həbs edib zindanlara saldılar» [45, s.157-158]. **Baş Qərargahın rəisi general Cahanbaninin əmri əsasında ordu Sayınqala, Zəngan, Miyana, Saqqız, Sərdəşt və Gilan istiqamətində hərbi hücuma hazır vəziyyətə gətirildi.** 1946-cı il avqustun axırlarında «sol» partiyalarla – ADF, İXP, KDF, Sosialist partiyası ilə birgə platforma yaratmağı ortaya atan Qəvamın başçılıq etdiyi Iran Demokratik partiyası sentyabr ayında həmkarlığa çağırdığı partiyaları heç bir əsas olmadan satqın və xain adlandırmağa başladı və onlara qarşı təqiblər və cəza maşını işə salındı.

Qəvamül-səltənənin 1946-cı ilin yayında etdiyi siyasi manevrlər, «Sollar»a yaxınlaşdığına görə Məmmədrza şahı da Qəvamdan şübhələndirirdi. Şah Qəvam haqda şübhələrini ABŞ və İngiltərənin Tehrandakı kəşfiyyat işçilərinə də bildirmişdi. Şaha oyunun sonunu gözləmək və Qəvama qarşı təzyiqi bir qədər artırmaq məsləhət görülmüşdü [119, s.141]. Şahın Qəvamdan şübhələnməsi təkcə onun «sol» partiyalarla vahid cəbhə yaratmağa meyillənməsi deyildi, həm də Iran hava yolları nəqliyyatını Sovetlərə uzun müddətə konsessiya vermək haqda qərarı təsdiq üçün məclisə təqdim etməyə tələsməsi idi. Və nəhayət, Qəvamın demokratik qüvvələrin ziyafət və qonaqlıqlarında iştirak etməsi və bu məclislərdə loyal xarakterli çıxış etməsi idi. 1946-cı ilin oktyabrında Qəvam hökuməti istefa ərizəsini şaha təqdim edərkən şahın daxili və xarici kəşfiyyatdan olan məsləhətçiləri hökümətin yenidən, lakin şərtlərlə Qəvama tapşırılmasını tövsiyyə etdilər. 1946-cı il oktyabrın 19-da Qəvamın şaha təqdim etdiyi

yeni hökumətdə 3 tudəçi nazir vəzifəsindən uzaqlaşdırılmış və şahın çox da xoşu gəlmədiyi Müzəffər Firuz baş nazirin siyasi məsələlər üzrə müavinliyindən azad edilmişdi.[1] Şahın Qəvam hökuməti qarşısında qoyduğu şərtlərdən biri də Azərbaycana qarşı hərbi əməliyyatı tezləşdirmək idi. Əslində şahla Qəvam arasında yaranmış «ziddiyətlər» zahiri xarakter daşıyırdı və Qəvama daha geniş əl-qol açmağa imkan verirdi.

Qəvam yeni təşkil olunmuş hökumətə başçılıq etdiyi günün sabahı Tehranda Azərbaycan valisi (ostandarı) doktor Cavidə başa saldı ki, Azərbaycanla bağlı bütün məsələlər qoşun Azərbaycanı tutduqdan sonra həll olunacaqdır. Bu xəbərdarlıqdan məyus olmuş Azərbaycan valisi Təbrizə dönməkdən başqa çarəsi olmadığını anladı [163]. Qəvamın başçılıq etdiyi hökumətin xəyanətkarlığı və onun siyasi manevrləri demokratik hərəkatın bir çox rəhbərlərinə, o cümlədən S.C.Pişəvəriyə əvvəlcədən məlum idi. Həmin dövrdə S.C.Pişəvərinin bir çox yazılarında, bəyanat və çıxışlarında Qəvama inamsızlıq, onun hiyləgərliyi, satqınlığı və mürtəceliyi haqda dönə-dönə qeydlər vardır. S.C.Pişəvəri sovetlər tərəfindən ona olan güclü təsir və təzyiq altında arabir Qəvama yumşaq mövqe nümayiş etdirsə də, Məmmədrza ilə birlikdə onu da əvvəldən axıra qədər Azərbaycan xalqına, onun azadlıq hərəkatına, dilinə, mədəniyyətinə və tarixinə qatı düşmən hesab etmişdi.

Doktor S.Cavid Tehranda olarkən ADF-in yaranmasının 1 illiyi münasibəti ilə ziyafətdə iştirak edən Qəvama Azərbaycan azadxahlarından biri Ə.Əlmovtininin dediklərini misal gətirir: «Ağaye Qəvam, Ağaye Firuz, yerinə düşməsə də bir misal çəkə-

[1] Moskvaya səfir təyin olundu.

cəyəm: Soyuq bir vaxtda qurulmuş isti çadırdan kənarda qalan bir dəvə başını çadıra salır. Çadırdakı sahibin buna etiraz etmədiyini gördükdə dəvə yavaş-yavaş özünü çadıra soxur. Dövlətin Azərbaycanla əlaqələri mənə o dəvənin əhvalatını xatırladır» [163, s.55]. Həqiqətən də Qəvam hakimiyyətə gələn gündən Azərbaycandakı hərəkatı məhv etmək üçün cinayətkar əməllərini addımbaaddım irəlilətmişdir. Əvvəl özünə «demokratlıq» boyası verən, Xalq partiyası rəhbərlərini hökumətində nazir vəzifəsinə gətirən, «sol» partiyalarla əməkdaşlığa «can» atan, hətta Pişəvərini və bir neçə azərbaycanlı lideri hökumətinə gətirmək haqda şayiə yayan Qəvam 1946-cı ilin payızında özünün həqiqi simasını pərdə dalından çıxartdı. Qəvam «Nəhayət bütün bu məzhəkələr rolunu oynayıb qurtardı. Pərdənin dalında isə mürtəcelər qüvvə topladılar, hücuma keçməyə hazır olduqlarını bildirdilər» [20 a, s.99] Varlı mülkədar Zülfiqarı, Teymur Bəxtiyarı kimi nehzət vaxtı Azərbaycandan qaçmış ünsürlər AMH-dən narazı qüvvələri öz ətraflarında birləşdirmiş və onları təxribat və pozuculuğa təhrik etməkdə böyük fəallıq göstərmişlər. Qəvam XV Məclis seçkiləri ilə bağlı Azərbaycana gələcək qoşunun yolunu «təmizləməyi» Azərbaycan valisinə əmr etdi. Bu əmrdən əvvəl təlimatçıları İngiltərə və ABŞ-dan gəlmiş şahın gizli terrorçu və təxribatçı təşkilatı bir dəstə şahpərəst generalitetin və xəfiyyə işçilərinin iştirakı ilə xüsusi yığıncaq keçirir. **Bu yığıncaqda qoşun Azərbaycana yollanmazdan əvvəl xüsusi dəstə – varlı mülkədar, tacir və mənsəb sahiblərindən tutmuş iğtişaş yaratmağı bacaran, qatil, oğru və quldurlara qədər – dəstə gizli olaraq Azərbaycana göndərilir. Müxtəlif adlarda və müxtəlif formada (açıq və gizli) Azərbaycana gələn şahpərəst ünsürlər külli miqdar pul və silahla təmin edilir. Onlara verilmiş**

**xüsusi təlimatda Azərbaycanın hansı şəhər, rayon və kəndində kiminlə əlaqəyə girmək, pullu qatil və talançı dəstələr düzəltmək və onların vasitəsilə ordu gələnə qədər demokratik qüvvələrlə «hesabı çürütmək», onlara divan tutmaq tapşırılır. Amerikalı müəllif Con Foran özünün «İranda ictimai dəyişikliklər» adlı kitabında etiraf edir ki, şah qoşununun Azərbaycana hücumu ərəfəsində Tehran «Əfşar, Şahsevən ellərinin, eləcə də Zülfiqarilərin Tehranla bağlı adamlarını təşviq edir, onlara fədai paltarı geydirib, demokratlara divan tutmaq üçün onları Azərbaycana göndərirdi»** [100, s.408]

1946-cı il noyabrın 7-dən Azərbaycan səmasında görünməyə başlayan şah təyyarələri səpdikləri vərəqələrdə İran ordusunun «xilaskarlığından», Azərbaycanı «dinsiz kommunistlərin əsarətindən» qurtarmaqdan bəhs olunur və ancaq Allah ümidinə qalmış xalqda qorxu, təşviş və çaxnaşma yaratmağa cəhd edilirdi. Beləliklə, Məclisə seçkilər keçirmək üçün mərkəzin «əmniyyət» yaratmaq adı ilə **Azərbaycana göndərilən qoşunu yola düşməmişdən əvvəl Azərbaycanda xaos, qanlı-qadalı səhnələr yaratmaq üçün fitnəkar tədbirlər həyata keçirilmişdi.**

1945-1946-cı büdcə ilində İran dövləti hərbi işlərə, o cümlədən ordu və jandarm qüvvələrini müasir silahlarla və hərbi təchizatla təmin etmək (illik büdcə 3,2 milyard riala bərabər idi) üçün büdcədən bir milyard rial vəsait ayrılmışdır. İqtisadi cəhətdən zəif inkişaf etmiş Irana bu rəqəm o illər üçün böyük rəqəm idi. Bu pulun 100 milyon rialı silah və hərbi sursata, 398.246.100 rialı jandarma və 237.000.000 rialı polisin hərbi təchizatına sərf edilmişdir [266, s.30].(97) Azərbaycandakı hərəkatı boğmaq üçün Iran regionun militarist dövlətinə çevrilmişdi.

XV çağırış İran Şura Məclisinə seçkilər keçirmək adı altında mərkəzin Azərbaycana qoşun yeritmək təklifi 1946-cı il noyabrın 11-də Azərbaycan Əyalət əncüməninin İcraiyyə heyətində müzakirə edildikdən sonra Zəngandakı fədai qüvvələrinin geri çağırılması və bu şəhərin İran ordusu tabeliyinə verilməsi haqda qərar qəbul edildi [188, 20 aban, 1325], [187, s.123]. Həmin qərar əsasında 1946-cı il noyabrın 13-də fədailər Zəngan mahalından çıxarıldı. Fürsətdən istifadə edən və Tehrandan istiqamətləndirilən və təlimatlandırılan mürtəce mülkədar Zülfiqari (o, milli hökumət tərəfindən xalq düşməni elan olunmuş və 300 kəndi müsadirə edilmişdir) [138] və onun ətrafına topladığı dəstə demokratik qüvvələrə qarşı olmazın cəza və cinayətlərə əl atdı. Halbuki, Azərbaycanla olan razılaşmaya aid nə Zülfiqari və nə də onun banda dəstəsinə daxil olanlar Zəngana buraxılmamalıydı. Tehranda Azərbaycan nümayəndələri ilə danışıqlar aparılan vaxt Mərkəzi dövlətin Zənganı Azərbaycandan təcrid tələbindən narazı qalan Azərbaycan nümayəndə heyəti üzvlərindən birinə müraciətlə Qəvam: «oğlum, məni bir demokrat hesab et. Mən heç vəchlə Zəncanı Azərbaycandan ayırıb harasa birləşdirmək fikrində deyiləm. 15-ci Məclis təşkil tapan kimi Zəncan yenidən Azərbaycana birləşdiriləcəkdir» [117, s.426] - deyərkən əslində Zənganda qardaş qırğınına rəvac vermişdi. Zəngan hadisələri göstərdi ki, Qəvamül-səltənə höküməti Azərbaycanla bağladığı qərardadı elə ilk addımdaca ayağı altına qoydu.

Şah qoşununun Zəngana gəlmiş bölməsinə başçılıq edən polkovnik Bunsaqinin gözü qarşısında və onun himayəsilə Zülfiqari dəstəsinin Zənganda törətdiyi qətl-qarət orta əsr vəhşiliklərini kölgədə qoydu. Zülfiqari köhnədən onunla düşmən olduğu vətənpərvər ruhani Şeyx Məhəmməd Xoi və bir çox fədai başçılarını

əhalinin gözü qarşısında böyük vəhşilik və qəddarlıqla qətlə yetirdi. ADF üzvlərinin və fədailərin evləri talan edildi, özləri Zülfiqarinin xüsusi həbsxanasına salındılar. Müqavimət göstərən kəndlərə (Dizə, Tarım, Qarabuşlu və s) od vuruldu [188, noyabr-dekabr nömrələri, 117, s.126-132]. Ayağından güllə yarası almış Xoi damın üstündəcə qətlə yetirildi və onun cəsədi nümayiş etdirilib damdan yerə atıldı. «Demokrat firqəsi üzvü olmuş şəxsin evindəki fərş yığılıb aparılarkən südəmər uşaq fərşin arasında qalıb boğulmuşdur» [231, 1999, №3, s.132]. Fədai və demokrat fəalların boğazına ip salıb, maşına bağlayıb küçələrdən sürükləndirilməsi haqda şahid ifadələri vardır.

Dövlət qoşununun havadarlığı ilə Zülfiqari dəstəsinin Zənganda demokratlara divan tutmasına belə bir bəhanə əsas gətirilib ki, guya qoşun üçün gətirilən ərzağı demokratların göstərişi ilə xalq hücum çəkib talamaq istəyirmiş. Qırğına «Hüquqi-əsas» yaratmaq məqsədini güdən bu məkrli əməl əvvəlcədən düşünülmüşdür [231, 1999, №3, s.132].

Təbrizin Tehranla bağladığı və doktor Cavid Tehranda olarkən bir daha təsdiq olunmuş qərardad əsasında 300 nəfər fədai Zənganda nigəhbanlığın (xüsusi polisin) tərkibində qalıb təhlükəsizliyin qorunmasında iştirak etməliydi. Halbuki, şah qoşunu Zəngana daxil olar-olmaz həmin fədailər Zülfiqarilərin qəfləti basqınına məruz qaldı, bir hissəsi qətlə yetirildi, sağ qalmışlar zindana salındı. Yazıçı Sayyad Heydəri (Kərimli) doğma əmisi oğlunun dediklərinə istinad edərək yazır: «... Biz Tehran qoşunu sırasında Zəngana daxil olarkən dəhşətli qətllərin şahidi olduq. Fədailərin və Firqə fəallarının boynuna qalın ip salıb hərəkətdə olan maşının arxasına bağlamışlar. Maşın hərəkətdə olarkən cəsədlərdən axan qan Zənganın daş döşəməli xiyabanlarını al-

əlvan qanla boyuyurdu. Cəsədlərdən ayrılan ət parçaları – qol, qıç elə xiyabanda da qalırdı” [S.Heydəri «8 il baba yurdumda», Bakı, 2008, s.253].

1946-cı il noyabrın 12-də Azərbaycan Əyalət şurasının qərarı ilə və əvvəlcədən hökumətlə olan razılığa əsasən Zəngan Tehran qoşununa təhvil verildi. Zəngandakı fədai bölmələrinə tərksilah olunub geri çəkilmək əmri verilərkən hadisələrin şahidi olmuşların dediyinə görə bu xəbəri onların bir çoxu göz yaşı ilə qarşılamışlar. Zəngan fədailəri Təbrizə ünvanladıqları məktubda yazırdılar: «Qardaşlar silahımızı almayın, siz bunlara inanmayın…bizi dəstə-dəstə edib, bu insan qatillərinə təslim etdirməyin. Biz hazırıq son nəfəsimizə qədər azadlığımızı müdafiə edək, bu yolda ölək və ya azad yaşayaq» [117, s.426]. Zənganın düşmən əlinə keçməsi ilə heç cürə razılaşmayan xalq Azərbaycanın bütün bölgələrində yığıncaq və mitinqlər keçirir və könüllü dəstələrin Zənganın köməyinə getmək haqda icazə verməyi ADF rəhbərliyindən və Azərbaycan valisindən xahiş edirdilər. ADF rəhbərliyinə göndərilmiş müraciətlərdən birində deyilirdi ki, «İran irticasının göstərişi ilə Zəncanda qanlı cinayətlər törədənlərdən intiqam almaq üçün Zəncan cəbhəsinə getməyimizə icazə verməyinizi xahiş edirik» [188, 2 azər, 1325]. «ya ölüm, ya vətən», «ya azadlıq, ya ölüm!» düşüncəsi ilə alınmış azadlığı qorumaq üçün ölümə belə hazır olan insanların ADF MK-sına və Azərbaycan Ostandarılığına olan müraciətləri ona görə cavabsız qalmışdır ki, «ellər atası»nın, Kreml başçılarının göstərişi ilə əslində Azərbaycan rəhbərliyinin əl-qolu bağlanmışdır. Vəziyyətin ən kəskin və böhranlı çağında müdafiə məqsədi ilə sovetlərdən az miqdarda silah istəyən Azərbaycan rəhbərliyinə sovetlər tərəfindən nəinki yox cavabı verilmiş, həm də Teh-

randan gələn qoşuna yol vermək üçün müqavimətsiz geri çəkilmək «məsləhət» götürülmüşdü [166, s.257]. Amerikalı müəllif Robert Russa (1945-1946-cı ildə ABŞ-ın Təbrizdəki konsulunun müavininin oğlu) özünün «Azərbaycan böhranı» adlı kitabında yazır ki: «Bu zaman Təbrizdə digər hadisələr qarşıya çıxdı. Tamamilə məlum oldu ki, Sovetlər Azərbaycandakı rejimi öz hərbi qüvvələrinin gücü ilə saxlaya bilməyəcəklər. Onu saxlamağın sovetlər üçün əhəmiyyəti də yox idi. Buna görə onlar Azərbaycandakı rejimin rəhbərlərinə bildirdilər ki, onları nəinki hərbi, mənəvi, heç diplomatik cəhətdən də himayə etməyəcəklər» [258, 1381, №181-182, s.76].

Ağır və çıxılmaz vəziyyətə düşmüş Azərbaycan rəhbərliyi Tehranla bağlanmış müqaviləni və danışıqlar zamanı əldə edilmiş razılaşmaları xatırladaraq, Azərbaycana güclü qoşun dəstələrinin göndərilməsinə ehtiyac olmadığını və bu baş tutan təqdirdə ağır nəticələr verə biləcəyini Tehrana bəyan etdi. 30 noyabr 1946-cı ildə S.C.Pişəvəri, M.Ə.Şəbustəri, S.Cavidin iştirakı ilə keçirilmiş Azərbaycan Əyalət Şurasının (əncümənin) fövqəladə geniş iclası adından baş nazir Qəvamül-səltənəyə göndərilmiş teleqramda deyilirdi: «…Azərbaycana silahlı qüvvə göndərmək buradakı demokratik hərəkata müharibə elan etmək deməkdir. Əyalət Əncüməni və Azərbaycan xalqı, hər bəhanə ilə olursa olsun, Azərbaycana silahlı qüvvənin göndərilməsini 23 Xordad 1325-ci il (1946-cı il 13 iyun) qərardadına müxalif hesab edib, onun əleyhinə ciddi surətdə etiraz edir» [188, 10 azər, 1325]. Azərbaycan rəhbərliyi Tehran qoşunlarına müqavimətsiz təslim olmağa müxalif olsa da, əslində onun geri çəkilməkdən başqa çarəsi qalmamışdı [231, 1999, №3, s.134].

Yeri gəlmişkən Tehran qoşununun Azərbaycana gəlməsinə müqavimət göstərmək məsələsində Azərbaycan rəhbərliyində vahid mövqe olmamışdı. Sənədlərdə görünür ki, S.C.Pişəvərinin başçılıq etdiyi rəhbər cinah «öldü vardır, döndü yoxdur!» mövqeyini tutub, axıra qədər müqavimət göstərməyi təklif edirdilər. Bu cinahın təşəbbüsü ilə (bu cinaha S.C.Pişəvəri, Pənahiyan, Çeşmazər və b. daxil idi.) xüsusi müqavimət dəstəsi – «Babək müqavimət dəstəsi» yaradılmışdı [97, s.142].

S.C.Pişəvərinin 12 Azər 1335-ci il (9 dekabr 1946) xalqa müraciətində deyilir:

«Axırda Tehran hökuməti öz mahiyyətini təzahürə çıxartdı. Biz əvvəldən ona aldanmamışdıq, biz bilirdik ki, illər boyu Iran xalqlarının qanını soran mürtəcelər heç bir zaddan azadlıqdan artıq qorxmurlar. Buna görə də azadlığı boğmaqdan çəkinməyib fürsət gözləməkdədirlər. Biz hər cür fədakarlıq və güzəştlərə hazır olduq. Biz istəyirdik daxili müharibə atəşini qızışdıran mürtəcelərin bəhanəsi kəsilsin, biz istəyirdik sülh şəraitində azadlığı bütün İranda ümumiləşdirək, lakin mürtəcelər şum fikirlərindən sərfnəzər etmədilər və axırda Zənganda vicdansız hərəkətləri gətirməklə öz əllərin bütün dünyaya oxutdular.

İndi bununla da kifayətlənməyib, üz verdikcə astar istəyirlər. Teleqraf-teleqraf üstündən yağış kimi yağır və imperializmin duz-çörəyini itirməyən fitnəkar Qəvam xalıqımızı təhdid etməkdə Azərbaycana «taminilik» qüvvələri göndərməyə can atır. Bu taminiyyə qüvvələri yalnız onların irticai mənfəətləri nöqteyinəzərindən «taminə» sayıla bilər. İndilikdə irticanın əlində bir alət kimi istemal olub dövlət başçısı və «rəhbəre koll» adlanan ağaye Qəvamül-səltənə birdəfəlik bilməlidir ki, biz heç kəslə təarüf etməyəcəyik. Biz sözlərimizi deyib qurtarmışıq. Biz hər

cür güzəşt və əğmaza hazır olduq. İndi daha bizi aldatmaq fikrində olanlar öz intibahların düşünməlidirlər. Bizi jandarm, top və tüfəng ilə qorxutmaqla azadlığımızı əldən verməyəcəyik. Biz tiryəki jandarmları çoxdan tanıyırıq. Biz irticai qoşunların mahiyyətinə bələdik.

Azərbaycan xalqı azadlığını aldığı kimi də hifz edəcəkdir. İndi hamı vətən müdafiəsi uğrunda ayağa qalxmış və son qətrə qanı qalana qədər vətənimizdən difa etməyə hazır olmuşdur».

Zənganı tutduqdan sonra Tehran qoşunlarının törətdikləri ağır cinayət və faciələr Azərbaycandakı soydaşlarımızı ayağa qaldırdı. «Babək könüllülər» dəstəsinə minlərlə qoca, cavan, hətta qadınlar qoşuldu. Azadlığını qorumaq üçün ayağa qalxmış insanlarda vətən məhəbbəti, azadlığı qoruyub saxlamaq, əldə edilmişləri hifz etmək istəyi olsa da, təpədən dırnağa qədər silahlı qatillərə qarşı vuruşmaq üçün silah və sursat lazım idi. Yağı düşmənin qarşısında əli yalın dayanmaq mümkünsüz idi. Belə bir durumda Təbriz Bakı vasitəsi ilə Sovetlərə müraciət edir[1]. Hələ bundan 12 gün əvvəl, 1946-cı il dekabrın 5-də Güney Azərbaycanda milli-demokratik qüvvələrə qarşı Tehranın yaratdığı ağır və faciəli durum haqqında Mir Cəfər Bağırov İ.V.Stalinə Cənuba kömək etmək haqda müraciət edir. Müraciətdə Cənubi Azərbaycana qarşı Tehranın cinayətkar əməlləri, bir-birinin ardınca bölgələrin işğalı sovet rəhbərliyinə çatdırıldıqdan sonra müraciətdə deyilir: **«...Pişəvəri radio vasitəsi ilə əhalini İran qoşunlarının Azərbaycana hücumu barədə xəbərdar edir. Təbrizdə hərbi vəziyyət elan olunub. Azərbaycanın hər**

[1] Adıgözəl Məmmədov. M.C.Bağırov, Açılmamış səhifələr. Bakı «MBM» 2010, s.168-169.

**yerində kəndlilər müdafiə olunmaq üçün silahlandırmaq xahişi ilə Demokrat Partiyasının Mərkəzi Komitəsinə müraciət edirlər. Amma silah olmadığından rəhbərlik bu xahişləri yerinə yetirə bilmir. Azərbaycan Demokrat Partiyasının rəhbərliyi bir daha onlara heç olmasa minimal həcmdə yardım göstərməyi... xahiş edir»[1].** Stalin bu xahişin cavabında M.C.Bağırova bildirir ki, «Beş milyon azərbaycanlıya görə mən üçüncü dünya müharibəsinə başlaya bilmərəm.» Bu cavabdan sonra şahidlərin dediyinə görə Bağırov hönkür-hönkür ağlamışdı.[2]

Azərbaycan yenidən yağı düşmənin tapdağı altına düşdü...

Zəngana daxil olan şah qoşununun və onun yerlərdəki tərəfdarlarının törətdikləri cinayətlər Azərbaycan üzərinə ölüm gətirən qara buludların törədəcəyi böyük faciələrdən xəbər verirdi. Belə bir məqamda Pişəvəriyə, rəhbərlikdə onunla bir əqidədə olanlara qarşı sovetlərin əvvəllər göstərdikləri təzyiqlər sonralar açıq hədələrlə tamamlandı. Buna baxmayaraq **Qəvama inanmamaq, şah qoşunu qarşısında müqavimət göstərmək əvvəldən axıra qədər S.C.Pişəvəri üçün əsas və məqbul tezis idi.** 1946-cı il 10 dekabrda baş komandan kimi S.C.Pişəvərinin ünvanına Qaflankuh cəbhəsindəki vəziyyət haqda gəlmiş silah çatışmazlığı qeyd olunur. Teleqrama cavabında **S.C.Pişəvəri qoşuna və fədailərə düşmənə qarşı döyüşü heç bir vəchlə səngitməməyi, heç bir vəchlə geri çəkilməməyi, qorxaqlıq göstərib geri qaçanların**

---

[1] Yenə orada, s.170 (Başqa bir sənəddə göstərilir ki, İ.V.Stalinlə telefon danışığında M.C.Bağırov cənubdakılara silah verməklə köməkliyin vacibliyini dedikdə Stalin sərt cavabla: «de görüm bu ölkənini sahibi sənsən, ya ki, mən?» deməklə M.C.Bağırovu susdurmuşdu. Nəqədə, «Ərməyan Azərbaycan» bəhmən 1384, s.75)

[2] Bax: A.Məmmədovun adı çəkilən kitabına

**ciddi cəzalandırılmasını hərbi rəhbərlikdən tələb edirdi və silah, hərbi sursat çatdırılacağını söyləyirdi** [178, s.103].

1946-cı il dekabrın 11-də ADF MK və Birləşmiş Həmkarlar İttifaqı birlikdə əhaliyə müraciət qəbul etdi. Bu müraciətdə Zənganı tutmuş düşmənin azğınlığının qabağını almaq üçün xalq səfərbər olmağa çağırılırdı [188, 20 azər, 1325]. Səfərbərliyə çağırışın müqabilində elə həmin gün (dekabrın 11-də) «Təbrizdəki vitse-konsul N.Quliyev vasitəsi ilə Stalinin tapşırığı Pişəvəri, Şəbüstəri, Cavid və Padiqana çatdırıldı… Silahlı müqavimətin davam etdirilməsi məqsədəuyğun, gərəkli və faydalı deyildir» [18, s.525] sözləri ilə tamamlanan bu tapşırıq əslində Azərbaycan rəhbərliyinin təslim olmasına çağırış idi. Bu çağırışa qarşı sərt mövqe tutan Pişəvəriyə lazım gəlsə zor işlədiləcəyinə də işarə olunmuşdu. Bunu Pişəvərinin yaxın silahdaşlarından və Azərbaycan Milli Hökuməti zamanı baş nazirin və firqə rəhbərininköməkçisi olmuş, məşhur «53-lər»dən sayılan mərhum Tağı Şahin söhbətlərində belə xatırlayırdı: «1946-cı il dekabrın 10-da ADF MK binasına gələn 2 nəfər sovet nümayəndəsi Pişəvəriyə bir neçə yaxın silahdaşı ilə Təbrizi təcili tərk etməyi təklif etdikdə və bu təklif Pişəvəri tərəfindən qəbul edilmədikdə «Sizi zorla apararlar» cavabı verildi». Ultimatum xarakterli bu cavab əslində təslim olmaq istəməyən Azərbaycan rəhbərliyinə qarşı hərbi və fiziki zorakılığın işə salına biləcəyindən xəbər verirdi. S.C.Pişəvəri bundan sonra «…hər hansı bir tədbirin həyata keçirilməsinin əhəmiyyətsiz olduğunu başa düşdü və özünün çıxılmaz vəziyyətdə qaldığını hiss etdi. O, müqavimətin dayandırılması haqqında partiya aktivinə, ordu komandirlərinə və fədai başçılarına heç bir göstəriş vermədi" [18, s.526-527]. **Amerikalı müəllif Robert Russo yazır: «1946-cı ilin əvvəllərində**

**Pişəvəri xalqı cihada çağırırdı. O, Tehran hökumətini çökdürmək, onun yerində xalqa yarayan hökuməti istəyirdi… həmin ilin sonunda Pişəvəri iki yol ayrıcında qaldı: müqavimət göstərmək, ya göstərməmək? O, müqavimət göstərməyə çox meyilli idi. Lakin xarici təzyiqlərlə onun əl-qolu bağlandı».** C.Həsənli müraciət etdiyimiz əsərində iranlı müəllif Fəxrəddin Əzimidən belə bir iqtibas gətirir: **«Ruslar demokratlardan** İran hökumətindən istədikləri güzəştləri almaq üçün istifadə etmişlər və indi onlara təzyiq göstərərək radikal çıxışları dayandırmaqlarını və mərkəzi hökumətlə sövdələşmədə **«cığırdan çıxmamağı» tələb edirlər»** [18, s.522].

ADF-nin rəhbərliyində Tehran qarşısında mötədil mövqe tutmağa məcbur olan cinaha doktor S.Cavid, M.Ə.Şəbüstəri və başqaları başçılıq edirdilər. Bu cinah qüvvələr nisbətindəki müqayisəsiz tarazsızlığı görərək müqavimət göstərməyin heç bir müsbət nəticə verməyəcəyini söyləyir və Tehranın əvvəllər verdiyi vədlərə az da olsa müəyyən dərəcədə inanırdılar. Doktor S.Cavid sonralar özü bu haqda yazırdı: «Pərdə dalında Amerika və ingilislərin hazırladıqları qəsddən tam xəbərim yox idi. Amma Ağaye Qəvamın və şahın bu qəsddən xəbərləri var imiş. Onlar birlikdə Azərbaycan nehzətini məxfiyanə surətdə aradan aparmaq nəqşəsini çəkmişlər… Mən tərəfdar idim Təbrizdə imzalanmış müvafiqnamə və onun Tehranda qəbul olunmuş zəmimələri (əlavələri) icra olunsun və dövlətin əlinə bəhanə düşməsin, Pişəvəri isə bunları deməyirdi və məsələlərin uzanmasının tərəfdarı idi. O, ümid edirdi ki, bəlkə beynəlmiləl siyasət dəyişə, vəli, mən bu ümidi görməyirdim» [163, s.73]. Ümidsizləşmiş vali – doktor Cavid özünün yazdığı kimi, qan tökülməməsi, qardaş qırğını olmaması naminə əyalət əncüməninin qərarı əsasında qoşunun

Azərbaycana, o cümlədən Təbrizə gəlməsinə razılaşmışdı. O, qoşunun Azərbaycanı dinc şəraitdə tutması üçün Qəvamla Miyanada görüşməyi təklif etdisə də, Qəvam bu görüşün qoşun Təbrizi tutduqdan sonra mümkün olacağını bildirmişdi.

**Təpədən dırnağa qədər müasir silahlarla təchiz olunmuş 50 min nəfərlik şah ordusu (10 min nəfər də Tehran ətrafında ehtiyatda saxlanmışdı) 50 bombardmançı təyyarənin, 65 zirehli tankın, 174 topun, 3 min pulemyotun, çoxlu qumbara və minaların köməyi ilə 1946-cı il dekabrın 4-də, səhər saat 7.00-da Azərbaycanın üzərinə üç istiqamətdə (Zəngan-Təbriz, Tikab-Miandab, Astara-Xalxal) hücuma keçdi [97, s.139-143], [99, s.271-280], [4, s.142-146]. Azərbaycan üçün ağır o tarixi günlərdə Təbrizdəki ingilis konsulu İngiltərə Xarici Işlər Nazirliyinə göndərdiyi raportda «şah qoşununun amerikalılar tərəfindən yaxşı silahlandırıldığını, hərbi avtomobildən tutmuş tank, təyyarə və ağır silahlarla kifayət qədər təchiz olunduğunu, bunun müqabilində qarşı tərəfin (Azərbaycanın) adi tüfəngdən başqa mühüm bir silaha malik olmadığını» yazırdı** *[104, s.507]*. Dekabrın 4-də geniş miqyaslı hücuma başlayan Tehran qoşunu bütün Azərbaycanı və digər iri şəhərləri qorxu və dəhşət içərisində saxlasa da, Təbrizi tutmağa qəsdən tələsmirdi. Nəhayət 1946-cı il dekabrın 11-də (1325-ci il 20 Azərdə) səhər milləti düşmənə qarşı müqavimət göstərməyə çağıran, «öldü vardır, döndü yoxdur» deyən S.C.Pişəvəri elə həmin günün axşamı Təbrizdəki Sovet xəfiyyəsi nümayəndələrinin təzyiqi və nəzarəti ilə Təbrizi tərk etməyə məcbur edildi. Sovet İttifaqı ilə Tehran arasında əldə edilmiş məxfi razılıq əsasında milli hökumət yıxılandan sonra **Seyid Cəfər Pişəvəri zorla «mühacirət» etməyə məcbur olmuş, rus silahlı qüvvələri vasitəsilə**

**Bakıya aparılmışdı»** *[261, 1381, №10, s.3]*. S.C.Pişəvərinin Təbrizi tərk etmək ərəfəsində onunla bir yerdə olan və sovet «diplomatlarının» ona necə təzyiq və aldadıcı manevrlər etdiyinə şahid olan H.Cahanşahlı yazır: **«Pişəvəri firqə rəhbərliyini M.Biriyaya verdikdən sonra onu Təbrizdəki Sovet konsulunun nümayəndəsi, KQB polkovniki Quliyev konsulluğa çağırdı. Burada olan söhbətdə Pişəvəri çox hirsli vəziyyətdə sözlərini Sovet nümayəndəsinə dedi. Quliyev Pişəvərinin görüş üçün təcili Culfaya dəvət olunduğunu bildirdi. Axşam saat 8-də (20 Azər) Gözəlov şəhər kənarında, Təbriz-Culfa yolu üzərində Pişəvərini gözləyəcəyini ona bildirdi. Pişəvəri əvvəl Culfaya, sonra isə Naxçıvana aparıldı»** *[166, s.257]*. Beləliklə də «…Cənubi Azərbaycanda bütün xalqın, bütün mütərəqqi qüvvələrin iştirakı ilə əmələ gəlmiş, böyük və qüdrətli bir milli-demokratik hərəkat qan dəryasında boğuldu» *[20 ç, s.106]*.

1946-cı ilin dekabrın 11-i (20 Azər) Güney Azərbaycan milli demokratik hərəkatı tarixində kədərlə yadda qalan aşağıdakılar olmuşdur:

1. ADF MK, Təbrizdə keçirilən son iclasında S.C.Pişəvərinin firqədə sədrlik vəzifəsi Məhəmməd Biriyaya həvalə olunur (F.İbrahimi və M.Vilai müavin), S.Cavidin, M.Ə.Şəbüstərinin, M.Biriyanın və bir neçə rəhbər işçinin Təbrizdə qalması məsləhət görülür.

2. Həmin axşam hərəkatın öndəri S.C.Pişəvəri doğma Təbrizi tərk etmək məcburiyyətində qalır.

3. Qəvamın teleqramına cavab olaraq 1946-cı il dekabrın 11-də gecədən xeyli keçmiş Azərbaycan Əyalət Əncüməninin fövqəladə toplantısı (S.Cavid və M.Şəbüstərinin iştirakı ilə) Tehran qoşununun Azərbaycana gəlməyinə icazə verir. Beləliklə,

11 dekabrda baş vermiş yuxarıdakı olaylar həm Təbrizdə və həm də Azərbaycanın bütün bölgələrində böyük həyəcan və məyusluq yaratdı. Pişəvərinin Təbrizdən aparılması bu məyusluğu yaradan kuliminasiya idi.

Azərbaycan Əyalət Əncüməni Tehranla bağlaşamadakı maddələrə əsaslanıb «İranın daxilində qardaş qırğınının qarşısını almaq üçün 1946-cı il dekabr ayının 11-də Azərbaycan Xalq Qoşunlarına və Fədai qüvvələrinə İran dövlətinin silahlı qüvvələrinə müqavimət göstərməmək və döyüş mövqelərini tərk etmək göstərişini verdi» *[4, s.145]*. Bu zaman cəbhədə olan fədailər və əsgərlər Azərbaycan əyalət Əncüməninin göstərişi əsasında müqaviməti dayandırıb cəbhədəki mövqeləri tərk etməli oldular. «Bu işə ona görə əncam verildi ki, qarşı tərəf Azərbaycanı bağlanmış qərarı pozmaqda günahkar saymasın» *[116, s.148]* 1946-ci il dekabrın 11-də (1325-ci il Azərin 20-də) M.Biriyanın başçılığı ilə S. Cavid və M.Şəbüstərinin iştirakı ilə ADF binası qarşısında keçirilmiş mitinq silahlı müqavimətin faydasızlığını bilib aşağıdakı qətnaməni qəbul etdi (Qətnamə elə həmin gün teleqramla Tehrana çatdırıldı). Qətnamədə qeyd olundu ki:

1. Qardaş qırğınının qarşısını almaq və əmin-amanlığı qoruyub saxlamaq üçün mərkəzdən gələn qoşuna müqavimət göstərilməyəcək;
2. Azərbaycan Demokrat firqəsi əvvəldə olduğu kimi yenə də İranın ərazi bütövlüyünün qorunmasında israrlıdır;
3. ADF və Azərbaycan həmkarlar təşkilatı azad fəaliyyət göstərəcəyinə dövlətin verdiyi zəmanətə əmindir.

**M.Biriya** mitinqdən sonra ADF rəhbərliyi adından verdiyi bəyanatda demişdir: **«Biz dəfələrlə demişik və yenə deyirik ki, İranın ərazi bütövlüyünə tərəfdarıq. Düşmənlərimiz nehzəti-**

**mizə böhtan atmaqla qan tökməyə cəhd edirlər. Dövlət qoşunu dövlətin göstərişi ilə Azərbaycana gəlir ki, məclisə intixabat (seçkilər) keçirək. Ağaye Qəvam buyurur ki, millət qanısoyuqluq göstərsin ki, məclisə intixabat maneəsiz keçirilsin»** ***[261, 1381, №10, s.70-71].***

**Təbriz sülh, qardaş qırğınına yol verməmək haqda düşündüyü bir vaxtda Tehrandakı rejim Azərbaycana qarşı ölüm və cəza kabusunu işə salmaq haqda fikirləşirdi. Şah-Qəvam qüvvələri Azərbaycana hərbi yürüşlə nəinki əmin-amanlığın qorunmasına kömək etmədi, əslində Azərbaycanı qan dəryasına çevirmək istəyənləri istiqamətləndirdi və dəstəklədi.**

Tanınmış ədib Gəncəli Səbahi həmin dövrün hadisələrini şərh edərkən «Ötən günlərim» adlı xatirələrində yazır: «Aban ayının 18-də şah qoşunları Zəngana doldu. Zülfiqari atlıları xiyaban və küçələri azadxahların al qanına boyadı. Burada baş verən talanlar, qırğın və vəhşiliklə törədilən faciələr radiolardan bütün dünyaya yayıldı. **Ordu cəsədlər üzərindən Təbrizə tərəf irəlilədi. Azərin 20-də əliyalın qalmış demokrat hökuməti Amerika silahı qarşısında tab gətirə bilmədiyindən süqut etdi».** *[187, s.123]*

**Doktor Cavidin yazılarından və hadisələrin canlı şahidi olmuş çoxsaylı insanların xatirə və etiraflarından, eləcə də rəsmi sənədlərdən məlum olur ki, 13 dekabr saat 17.00-yə qədər Mərkəzi Hökumətin qoşunu Təbrizə daxil olmağa qəsdən tələsməmişdi. Bu gecikmənin əsas səbəbi əvvəlcədən öyrədilib Azərbaycana göndərilmiş şahpərəstlərin, xüsusi təlim almış banda dəstələrinin burada vətəndaş qırğını salmaq, talanlar təşkil etmək və hərəkat iştirakçılarından qisas almaq idi.** Xalq içərisində parçalanma yaratmaq məqsədi ilə Rza şah zamanında ortaya atılmış «mühacirlər» məfhumuna

rəvac verildi. «Mühacirlər», «yerlilər» adı altında qızışdırılan və yerliləri «kafir», «satqın», «bolşevik» mühacirlər əleyhinə çağıran quldur dəstələri **demokratları «mühacir» adı altında kütləvi şəkildə qətlə yetirdilər, evlər talandı, qadın və qızların namusuna təcavüz edildi, Təbrizin küçələri günahsız insanların qanına boyandı. Şibli gədiyində dayanıb, Azərbaycana «əmin-amanlıq» yaratmağa gələn qoşunun başçısı, general Haşimi və onun komandası bu qanlı və faciəli səhnələri uzaqdan seyr etməkdən sanki «ləzzət» alırdılar. Buna görə də onlar Təbrizdəki qırğını dayandırmağa tələsmirdilər.**

S.C.Pişəvəri Rza şah dövründə və sonrakı illərdə Azərbaycandakı hərəkata qarşı «mühacirlər» kartından necə istifadə olunduğuna işarə edərək yazmışdır ki, «Bu adamlar bir müddət Arazın o tayında yaşayıb öz vətənlərinə dönən azərbaycanlılar idi. Yerli mürtəcelər və dövlət məmurları onları mühacir adlandırıb, onlarla yerlilər arasında ikitirəlik salıb, ədavət yaratmışlar. Rza xan dövründə onlar öz vətənlərində müharibədə əsir düşmüş əsgərlərdən daha pis halda yaşamağa məcbur edilmişlər» *[39, s.23]*.

Mərkəzin qoşunu Təbrizə gələnədək Milli Hökumət dövründə fəallıq göstərmiş vətənpərvərlərə «mühacir» adı altında divan tutulmuş, yüzlərlə insan azadlıq mücahidi olduğuna görə küçələrdəcə qətlə yetirilmişdi *[20 b, s.22]*. Həmin dövrdə Təbriz küçələrindəki faciənin canlı şahidi olmuş mərhum H.Mollazadə sonralar qələmə aldığı «Küçələrdəki müşahidələrimdən xatiratlar» adlı kitabında yazır: «1325-ci il Azərin 21-də (12 dekabr 1946) Nehzətin bir illiyi münasibəti ilə nəşr olunacaq «Azərbaycan» qəzetini almaq üçün çapxananın qabağına gəlmişdim. Qəzetin nəşrindən xəbər yox idi. Şəhərin hər yerində görünməyə başlayan silahlılar harada firqəçi və mühaciri görürdüsə,

ardınca gedib, onları qəddarlıqla qətlə yetirirdilər. Fürsət axtaranlar günahsız insanları şəhərdə bir yerə yığıb onları rəhimsizcəsinə qətliam (soyqırım) edirdilər. Ordu Təbrizə gələnə qədər bu cür faciələr çox oldu, evlər qarət edildi, namuslara toxunuldu, çoxlu insan evlərini tərk edib qaçmaq məcburiyyətində qaldı… Demokratların məğlubiyyətindən sonra fateh qoşunun fərmandarları adamlarla məğlub olmuş düşmən kimi rəftar edirdilər» *[178, s.104]*.

**Azərbaycan üzərinə hücum əmrini dekabrın 4-də almış şahın qaniçən generalı Haşiminin başçılıq etdiyi qoşunun Təbrizə 9 gündən sonra (13 dekabr) gəlib çıxmasına səbəb nə idi? Zəngandan Təbrizə qədər olan 290 km məsafəni qoşqu arabası ilə 2 günə qət etmək mümkün olduğu halda mühərrikli nəqliyyatla (biz hələ təyyarələri demirik) bu qədər ləngiməyə vadar edən nə idi? Qoşunun Təbrizin 80 km-də (Bostanabadda və Şibli gədiyində) 2 sutkaya qədər dayanmağa onları nə məcbur edirdi?**

Hadisələrin sonrakı gedişi göstərmişdi ki, bu ləngimə Tehranda ali hərbi qərargahda Şah və Qəvamın iştirakı ilə tərtib edilmiş Azərbaycana qarışı fitnəkarlıq və düşmənçilik planı əsasında olmuşdur. Noyabrın 2-dən Azərbaycan səmasında görünməyə başlayan Tehranın hərbi təyyarələri səpdikləri vərəqələrdə şahpərəst qüvvələri azadlıq istəyən insanlara qarşı qisas almağa çağıraraq, bu gün, sabah qoşunun gəlməyi ilə onları ruhlandırır, onları daha ağır cinayətlər törətməyə sövq edirdi. Nəticə bu oldu ki, şahənşah qoşunu Təbrizə daxil olana qədər (1946-ci il 13 dekabr saat 17.00) Tehranın Azərbaycana gizli yeritdiyi qaragüruhcu dəstə tərəfindən Təbriz, Ərdəbil, Miyana, Urmiya, Mərənd, Marağa, Miyandab və daha neçə-neçə şəhər, rayon,

qəsəbə və kəndlər saysız-hesabsız qətllərin, talan və vəhşiliklərin şahidi oldu. Sonra isə Məmmədrza şah və onun təbliğat dəstgahı bütün dünyaya car çəkdi ki, «Məclisə seçkiləri əmin-amanlıq şəraitində keçirmək məqsədi ilə Azərbaycana qoşun vaxtında çatmasaydı, burada qarşısıalınmaz vətəndaş müharibəsi başlanacaq idi» *[207, 19 bəhmən, 1325]*. **Əslində şah Tehrandan göndərdiyi Zülfiqarilərin, Bəxtiyarilərin, Müqəddəmlərin, Əbdülhüseyin Mirzə Fərmanın, Hacı Möhtəşəm Isfəndiyarının, Rza Həqqi kimi və yerlərdəki anti-milli ünsürlərin vasitəsi ilə 3 gün ərzində (dekabrın 10-dan 13 dək) Azərbaycanı insan «sallaqxanası»na çevirməyə müvəffəq oldu.** Məmmədrza şahın dostu olmuş və sonralar Pəhləvi sülaləsi haqda iki cildlik xatirələr yazmış general Hüseyn Fərdüst Təbriz üçün ağır olan o günlərdə küçə və xiyabanlarda 2-3 min cəsədin tökülüb qaldığını etiraf edir *[173, s.210]*. Yuxarıda kitabından iqtibas gətirdiyimiz **R.Russonun oğlu** Təbrizdəki ABŞ konsulu hadisələrin şahidi olmuş **atasının xatirələrinə əsaslanaraq yazır: «12 dekabrda Təbrizdə Tehran əsgərlərindən əsər əlamət yox idi.** Əvəzində naməlum silahlı dəstələr şəhərdə gəzişir, demokratlara tərəfdar olanları öldürür, dükanlarını talayırdılar. Aramsız atılan hədəfsiz güllə səsləri şəhərdəki sükutu pozurdu… Fədailər XIII əsrdə tikilmiş Ərk qalasının başında istehkam qurmuşlar. General Haşiminin başçılıq etdiyi ordu ancaq dekabrın 13-də günortadan sonra saat 5-də şəhərə daxil oldu» *[258, 1381, aban, s.76]*. 1946-cı ildə Təbrizdəki ABŞ konsulunun xatirələrindən də görünür ki, Tehran qoşunu Təbrizə dekabrın 13-də, demokratlara divan tutulduqdan sonra gəlib çıxmışdı. Qoşunun gəlməsi ilə Azərbaycan valisi doktor Cavidə və Azərbaycan Əyalət əncüməninin rəisi M.Şəbüstəriyə fəaliyyət

üçün nəinki imkan verilmədi, onlar əvvəlcə ev dustağı edildi, sonra sorğu-sual və mühakimə olunmaq üçün Tehrana göndərilmiş və orada həbsə alınmışlar.

**Valiliyinin son günlərini xatırlayan doktor Cavid yazır: «Təbrizdə fədailərə mühacir adı qoyub öldürürdülər. Mən bunu Sərtib Haşimiyə dedimsə, nəticə almadım. Onun saymazlığı məni əsəbləşdirdi. Əsəbani olub üzümü sərhəng Mənsuriyə çevirib dedim: budur ədalət?! 21 Azər nehzətində hərbi kazarmanı sizdən alanda məgər biz sizinlə belə rəftar edirdik?»** *[163, s.102].*

Azadlığını istəyən bir xalqa qarşı 1946-cı ilin dekabr günlərində qanlı cinayətə əl atmış Məmmədrza şah rejimi və bu rejimə xidmət edənlər bütün bu qanlı olayları xalqın adına çıxmağa, bununla birlikdə onlar bütün vasitələrlə Azərbaycandakı qırğın və talanların miqyasını azaltmağa, real həqiqəti ört-basdır etməyə çalışırdılar. Lakin bu qanlı cinayətin izini itirmək mümkün olmadı. Həmin dövrdə Azərbaycan xalqının başına açılmış bu ağır faciənin şahidi olmuş amerikalı hüquqşünas Duklas öz yazısı ilə bu cinayəti bütün dünya ictimaiyyətinə çatdırmaqda böyük alicənablıq göstərmişdi. Milli Hökumətin süqutundan sonra Azərbaycana gəlmiş Duklas yazır: «Özünü xilaskar adlandıran İran qoşunu keçdiyi yerlərdə zorakılıq nişanələri qoymuşdur. Kəndlilərin saqqalına od vurub yandırdılar, onların arvad və qızlarına təcavüz etdilər, evlərini taladılar, mal-qaranı oğurladılar. **Qoşun** hər cür nəzarətdən kənarda hərəkət edirdi. Onun vəzifəsi nicat vermək idi. Lakin o, qeyri-nizamilərin qarəti ilə məşğul olurdu, **arxasınca cənazələr və xarabalıqlar qoydu. Zindanlar günahsız azərbaycanlılarla dolduruldu»** *[221, 1354, №2, s.27].*

İngiltərənin böyük yazıçısı və ictimai xadimi Ceyms Oldric 1945-1946-cı illərdə Güney Azərbaycandakı azadlıq mücadiləsinin canlı şahidi olmuşdur. O, sonralar yazdığı «Diplomat» romanında 21 Azər nehzəti və Azərbaycan Milli Hökuməti dövründə Azərbaycan xalqının böyük dirçəlişindən ürək dolusu bəhs etdiyi kimi, şah ordusunun və onun yerlərdəki əlaltılarını demokratik qüvvələrə qarşı törətdikləri azğınlıq və cinayətləri də nifrətlə yad edir. Yazıçı-publisist Zeydulla Ağayev «Ədəbiyyat və incəsənət» qəzetində (02.09.1988) «Şərq ürəkli qərb oğlu» adlı məqaləsində yazır: «Ceyms Oldricin «Diplomat» romanı «belə bir inam aşılayır ki, Azərbaycan oğulları hər bir yeni döyüşə daha böyük cəsarətlə atılır, döyüşdən-döyüşə daha mətin və mübariz olurlar. Gec-tez qələbə bu xalqın tərəfində olacaqdır. Bu böyük inam hissi «Diplomat» romanının qayəsinə çevrilir».

Azərbaycanla bağladığı müqaviləni ayaqlar altında qoymuş Məmmədrza şah, Qəvamül-səltənə kabusu Azərbaycandakı demokratik hərəkatı qan dəryasında boğmaqla kifayətlənmədi. Hərəkatın süqutundan sonra 25 min nəfərdən çox insan məhv edilmiş – güllələnmiş, dar ağacına çəkilmiş, əzab və işgəncələrlə qətlə yetirilmişdi. Yüz minə qədər insan həbsə alınmış, sürgün edilmiş, minlərlə azadlıqsevər insan vətənini tərk etmək məcburiyyətində qalmışdı *[47, s.239-246]*. **Təbriz universitetinin, filarmoniyanın, milli teatrın, kitabxana və klubların qapısı qıfıllandı. Ana dilində tədris yenidən yasaq edildi, Azərbaycan dilindəki dərsliklərə, kitablara od vurulub yandırıldı. Səttərxanın, Bağır xanın heykəlləri dağıdıldı, onların adı küçə, xiyaban və elm-mədəniyyət ocaqlarından silindi. Azərbaycanlılara göz dağı verib onları həmişəlik mübarizədən çəkindirmək üçün say-seçmə oğulları: Firidun İbrahimi, M.Kəbiri,**

**M.Azadvətən, Ə.Əzimi, Ə.Fitrət, Q.Sübhi, Q.Cavidan, M.Ələm, Ə.Qəhrəmani, R.Yekani, Vəli Gənceyemehr** və yüzlərlə rəhbər xadimlər, fədai başçıları, azadlığın mücahidləri faciəli şəkildə qətlə yetirildilər.[1] Alçaqlıq o dərəcəyə çatdı ki, qadına – Şahsevənli qız Səriyyəyə – verilən sözə əməl etməyən cəlladlar əhd-peymanı qırmaqda öz ağaları Məhəmmədrza və Əhməd qəvam xislətində olduqlarını göstərdilər.

Şah qoşunu Təbrizə daxil olarkən qanlı olayların şahidi olmuş Mənuçör Əzizi öz xatirələrində yazır: «Şah ordusu Təbrizə daxil olduqdan sonra xiyabanlarda asılan, güllələnən, doğranılan fədailərdən, talan edilmiş, yandırılmış evlərdən, mədrəsələrimizdə ana dilimizdə yandırılmış kitablardan söz açarkən ürəyim partlamaq istəyir. Fikirləşirəm bu zülm cavabsız qalmayacaq...» («Ərməğan Azərbaycan», 1383 № 60, s.19).

Beləliklə, 1941-1946-cı illərdə Güney Azərbaycanda milli azadlıq və demokratiya uğrunda gedən xalq hərəkatı imperialist dövlətlərin şahlıq rejimini dəstəkləməsi və sovetlərin xəyanəti və bir sıra digər səbəblər üzündən növbəti dəfə məğlubiyyətə uğradı. 1905-1911-ci illər Səttərxanın başçılığı ilə olmuş Məşrutə hərəkatı, 1920-ci il Şeyx Məhəmməd Xiyabaninin adı ilə bağlı Xiyabani hərəkatı kimi 1945-1946-cı illərdəki 21 Azər hərəkatı süquta uğrasa da, o, sonrakı nəsillər üçün silinməz izlər qoymuş və ibrət dərsləri vermişdi. Ən başlıcası, **XX əsrdə Güney Azərbaycanda milli-demokratik hərəkatın zirvəsi sayılan 21 Azərin səpdiyi toxum Azərbaycan torpağındadır. Bu toxu-**

[1] Geniş məlumat üçün bax: Azadlıq yolunun mübarizələri «Azərbaycan» qəzetinin nəşri I, II, III cilddə. (1962, 1969,1970).

**mun göyərəcəyi, qol-budaq atacağı və son hesabda Azərbaycanı işıqlı, azad sabaha çatdıracağı şəksizdir.**

«Əgər Tehran xarici imperialistlərin göstərişi və köməyi ilə bizim hərəkatı məğlub etməyə müvəffəq olsa belə, xalqımızın haqqını əbədi olaraq qəsb edə bilməyəcəkdir. Tez-gec azərbaycanlılar öz istiqlaliyyətini alacaq, öz müqəddəratını özü təyin edəcəkdir».

## Nəticə əvəzi

1945-1946-cı illərdə Güney Azərbaycandakı milli demokratik hərəkat və məğlubiyyət səbəbləri haqda müxtəlif fikir, mülahizə və fərziyyələr mövcuddur. Yazılarda MH-in süqutu səbəblərinin sayı sadalanır. Bu səbəblər sırasında Tehranla bağlanılmış təslimçi xarakterli müqavilə, Zənganın Tehranın ixtiyarına verilməsi, fədailərin tərksilah edilməsi, qoşunun buraxılması və s. misal göstərilir. Bir çox müəlliflər sovetlərə həddən artıq inanmağı, onun «ipinin üstə odun yığmağı» və «dirijor ağacının» istiqaməti ilə hərəkət etməyə olan meyili məğlubiyyətə əsas və başlıca səbəb kimi göstərirlər. O faciəli tarixi olaylarda buyruğa qulaq asmağın könüllü olmamasına, təzyiq və zor işlətməsinə aid çoxlu faktlar mövcuddur. 1946-cı ilin aprelindən başlayaraq Azərbaycan Milli Hökumətinin özünümüdafiə və müstəqil hərəkət etmək imkanları xeyli məhdudlaşdı. O, faktik olaraq təkcə şah – Qəvam qüvvələri ilə hər tərəfdən bağlanmış deyil, eyni zamanda Sovet, ABŞ və İngiltərə tərəfindən məngənə arasına salınmışdır. İranda mənafeləri olan dövlətlər (SSRİ, ABŞ və İngiltərə) Azərbaycandakı hərəkatın yatırılmasında maraqlı idilər və bunda hər tərəfin öz payı var idi.

Bu mövzuda aparılan tədqiqatlarda, yazılarda, hərəkat iştirakçılarının xatirələrində belə bir fikir də səsləndirilir ki, məğlubiyyət ərəfəsində Azərbaycan Milli Hökuməti rəhbərliyi hər tərəfdən (başlıca olaraq sovetlər tərəfindən) «küncə» sıxışdırıldığından hərəkatı xilas etmək üçün onun imkanları, demək olar ki, tükənmişdir. Halbuki hərəkatın yüksəlişi dövründə bu imkanlar daha çox real idi. **Belə hesab edilir ki, İrandakı bütün demokratik və rejim əleyhinə olan qüvvələrlə birləşib Məm-**

**mədrza – Qəvam hökümətini devirməklə həm sovetləri və həm də şahın arxasında duranları olub, bitmiş fakt qarşısında qoymaq olardı.** Bu zaman hər hansı xarici yardıma bel bağlamaqdansa, müstəqilliyə yönəlmək gərək idi. Həmin dövrün siyasi durumuna aid gətirilən faktlar və olaylar şahənşah rejiminin Azərbaycan və İrandakı xalq hərəkatı qarşısında necə lərzəyə düşdüyünü aydın göstərir. Rejimə qarşı ümumiran miqyasında nifrət və qəzəbin coşduğu bir zamanda Iran xalqlarının yumruq kimi birləşməsi və rejimə qarşı vahid Cəbhə yaratması zəruri idi. Azərbaycan Milli Hökuməti rəhbərliyi, eləcə də İrandakı anti-rejim qüvvələr bu imkandan kifayət qədər istifadə edə bilməmişdi. S.C.Pişəvəri sonralar bunu Milli Hökumət rəhbərliyinin ciddi səhvi kimi səciyyələndirmişdi. **Şair Əli Tudə S.C.Pişəvəri haqda xatirələrində Bakıya gəldikdən sonra S.C.Pişəvərinin M.C. Bağırovla görüşdə dediklərini xatırladaraq yazır ki, M.C.Bağırov S.C.Pişəvəriyə «bizə yaxşı arxalana bilmədiyinizə görə hakimiyyəti əldən verdiniz» sözlərinə S.C.Pişəvəri: «Biz İran xalqlarına arxalanmalıydıq. Bu xalqların içərisində şah səltənətinin barışmaz düşməni olan farslar da, kürdlər də, türkmənlər də, giləklər də, talışlar da, ərəblər də, asyorular da var idi… şah qoşunlarının yüksək rütbəli zabitləri də var idi. Biz sizdən kömək gözləmirdik, siz bizim işimizə qarışmasaydız» [1, s.132].**

Azərbaycan özünün ağır günlərində İranın bütün bölgələrindəki demokratik və şahlığa qarşı olan qüvvələrin gücündən faydalana bilməmişdi. Bunun bir səbəbi Tehranda və digər əyalət mərkəzlərində İXP rəhbərlərinin bir çoxunun Azərbaycandakı hərəkata qısqanc münasibət bəsləməsi idisə, digər səbəb Azərbaycan Milli Hökumət rəhbərliyinin Azərbaycandan kənardakı

demokratik qüvvələrlə əlaqənin yetirincə qiymətləndirilməməsi, «Böyük qardaş» ətəyindən yapışmaqdansa, ölkədəki azadlıq istəyən qüvvələrə söykənmək gərək idi. Ölkədəki bütün milli və demokratik qüvvələrin düşmənə qarşı birləşməsi həm də o zaman real nəticə verə bilərdi ki, IXP rəhbərliyi ölkənin azadlığı məsələsini dünya kommunist hərəkatının (başlıca olaraq sovetlərin) mənafeyinə tabe etdirməyəydi. Iran sərhədləri daxilində Azərbaycanın azadlıq istəyinə, onun muxtariyyət hərəkatına İXP-sı rəhbərliyində müsbət yanaşılmaması Azərbaycanla İran xalqlarının vahid cəbhədə birləşməsinə böyük ziyan vurmuşdur. Bununla birlikdə sovetlərə söykənməkdə İXP-sı Azərbaycan rəhbərliyindən heç də geri qalmamışdı.

Tehrandakı azadxahlar Azərbaycan nehzəti rəhbərlərinə müraciətlə yazmışlar ki, «… Siz fəaliyyət dairənizi kiçik götürməyin. İranın da fikrində olun… Təkcə Azərbaycanın azad olması ilə kifayətlənməyin… Sizinlə bir yolda olan qardaşlarınızı da özünüzünkü hesab edin» [117, s.452].

Təəssüflə qeyd etməliyik ki, Azərbaycan Demokrat Firqəsi rəhbərliyi və həm də İran Xalq partiyası başlıca strategiyanı xüsusi ambisiyalara, xırda mübahəsələrə qurban vermişlər. Başlıca hədəfə çatmamış (rejimi devirməmiş) yol üstü narazılıq və çəkişmələr təkcə Azərbaycan üçün yox, bütün İran üçün ağır nəticələrlə qurtarmışdı.

Təbii olaraq belə bir cəhət hər birimizi düşündürür: xalqın istək, arzu və qüdrəti ilə yaranmış AMH necə oldu ki, asanlıqla, qısa zaman kəsiyində aradan aparıldı? O az-çox duruş gətirib, müqavimət göstərə bilməzdimi? Heç olmasa tədrici geri çəkilmə ilə yanaşı mübarizəni partizan formasına keçirə bilməzdimi? Yanıqlı ürəklərin hökmü ilə verilən bu səpkili suallar dolğun və

dəqiq cavab istəyir. Həm də bu suallar hər bir azadlıq yolçusunu geniş düşünməyə, buraxılmış səhvlərdən dərs almağa, əməli nəticələr çıxarmağa sövq edir.

Beləliklə, 1945-1946-cı illərdə Güney Azərbaycandakı hərəkat keçmişimizin iftixarları hadisəsi olmaqla, bu hərəkatın faciəli sonluğu bizə və İrandakı demokratik qüvvələrə acı ibrət dərsi olmalıdır. «Qonşuya ümid olan şamsız yatar» - atalar misalı bizə həmişə örnək olmalıdır. **Babamız Xiyabani xalqımıza müraciət ədərək demişdi ki, «…Sənin birinci yardımçın sən özünsən. Sən özün özünə nicat verəcəksən. Əgər keçmişinin cövhər və qanı damarlarından axırsa, sən öz qüdrətinlə o parlaq səhərə çatacaqsan».** Azərbaycan öz azadlığı və nicatı üçün hamıdan əvvəl, hər şeydən qabaq azadlığın təşnəsi olan millətinə, İrandakı demokratik qüvvələrə sökənməlidir. Başlıca hədəfə doğru hərəkatda milli qüvvələrin (bütün təbəqə və zümrələrin) vahid platformasını yaratmalıdır. Bununla birlikdə bilməliyik ki, yaşadığımız zəmanə qloballaşma və inteqrasiyalar dövrüdür. Dünyadan təcrid olunmuş halda yaşamaq bunlarla yanaşı kadrların ünkün deyildir. Beynəlxalq aləmin getdikcə mürəkkəbləşdiyi və qloballaşmanın dərinləşdiyi bir dövrdə kimə söykənməyin, kiminlə əməkdaşlıq etməyin düzgün müəyyənləşdirilməsi çox vacibdir. Milli Hökumətin süqutuna səbəb olan «dost» əli ilə pərdə dalındakı oyunlar, təmənnalı və məkrli «yardım»lar, ağır vaxtda səni meydanda tək qoyub kənara çəkilmə ilə kifayətlənməyib, səni açıq-aşkar faciəli məğlubiyyətə məcbur etmək bizim hər birimiz üçün həmişə yadda qalan ibrətli dərs olmalıdır. Bu ibrət dərsi həm də öyrədir ki, İran məkanı daxilində yaradılacaq vəhdət bir millətin başqası üzərində hegomonluğuna əsaslanmamalıdır.

Azərbaycan xalqının dərdlərinə şərik olan, onun milli varlığına aid bütün atributları qəbul edən və ona hörmət qail olan İrandakı bütün demokratik qüvvələrlə vəhdət yaratmaq, əlbir hərəkət etmək indiki milli oyanış çağında çox vacib məsələdir. Zülmkar rejimə qarşı İran xalqlarının həmrəyliyini, dostluq və qardaşlığını yaratmaq strateji hədəf olmalıdır. Bu hədəfə uğurla çatmaq üçün bütün milli və demokratik qüvvələrin arzu və tələbləri sözdə yox, əməldə nəzərə alınmalıdır.

21 Azərin bizə verdiyi dərslərdən biri də yerliçilik – «gəlmə», «yerli» anlayışına qarşı ardıcıl və ciddi mübarizə aparmağa ehtiyacın olmasıdır. Düşmənlərimiz həmişə bizi daxildən parçalamağı özləri üçün önəmli vasitə sayıblar. Azərbaycan Milli Hökumətinin süqutu ilə bağlı Tehran rejimi bu kartdan faydalanmağa çalışmışdır. Bütün bunlarla yanaşı kadrların düzgün, yerində və səviyyəsinə görə seçilməsi mühüm məsələlərdəndir. 21 Azər hərəkatında bu sahədə bir sıra hallarda əyinti və yanlışlara yol verilmişdir. «Sol»çuluğa, «mənəm-mənəmliyə» və «partizan»çılığa yol vermədən milli, dini və yerli xüsusiyyətləri nəzərə almaq, onlara hörmət qail olmaq milli dirçəliş hərəkatının müvəffəqiyyətlə irəliləməsi üçün vacib şərt olmuş və vacib şərt olaraq qalır.

21 Azər hərəkatı bütün cəhətləri ilə tədqiq və təhlil edildikdə onun XX əsrdə Güney Azərbaycanda baş verən xalq hərəkatı tarixində önəmli yer tutması və silinməz izlər qoyub getməsi danılmazdır. İndiki zamanda Güneydəki milli oyanış hərəkatında, demokratik hüquq və azadlıqlar uğrunda aparılan mübarizədə 21 Azər hərəkatının dərslərini-müsbət və mənfi cəhətlərini öyrənmək milli qüvvələr üçün, xüsusən yeni nəsil üçün çox vacib və aktualdır.

Yuxarıda nəticə əvəzi qeyd olunanlar nə ehkam, nə də direktiv sayılmamalıdır. Müəllifin subyektiv düşüncəsinə söyənən bu fikirlərin çoxu 21 Azər hərəkatının tədqiqi ilə bağlı ortaya çıxmışdır. Biz onları oxucu ilə bölüşdürmək, düşünmək, optimal çıxış yolunu arayıb axtarmaq məqsədi ilə qeyd etməyə ehtiyac duyduq. 21 Azər Hərəkatı ilə bağlı bu yazıda əsas məqsəd oxucunun diqqətini yaxın tarixi keçmişimizə bir daha yönəltmək, onun önəmli və çatışmayan cəhətlərini nəzərdən keçirmək idi. Əgər az da olsa buna müvəffəq ola bilsək, bu, müəllif üçün uğurlu addım sayıla bilər.

## 1945-1946-cı illərdə Güney Azərbaycandakı xalq hərəkatı ilə bağlı SƏNƏDLƏR

### 1. Böyük dövlətlərin Xarici İşlər Nazirlərinin Londondakı toplantısına Təbriz, 23 sentyabr 1945-ci il

*ABŞ Xarici İşlər naziri cənab Brenesə,*
*İngiltərə Xarici İşlər naziri cənab Büvenə,*
*Sovet İttifaqı Xarici İşlər naziri cənab Molotova,*
*Fransa Xarici İşlər naziri cənab Bidaya,*
*Çin Xarici İşlər naziri cənab Van-şiyə*

Böyük demokratik dövlətlər qanlı faşist üsul-idarəsini məhv etdikdən sonar, dünyanın çox məmləkətləri adilanə demokratik üsul-idarəsi yaratmışdır. Qabaqlarda zülm altında əzilən cahanın çoxlu qövm və millətləri tarixi Atlantik Mənşurinə (Xartiyasına) müvafiq olaraq öz müqəddaratlarını təyin etməyə başlamışdır.

Hər xalq öz milli mədəniyyətini, iqtisadiyyatını və güzəranını qaldırmaq üçün demokrasi rejimin nemətlərindən istifadə etmək istəyir. Mütəəssüfanə İranda günbəgün diktatorluq təhlükəsi artmaqda və faşist ünsürləri Rza şahın mənhus hakimiyyətindən sonra əldə edilən natamam azadlığı belə boğmaq üçün hər cür fitnələrə əl atmaqdadır. Həm əyalətlərdə və həm də paytaxtda azadxahlar təqib olunur. Demokratik hərəkatı təmsil edən ruznamələr (qəzetlər) və cəmiyyətlər silah gücü ilə dağıdılır. İrtica qüvvələri təzədən sabiq Rza şahın istibdad rejimini istəmək üçün İranın namuslu azadixahlarının qanını tökməkdən çəkinmirlər.

İranda beş milyon nüfusa malik olan biz azərbaycanlıların vəziyyəti daha təhəmmül edilməzdir. Azərbaycan milləti uzun illərdən bəri İrandakı azadlıq nehzətinin ələmdarı olmağına baxmayaraq öz torpaqlarında fəqir və biçarəlik halında, hər cür hüquqdan məhrum halda yaşamaqdadır. İranda bu vaxta qədər ağalıq edən irtica hakmiyyəti nəticəsində Azərbaycan milləti öz milli mədəniyyəti tərəqqisinə çalışmaq, xaraba şəhərlərini abadlaşdırmaq və xalqın fəlahət (kənd təsərrüfatı), behdaşt (səhiyyə) və sair ehtiyaclarını rəf etmək və hətta öz uşaqlarını ana dilində belə oxutmaq üçün heç haqq və ixtiyara malik deyildir. Dünyanın qədim xalqı olan və min illər ərzində böyük mədəniyyət və sənət əsərləri yaratmış Azərbaycan xalqı, indi istibdad və diktatorluğun aradan götürülməyə başlandığı bir zamanda öz hüquqlarını tələb edib və bu müqəddəs yolda mübarizəyə qalxmışlar.

Biz azərbaycanlılar Atlantik Mənşurunda göstərilən hər bir millətin öz müqəddaratını özü təyin etmək əqidəsinə dərin bir iman bəslədiyimizi və bu acı vəziyyətimizi böyük müttəfiq dövlətlərin təşkil verdiyi vəzirlər şurasına yetiririk.

Biz bütün İranda həqiqi demokrasi üsulun bərpasının və Azərbaycan xalqına daxili azadlıq və muxtariyyat verilməsini, ümummənləkətin adilanə qanunlarını gözləməklə bərabər, Azərbaycanın öz sərneviştini özü təyin etməsini istəyirik.

Biz böyük müttəfiq demokrasi dövlətlərin xalqımızın bu tarixi və adilanə tələbində bizə kömək etmələrini, beş milyondan artıq Azərbaycan xalqı adından tələb edirik.

Azərbaycan xalqı əmindir ki, bütün millətlərə və qövmlərə milli azadlıq və xilaskarlıq vəd etmiş böyük müttəfiq demokrasi

dövlətlər bizim də tələbimizi və təbii haqqımızı nəzərdə tutacaq və öz köməklərini bizdən əsirgəməyəcəklər.

Azərbaycan xalqı adından müraciəti 1500 nəfərdən çox xalq elçisi imzalamışdı.

«Qızıl səhifələr», Təbriz, 1324-cü il, s. 62-64

## 2. Azərbaycan Xalq konqresinin İran hökumətinə müraciəti

*İranın şahənşahının xidmətinə,*
*İran Milli Şura Məclisinin rəisi*
*Məhəmməd Təbatəbaiyə,*
*Baş nazir ağaye İbrahim Həkimiyə.*

Bu il Aban ayının 29-30-da (1945-ci il noyabrın 21-22-də) Təbriz şəhərinin Şir-Xorşid salonunda 150000 nəfərin imzası ilə Ümumazərbaycan şəhər və hövmələrindən (bölgələrindən) toplanan ümum mitinqlər tərəfindən seçilmiş yeddi yüz nəfər nümayəndənin şirkəti ilə təşkil tapan Böyük Xalq Konqresi özünün 4-cü iclasında ittifaq ara ilə (səs çoxluğu ilə) öz tələbatının əsas məsələlərini aşağıdakı maddələrdə qeyd olunan elamiyyə vasitəsilə İranın mərkəzi hökumətinə bildirməyi qərara aldı:

1. Azərbaycan xalqı burada yazılmasına yer olmayan saysız-hesabsız tarixi səbəblər və hadisələrə görə özünəməxsus milliyyət, dil, ədəb və rüsum və sair xüsusiyyətə malikdir. Bu xüsusiyyət ona haqq verir ki, İranın istiqlaliyyət və tamamiyyətinə müraət etməklə bərabər, bütün dünya münasibətləri kimi Atlantik Elamiyyəsi mocibincə öz müqəddaratını təyin etmək üçün azad və muxtar olsun.

2. Konqres Azərbaycan xalqının İranın başqa əyalət və vilayətləri ilə olan mədəni, iqtisadi və siyasi rabitəsini nəzərə almaq ilə bərabər bu xalqın indiki İran dövlətinin təsisi haqqında göstərdiyi fədakarlıqları (vaqiən indiki İran dövləti Azərbaycanlılar vasitəsilə təsis olunmuşdur) nəzərə alıb heç cürə hazır deyil, onun məşrut və qanuni təqazalarını ki, milli muxtariyyatdan ibarətdir, İranın mərzlərinə (sərhədlərinə) xələl gətirib onun təcziyəsi üzərində qərar versin.

3. Azərbaycan xalqı var qüvvəsi ilə İranda məşrutə şəkli almış demokrasi üsulunun tərəfdarıdır. Azərbaycan milləti İranın tamam əyalət və vilayətləri kimi İranın Məclisi Şurası məclisinə nümayəndə göndərəcək və adilanə maliyyat verməkdə şirkət edəcəkdir.

4. Azərbaycan xalqı rəsmən və ələni elan edir ki, bütün dünyanın diri millətləri kimi (İranın tamamiyyət və istiqlalını gözləməklə) özünün daxili işlərini idarə etməkdə özü milli hökumət yaratmağa haqlıdır və o, bacarıb İranın istiqlal və tamamiyyətini müraət etməklə Azərbaycan demokrasi və hakimiyyətə milli üsulu ilə idarə edə bilər.

5. Azərbaycan xalqı azadlıq və demokratlıq yolunda böyük zəhmətlər çəkib, çoxlu qurbanlar verməyinə görə istəyir özünün muxtar hökumətini həqiqi demokratik əsası üstündə qursun. Buna görə konqres tərəfindən təsvib olunmuş daxili nizamnamə üstündə özünün Məclis Millisini intixab edib lazım görür Azərbaycanın milli və daxili hökuməti bu məclisin nümayəndələrinin arasından intixab olub onun qabağında məsul olsun.

6. Azərbaycan xalqının öz milli ana dilinə əlaqəsi vardır. Özgə dilinin təhmili onu tərəqqi və təməddün karvanından dala salmış və onun milli fərhəng və maarifinin yolunu bağlamışdır.

Buna rəva təhmilin qabağını almaq və Azərbaycanın tərəqqisinə lazım gələn bütün vəsilələri vücuda gətirmək üçün Azərbaycan xalqının milli konqresi heyəte milliyə dəstur verir, çox tez bir zamanda Azərbaycan dilini bütün dövlət idarələrində mürəssum və onun tədrisini tamam mədrəsələrdə (dövləti və milli) əməli etsin.

7. Yüz əlli min nəfərin imzası və yeddi yüz nəfər nümayəndənin iştirakı ilə təşkil tapan milli konqrə Azərbaycan millətinin iradəsi ilə özünü Müəsislər Məclisi elan edib Azərbaycanın daxili işlərini idarə etmək üçün onun doqquz nəfərdən ibarət bir milli heyət intixab edib onlara ixtiyar verir, milli istəklərini əməli etmək üçün lazımi tədbirlər görüb səlahiyyətdar məqamat ilə müzakirəyə girişsinlər. Eyni zamanda Azərbaycan Məclis Millisini və həmçinin Məclis Şuraye Milli intixabını icra eləsinlər.

Axırda konqrə İran dövlətinin və dünyanın böyük demokratik dövlətlərinin diqqətini yuxarıda yazılanlara cəlb edib izhar edirlər ki, bu mütalibin icrası üçün fəqət təbliğ və təşkil vasitəsi ilə iqdam edib nəzaı daxili və qardaş qanı tökməyə icazə verməyəcək. Vəli əgər mərkəzi dövlət istərsə, onun qanuni silah gücü və qəhro-qələbə ilə ortadan aparsın o vaxt naçar hər qiymətə olur-olsun öz hüququndan müdafiə edəcək və ta bir nəfər azərbaycanlı qalanadək, öz milli muxtariyyatı yolunda mübarizə aparacaqdır.

Məclis Müəssisan (Konqre-ye Milli) heyət milliyə ixtiyar verir Azərbaycanın muxtariyyatını təmin etmək üçün səlahiyyətdar məqamət ilə əlaqəyə girsin. Məsələni sülh və müsalimət yolu ilə həll etsin. Vəli heyəte milli, heç vəchlə Azərbaycanın muxtariyyatı və milli hökuməti haqqında sərfnəzər etmək və İranın tamamiyyət və istiqlalını pozmaq ixtiyarına malik deyildir.

Biz arzu edirik bütün demokrasi aləm bilsin ki, dünyada bir millət vardır hazır olub özünün var qüvvəsi ilə öz hüququndan müdafiə edib Asiyanın bir guşəsində azadlıq və demokratlıq bayrağını qalxızıb, istəyir fəqət öz köməyi ilə özünün azadlığını təmin etsin.

Ümid edirik, İranın səlahiyyətdar məqamatı və böyük demokratik dövlətlər bizim milli mənzurumuzun icrası üçün növ pərvanə köməklərdən ki, Mənşur Atlantik onun əsası üzərində qoyulmuşdur müzaiqə etməyəcəklər.

Etiramat faiqilə (Milli Konqrənin) Məclis müəsisan milli rəyasət heyəti.

**«Azərbaycan» qəzeti, 1 Azər 1325, Təbriz**

## AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN BAŞÇISI S.C.PİŞƏVƏRİNİN BMT BAŞ ASSAMBLEYASINA MÜRACİƏTİ

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün zəngin milli tarixinə malikdir. Əsrlərin keşməkeşində o, öz milli dilini, adət və ənənələrini qoruyub saxlaya bilmişdir.

İran zülmkarları Azərbaycanı öz hakimiyyətləri altına alaraq, onun sərvətini amansızcasına taladılar. Nəticədə Azərbaycanın çiçəklənən kənd və şəhərləri dağılmaq həddinə gəlib çatdı.

Şovinist böyük dövlətçilik siyasəti yürüdən İran hökmdarları azərbaycanlıların mövcudluğunu tamamilə inkar etməyə cəhd göstərir, onların dilini əlindən almaqdan, hər cür təhqiredici əməllərdən çəkinmirdi.

Buna baxmayaraq, Azərbaycan xalqı bir gün də olsun, öz azadlığı uğrunda mübarizəsini dayandırmadı. Azərbaycanlıların öz milli azadlıqları uğrunda mübarizəsinin ən parlaq nümunəsi Səttarxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabani və başqalarının hərəkatıdır. Bu cəsur insanlar mübarizənin başçıları, həm də şəhidləri idi.

Qanlı faşizmin üzərində demokratik dövlətlərin qələbəsi Azərbaycan xalqının mübarizəsinə yeni təkan verdi, yeni şərait yaratdı.

Tehran hökumətinin müqavimətinə baxmayaraq bu ilin 21 Azərində (12 dekabr) Azərbaycan xalqının əsrlərdən bəri apardığı mübarizəsi qələbə ilə başa çatdı, Atlantik Xartiyasına uyğun olaraq Milli Məclisin, Azərbaycan Milli Hökumətinin qurulması ilə nəticələndi.

Azərbaycanda demokratik əsaslara dayanan bir Milli Hökumət qurulub və öz fəaliyyəti barədə bütün dünyaya məlumat yayıb.

5 milyonluq Azərbaycan xalqı milli dilinin, tarixinin, mədəniyyətinin köməyi ilə özünün müasir bir xalq olduğunu dərk etdi və bir də heç vaxt fars zülmünün altında inləməyə, fars dilinin Irandakı başqa xalqların dilləri üzərində ağalıqlarına icazə verməyəcəkdi.

Bu xalq bir nəfər kimi öz həyatını milli azadlığına və dövlətinə qurban verməyə hazırdır.

Yeni Milli Hökumətin fəaliyyəti sayəsində əsrlərlə istismar olunan xalq adi insani şəraitdə yaşamağa başlayıb. Bununla da o, öz milli dövlətini qurmağa, onu idarə etməyə qadir olduğunu göstərir.

Azərbaycan xalqının iradəsi ilə Atlantik Xartiyasına, yəni böyük demokratik dövlətlərin vədlərinə uyğun olaraq qurulan Azərbaycan Milli Hökuməti artıq danılmaz faktdır.

BMT Baş Assambleyasına müraciəti ilə Azərbaycan xalqı xahiş edir ki, Azərbaycan Milli Hökumətinin mövcudluğu faktı tanınsın və kənardan müdaxilə olmadan, ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin.

**Təbriz, 28 yanvar, 1946-cı il**

# AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN FƏALİYYƏT PROQRAMI

Azərbaycan Milli Nazirlər Kabineti, Azərbaycan xalqının illər boyu arzu etdiyi milli muxtariyyətini vücuda gətirmək və bu vasitə ilə Azərbaycan xalqının milli ehtiyaclarını həll edib onu inkişaf və təkamülə sövq etmək üçün aşağıdakı vəzifələri özünün yaxın hədəfi və proqramı təyin edir.

1. Milli muxtariyyətimizi dünyaya tanıtmaq, onun davam və bəqasını təmin etmək üçün ciddi tədbirlər görüb, səlahiyyətdar məqamat ilə müzakirəyə girişmək, İranın istiqlal və ərazi bütövlüyünə xələl gətirmədən milli dövlətimizi demokratik əsaslar üzrə qurmaq və bu yolda qabağa çıxa bilən çətinlikləri aradan qaldırmaq.

2. Milli muxtariyyətimizi möhkəm əsaslar üzrə qurub, onu xalqa yaxınlaşdırmaq məqsədi ilə çox tez bir surətdə vilayət əncümənlərinin seçkilərinə başlamaq və yerli idarələrin nəzarətini onların ixtiyarına vermək.

3. Şəhərlərimizin abadlığı üçün yubadılmadan şəhər əncümənlərini, demokratik əsaslar üzrə seçib, onların işlərini düzgün bir surətdə cərəyana salmaq.

4. Yerlərdə sağlam azadlıqsevər adamlardan rayon və qəsəbə başçıları seçib, onların vasitəsi ilə keçmiş zalımcasına hərəkətlər və xalqı təhqir edici əməllərin qarşısını alıb, bütün ölkədə təhlükəsizlik və asayişi təmin etmək.

5. Jandarm və polis idarələrini xain və xalqı əzib fəlakətə sövq edən şəxslərin əlindən çıxarıb, azadlıqsevər və vətənsevər şəxslərə tapşırmaq və onların işlərini xalqın arzu və ehtiyaclarına mütənasib bir hala salmaq.

6. Vergi qanunlarını nəzərdən keçirmək və maliyyə idarəsinin gəlir və xərclərini təftiş etdikdən sonra, çox tez bir surətdə milli büdcə layihəsini Milli Məclisə təqdim etmək. Ümumiyyətlə mali siyasətin gəlir və xərclərin əsasını məmləkətin inkişaf və təkamülü üzərində qurmaq.

7. Muxtariyyətimizi, Milli Məclisimizi və Milli Dövlətimizi qurmaq və onun gələcəyini təmin etmək üçün kəndlərdə və şəhərlərdə yaranmış fədai dəstələrini bir mərkəz ətrafında mərkəzləşdirmək, milli xalq qoşunu yaratmaq və bu qoşunun silah və tənzimatını müasir hala salmaq məqsədi ilə ciddi tədbirlər görmək.

8. Mədəniyyət və maarif sahəsində dövlətimizin qabağında iki böyük məsələ durur. Birincisi öz milli dilimizi bütün məktəblərdə rəsmi olaraq qəbul və icra etmək, ikincisi isə ümumiyyətlə savadsızlığa qarşı mübarizə aparmaq, pulsuz və icbari təhsili milli yoluna qoymaq. Bunların hamısından çox, Milli Hökumətimizin ali təhsil məsələsinə əhəmiyyət verib, milli universitet əsasını qurmağa çalışmalıdır.

9. Ticarət və iqtisad sahəsində Milli Hökumətimiz birinci növbədə milli sənayemizə əhəmiyyət verib, mövcud zavodları düzgün yoluna qoyacaq. İkinci növbədə də yeni zavodlar açmaqla, məmləkətin sənayesinə olan ehtiyaclarını təmin edəcəkdir. Ticarət sahəsində dövlətimiz Azərbaycanın ticarət mərkəzi ola bilməsi üçün tədbirlər görəcək və yollar arayacaqdır.

10. Yolların təmir və çəkilməsi də, poçt, teleqraf və telefon kimi əlaqə vəsaitinin genişləndirilib, müasir hala salınması hökumətimizin əsas vəzifələrindəndir.

11. Kəndli ilə ərbablar arasında yaranan münaqişələri aradan qaldırmaq üçün qarşılıqlı razılıq şərti ilə, ciddi qanun layihəsi

tərtib edib, bu yol ilə kəndli və ərbab məsələsini həll və təsdiq etmək.

12. Kəndlərdə və şəhərlərdə gündən-günə artmaqda olan işsizliyin qarşısını almaq üçün dövlət torpaqlarını tezliklə əkinçilər arasında bölüşdürmək. Həmçinin Azərbaycanı tərk edib onun xaricində milli muxtariyyətimiz əleyhinə təbliğat aparanların da yerlərini zəbt edib kəndlilərin ixtiyarına qoymaq ilə torpaqsız kəndlilər ayaqlandırılmalıdır. Bundan əlavə xalqımızın əksəriyyətini kəndlilər təşkil etdiyi üçün gələcəkdə Aqrar Bankı elə bir surətdə gücləndirmək lazımdır ki, kəndliyə kredit verməklə torpaq məsələsini həll etsin və ərbablar öz istək və rəğbətləri ilə torpaqları kəndlilərə adilanə qiymətə sata bilsinlər.

13. İşsizliklə ciddi mübarizə etmək üçün ciddi tədbirlər görmək, əl sənayesi, yol işləri, zavodların təsisi, əkinçilik və ticarətin artması vəsaitindən ciddi surətdə istifadə etməyi lazım görür.

14. Fəhlə və zəhmətkeşin məişətini düzgün yola qoymaq üçün iş və əmək qanun layihəsini hazırlayıb Məclisə təqdim etməli və eyni zamanda işçilərin sığorta edilməsini icbari etmək üçün tədbirlər görməlidir.

15. Səhiyyə işinə diqqət yetirib birinci növbədə ümumi və keçici xəstəliklərin qarşısının alınması və xüsusilə kəndlərdə və aşağı sinifə mənsub əhaliyə həkim və dərman çatdırmaqla xalqın səhiyyəsini təmin etməlidir.

16. Milli Şura Məclisi tərəfindən bu ana qədər qərara alınmış qanunları, Azərbaycan xalqının həyatına və milli muxtariyyətinə münasib bir surətdə islah edib təzə faydalı layihələr təqdim etmək.

17. Xüsusi mülkiyyət haqqında Azərbaycan Milli Hökuməti,

məmləkətin bütün sahələri üçün xüsusi mülkiyyəti qəbul edib, məmləkətin və xalq iqtisadiyyatının inkişafına və xalqın vəziyyətinin yaxşılaşmasına səbəb olan hər növ xüsusi hərəkətlərə kömək edəcəkdir.

18. Azərbaycan Milli Hökuməti, ölkədə yaşayan ümuməhalinin vicdan və inam azadlığına ehtiram edəcəkdir.

19. Azərbaycan Milli Hökuməti, Azərbaycanlılarla birlikdə Azərbaycanda yaşayan bütün vətəndaşları xüsusi ilə kürdlər və başqalarını hüquq və qanun qarşısında eyni hesab edir.

20. Azərbaycan Milli Hökuməti, mərkəzi İran hakimiyyətini tanımaqla yanaşı bu hökumətin Azərbaycanın muxtariyyətinə müxalif olmayan, Azərbaycan xalqının təsisçilər Məclisi və Azərbaycan Məclisinin müraciətnamə və qərarlarında qeyd olunan milli hüquq tələblərinə zidd olmayan tədbirləri həyata keçirəcəkdir.

Proqramın ətrafında geniş surətdə müzakirə etdikdən sonra səsə qoyulub, Azərbaycan Milli Hökumətinin proqramı səs çoxluğu ilə qəbul olundu.

## AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN DİL HAQQINDA QƏRARI

Xalqımızı dövlət aparatına yaxınlaşdırmaq və ümum əhalinin ehtiyaclarını sadə bir surətdə anlamaq və həmçinin milli dili və milli mədəniyyətimizin inkişaf və təkamül yollarını təmizləmək üçün Azərbaycan Milli Hökuməti özünün 6 Yanvar (1945-ci il) tarixli iclasında aşağıdakı qərarları qəbul etmişdir.

1-Bu gündən etibarən Azərbaycanda, Azərbaycan (türkcəsi) dili rəsmi dövlət dili hesab olunur. Dövlətin qərarları və rəsmi elanlar, həmçinin xalq qoşunları hissələrinə verilən əmrlər və qanun layihələri mütləq Azərbaycan dilində yazılmalıdır.

2-Bütün idarələr (dövləti, milli, ticari və ictimai) öz işlərini Azərbaycan dilində yazmağa məcburdular. Bu dildə yazılmayan dəftərlər və sənədlər rəsmi hesab olunmayacaqdır.

3-Məhkəmələrdə işlərin baxılması tamamilə Azərbaycan dilində aparılmalı və bu dili bilməyənlər üçün tərcüməçi təyin olunmalıdır.

4-Azərbaycanın bütün idarə, müəssisə və ticarət məkanlarında tablolar mütləq Azərbaycan dilində yazılmalıdır.

5-Rəsmi iclaslar, yığıncaqlar, nitq və müzakirələr Azərbaycan dilində olmalıdır.

6-Azərbaycanlı olmayıb başqa dil ilə danışanlar və ümumi dövlət idarələrində xidmət edənlər Azərbaycan dilində yazıb-oxumağı və danışmağı öyrənməlidirlər.

7-Maarif Nazirliyinin idarə işçilərini Azərbaycan dili ilə tanış etmək məqsədi ilə ayrı dillərdən savayı, onlar üçün idarələrin nəzdində yaşlılara məxsus kurslar açılmalıdır. Bu kurslarda iştirak edənlərin iş müddəti bir saat az olmalıdır.

8- Azərbaycanda yaşayan başqa millətlər öz işlərini öz ana dillərində aparmağa haqlıdırlar. Lakin onlar öz rəsmi elanları və yazılarında öz milli dilləri ilə yanaşı Azərbaycan dilini, rəsmi dövlət dili olaraq, işlətməlidirlər.

9- Azərbaycanda yaşayan azlıqlara xüsusi milli məktəblərindəki təhsil öz ana dillərində olduğu halda, Azərbaycan dilinin də tədrisi məcburidir.

10-Azərbaycan Milli Hökuməti Maarif Nazirinin məktəblərdə dərslərin Azərbaycan dilində olması haqqındakı qərarını qəbul və təsdiq edib, məktəblərin milli dilə keçməsini bütün müəllim və müəllimələrə bir milli vəzifə kimi tapşırır.

***Azərbaycan Milli Dövlətinin Baş Naziri, Pişəvəri***

# SOVET DÖVLƏTİNİN BAŞÇISI İ.STALİNİN AZƏRBAYCAN DEMOKRAT FİRQƏSİNİN LİDERİ SEYİD CƏFƏR PİŞƏVƏRİYƏ ŞƏXSİ MƏKTUBU

***Pişəvəri yoldaşa***

Mənə elə gəlir ki, Siz İran daxilində, həm də beynəlxalq nöqteyi-nəzərdən yaranmış vəziyyəti düzgün qiymətləndirmirsiniz.

Birincisi, Siz hazırda Azərbaycanın bütün inqilabi tələblərinə nail olmaq istəyirsiniz. Lakin indiki şərait belə bir proqramın həyata keçirilməsi imkanını istisna edir. Lenin praktiki tələblər kimi, qeyd edirəm, praktiki tələblər kimi əsas inqilabi tələbləri yalnız xarici düşmənlə uğursuz müharibənin dərinləşdirildiyi ölkə daxilində, güclü inqilabi böhranın olduğu bir şəraitdə irəli sürmüşdü. 1905-ci ildə Yaponiya ilə uğursuz müharibə zamanı belə olmuşdu. 1917-ci ildə Almaniya ilə uğursuz müharibə zamanı belə olmuşdu. Siz indiki halda Lenini təqlid etmək istəyirsiniz. Bu çox yaxşı və tərifə layiqdir. Ancaq İranda vəziyyət hazırda tamamilə başqadır. İranda hazırda dərin inqilabi böhran yoxdur. İranda fəhlələr azsaylıdır, onlar pis təşkil olunmuşlar. İran kəndliləri hələlik ciddi fəallıq göstərmirlər. İran hazırda xarici düşmənlə müharibə aparmır. Belə bir müharibədə məğlubiyyət isə İranın irticaçı dairələrini zəiflədə bilərdi. Deməli, İranda belə bir şərait yoxdur ki, Leninin 1905-1917-ci illərdəki taktikasını yürütməyə imkan versin.

Ikincisi, əlbəttə, Siz Sovet qoşunlarının İranda qalmaqda davam edəcəyi təqdirdə Azərbaycan xalqının inqilabi tələbləri uğrunda mübarizə işində uğur qazanmağa ümid ola bilərdiniz. Lakin biz onları daha İranda saxlaya bilmirik, başlıca olaraq ona görə ki, sovet qoşunlarının İranda olması Avropa və Asiyada

bizim xilaskarlıq siyasətimizin əsaslarını sarsıdır. İngilislər və amerikalılar bizə deyirlər ki, əgər Sovet qoşunları İranda qala bilirsə, onda nəyə görə ingilis qoşunları Misir, Suriya, İndoneziya və Yunanıstanda, həmçinin Amerika qoşunları Çin, İslandiya və Danimarkada qalmasın. Buna görə də biz İran və Çindən qoşunları çıxarmaq qərarına gəlmişik ki, ingilislərin və amerikalıların əlindən bu silahı qoparıb alaq, müstəmləkələrdə azadlıq hərəkatını genişləndirmək və bununla da öz xilaskarlıq siyasətimizi daha əsaslı və faydalı edək. Siz bir inqilabçı kimi, əlbəttə, başa düşürsünüz ki, biz başqa cür hərəkət edə bilmərik.

Üçüncüsü, deyilənləri nəzərə alaraq, İrandakı vəziyyətlə bağlı aşağıdakı nəticələrə gəlmək olar: İranda inqilabi böhran yoxdur, İranda xarici düşmənlərlə müharibə vəziyyəti yoxdur, deməli, irticanı zəiflədə və böhranı kəskinləşdirə bilən müharibədə uğursuzluq da yoxdur. Nə qədər ki, sovet qoşunları İranda yerləşib, Siz Azərbaycanda mübarizəni genişləndirmək və daha irəli gedən tələblərə geniş demokratik hərəkatı təşkil etmək imkanına maliksiniz. Ancaq bizim qoşunlar getməlidirlər və İrandan çıxıb getdilər. Biz artıq İranda nəyə malikik? Biz İranda Qəvam hökumətinin İranın daha irticaçı ünsürlərini təmsil edən anqlofil dairələrlə münaqişəsinə malikik. Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, o, indi özünümüdafiə mənafeyinə və öz hökumətinin müdafiəsi naminə bəzi demokratik islahatlara getməyə və İranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur. Belə bir şəraitdə bizim taktikamız necə olmalıdır? Mən fikirləşirəm ki, Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, anqlofilləri təcrid etmək və bununla da İranın daha da demokratikləşməsi üçün müəyyən bazis yaratmalıyıq. Bizim sizə

bütün məsləhətlərimiz məhz belə bir vəziyyətdən irəli gəlir. Əlbəttə, başqa taktika da qəbul etmək olar: hər şeyə tüpürmək, Qəvamla əlaqələri kəsmək və bununla da anqlofil irticaçıların qələbəsini təmin etmək olar . Amma bu, taktika deyil, axmaqlıq olardı. Bu, mahiyyətcə Azərbaycan xalqının işinə və İran demokratiyasına xəyanət olardı.

Dördüncüsü, bizə məlum olduğuna görə, Siz demişsiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik. Əgər bu doğrudursa, onda bu bizdə təəccüb doğurur. Əslində isə nə baş vermişdir? Biz burada hər bir inqilabçıya məlum olan adi inqilabi fənd tətbiq etmişik. İrandakı şərait kimi belə bir vəziyyətdə özümüz üçün hərəkatın məlum minimum tələbini əldə etməyi təmin etməkdən ötrü hərəkatı irəli qaçırmaq, minimum tələblərdən irəli getmək və hökumət üçün təhlükə yaratmaq, hökumət tərəfindən ediləcək güzəştlər üçün imkan yaratmaq lazımdır. Daha irəli qaçmadan, Siz İranın indiki vəziyyətində hazırda Qəvam hökumətinin getməyə vadar olduğu tələblərə nail olmaq imkanına malik ola bilməzdiniz. Inqilabi hərəkatların qanunu belədir. Sizin üçün hər hansı bir rüsvayçılıqdan söz ola bilməz. Çox qəribədir ki, əgər Siz fikirləşirsiniz ki, biz Sizin rüsvayçılığınıza yol verə bildik. Əksinə, əgər Siz özünüzü ağıllı aparsanız və bizim mənəvi köməyimiz sayəsində əsasən Azərbaycanın indiki faktiki vəziyyətinin leqallaşdırdığı tələblərə nail olsanız, o vaxt Sizə Orta Şərqdə mütərəqqi demkoratik hərəkatın pioneri kimi azərbaycanlılar da, İran da xeyir-dua verər.

**İ.Stalin**

*8 may 1946-cı il*

## Azərbaycan Milli Hökuməti ilə Qəvamül-səltənə dövləti arasında qərardadın (müqavilənin) mətni

«Dövlət və Azərbaycanın nümayəndələri arasınada olan müzakirənin davamında və dövlətin 22 aprel 1946-cı il (2 Ordibeheşt 1325) tarixli 7 maddədən ibarət və həmin nümayəndələr tərəfindən qəbul edilmiş əmri nəzərə almaq və təbadüli-əfkar (fikir mübadiləsi) nəticəsində təvafüq (razılaşma) əldə oldu ki, aşağıdakı maddələr izah və mükəmməl növ ilə tənzim olunub və icraya qoyulsun.

**«1-ci Maddə:** Dövlət bildirişinin 1-ci Maddəsi barəsində razılaşma hasil oldu ki, bu cümlə ona artırılsın: «Maliyə rəisi də Əyaləti əncümənin təklifi və dövlətin təklifi ilə təyin olacaqdır.»

**«2-ci Maddə:** Dövlət bildirişinin 2-ci Maddəsində təyin olmuşdur, vali əncümən əyalətinin nəzərini cəlb etmək şərtilə dövlət tərəfindən təyin olacaqdır. Bu əsrin icrası üçün razılaşma əldə oldu ki, Vizarəti-Keşvər valini Əyaləti Əncümənin təklif etdiyi neçə nəfərin arasından seçib və qərar alınması üçün dövlətə təklif etsin.»

**«3-cü Maddə:** Azərbaycanda olan son dəyişiklikləri nəzərə alaraq dövlət indiki Milli Məclisi Əyaləti Əncümən qismində tanıyacaqdır. 15-ci məclis təşkil olunub dövlət tərəfindən təklif olunan yeni Əyaləti və Vilayət Əncümən qanunu qərara alındıqdan sonra Azərbaycan Əyaləti Əncümənin seçilməsi təsvib olunmuş qanun üzrə tezliklə başlanacaqdır.»

**«4-cü Maddə:** Azərbaycanın təhəvvülü və hərəkatı nəticəsində əsgərlik şəxslərindən çağırılan qoşun ki, bu qərardadın imzası ilə İran qoşunu cüzvündə olur və bu qoşun və komandirlərin vəziyyətini təyin etməkdən ötrü müvafiqət hasil oldu cənab

Qəvamül-Səltənə Dövləti və Azərbaycan Əyaləti Əncüməni təmsilçilərindən ibarət bir komisiyon təşkil olunub və bu komisiyon məsələni həll etmək yolunu tezliklə qərara alınmaqdan ötrü təklif etsin.»

**«5-ci Maddə:** Razılaşma əldə oldu ki, Azərbaycanın aidatından yüzdə %75 faizi məhəlli xərclər üçün təxsis verilib və yüzdə %25 faizi də İran məmləkətinin ümumi xərcləri üçün mərkəzə göndərilsin.»

**«Qeyd (1)** – Poçt və teleqraf, gömrük və dəmir yol və Urmiyyə Dənizinin gəmiçilik xərcləri üçün mərkəzə göndərilsin.»

**«Qeyd (2)** – əsas şosə yollarının tikilməsi və təmiri dövlətin və fərdi və məhəlli yolların salınması və təmiri isə Əyaləti Əncümənin öhdəsində olur.»

**«Qeyd (3)** – Azərbaycan əhalisinin İran Məşrutiyyətinə etdiyi görkəmli xidmətlərdən, azadlıq və demokratiyanın hakim olması yolunda Azərbaycan xalqının göstərdiyi fədakarlıqlara dəyər vermək məqsədilə dövlət qəbul edir ki, Azərbaycan gömrük aidatının %5 faizi Azərbaycan Universitetinin ehtiyaclarına sərf edilsin.»

**«6-cı Maddə:** dövlət qəbul edir ki, Miyana ilə Təbriz arasında olan dəmir yolunun çəkilməsinə tezliklə başlayıb və sürətlə yerinə yetirsin, aydındır ki, bu işdə Azərbaycan fəhlələri və mütəxəssisləri üstün tutulacaqdır.»

**«7-ci Maddə:** əsgərlikdən başqa fədai adıyla təşkil olunan könüllü qoşunlar hərbi hissəyə çevrilirlər və bu hüquq mühafizə qüvvələrin vəziyyətini təyin etmək və həmçinin onun komandirlərinin təyini üçün razılaşma əldə oldu ki, cənab Qəvamül-Səltənə Dövləti və Azərbaycan Əyaləti Əncüməni təmsilçi-

lərindən bir komisiya məhəldə təşkil olunub və tezliklə bu məsələnin həlli yolunu qərara almaqdan ötrü təklif etsin.»

**«Qeyd (1)** – çün son illərdə bəzi münasib olmayan əməllər nəticəsində əmniyə və jandarma adı İranın əfkari-ümumi qarşısında xüsusilə Azərbaycanda müxalif və münasib olmayan hissiyyat yaradır və çün son vaxtlarda dövlət rəisi xüsusən bu təşkilatın komandanlığını öhdəsinə alıb və bu idarədə reformlar və saleh olmayan şəxslərin çıxarılması gözlənilir, buna görə razılaşma olundu ki, jandarmaya qarşı ümumi hissiyyat xüsusilə Azərbaycan əhalisinin hissiyyatı dövlət rəisinə yetirilsin ki, bu təşkilatın adını dəyişmək və onun üçün münasib bir ad seçmək üçün lazımı qərarlar alsınlar.»

**«8-ci Maddə:** Azərbaycan demokrat hərəkatının nəticəsində kəndçilər arasında bölünən yerlərin xüsusilə də o qismi ki, dövləti əkin torpaqlarına aiddir, dövlət məmləkətdə olan bütün əkin torpaqlarını kəndçilər arasında bölünməsilə prinsipcə müvafiq olduğu üçün bu işin icrasını mümkün bilir və bu məsələyə aid olan layihəni birinci fürsətdə qərara alınmaqdan ötrü Milli Şura Məclisinə təklif edəcəkdir. Azərbaycanın son dəyişiklikləri nəticəsində kəndçilər arasında bölünən başqa yerlər barəsində razılaşma əldə oldu ki, maliklərin ziyanlarını konpensasiya etmək və ya onların əmlakını dəyişdirilməsindən ötrü cənab Qəvamül-Səltənə Dövləti və Azərbaycan Əyaləti Əncüməni təmsilçilərindən komisiya təşkil olunub və bu komisiya məsələnin həlli yolunu qərara almaq üçün təklif etsin.»

**«9-cu Maddə:** dövlət razılaşır ki, 15-ci məclis açılan kimi azadlıq və demokratiya üsulu üzrə yəni ümumi, gizli, birbaşa, mütənasib, bərabər və qadınlar da şamil olmaq şərtilə tənzim olunan seçkilər qanunu layihəsini məclisə təqdim edib və onun

qərara alınmasını tezliklə istəsin və həmçinin dövlət qəbul edir ki, Azərbaycan və ölkənin başqa nöqtələri deputatlarının sayını əhalisinin nisbətilə artırmaqdan ötrü 15-ci məclis açılan günü qanuni layihəni təklif edib və 2 foriyyətlə onun qərar alınmasını istəsin ki, qərara alındıqdan sonra seçkilər vasitəsilə həmin nöqtələrin çatmayan deputat sayını təyin və məclisə göndərsinlər.»

**«10-cu Maddə:** Azərbaycan Əyaləti 3 və 4-cü əyalətlərdən ibarət olacaqdır.»

**«11-ci Maddə:** dövlət razılaşır ki, Azərbaycanın işlərinin yaxşı irəli getməsi üçün vali və idarə rəyisləri və Əyaləti Əncümənin Rəyasət Heyətindən ibarət bir idari şura düzəlsin və bu şura Əyaləti Əncümənin nəzarəti altında vəzifəsini yerinə yetirsin.»

**«12-ci Maddə:** 22 aprel 1946-cı il (2 Ordibeheşt 1325-ci il) tarixli dövlət əmriyyəsinin 3-cü maddəsi orta və ali məktəblərin vəziyyətini təyin etmək baxımından aydın olmadığı üçün bu cümlə əlavə olunur.

Orta və ali məktəblərdə tədris fars və Azərbaycan dillərində, Mədəniyyət Nazirliyi tərəfindən olunan düzəliş, zaman və məkan şəraiti və demokratik prinsiplərə müvafiq və uyğun bir şəkildə tənzim olunan proqram üzrə əməli olacaqdır.»

**«13-cü Maddə:** dövlət razılaşır ki, Azərbaycanda olan kürdlər də bu razılaşmanın xeyirlərindən istifadə edib və dövlət əmriyyəsinin 3-cü maddəsi üzrə 5-ci ilkin sinifə qədər öz dillərində tədris etsinlər.»

**«Qeyd (1)** – Azərbaycanda olan asori və erməni kimi etnik azlıqların da haqları olacaqdır ki, 5-ci sinifə qədər öz ana dillərində tədris etsinlər.»

**«14-cü Maddə:** dövlət nəzərdə tutubdur ki, bütün İran üçün demokratiya üsulu üzrə yəni ümumi və gizli, birbaşa və bərabər səslə tənzim olunan yeni şəhər əncümənləri qanununun qərara alınmasından ötrü 15-ci məclisə təklif etsin, bu qanun qərara alınan kimi Azərbaycan və İranın bütün nöqtələrində şəhər əncümənlərinin seçkisinə başlanacaqdır. Bu qanun qərara alınanadək və yeni seçkilər keçirilənə qədər Azərbaycanda olan indiki şəhər əncümənləri öz vəzifələrinə davam etdirəcəklər.»

**«15-ci Maddə:** bu razılaşma iki nüsxədə tənzim və mübadilə olub dövlət Heyəti və Azərbaycan Əyaləti Əncüməninin tərəfindən qərara alındığından sonra icraya qoyulur.»

**Təbriz, tarix 13.06.1946-cı il (1325/3/23)**
**Pişəvəri – Müzəffər Firuz**

## Azərbaycan Milli Hökumət rəhbərliyinin Sovet rəhbərliyinə son müraciəti

Siz özünüz çox gözəl bilirsiniz ki, bizim nümayəndələrimiz Tehrandan müraciət etdikdən sonra, Tehranın sağ və irticaçı mətbuatı çox ciddi və hərarətli ləhn ilə bizim azadlığımızı pozmaq və demokratik nehzətimizin asarını ortadan aparmaq üçün Azərbaycana qoşun yeritməyi təbliğ edirdilər. Qəvamül-səltənə əvvəl intixabat üçün qəvayi-təminiyye göndərmək bəhanəsilə nəhayət, açıqdan-açığa Azərbaycan nehzətini ləğv edib onun başçılarını məhv etmək şüarı ilə üzərimizə həmlə edəcəklərini rəsmi surətdə özünün teleqraflarında, bəyaniyyələrində dünyaya bildirmişdir və nəhayət, iş söz və yazı ilə qurtarmayıb, həmin ayın on üçündə günortadan qabaq saat yeddidə onun göndərdiyi müsəlləh qüvvələr **Rəcəin** məntəqəsində bizim fədai postlarımızı 12 saat tamam tüfəng, müsəlsəl, top və tank vasitəsilə atəşə tutmuş, bu vasitə ilə yol açıb torpağımıza soxulmağa çalışmışdır. Bundan əlavə Müvafiqətnaməmizin xilafına olaraq Zəngana müsəlləh qüvvə göndərilməsi və rəsmi surətdə onun müavini Müzəffər Firuzun bizə yazdığı naməyə baxmayaraq, məşhur feodal Zülfiqarini və sairlərini Zəngandan uzaqlaşdırmamış, hətta, onu sərhəng dərəcəsi verdikdən sonra müsəlləh edib üzərimizə göndərmişdir. Bunlar isbat edir ki, Qəvam bizim ilə bağladığı sazişin özünün Azərbaycan valisi doktor Cavidə yazdığı namələrinin mürəkkəbi qurumadığı bir halda həyasızcasına onu pozmağa başlayıb özünün sui-qəsdini aşkara çıxarmışdır. Görünür o, özünün bizim saziş üçün vasitə qərar verdiyi sovet nümayəndələrinə etdiyi rəsmi vədinə, yəni Azərbaycan məsələsinin sülh yolu ilə həll edilməsini əməli

etmək fikrində deyil. Belə olduğu halda Azərbaycan xalqı üçün vahid bir yol qalır, o da öz silahının gücü, öz cavanlarının qəhrəmanlığı ilə azadlığından müdafiə etməkdən ibarətdir. Xalqımız çox gözəl bir surətdə anlamışdır ki, onun azadlığının zamini sazişlər, kağızlar, müvafiqnamələr və teleqraflar deyil, bəlkə onun qolunun gücü və süngüsünün qüdrəti ola bilər. Bizim xalqımız Qəvamın Doktora yazdığı saziş məktubunun ardınca göndərilən qoşun və silahlı qüvvələr eliyə bilməz görməsin. Qəvam bu işi hər dəqiqə görə bilər və heç bir kağız və müvafiqətnamə onun xainanə hərəkətinin qabağını ala bilməz. Biz səkkiz ay tamamdır ki, xalqımızın ehsasatı və firqə üzvlərinin özləri və firqə aktivinin meylinin xilafına olaraq iş xatirəsi və ixtilafın sülh və saziş yolu ilə həll edilməsi və bu yol dostumuz Şuralar İttifaqının dünya siyasətini gözləmək, həmçinin Şura dövlətinin ortamızda vasitə olmasını nəzərə alıb, Qəvamın irticaçı simasını demokratik və mütərəqqi göstərməyə çalışmışıq. Hətta, bəzən öz fikir və əqidəmizin xilafına olaraq onu tərif və təmcid dəxi etmişik ki, iş bizim tərəfimizdən pozulmasın. Hətta, fədailərimizin Qəzvin-Rəşt və Tehranı götürmək imkanları olduğu halda, öz nüfuz və hörmətimizi sərf edib onların qabaqlarını saxlamışıq ki, onun əlinə bəhanə düşməsin.

Bizim böyük güzəştlərimizi bütün dünya bildiyi kimi siz daha gözəl bilirsiz. Biz bu saziş yolunda Milli Hökumətimizi ləğv etdik, Milli Məclisimizi əyalət əncüməninə döndərdik, fədai dəstələrini nigəhban təşkilatına təbdil etdik, milli qoşunumuzun ixtiyarını və fərmandehliyini onların əlinə tapşırmağa hazırlandıq. Bütün aidatımızı onların xəzinəsinə, yəni Milli Banka verməyə başladıq. Bunların hamısı ondan ötrü idi ki, onların əllərinə dəstaviz verməmiş olaq, Qəvam isə bizim güzəştlərimizi

gördükdə hər gün tələbatını artırıb, axırda işi o yerə gətirib çıxardıb ki, istəyir nagəhani bir həmlədə azadlığımıza bir dəfəlik xatimə versin. O, neft məsələsini qabağa çəkmişdir ki, Qızıl ordunun İrandan çıxmasını təmin etsin və Azərbaycan milli nehzətini ortadan aparsın. Bu aydın bir məsələdir ki, o, bu işləri İranın sərvətinə göz dikən İngilis və Amerika dövlətlərinin göstərişi ilə icra etməkdədir. O, fikir edir ki, həmişə hoqqabazlıq və yalançılıq ilə istədiyini eliyə bilər. Azərbaycanlıları aldatdığı kimi sovet dövlətini də iğfal edib neft məsələsini də cürbəcür hoqqalar ilə başdan sala bilər. Biz azərbaycanlılar, çox yaxşı anlamışıq ki, ingilislər və amerikalılar hər qiymətə olur-olsun neft məsələsini öz mənfəətlərinə həll etməyə çalışırlar. Qəvam isə onların nökəridir. O, əvvələn, necə ki, görürsünüz, məclisə bir nəfər də olsun azadixahlardan yol vermək istəmir. Bu isə müstəqimən şuralar əleyhinə olan bir tədbirdir. Mürtəcelərdən toplanan bir məclis qətən neftin şuralara verilməsinə razı olmayacaqdır. Qəvam isə məclisi bəhanə edib özünün vediyi sözdən qaçacaq və yaxud istefa verməklə yaxasını qurtaracaqdır. Sovet hökuməti isə Qəvamın verdiyi vədədən qanuni bir sənəd və rəsmi bir mədrək kimi istifadə edə bilməyəcəkdir. İranda ta bu kimi hadisələr çox olmuşdur. Birinci dünya müharibəsindən sonra Qəvamul-səltənənin qardaşı Vüsuqüddövlə ingilislər ilə bir müahidə bağlamışdır. Bu müahidəni şah və məclis rədd etdi. İngilslər isə hətta dövlətin vəzirlərinə məsələn, Müzəffər Firuzun atası Nüsrətüddövlə və qeyrilərinə rəsmi surətdə verdiyi pulu da geri ala bilmədi. Deməli, neft imtiyazı məsələsi olduqca nisyə bir məsələdir ki, sovet dövlətinin məclisdə və cameədə tərtəfdarları olmasa, onu əldə edə bilməyəcəkdir. Qəvamül-səltənənin (hüsni-niyyəti) isə möhkəm bir qaranti ola bilməz. Çünki, o,

Azərbaycan məsələsində hüsni-niyyətinin nə olduğunu açıq bir şəkildə göstərməkdədir. Neft məsələsi o vaxt sovetlər nəfinə həll ola bilər ki, onun arxasında ictimai qüvvələr olsun. İranın ayrı yerlərində isə bu qüvvələr fövqəladə bir surətdə sıxılıb, əzilib ortadan getməkdədir. Vəli tamamilə ortadan getməmişdir. Azərbaycanda isə bizim qüvvəmiz əhəmiyyətli bir qüvvə hesab oluna bilərdi. Bizim Tehran hökumətinə böyük fişar gətirmək imkanlarımız vardır. Bizim bu imkanlarımız İranın ayrı-ayrı yerlərində olan azadixah və demokratik qüvvələri də təqviyyət edə bilər. Mütəəssifanə, iş belə gedərsə, bizim gücümüz də çox tez bir zamanda əldən çıxa bilər. O vaxt Qəvam və sair mürtəcelər hər nə istəsələr, maneəsiz edə bilərlər. Ümumiyyətlə, gərək etiraf edək ki, siyasəti Qəvam və başqa bir dövlət adamının hüsni-niyyətinə bağlamaq qorxulu bir işdir. Sovet siyasətinin ciddi tərəfdarı xalqın mütərəqqi və azadixah təbəqəsidir ki, onu gərək təqviyyət edib əldə saxlamaq və ondan ötəri Azərbaycan nehzətinin qüdrətini hifz etmək, onu qorumaq lazımdır. Bunu da nəzərdə tutmaq lazımdır ki, İranda siyasət ilə olan xarici ölkələr heç vaxt öz nüfuz və qüvvələrini əldən verməmişlər. Xüsusən ingilislər ki, nüfuzlarını həmişə güclü saxlamaqla onların etimadını qazanıb istədikləri vaxtda istifadə edə bilmişlər. Məsələn, qaşqay hadisəsini götürək. Siz gözəl bilirsiniz ki, orada dövlət əleyhinə neçə dəfə böyük müsəlləh üsyan olmuşdur, bununla belə bu günədək ingilislər imkan verməyiblər, dövlət onlardan bir qəbzə də olsun əsləhə ala bilsin. Ora və ya bəxtiyari və ya cənubun başqa tayfalarının ingilislərin möhkəm qalaları halında qalmaqdadır və onlar isə bu qüvvələri gündən-günə artırırlar. Sizə çox yaxşı məlumdur ki, xalqı hər vaxt ayağa qaldırmaq olmaz və hər gün yaradılmaz, hər zaman böyük xalq

hərəkatı üçün zəminə olmaz. Çox illətlər və böyük fədakarlıqlar nəticəsində İranda nəzərinizi cəlb edən ictima-mütərəqqi qüvvələr və Azərbaycanda böyük bir nehzət vücudə gəlmişdir. Bu nehzət müstəqimən sovet dövlətinin İranda olan köməkçisi və sovet siyasətinin poştibanıdır. Bu qüdrət sovet siyasəti üçün kəskin bir silahdır ki, onun vasitəsilə İran xalqları kimi şuralar ittifaqı da böyük işlər görə bilər. Bu qüdrət ümumi iş uğrunda hər bir fədakarlığa hazır olan bir qüdrətdir. Onu əldən versək, bu tezliklə yeni bir qüdrət vücudə gələ bilməz.

Biz bilmirik necə olur ki, Yunanıstanda, İndoneziyada və qeyri yerlərdə məzlum xalqlar öz azadlıqları uğrunda müsəlləh bir surətdə mübarizə edə bilərlər, amma biz gərək öz əlimiz ilə cəlladlara təslim olaq. Bu tək bizim sözümüz deyildir və bunu xalqımız və firqənin görkəmli üzvləri açıq bir surətdə söyləməkdədir. Bizim firqəmiz və xalqımız bizə deyir ki, bugünkü əlimizdə olan dəlillər və mədrəklərdən sonra artıq sözə və ya kağıza etimad edib Qəvamül-səltənə və ya başqalarına inana bilmərik. Qəvam gedər, yerinə başqası gələr. Hərgah müsəlləh qüvvəmiz vasitəsilə irticanı əzməsək, heç vaxt siyasət bizim nəfimizə dönə bilməz və bizim üçün əldə heç bir qaranti yoxdur və özümüzü aldada bilmərik. Bugünkü imkanı əldən buraxmaq olmaz. Belə bir iş görsək, tarix bizi həmişə məzəmmət edəcəkdir. Dünyada heç bir millət özü öz əli ilə öz qüdrətini məhv etməmişdir. Biz də bunu etməməliyik.

Qəvamın üzərimizə göndərdiyi qüvvənin xaincəsinə həmləsi xalqımız içərisində şədid bir həyəcan toulid etmişdir (yaratmışdır – S.B.). Xalq dəstə-dəstə firqəyə müraciət edib azadlığı müdafiə etmək üçün icazə və silah tələb edirlər. Bu isə xalqımızın ruhiyyəsini ciddi surətdə aşkara çıxardır. Beş-üç nəfər malik və

ya irticaçı ünsürlərin, məsələn, Nüsrət İskəndəri, Calal İmami, sərləşgər Müqəddəm və Zülfiqarilərin ruhiyyəsi xalq ruhiyyəsinə nümunə ola bilməz. Bunların ağalıqları torpaqları əllərindən getdikləri üçün ruhiyyələri də məlumdur ki, nə cür ola bilər. Amma azadlıq, torpaq alan kənd və şəhər camaatı aldığını saxlamaq yolunda hər bir şeyini fəda etməyə hazırdır. Hərgah biz bu gün onların azadlığının ortadan getməsinə imkan versək, onları bir də ayağa qaldırmaq mümkün ola bilməz, artıq onlar kimsəyə etimad etməzlər. Xalq nəinki tək bizdən, bəlkə ümumazadlıq şüarı ilə meydana çıxan ümumi qüvvələrdən naümid, məyus ola bilər. Bizim qüvvə və qüdrətimiz isə xalqın bizə olan etimad və inamına bağlıdır.

Azərbaycan xalqı və ona rəhbərlik edən Demokrat Firqəsi və onun başçılarının Sovet dövlətindən **iki intizarı** vardır.

**Əvvələn**, sərhədlərimiz açıq ikən, milli qüdrətimiz mövcud ikən bizə cüzi miqdar əsləhə verilsin. Çün iş belə gedərsə, bu imkan olmayacaqdır. Biz çox asanlıq ilə məxfi surətdə eliyə bilərik verilən əsləhəni milli qüvvələrimizə yetirək, müxalif qüvvələr ondan müttəle olmasın. Dava başlanıb şiddətləndikdən sonra bu iş çox çətin ola bilər. Biz elə çox silah istəmirik. Müxtəsər, bir miqdarda olsun ki, fədailər silahsız düşmən qabağına getməyə məcbur olmasınlar.

**İkinci** – indi ki, Qəvam müharibəni başlayıb, bizim qardaşlarımızın qanını tökməkdədir, icazə verilsin, biz də hər tərəfdən onu məziqədə (təzyiqdə - S.B.) saxlamaqla İranda olan azadixah qüvvələrin ayağa qalxmalarına imkan verək. Bu vasitə ilə bütün İranda böyük bir nehzət başlayıb irticaçı hökuməti sərnequn edək (devirək – S.B.), yerində demokratik bir hökumət vücudə gətirək. Əgər bu silah ..., icazə verilsin Tehran ilə tamamilə qəti-rabitə

edib öz milli hökumətimizi vücudə gətirək (xalq isə bu axırıncı tədbirə daha artıq rağibdir).

Sovet siyasəti bu iki tədbirdən hər hansını intixab edərsə, biz şərafətlə onu əncam verib müvəffəq ola bilərik.

Demək lazımdır ki, çox yaxşı oldu ki, Qəvam bizim silahlı qüvvələrimizin komandanlığını almaqdan əvvəl öz həqiqi siyasətini göstərdi. Əgər sonra bu işi etsəydi, bizi tamamilə məhv edə bilərdi. Onun bugünkü bizə həmlə etməsini Azərbaycan xalqı özünə xoşbəxtlik hesab edir.

İşi elə bir vaxt edə bilərdi ki, bizim müdafiəyə imkanımız olmasın. İndi isə bizim müdafiəyə imkanımız vardır. Bu imkandan düzgün istifadə olunarsa, biz istədiklərimizi edə bilərik. Əgər bir qədər təxir olursa, ya işə tərdid ilə baxarsaq, bu imkan ortadan gedər. Necə ki, yuxarıda dedik, xalq qorxar, məyus olar, irtica azadlıq qüvvələrini əzib (məhv) edər. Bu isə Sovet dövlətinin İranda illər boyu fəaliyyət və zəhmət nəticəsində qazandığı böyük nüfuz və böyük qüdrətin aradan getməsi deməkdir. Bunun nəticəsində İran tamamilə ingilis və amerikalıların qucağına düşər və burada Rza xan dövrəsində şədid bir despotizm meydana çıxar ki, İran xalqı Sovet siyasətinə uyğun heç bir növ ilə hərəkət etmək imkanına malik olmaz. Belə bir dövrə, belə bir şəraitdə İranda neft məsələsindən danışmaq belə bir söz olub qalar və Sovet dövləti nefti tamamilə uduza bilər. Buna isə heç bir şübhə yoxdur.

Sovet hökumətinin İranda nefti uduzması isə İranda mütərəqqi siyasətini uduzması deməkdir. Bu isə Yaxın Şərqdə demokratik hərəkata böyük bir zərbədir. Çünki artıq Azərbaycan nehzəti Yaxın və Uzaq Şərqdə böyük müsbət təsir bağışladığı kimi, onun məhvi də dərin mənfi təsir bağışlaya bilər.

Yenə də təkrar edirik, iş danışıqlar və sazişlər yolu ilə həll olmaqdan keçmişdir.

Sovet dövləti nə qədər sülh və sazişə çalışırsa, bir o qədər Amerika və İngilis dövlətləri İran dövlətini cəngə və daxili müharibəyə və qan tökməyə təhrik edirlər. Onun üçün bu davanı vücudə gətirməyə imkanlar yaradırlar. Bu gün Qəvam hökuməti Amerikadan külli miqdarda pul aldığı əfsanə deyildir. İngilistandan və sair irticaçı ölkələrdən İrana silah sel kimi axıb gəlməkdədir.

[Ora]dan yüklənən əsləhə müstəqimən Zənganda vaqonlardan alınıb bizim əleyhimizə göndərilir. Biz Sovet hökumətindən böyük kömək istəmirik, biz deyirik, şuralar əleyhinə aparılan xainanə siyasətə bəhanə verilməsin və Şura hökuməti özünü zahirdə bizə əlaqəmənd, dəxi, göstərmiyə bilər, amma neçə ki, İran dövləti istəmir, Sovet dövləti vasitə olub işi sülh yolu ilə həll etsin, Sovet dövləti bizə də imkan versin, biz də Tehranın əleyhinə onun öz götürdüyü yol ilə (rəftar) edək.

Zərər yoxdur. Madam ki, Qəvam, ingilis və amerikalılar deyirlər ki, Azərbaycan məsələsi daxili bir məsələdir, biz də deyirik, belə bir məsələdir. Qoy onlar Azərbaycana hücum etdikləri zaman Azərbaycan fədailəri onların başını əzsin. Biz də deyirik, Azərbaycan məsələsi daxili məsələdir, biz bu daxili məsələni özümüz həll edərik, kimsənin Əmniyyət Şurasında və ya ayrı bir xarici ölkədə Şuralar İttifaqı əleyhinə çığır-bağır salmağa haqqı yoxdur.

Yuxarıda dediyimiz kimi, əgər Şuralar İttifaqının köməyi gizli olarsa, onda İran dövlətinin Təhlükəsizlik Şurasına müraciət etməkdə əlində heç bir dəlil ola bilməz. Axırda yenə də təkrar (edirik), sazişlər, danışıqlar fayda verməz. Xalqımız, firqəmiz və

onun rəhbərləri hamısı fəqət [Sovet dövlətinə] ümid bağlayır və ondan nicat gözləyir. Bu isə ancaq sizin edəcəyiniz cüzi silah köməyinə bağlıdır.

İndi on minlərlə kəndli fəqət silah tələb edir və bu köməyi bir an onu verməklə İran xalqının azadlığı və Sovet siyasəti təhlükədən xilas ola bilər və illa (yoxsa – S.B.) xətər çox yaxın və çox böyükdür. Yenə qeyd edirik, mümkündür Qəvam qısa bir müddət hücumu dayandırsın. Buna inanmaq olmaz. Bu sadə bir manevr olub qalar. Onun Azərbaycan nehzətinə cüda (ayrı – S.B.) hazırlandığına bizim zərrə qədər şübhəmiz qalmamışdır. Bizim üçün başqa bir yol yoxdur. Qeyri-müəyyən vəziyyətin xətəri hücumdan daha artıqdır. Bu vəziyyət bizi tədriclə yorub zəif salmaqla məhv edəcəkdir.

Sizin müxtəsər köməyinizin yetişməsini səbrsizliklə gözləyirik.

Səmimi ehtiram ilə,

- Pişəvəri (imza)
- Qulam Danişyan (imza)
- Dr. Cavid (imza)
- Şəbüstəri (imza)
- Padeqan (imza)

# GÜNEY AZƏRBAYCANDAKI XALQ HƏRƏKATI (1941-1946) HAQQINDA RƏYLƏRDƏN

21 Azər nehzəti çürümüş Tehran hakimiyyətini alt-üst edən və İrana nicat verən bir üsyan idi».

**«Besu-ye ayənde» qəzetindən**

«Azərbaycandakı hadisələrin başlıca səbəbi xalqın haqlı şikayətinə baxılmaması, jandarm və mürtəce xanlar tərəfindən yüzlərlə günahsız kəndlilərin vəhşicəsinə öldürülməsidir… Azərbaycan xalqı hiss etmişdi ki, bu məclis (XIV məclis nəzərdə tutulur – Ə.R.), bu dövlət heç zaman onun dərdinə çarə etməyəcəkdir. Ona görə Azərbaycan özü özünə çarə yolu axtarmaq üçün ayağa qalxmışdır».

**Doktor Məhəmməd Müsəddiq (XIV çağırış İran Məclisinin deputatı)**

«Biz o dövrdən uzaqlaşdıqca 1941-1946-cı illərdə Azərbaycandakı Xalq hərəkatının qayəsi və məzmunu, onun əzəməti bizim düşüncələrimizdə daha böyük izlər qoyur. Haqqı, hüququ, milli varlığı tapdalanıb təhqir olunan bir millət özündə qüvvə tapdı, ayağa qalxdı, Səttarxan və Xiyabani hərəkatının şərəfli davamçısı olduğunu təkcə Iran xalqlarına yox, bütün dünyaya bəyan etdi. ADF az zaman içərisində xalqın istək və nüfuzunu ona görə qazana bilmişdi ki, o öz məramında millətin arzu və diləklərini əks etdirmiş, həmişəlik yaddaqalan əməl göstərmişdi».

**Şövkət Tağıyeva (Tanınmış Güneyşünas alim)**

Mən əvvəldən axıra qədər 1941-1946-cı illərdə Azərbaycandakı Xalq hərəkatının fəal iştirakçısıyam. «Azərbaycan Cəmiyyəti»nin Müəssislərindənəm. «Azad Millət» ruznaməsinin baş redaktoru, ADF MK, Qanune-əsasını (Konstitusiyanın) hazırlama komissiyanın üzvü olmuşam Sədaqətlə deyirəm:

AMH heç vaxt təcziyyə tələb olmamışdı, o, ancaq İran sərhədləri daxilində Azərbaycana muxtariyyət və azadlıq istəmişdi. Siz hərəkatın rəhbəri S.C.Pişəvərinin o zamankı çıxışlarına, yazılarına, müsahibə və söhbətlərinə qərəzsiz baxsanız görərsiz ki, o, heç bir yerdə İrandan ayrılmaya, harayasa birləşməyə işarə belə etməmişdi. Azərbaycandakı Xalq Hərəkatını hər zaman ləkələmək, ona «şərab» səpmək İran irticasının və şovinistlərin sabiqəli peşəsidir.

21 Azər haqqı tapdalanan bir millətin milli-demokratik istəklərinə çatmaq arzusundan yaranan əsl xalq hərəkatı idi. Hərəkat məğlub edilsə də, onun tələbləri və məramı indi də yaşayır.

**İsmayıl Şəms,**
**(21 Azər hərəkatının fəallarından)**

«Deyli Teleqraf» qəzetinin müxbiri Əhməd Qəvama: «Siz necə fikirləşirsiz, Azərbaycandakı hadisələri Sovet hökuməti törətmişdi?» - sualına Ə.Qəvam cavabında: «Mərkəzi hökumətin səhv siyasəti və əyalət əhalisinin qanuni tələblərinə diqqətsizlik bütün ölkədə narazılıq yaratmışdır. Görünür, əgər xalq razı olsaydı, iğtişaşlar üçün zəmin olmazdı. Ona görə Şimaldakı hadisələrin baş verməsinin əsas səbəbini xalqın narazılığında axtarmaq lazımdır».

**Ə.Qəvamın müsahibəsindən (C.Həsənlinin kitabından iqtibas olunmuşdur)**

«Görkəmli jurnalist və siyasi dövlət xadimi Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi 1945-1946-cı illər milli-demokratik hərəkatı tək Azərbaycanın güneyində, ümumiyyətlə İranda deyil, eləcə də bütün Yaxın və Orta Şərqdə demokratik, milli hərəkatların başlanması və genişlənməsində mühüm rol oynamışdır. Hərəkat eyni zamanda Azərbaycanın hər iki hissəsində (Quzey və Güneydə) milli mənlik və bütövlük şüurunun inkişafında ölçüyəgəlməz əhəmiyyətə malik olmuşdur.»

**Balaş Azəroğlu, 21 Azərin iştirakçısı Azərbaycanın xalq şairi**

«Demokrat firqəsinin başçılıq etdiyi əzəmətli nehzət qadınların əsrlər boyu düçar olduqları məhrumiyyət zəncirlərindən azad olmalarına, onların seçkilərdə iştirakına və başqa ictimai hüquqlar əldə etmələrinə şərait yaratdı».

**Beynəlxalq Qadınların Hüququnu Müdafiə edən cəmiyyət**

«Cənubi Azərbaycanda baş vermiş milli-demokratik hərəkat bütün dünyaya səs saldı. Beş milyondan çox olan bir xalqın geniş təbəqələrini əhatə etmiş bu hərəkat, əsri və qabaqcıl bir hərəkat olmaqla, zəmanəmizin ən görkəmli tarixi hadisələri sırasına çıxa bildi və siyasət dünyasının ən mütərəqqi mahiyyət daşıyan hadisələri ilə birləşdi. Bütün dünya, Asiyanın bir güşəsində diri, canlı və istedadlı bir xalqın, azadlıq və demokratiya yolunda qəhrəmanlıqla mübarizə aparan bir millətin varlığını gördü».

**Mirzə İbrahimov**
**(Azərbaycan xalq yazıçısı, akademik)**

«Azərbaycan Demokrat Firqəsinin nehzəti bütün İran inqilabının bir hissəsi idi…

Qoşunun Azərbaycana getməsi və nehzətin şikəst yeməsi zidd inqilabı bir iqdam idi. Azərbaycan nehzəti Azərbaycan və Iranın nicatı üçün lazım idi».

**Xosrov Ruzbeh (İranın milli qəhrəmanı)**

«Fransa Xarici İşlər nazirliyinin fikrincə, Azərbaycan məsələsi və orada baş verən hadisələr yalnız Iranın daxili işlərinə aid bir məsələdir… Demokrat firqəsi indiyədək Azərbaycan, Irandan ayırmaq barədə heç bir tələb irəli sürməmişdi. O yalnız öz yerli işlərində bir növ daxili ixtiyarat almağı tələb etmişdir… bu daxili yerli məsələnin beynəlxalq bir macəraya çevrilməsinə heç bir səbəb yoxdur».

**Fransa Xarici İşlər Nazirliyinin bəyanatından**

«Azərbaycan hərəkatı 20 illik diktatorluğun faciələri nəticəsində meydana gəlmişdir ki, bu hərəkat İranın azadlığının inkişaf etməsi üçün İranın mütərəqqi adamlarının əlində güclü silahdır».

**Müzəffər Firuz («Zəfər» qəzeti müxbirinin suallarına cavabdan)**

«İran Azərbaycanında baş verən bu inqilabi hərəkat Orta Şərqdə əks-səda yaratmışdır… Azərbaycan hərəkatı Orta Şərqə nicat verən bir inqilab adlanmağa layiqdir».

**(«Lomond» qəzeti – Fransa)**

«Bunu inkar edə bilmərik ki, bu hərəkatın nəticəsində (21 Azər nəzərdə tutulur – Ə.R.) azərbaycanlılar öz milli varlıqlarını dərk etdilər».

**M.Müctəhidi (tarixçi alim)**

«Əlinə silah almış Azərbaycan milləti bu gün uca səslə deyir ki, islahat bütün Iran məmləkəti üçün verilməlidir, demokrasi bütün İranlıların haqqıdır».

**«Cəbhə» qəzeti («İran» partiyasının orqanı)**

«Azərbaycan Xalq Hakimiyyəti qurulması bütün İranda xalq hakimiyyəti yaradılması ilə müşayiət olunmadı. 1946-cı ildə azadixah qüvvələrin tərəfindən İranda vahid cəbhənin yaranması gecikdi. Həmin cəbhə əməli sürətdə fəaliyyət göstərə bilmədi. Buna görə də irtica və imperializmin hücumuna vahid cəbhədə müqavimət göstərilə bilmədi. Azərbaycan Əyalət Əncüməni hakimiyyəti ələ alaraq Azərbaycanı idarə etdiyi halda, İranda Əyalət əncümənləri yerli hakimiyyəti orqanları səviyyəsinə qalxa bilmədi».

**Mirqasım Çeşmazər**
**(21 Azər hərəkatı fəallarından, tədqiqatçı alim)**

«Azərbaycanlıların məşrutə nehzəti, Xiyabani qiyamı və bu son nehzəti sübut edir ki, azərbaycanlı həmişə İran azadlığının müdafiəçisi olmuş və məmləkətin tamamiyyət və istiqlalına əlaqəmənddir».

**«Rəhbər» qəzeti (İran həmkarlar təşkilatının orqanı).**

«Azərbaycan xalqı iftixar edə bilir ki, az bir müddətdə mürtəceləri əzib azadlığı ələ gətirməklə indiki dünyaya uyğun milli və demokratik hökumət qurmuşdur… Sizin yaratdığınız demokrasi İran millәti üçün böyük sərməşqdir».

**Lui Sayan (Beynəlxalq Həmkarlar İttifaqının Federasionunun sədri)**

«Azərbaycan xalqı illər boyu təhqiredici əsarətə dözdükdən sonra, nəhayət… 1324-cü ilin Azər ayının 21-də qiyam etdi. Bu qabiliyyətli qiyamın nəticəsində Azərbaycanda xain və çürümüş Tehran hakimiyyəti yıxıldı və onun xarabaları üzərində zəhmətkeşlərin hakimiyyəti quruldu».

**«Mərdom» qəzeti. (İXP orqanı)**

# OLAYLARIN XRONOLOGİYASI (1941-1946)

25 dekabr 1925 – Rzaxan özünü İranın şahı elan etmişdi.

4 sentyabr 1939 – II Dunya müharibəsi başlanmışdı.

25 avqust 1941 – Sovet qoşunları İran ərazisinə daxil olmuşlar.

25-28 avqust 1941 – Güney Azərbaycan ərazisi Sovet qoşunları tərəfindən işğal edilmişdi.

14 sentyabr 1941 – Rza şah oğlu Məmmədrzanın xeyrinə şahlıqdan əl çəkmişdir.

27 sentyabr 1941– Rza şah Afrikanın Moris adasına sürgün olunmuş və 1944-cü ilin sentyabrına qədər (ölənədək) orada yaşamışdır.

28 sentyabr 1941 – İran Məclisi (XII çağırış) Məmmədrzanın ölkənin şahı elan olunması haqda qərar qəbul etmişdir. O, 1979-cu il fevral inqilabına qədər İranda şahlıq etmişdir.

1941-ci il sentyabr – 1945-ci il yanvar– aşağıdakılar İranın baş naziri (vəziri) olmuşlar:

1. Məhəmməd Firudin 5 şəhrivər 1320 (sentyabr 1941) -18 Esfənd 1320 (mart 1942).
2. Əli Söhili 18 Esfənd 1320 (mart 1942)- 15 mordad 1321 (avqust 1942).
3. Əhməd Qəvamül – səltənə 18 mordad, 1321 ( avqust 1942 – 25 Bəhmən 1321 (fevral 1943)
4. Əli Söhili 28 Bəhmən 1321 (fevral 1943) – 7 fərvərdin 1323 (mart 1943)
5. Məhəmməd Said Marağei – 8 fərvərdi 1323 (mart 1943) – 20 Aban 1323 (noyabr 1944).

6. Murtazaqulu Bayait 4 Azər 1323 (noyabr 1944). 12 Ordebehişt 1324 (may 1845).

7. Möhsün sədr – 22 xordad 1324 (iyun 1945) 22 mehr 1324 (oktyabr 1945).

8. İbrahim Həkimi – 7 Aban 1324 (noyabr 1945) 30 Dey 1324 (yanvar 1946).

9. Əhməd Qəvamül – Səltənə – 3 Bəhmən 1324 (fevral 1946) – 5 Dey 1326 (yanvar 1947).

Sentyabr 1941 – Azərbaycanda ilk ictimai-mədəni təşkilat — «Azərbaycan cəmiyyəti» fəaliyyətə başlamışdır.

Oktyabr 1941 – İran Həmkarlar təşkilatı şurası (İttihadiyyə) yaranmışdır.

Oktyabr 1941 – S.C.Pişəvərinin yaxından iştirakı ilə «Azadlıq Cəbhəsi» fəaliyyətə başlamışdır.

Oktyabr 1941 – İran Xalq partiyası (Hizbe Tude-ye İran) yaradılmış və fəaliyyətə başlamışdır.

Dekabr 1941 – «Anti-faşist» (zidde faşist) təşkilatı yaradılmış və faşizm əleyhinə qüvvələri öz sıralarında birləşdirmişdi.

3 sentyabr 1945 ci il – Azərbaycan Demokrat Firqəsi yaranmışdı.

7 sentyabr 1945 – ci il – Təbrizdə İXP (Hizbe Tude-ye İran) Azərbaycan əyalət təşkilatının geniş konfransı keçirilmişdi.

12 sentyabr 1945 ci il İXP-nın Azərbaycandakı təşkilatları və üzvləri ADF-sı sıralarına daxil olduqlarını bildirmişlər.

12 sentyabr 1945-ci il – Təbrizdə ADF-nin ilk konfransı keçirilmişdi.

2-3- oktyabr 1945-ci il – Təbrizdə ADF-nin I qurultayı çağırılmışdı.

3 oktyabr 1945-ci il – ADF məramnamə və nizamnaməsi qəbul edilmişdi.

18 noyabr 1945-ci il – Təbrizdə ADF-nin II geniş plenumu olmuşdur. Lenin silahlı üsyan məsələsini müzakirə etmişdir.

20 noyabr 1945-ci il – Təbrizdə xalq konqresi çağırılmışdır.

26.XI-1.XII 1945-ci il – Azərbaycan ərazisində AMM seçkilər başa çatmışdı.

I Azər 1324 (noyabr 1945) – Azərbaycan Xalq Konrqesi tərəfindən seçilmiş müəssisələr Məclisinin rəyasət heyəti Azərbaycandakı vəziyyət haqda Şaha, İran Məclisi başçısına və baş nazirə məktubla müraciət etmişlər.

12 dekabr (21 Azər) 1945 –ci il – Təbrizdə Azərbaycan Milli Məclisi işə başlamışdır.

21 Azər 1324 (12 1945) AMM AMH təşkil etməyi S.C.Pişəvəriyə tapşırılmışdı. AMH başçısı S.C.Pişəvəri AMH tərkibini elan edir:

1. Baş nazir – S.C.Pişəvəri
2. Daxili işlər naziri – Salamulla Cavid.
3. Xalq qoşunları naziri – Cəfər Kaviyan
4. Kənd təsərrüfatı naziri – doktor Məhtaş
5. Maarif naziri – Məhəmməd Biriya
6. Səhiyyə naziri – doktor Orəngi
7. Maliyyə naziri – Qulamrza İlhami
8. Ədliyyə naziri – Yusif Əzima
9. Poçt – teleqraf naziri – Rəbi Kəbiri
10. Ticarət və iqtisad naziri – Rza Rəsuli.

Baş nazirin təyinatı ilə Baş prokuror – Firudin İbrahimi, Ali məhkəmə rəisi – Zeynalabdin Qiyami

22 Azər 1324 (13 dekabr 1945) Şaha tabe olan Təbriz hərbi qarnizonunun baş komandanı general Ələkbər Dərəxşani ilə Azərbaycan Daxili dövlət başçısı S.C.Pişəvəri arasında qarnizonun sülh yolu ilə təslim olması haqda qərar imzalanmışdır.

29 Azər 1324 – (19 dekabr 1945) – Rza şahın Təbrizdəki heykəli götürülməsi, yerində Səttarxanın və Bağır xanın heykəlinin qoyulması haqda AMH-nin qərarı elan edilmişdir.

29 Azər 1324 (13 dekabr 1945) – Ağır cinayət etməmiş məhbuslar haqda dövlət əfvi – ümum elan etmişdir.

3 Dey 1324 (dekabr 1945) – Bütün məktəblərdə tədrisin ana dilində (Azərbaycan dilində) aparılması haqda qərar qəbul edilmişdir.

7 Dey 1324 (dekabr 1945) – AMH Azərbaycan ərazisində Azərbaycan dilini rəsmi dövlət dili elan etmişdi.

16 Dey 1324 (yanvar 1946) – Milli darülfünun təşkili haqda AMH qərarı elan olunmuşdur.

Dey 1324 (yanvar 1946) – AMH yetim və sahibsiz uşaqların dövlət himayəsinə götürülməsi haqda qərar qəbul etmişdir.

28 yanvar 1946-cı il – AMH başçısı xüsusi məktubla BMT Baş Assambleyasına müraciət yollamışdır.

19 Dey 1324 (fevral 1946) – Bələdiyyələrə demokratik əsaslar üzrə seçkilər haqda AMM qərar qəbul etmişdir.

17 fevral 1946 – Əhməd Qəvamül – sətlənə hökuməti Iran Məclisində təsdiq olunmuşdur.

19 fevral 1946 – Ə.Qəvam başda olmaqla İran hökumət nümayəndəliyi Sovet rəhbərliyi ilə danışıqlar aparmaq üçün Moskvaya gəlmişdir.

20 fevral-7 mart 1946 – Qəvamın başçılıq etdiyi nümayəndəlik Moskvada olmuş və Sovet rəhbərliyi ilə bir neçə görüş keçirilmişdir.

1 Esfənd 1325 (fevral 1946) – AMH torpaq islahatı haqqında qərar qəbul etmişdir.

2 Esfənd 1325 (fevral 1946) – AMM Məhkəmələr haqda qanun qəbul etmişdir.

5 mart 1946 – I.V. Stalinin iştirakı ilə Kremldə dövlət səviyyəsində Əhməd Qəvamın şərəfinə ziyafət verilmişdir.

9 Esfənd 1324 (mart 1946) – AMM tiryək və narkotik maddələrin satılması və ondan istifadənin qadağan edilməsi haqda qanun qəbul etmişdir.

29 fərvərdin 1325 (aprel 1946) – AMM-də Azərbaycanın yeraltı sərvətləri haqda qərar qəbul olunmuşdur.

1 Ordebeheşt 1325 (22 aprel 1946-cı il) –Tehran danışıqlara başlamaq haqda F. İpəkçiyan vasitəsi ilə ilk təklifini AMH-nə bildirmişdir.

8 Ordebeheşt 1325 (29 Aprel 1946-cı il) – Tehranda AMH nümayəndələri ilə Tehran rejimi arasındla danışıqlar başlanmışdır.

1-9 may 1946-cı il – Sovet qoşunları Güney Azərbaycan ərazisini tam tərk etmişdir.

25 fərvərdin 1325 (may 1946) – mülkədar-kəndlilər arasında məhsul bölgüsünün ədalətli prinsip üzrə nizama salınması haqda qanun qəbul olunmuşdur.

27 fərvərdin 1325 (may 1946) – Dövlətə məxsus torpaqların (xalisələrin) əvəzsiz olaraq torpaqsız və az torpaqlı kəndlilərə verilməsi haqda qərar qəbul edilmişdir.

22 Ordebehişt 1325 (may 1946) AMM 52 maddədən ibarət mütərəqqi iş qanunu qəbul etmişdir.

4 Tir 1325 (iyun 1946) – AMH fəaliyyəti haqda MH başçısı S.C.Pişəvəri AMM nümayəndələrinə hesabat vermişdir.

11 iyun 1946 – AMH rəhbərliyi ilə Tehran nümayəndələri arasında Təbrizdə danışıqlara başlanılmışdır.

23 xordod 1325 (13 iyun 1946) AMH ilə Tehran arasında 15 maddədən ibarət məlum qərardad imzalanmışdır.

14 iyun 1946 – AMM öz fəaliyyətinə xitam vermiş, onu Azərbaycan Əncüməni əvəz etmişdir.

16 iyun 1946 – S.C.Pişəvəri AMH baş vəzirliyindən (baş nazirlikdən) istefa vermişdir.

1-14 avqust 1946 – S.Cavid başda olmaqla Azərbaycan nümayəndələri Təbrizdəki danışıqlarda mübahisəli və açıq qalan məsələləri həll etmək üçün Tehrana getmişlər.

10 sentyabr 1946- şah qoşunlarının Azərbaycana hücumu başlanmışdır.

2 oktyabr 1946 – şah təyyarələri Azərbaycan səmasında görünməyə başlamış, kəşfiyyat xarakterli uçuşlar etmiş və fitnəkar vərəqələr səpmişlər.

12 noyabr 1946 – Zəngan şəhəri Tehran qoşunu tərəfindən işğal edilmişdir.

23 Azər 1325 (14 dekabr 1946) – Tehran qoşunu Təbrizi işğal etmişdi.

Dekabr 1946-1947 – Azərbaycandakı demokratik qüvvələrə qarşı amansız cəza və repressiya başlanmışdır.

«…ÜMİDİMİZ ÜZÜLMƏSİN, QANADLARIMIZ QIRILMASIN, OCAĞIMIZ YANAR DURSUN, ÇIRAĞIMIZ HEÇ VAXT SÖNMƏSİN!»

**DƏDƏ QORQUD**

# MÖVZUYA AİD ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR

## *Azərbaycan dilində*


1. «Ağ ləkələr silinir» (məqalələr toplusu). Bakı, 1991. Azərbaycan Milli Məclisi və onun fəaliyyəti (1945-1946). «21 Azər» 1998, № 1.
2. Bayramzadə S. Cənubi Azərbaycan tarixinin «ağ ləkələr» (məqalələr toplusunda). Bakı, 1992.
3. Billuri H. İran Azərbaycanında realist demokratik poeziyanın inkişafı (rusca). Bakı, 1972.
4. Çeşmazər M. Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti. Bakı, 1980.
5. Çeşmazər M. Azərbaycan Demokrat Firqəsinin yaranması. «21 Azər», №8.
6. Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991.
7. Cənubi Azərbaycan tarixinin oçerkləri 1828-1917. Bakı, «Elm» nəşriyyatı, 1985.
8. Əhməd V. S.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı. Bakı, 1998.
9. Əliqızı A. Güney Azərbaycan ədəbiyyatı, mərhələlər, təmayüllər, etüdlər. Bakı, 2000.
10. Əmirov S. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990). Bakı, 2000.
11. Ərdəbili L. 21 Azər nehzəti ərəfəsində Güney Azərbaycanda vəziyyət. «21 Azər», 2000, № 9.
12. Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı (1914-1918). Bakı, 1988.
13. Həqqi B. Milli Hökumətin fədaisi Səfərxan. Bakı, 2001.

14. Həsənov N. Oyanmış Təbriz və Səttarxan. Bakı, 1986.
15. Həsənov H. İran Azərbaycanı fəhlələrinin öz azadlıqları və ölkənin istiqlaliyyəti uğrunda mübarizəsi. Bakı, 1959.
16. Həsənli C. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı, 1998.
17. Həsənli C. Soyuq müharibənin başlandığı yer: Güney Azərbaycan. Bakı, 1999.
18. Həsənli C. Güney Azərbaycanda Sovet-Amerika və İngiltərə qarşıdurması. Bakı, 2001.
19. Xəndan C. Uğurlu yol. Bakı, 1987.
20. İbrahimov (Şahin). T. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1856-1906). Bakı, 1967.
20 a. İbrahimov M. Cənubi Azərbaycanda milli-demokratik hərəkat, «İnqilab və mədəniyyət», Bakı, 1947, №9
20 b. İbrahimov M. İran Azərbaycanı haqda həqiqətlər. Bakı, 1948
20 ç. İbrahimov M. Sarı sim. Bakı, 1959
20 c. Gələcək gün (roman). Bakı, 1952
21. Qəvamül-Səltənənin cinayət tarixi. «21 Azər», 2000. № 2.
22. Qılman İlkin «Qızıl səhifələr necə yarandı», «21 Azər», 1999 № 3.
23. Quliyev Ə. Cənubi Azərbaycanda milli-azadlıq və demokratik hərəkat tarixindən (1941-1946). Bakı, 1951 (Tarix və Fəlsəfə İnstitutunun əsərləri, I buraxılış).
24. Məmmədli Q. Xiyabani. Bakı, 1949
25. Məmmədtağızadə M. Güney Azərbaycan problemi. «21 Azər», 2000, № 4-5.
26. Mişovdağlı Ə. Azərbaycan Milli Hökumətinin iqtisadi tədbirləri. «Azərbaycan» jurnalı, 1998, № 1.

27. Mişovdağlı Ə. Güney Azərbaycanda xalqın dil, milli maarif və mədəniyyət uğrunda mübarizəsi (Türkçülük və azərbaycançılıq problemləri kitabında). Bakı, 1998.
28.Mişovdağlı Ə. İranda ermənilərin anti-türk fəaliyyəti (şərqin aktual problemləri). Bakı, 1994.
29. Mişovdağlı Ə. AMH-nin maliyyə siyasətinə bir baxış, «21 Azər», 2000, № 9.
30. Mişovdağlı Ə. Azərbaycan Milli Hökumətinin aqrar siyasəti, 21 Azər«, 1999, № 2.
31. Mişovdağlı Ə. Güney Azərbaycan türklərinin XX yüzildə taleyi. «Düşüncə» jurnalı, Bakı, 1998, № 1.
32. Mişovdağlı Ə. Ərdəbil əyaləti. «21 Azər» jurnalı, 2000, № 4-5.
33. Mirzəzadə S. Milli Məclis (1945-1946). «21 Azər», 2000, № 9.
34. Mustafayev V. Cənubi Azərbaycanda milli şüur (XX əsrin I yarısı). Bakı, 1998.
35. Mustafayev V. Cənubi Azərbaycan məsələsinin öyrənilməsi. Bakı, 2002.
36. Mustafayev V. Nəsibzadə N. İranda Azərbaycan dili, dövlət siyasəti və ona qarşı müqavimət. «Azərbaycan dili xaricdə» (jurnal), 1990.
37. Nəsibzadə N. Bütöv Azərbaycan. Bakı, 1997
38. Rəsuloğlu B. Azərbaycan yolunda (məqalələr toplusu). Bakı, 2001.
39. S.C.Pişəvəri. Milli hərəkatdan qabaq İran Azərbaycanında siyasi partiya və ictimai təşkilatlar». 2000-ci il «21 Azər» jurnalının nəşri.
40. Şəms I. Milli Hökumət. «21 Azər», 2000, № 4-5.
41. Şəms I. Azərbaycan cəmiyyəti. «21 Azər», 1999, № 2.
42. Şəmidə Ə. İranda fəhlə hərəkatı (1941-1946), Bakı, 1961.

43. Tağıyeva Ş. 1920-ci il Təbriz üsyanı. Bakı, 1990.
44. Tağıyeva Ş. 21 Azər dərsləri, «Bonn Atropat» jurnalı, 1993, №1.
45. Tağıyeva Ş. BMT Təhlükəsizlik Şurasında Cənubi Azərbaycan məsələsi. «Araz» jurnalı, Isveç, 1996, № 1.
46. Tağıyeva Ş. Müasir İran tarixşünaslığında Azərbaycan xalqının etnik birliyinin inkar edilməsi (məqalələr toplusu). Bakı, «Elm» nəşriyyatı, 1978.
47. Tağıyeva Ş. (Ə. Rəhimli, S.Bayramzadə ilə birlikdə) Güney Azərbaycan, Bakı, 2000
48. Tağıyeva Ş. 1978-1979-cu illər İran inqilabından sonra Cənubi Azərbaycanda milli hüquqlar uğrunda mübarizə. «Cənubi Azərbaycan tarixi məsələləri» (məqalələr toplusu), Bakı, 1989.
49. Tağıyeva Ş. Sovet-İran siyasi ilişkilərində Cənubi Azərbaycan məsələsi, Ankara, «Yeni forum», 1992, № 272.
50. Tudə Ə. Təbriz filarmoniyası. «21 Azər», 2000, № 9.
51. Vəkilov C. Azərbaycan Respublikası və İran: 40-cı illər. Bakı, 1991.
52. Vilai M. Cənubi Azərbaycanda milli azadlıq uğrunda demokratik mətbuatın mübarizəsi. Bakı, 1963.
53. Vilai M. Milli Hökumətin siyasi, iqtisadi və mədəni reformalarının yerinə yetirilməsində demokratik mətbuatın mubarizəsi. «21 Azər», 2000, № 9.
54. Zənganlı S. Firqənin mühacirət həyatı. «21 Azər», 2000, № 4.

## *DİSSERTASİYALAR*

55. Abdullayev (Vilai) M. İran Azərbaycanında milli azadlıq hərəkatında demokratik mətbuatın rolu (1941-1946) (nam. dis.), Bakı, 1975.
56. Billuri H. İran Azərbaycanında realist demokratik poeziyanın inkişafı (rusca) Moskva, 1969.
57. Çeşmazər M. Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti, Bakı, 197.
58. Cəfərpur I. İran Azərbaycanında realist demokratik poleziyasının inkişafı, Bakı, 1972.
59. Dəvəli-Məmməd Ə. Cənubi Azərbaycanda Milli Hökumətin təşkili və fəaliyyəti (1945-1946) nam. dis. Bakı, 1967.
60. Dəskuşadə F. İran Azərbaycanında milli hökumətin iqtisadi tədbirləri (1945-46) (nam. dis.) Bakı, 1964.
61. Əminzadə Ə. Müasir mərhələdə İXP və ADF milli müstəqillik uğrunda mübarizəsi (rusca) Bakı, 1967.
62. Əmirov S. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990), Bakı, 2003.
63. Hacıyev C.X. Cənubi Azərbaycan ədəbiyyatında milli-azadlıq ideyaları (1906-1946) (dok.dis.), Bakı, 1967.
64. Kəndli-Herisci Q. Cənubi Azərbaycan ədəbiyyatının inkişafı. (1941-1946), Bakı, 1956.
65. Məmmədzadə H. İnqilabçı, jurnalist, yazıçı Pişəvəri, Bakı, 1955.
66. Məmmədov K. Cənubi Azərbaycan xalq demokratik dövlətin yaradılması (1945-1946), 1950, (Moskva-rusca).
67. Mirzəzadə S. İran Azərbaycanının Milli Məclisi və onun qanunvericilik fəaliyyəti (1945-1946) (nam. dis.), Bakı, 1971.

## *RUS DİLİNDƏ*

68. Агаев С.Иран: внешняя политика и проблема независимости 1925-1941 г.г. М.,1971.
69. Алиев С. Антиимпериалистическое и демократическое движения 1949-1953 г.г Иран. М., 1976.
70. Алиев С. Национальному вопросу в современном Иране: «Краткие сообщения института Народов Азии. М., 1977, № 77.
71. Байрамзаде С. Социально-политическая структура общества Иранского Азербайджана (1947-1962 г.г.). Актуальные проблемы стран Ближнего и Среднего Востока. М., 1986 г.
72. Болдырев К. «К вопросу об аграрных отношениях в Иране и в Иранском Азербайджане» – Доклады и Сообщения исторического факультета МГУ. М., 1950, № 9.
73. Белинков С. Что происходит в Иране. М., 1947.
74. Биллури А. Развитие реалистической демократической поэзии в Иранском Азербайджане. Баку, 1972 г.
75. Внешняя политика СССР том I- II- III- ЫВ, Москва.
76. Ибрагимов М. О демократическом движении в Южном Азербайджане в 1945-1946 г.г. Баку, 1948 г.
77. Иванов М. Очерк истории Ирана М., 1952 г.
78. Иванов М. Новейшая истории Ирана. Москва, 1965 г.
79. Иванов М. Иран-Национальные прогрессы в странах Ближнего и Среднего Востока. М., 1970 г.
80. Иранская революция 1978-1979 г.г. Москва, 1989.

81. Мамедов К. Создание южно-азербайджанского народно-демократического государства (1945-1946 г.г.), канд. дисс., М., 1950 г.
82. Меликов О. Установление диктатуры Рза шаха в Иране М., 1961г.
83. Насибзаде Н. «Географический словарь Ирана» как источник для определения национального состава.
84. Поляновския М. Иранский Азербайджан «Красно-армеец». М., 1943, № 1
85. Самедов С. Здравоохранение в Иранском Азербайджане накануне и в период национально-освободительного и демократического движения 1945-1946 г.г. Баку, 1960 г.
86. Сейидов Р. Национальном формирование азербай-джанцев в Иране. Вопросы национально-освободительного движения на Ближнем и Среднем Востоке. Баку, 1985 г.
87. Тагиева Ш. Национально-Освободительное движение в Иранском Азербайджане в 1917-1920 г.г. Баку, 1956 г.
88. Тагиева Ш. Азербайджанцы-активные участники революции 1978-1979 г.г. в Иране. Спец. Бюллетень ИВАН СССР, № 5 (212), Москва, 1980 г.
89. Южного Азербайджана – Доклады АН Аз. ССР. Т.ХЛИ, 1985 г.
90. Шамиде А. Ы. Рабочее и профсоюзное движение в Иране. 1946-1953 г.г. Баку, 1955

### *Türkcə (əski əlifba ilə) və farca mənbə və kitablar*[1]

91. Xiyabani Ş.M. Azərbaycanın demokratik qüvvələri ("Azərbaycan" ruznaməsi), 1340
92. Pişəvəri (Cavadzadə Xalxali). Seçilmiş əsərləri, 1344
93. Pişəvəri S.C. 21 Azər, 1340
94. Coudət C. Tarix-e ferqe-ye demokrat-e Azərbaycan, Tehran, 1339
95. Pişəvəri S.C. Milli hərəkatdan qabaq Azərbaycanda siyasi hezblər və ictimai təşkilatlar ("21 Azər" dərgisi nəşriyyəsi), 2000
96. Azəri Ə. Qiyam-e Xiyabani, Tehran, 1339
97. Ərdəbili (Fələki) L. Fədailər Azərbaycan xalqının 21 Azər nehzətində (1324-1325), 1361
98. Moradi Ə. Əz zendan-e Rezaxan ta sədr-e ferqe-ye demokrat-e Azərbaycan,Tehran, 1381
99. Behnud M. Əz Seyid Ziya ta Bəxtiyar (çap-e həftom), Tehran, 1377
100. Con Furan. Tarix-e təhəvvolat-e ectemai-ye İran (tərcome əz engilisi Əhəd Tədəyyon), Tehran, 1338
101. Əli Əkbər Bina. Tarix-e siyasi və diplomasi-ye İran, Tehran, 1377
102. Afiyət M. Sərdar-e melli Səttarxan, 1347
103. Təbəri Ehsan. Camee-ye İran dər douran-e Reza şah, 1356
104. Abrahamiyan Y.İran beyn-e do enqelab, Tehran, 1377(ingiliscə tərcümədən)
105. Qasemi E. Hezb-e tude-ye İran çe miquyəd və çe mixahəd, 1325
106. Rəzmi Maşallah. Azərbaycan və conbeş-e tərəfdaran-e Şəriətmədari, Stokholm, 2000

[1] Əski əlifbada olan Azərbaycan və fars dilindəki mənbə və kitab adları latın əlifbasında transkripsiya ilə verilmişdir.

107. Sərdariniya Səməd. Azərbaycan pişqam-e camee-ye mədəni, Təbriz, 1377
108. Rəvasani N. Doulət və hokumət dər İran, Tehran, 1373
109. İran dər cəng-e cəhani-ye dovvom, Tehran, 1340
110. Zendedel H. Ostan-e Azərbaycan-e şərqi, 1376
111. Zendedel H. Ostan-e Azərbaycan-e qərbi,1377
112. Zendedel H. Ostan-e Həmədan, Tehran, 1376
113. Zendedel H. Ostan-e Ərdəbil, Tehran, 1377
114. Zendedel H. Ostan-e Qəzvin, 1377
115. Zendedel H. Ostan-e Zəncan, 1377
116. Nəcəfqoli Pesyan. Mərg bud bazgəşt həm bud, Tehran, 1326
117. CAMİ. Gozəşte çerağ-e rah-e ayənde əst, 1352
118.Tarixçe-ye nehzət-e demokrat-e Azərbaycan, R.M., enteşarat-e Babək, 1357
119. Məleki Xəlil. Bohran-e Azərbaycan, Tehran, 1341
120. Zəban-e farsi behtərin vəsile-ye hefz-e vəhdət-e melli-ye mast (məqalələr toplusu), Tehran, 1327
121. Davodi M. Qəvam-os-səltəne, Tehran, celd-e əvvəl, 1326
122. Rezvani Ə. Macəra-ye Azərbaycan əz şəhrivər 1320 ta 1325, nəşriye-ye Ərk, celd-e əvvəl, 1336
123. Kiyanuri M. Siyasət-e Amrika dər İran, tehran, 1327
124. Məcmue-ye notqha, peyğamha və mosahebeha-ye şahənşah-e İran, Tehran, 1340
125. Mühəndis Kərimi M. Elimizin acıyan yarası, Zəncan, 1377
126. Reza Enayətolla. Azərbaycan və Arran, Tehran, 1360
127. Nabdel Əli. Azərbaycan və məsəle-ye melli, Tehran (ilsiz)
128. Noruzvənd C. Cəfər Pişevəri və nəqş-e u dər ferqe-ye demokrat-e Azərbaycan, Tehran, 1327
129. Motəzed X. Dərun-e ərteş-e şah, Tehran, nəşr-e Əlborz, çap-e əvvəl, 1376
130. Xamaçi Behruz. Fərhəng-e coğrafiya-ye Azərbaycan-e şərqi, Tehran, 1370

131. Şirxani Ə.Həmase-ye 29 Bəhmən-e Təbriz, çap-e əvvəl, Tehran, 1378
132. Zahedi M. Sənaye-ye İran bəd əz cəng, 1324
133. Daneşvər N. Tarix-e diplomasi-ye İran-e 1320-1325, Tehran, 1351
134. Kozli (Közlü) Mehdi. Azərbaycan dər doure-ye diktatori-ye Reza şah, nəşriye-ye Şəms, Təbriz, 1379
135. Pesyan M. və Xosrəvi M. Dər əsr-e do Pəhləvi, 1380

***Sənədlər***

136. "12 Şəhrivər", Təbriz, 1324
137. "Qızıl səhifələr", Təbriz, 1325
138. "Sənədlər məcmuəsi (1324-1325)", "Azərbaycan" ruznaməsi, 1324
139. "21 Azər nehzəti(1324-1325) barəsində tezislər", 1349
140. Azərbaycan Demokrat Firqəsinin Məramnamə və Nizamnaməsi, Təbriz, 1324
141. "Firqə yaddaşları (blaknotu), 1336
142. Azadlıq yolunun mübarizləri, 1 və 2-ci cildlər, 1341, 1348
143. Azərbaycan Demokrat Firqəsinin ikinci plenumunun materialları, "Azərbaycan" ruznaməsi, 2 azər 1324
144. "Dəvazdəh-e şəhrivər-e 1324", Təbriz, 1357
145. 21 Azər (1324-1325) nehzəti İran milli-demokratik hərəkatı tarixində parlaq səhifədir (məqalələr toplusu), "Azərbaycan" ruznaməsinin nəşriyyəsi, 1355
146. "21 Azər dəftəri", 1381
147- "Məramname-ye cəbhe-ye azadi", Tehran, 1324
148. "Bərname və Əsasname-ye hezb-e tude-ye İran", Tehran, 1324
149. "Azərbaycan kargər və zəhmətkeşlər ittihadiyyələrinin Mərkəzi Şurasının Məramnamə və Nizamnaməsi", 1324
150. Mətn-e moqavelename-ye miyan-e kargəran və karfərmayan, Təbriz (zəmime-ye ruzname-ye "Zəfər"), 1324

151. "Surət-e cələsat-e məcles" (Məcles-e çəhardəhom), tehran, 1324
152. "Əsnad-e vəzarət-e xarece-ye İran", 1326, 1327, 1328
153. "Xosrov Ruzbeh hərbi məhkəmədə", 1341
154. Dövlət və Azərbaycan nümayəndələri arasında müvafiqət olmuş qərardad", Sənədlər məcmuəsi, 1359
155. "Fərhəng-e coğrafiya-ye İran (ostan 3-4)", Tehran, 1324
156. "Sərşomari-ye omumi-ye nofus və məskən-e 1355" (ostan-e Azərbaycan-e şərqi və qərbi), Tehran, 1359
157. "Salname-ye fərhəng-e Azərbaycan-e şərqi", Təbriz, 1340
158. "Salname-ye amar-e keşvər dər sal-e 1375", Tehran, 1380
159. Amar-e keşavərzi-ye İran dər salha-ye 1324-1326, Tehran, 1330
160. "Şairlər məclisi" (şeirlər və məqalələr toplusu), Təbriz, 1325
161. Ettelaat dər bare-ye Azərbaycan ("İran-e ma", 17 azər 1324)

### *Xatirələr*

162. Pişəvəri S.C.Zindan xatirələri (Seçilmiş əsərləri), "Azərbaycan" ruznaməsi nəşiyysi, 1344
163. Cavid Salamulla.Milli nehzət dövründən xatirələrim, Tehran, 1358
164. Cavid Salamulla. Tağuti dövründən xatirələrim, Tehran, 1359
164a. General Qulam Yəhya (1906-2006). Xatirələrim, Azərbaycan Demokrat Firqəsinin nəşri, Bakı, 2006
165. Qəlb yarası (Xatirələr toplusu), Bakı, 2000
166. Cəhanşahlu Nosrətolla. Sərqozəşt-e ma və biqaneqan (doktor Cəhanşahlu-ye Əfşar), Tehran, 1380
167. Cəhanşahlu Nosrətolla. Ma və biqaneqan (doktor Cəhanşahlu-ye Əfşar), Tehran, 1380
168. Dehqan M.L. 10 il Qəsri Qacar zindanında, Bakı, 1988 (kiril əlifbası ilə)

169. Şəmide Ə. Xaterat-e zendan, 1359
170. Nəmini Ə. Mühacirət xatirələri, Bakı, 1993 (kiril əlifbası ilə)
171. Haşimi Ə. Mübarizədə keçən ömür, 2002 (latın əlifbası ilə)
172. Xaterat-e sərtip-e Derəxşi, N-Y, 1380
173. Fərdust Hoseyn. Zohur və soqut-e səltənət-e Pəhləvi, Tehran, 1370
174. Nokati əz xaterat-e Qəvam, Tehran, "Xandəniha", 23 mehr 1333
175. Mostofi Ə. Muyeha-ye qəribane (Xaterat-e qəribane), Tehran, 1380
176. Cadniku Ə. Unudulmaz tarixi günlər, "Azərbaycan əncüməni", ilsiz
177. Xaterat-e Ənvər Xamei, "Pəncah-o-se nəfər", ilsiz
178. Mollazade Həmid. Seyri dər kuçeha-ye xaterat, 1373
179. Kiyanuri. Porseş və pasox, Tehran, 1358
180. Keşavərzi K. Cəfər Pişevəri (Xaterat), Boxara, 1378
181. Cəfəriyan R. Bohran-e Azərbaycan-e salha-ye 1324-1325 (Xaterat-e Ayətulla Mirza Abdolla Moctəhedi), Tehran, 1381
182. Zəngəne Ə. Xaterati əz məmuriyyətha-ye mən dər Azərbaycan (əz şəhrivər 1320 ta 1325), Tehran, 1378
183. Xaterat-e siyasi-ye Saed Mərağei, Tehran, 1372
184. Həqqi Behruz. Səfərxan Azərbaycan Milli Hökumətinin fədaisi, 2002
185. Xaterat-e Səfərxan (Qoftequ ba Əli Əşrəf Dərvişiyan), Tehran, 1381
186. Moctəhedi Ə. Bohran-e Azərbaycan (1324-1325), Tehran, 1381
187. Sübhani G. Ötən günlərim (Azərbaycan əncüməni", birinci dəftər, 1360

*Qəzetlər (müxtəlif nömrələr)*

188. “Azərbaycan”
189. “Azad millət”
190. “Qələbə”
191. “Xavər-e nou” (1946-cı ilin əvvəlindən “Yeni Şərq”)
192. “Azərbaycan ulduzu”
193. “Cövdət” (Ərdəbil)
194. “Yumruq” (Ərdəbil)
195. “Azər” (Zəncan)
196. “Urmiye” (Urmiya)
197. “Günəş”
198. “Ajir”
199. “Rəhbər”
200. “Zəfər”
201. “Mühacir”
202. “Mərdom”
203. “Vətən yolunda”
204. “Dad”
205. “Be su-ye ayənde”
206. “Mozəffər”
207. “”Ettelaat”
208. “Keyhan”
209. “İran”
210. “İran-e ma”
211. “Səda-ye Urmiye”
212. “Səda-ye mərdom”
213. “21 Azər”
214. “Ana dili”
215. “Şəms-e Təbriz”
216. “Nəvid-e Azərbaycan”
217. “Ayənde”
218. “Vəravi”

219. “Əxtər”
220. “Həmşəhri”

***Dərgilər (müxtəlif nömrələr)***

221. “Azərbaycan”
222-“Vətən”
223. “Şəfəq”
224. “Ədəbiyyat səhifəsi”
225. “Səhər” (“Azərbaycan” ruznaməsinin nəşriyyəsi)
226. “Azərbaycan əncüməni”
227. “21Azər” (latın əlifbası ilə)
228. “Dədə Qorqud”
229. “Varlıq”
230. “Azərbaycan” (Almaniya)
231. “Tribun”
232. “Azərbaycan səsi”
233. “İnqilab yolunda”
234. “Yoldaş”
235. “Donya”
236. “Öyrənci”
237. “Səhər” (Təbriz)
238. “Şəfəq”
240. “Xəzər”
241. “Araz”
242. “Çağrı”
243. “İldırım”
244. “Savalan”
245. “Qurtuluş”
246. “İnam”
247. “Ərdəm”
248. “Səs”

249. "Səhənd"
250. "Dan ulduzu"
251. "Birlik"
252. "Bayquş"
253. "Nəsim"
254. "Heydər babaya salam"
255. "Çiçək"
256. "Yurd"
257. "İşıq"
258. "Ettelat-e siyasi-eqtesadi"
259. "Xandəniha"
260. "Ettelaat-e həftegi"
261. "Yol" (həftename)
262. "Baxış"
263. Məleki Xəlil. Hezb-e tude çe miquyəd və çe mikərd, Tehran, 1330
264. "Sazeman-e bərname", Tehran, 1340
265. Biriya Məhəmməd. Ürək sözləri, Bakı, 1945 (kiril əlifbası ilə)
266. Bəyani Babaxan. Qaele-ye Azərbaycan, Tehran, 1326

# MÜNDƏRİCAT

Ön söz ....................................................................................4
Güney Azərbaycan XX əsrin 40-cı illərində:
Güney Azərbaycan İkinci Dünya müharibəsinin başlanması və
Güney Azərbaycan ......................................................................14
40-cı illərin əvvəllərində Güney Azərbaycanda sosial-siyasi və
iqtisadi durum ...........................................................................22
ADF-nin yaranması ərəfəsində ölkədə sosial-iqtisadi vəziyyət.....46
Azərbaycan Demokratik firqəsinin yaranması ..........................51
Ümumazərbaycan Xalq Konqresi ..............................................68
Azərbaycan Milli Məclisi (AMM)..............................................73
Azərbaycan Milli Hökuməti (AMH) və onun fəaliyyəti ...........78
Demokratik islahatlar.................................................................84
İqtisadiyyat və quruculuq sahəsində islahatlar ..........................85
Güney Azərbaycan üzrə Tehran-Moskva sövdələşməsi .........106
Tehran-Təbriz danışıqları, Milli Hökumətin süqutunun
əlamətləri ................................................................................123
Tehran-Təbriz danışıqlarının birinci mərhələsi .......................127
Tehran-Təbriz danışıqları, 13 iyun qərardadı ..........................135
Tehran-Təbriz danışıqlarının son mərhələsi ............................142
Azərbaycana hərbi yürüşün başlanması və Milli Hökumətin
süqutu.......................................................................................146

Nəticə əvəzi....................................................................172
1945-1946-cı illərdə Güney Azərbaycandakı xalq hərəkatı ilə bağlı sənədlər ..............................................................178
Güney Azərbaycandakı xalq hərəkatı (1941-1946) haqda rəylərdən ..............................................................209
Olayların xronologiyası ..........................................................215
Mövzuya aid ədəbiyyat və mənbələr ........................................222

**Əkrəm Rəhimli (Bije)**

# 21 Azərə gedən yol

*Güney Azərbaycanda milli-demokratik hərəkat*
*(1941-1946-cı illər)*

Çapa imzalanmışdır: 17.11.2015
Kağız formatı: 60x84 1/16
Həcmi: 14,75 ç.v.; Sifariş:132
Sayı:200

---

Kitab "Araz" nəşriyyatının
mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

**Ünvan:** *Bakı, Mətbuat pros. 529-cu məhəllə*
**Tel:** (012) 432-34-82